Piter Tounsend “Birləşmiş Krallıqda yoxsulluq” əsərində yoxsulluğu mövcud cəmiyyət üçün xarakterik olan normal davranış və imkanlar nöqteyi nəzərindən təyin edir. Tounsend yoxsulluğun mahiyyətini belə açıqlayır: “Fərd və ailələrin yaşayış şəraitləri, qidalanma üçün imkanları olmadıqda, onlar malik olduqları cəmiyyətlərdə əksər əhalinin yaşadığı kimi yaşaya bilmədikdə onda bu fərd və ailənin yoxsulluqda yaşadığını söyləmək olar” (4; 31).

Yoxsulluq nisbi anlayışdır. Hər hansı bir şəxsin yoxsul olub-olmamasının müəyyənləşdirilməsi zamanı həmin insanın düşüncələri də vacibdir. Belə ki, hər hansı bir şəxsi maddi vəziyyətinə görə yoxsullar sırasına aid etmək mümkün olsa da, digər göstəricilərə görə bu insanın yoxsul olmasını söyləmək çətinlik törədə bilər. Digər insan isə pula sahib olsa da, sağlamlığa və ali savada sahib olmaya bilər. Bu baxımdan yoxsulluğa nəzər saldıqda onun daha geniş mahiyyət kəsb etdiyi ortaya çıxır.

Ümumiyyətlə, 20-ci əsrin 90-cı illərindən etibarən yoxsulluq və onun azaldılması dünyada ümumbəşəri bir problemə çevrilməklə, cəmiyyəti daha çox narahat etməyə başlamışdır. Ona görə ki, dünyanın bir çox ölkələrində yoxsulluq həddinin yüksək olması müəyyən yoluxucu xəstəliklərin və cəmiyyətin inkişvfına maneə olan digər halların yaranmasına səbəb olur. Bu səbəbdən də inkişaf etmiş dünya dövlətləri 1992-ci ildə Rio-de-Janeyro şəhərində ətraf mühit və inkişaf üzrə keçirilən ümumdünya Sammitində yoxsulluğun azaldılması probleminə xüsusi

diqqətlə yanaşaraq onu davamlı iqtisadi inkişafın həlledici amili və əsas məqsədi hesab etmişlər. Rio-dan sonra 1995-ci ildə BMT-nin sosial-iqtisadi inkişafa həsr olunmuş Kopenhagen Zirvə toplantısında, yoxsulluq, işsizlik və s. bu kimi sosial bəlaların aradan qaldırılması problemləri geniş müzakirə edilmişdir. İlk dəfə olaraq Kopenhagen konfransı yoxsulluqla mübarizəni dünya dövlətləri qarşısında duran mühüm problemlərdən biri olduğunu elan etmiş və davamlı iqtiadi inkişafa nail olmaq üçün yoxsulluqla mübarizənin yeni yollarını təklif etmişdir. Eyni zamanda, yoxsulluqla mübarizə tədricən bütün dünyanı narahat edən qlobal problemə çevrildi. Artıq "2000-ci ilin sentyabr ayında Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının təşəbbüsü ilə 183 millətin və 147 dövlətin nümayəndələrinin iştirak etdiyi Minilliyin Sammiti keçirildi. Sammitdə bütün dünyada yoxsulluğun azaldılması və insan inkişafının təmin edilməsi üçün səylərin birləşdirilməsi məqsədilə Minilliyin Bəyannaməsi qəbul edildi. Buna müvafiq olaraq Minilliyin İnkişaf Məqsədləri müəyyənləşdirildi. Bütövlükdə MİM çərçivəsinə 8 məqsəd, 18 hədəf, 48 göstərici daxildir və hədəflərin əksəriyyəti 1990-cı ildən 2015-ci ilə qədər 25 ildən artıq müddəti əhatə edir" (5; 1).

Qeyd edək ki, Minilliyin Bəyannaməsinin əsas məqsədi 2015-ci ilədək insanların həyat şəraitinin yaxşılaşdırılmasıdır.

Bütün dünyada yoxsulların sayını azaltmaq üçün MİM-də aşağıdakı məqsədlər müəyyən edilmişdir.

1. İfrat yoxsulluğu və aclığı aradan qaldırmaq;
2. Ümumi ibtidai təhsilə nail olmaq;
3. Gender bərabərliyini inkişaf etdirmək və qadınların hüquqlarını genişləndirmək;
4. Uşaq ölümü hallarını azaltmaq;
5. Anaların sağlamlığını qorumaq;
6. İİÇV/QİÇS, malyariya və digər xəstəliklərə qarşı mübarizə aparmaq;
7. Ətraf mühitin qorunmasını təmin etmək;
8. Qlobal tərəfdaşlığı təmin etmək.

Bu problemləri həll etmək üçün hazırda dünyanın 70-ə yaxın ölkəsində yoxsulluğun azaldılması üzrə strategiyanın hazırlanması və həyata keçirilməsi prosesi gedir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, yoxsulluğun azaldılmasında makroiqtisadi sabitliyin əldə olunması və bazar prinsiplərinə əsaslanan iqtisadiyyatın formalaşmasına yönəlmiş islahatların həyata keçirilməsi həlledici rol oynayır.

Hazırda dünyada 6 milyarddan çox əhali yaşayır. Dünya əhalisinin 1,2 milyard nəfərinin və yaxud 20 faizinin gündəlik gəliri 1 dollardan aşağıdır. Bu, o deməkdir ki, dünyada əhalinin 20 faizi ifrat yoxsulluq həddində yaşayır.

Əhalinin 3 milyard nəfərinin və ya yarısının isə gündəlik gəliri 2 dollardan aşağıdır. Göründüyü kimi, dünya əhalisi arasında gəlirlərin səviyyəsinə görə qütbləşmə çox qabarıq şəkildə nəzərə çarpır. Belə bir qütbləşmə və təbəqələşmə ÜDM-un dünya üzrə istehsalında da nəzərə çarpır. Dünya üzrə gəlirlərin qeyri-bərabər bölgüsünü də məhz bu amil şərtləndirir. Məlum olduğu kimi, dünya üzrə istehsal olunan ÜDM-in həcmi təxminən 30 trilyon dollar təşkil edir və bunun da 80 faizi və ya 24 trilyon dolları dünya əhalisinin təxminən 20 faizini özündə birləşdirən inkişaf etmiş ölkələrin payına düşür. Dünyanın yerdə qalan 80 faizi isə dünya üzrə ÜDM-in cəmi 20 faizini istehsal edir. Başqa sözlə, sayı 6 milyardı keçən dünya əhalisinin 4,8 milyardı dünyada yaradılan 30 trilyon dollar məbləğində əlavə dəyərin yalınz 6 trilyon dollarına malikdir. Dünya üzrə belə bir qütbləşməni həm də hər bir ölkə daxilindəki

təbəqələşmə də dərinləşdirir. Belə ki, əksər ölkələrdə əhalinin ən varlı 20 faizi ölkə üzrə gəlirlərin yarısına malik olduğu halda, əhalinin ən kasıb 20 faizi gəlirlərin cəmi 5 faizinə sahibdir. Ümumiyyətlə, dünya üzrə gəlirlərin qeyri-bərabər bölgüsü onunla nəticələnib ki, hazırda dünyanın 20 ən böyük və zəngin ölkəsinin ümumi gəliri 20 ən kasıb ölkənin gəlirindən 37 dəfə çoxdur. Hazırda dünya ölkələrinin böyük əksəriyyti Amerikadan, Avropadan və Şərqi Asiyadan asılı vəziyyətdədir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının üzvü olan ölkələrdə əhalinin adambaşına düşən illik gəliri 30000 dollara çatdığı halda, dünya əhalisinin 85 faizinin illik gəliri 3000 dollar təşkil etmir. Bununla da, inkişaf etmiş sənaye ölkələri ilə zəif inkişaf etmiş ölkələr arasında differensasiya dərinləşir. Son 15 ildə adambaşına düşən gəlir 100-dən çox ölkədə, adambaşına istehlak isə 60-dan çox ölkədə azalıb. İnkişaf etməkdə olan ölkələrdə yaşayan 4,4 milyard nəfər əhalinin 5\3 hissəsi normal sanitariya şəraitinə, 4\1-i normal mənzil şəraitinə, 3\1-i içməli su ilə normal təchizata, 5\1 normal qidalanma səviyyəsinə malik deyil. Zəif inkişaf etmiş ölkələrin əhalisinin 3\1-i 40 ildən çox ömür sürmürlər. Dünya Bankının məlumatlarına əsasən, 90-cı illərin axırlarında baş vermiş iqtisadi böhran bu prosesi daha da sürətləndirmişdir. Məhz bu məqsədlə, BMT İnkişaf Proqramının yoxsulluğu aradan qaldırmaq üzrə proqramları inkişaf etməkdə olan ölkələrə yardım göstərməyə, bərabər artım və iqtisadi inkişaf əldə etməyə dair strategiyaların işlənib hazırlanması üçün bacarıqların gücləndirilməsinə yönəldilmişdir. İqtisadi siyasətin təhlil, xərclərin dəyərləndirilməsi və institusional imkanların genişləndirilməsi üzrə yardım kimi xidmətlər vasitəsilə BMT-nin İnkişaf Proqramı qarşıya qoyulmuş məqsədlərə və mövcud resurslara müvafiq olaraq, ölkələrə milli və xüsusi planları həyata keçirməkdə kömək edir. Müntəzəm yardımı həyata keçirmək üçün BMT-nin İnkişaf Proqramı sosial və iqtisadi bərabərsizliyin, xüsusilə də qadın hüquqlarının pozulmasının uzun müddətli səbəblərinə dair məsələlərin təyin və həll edilməsi işində hökumətlərlə sıx əməkdaşlıq edir.İnkişaf həllərinin hazırlanmasında geniş iştirakın təmin olunması göstərilən prosesə vətəndaş cəmiyyəti və xüsusi sektor nümayəndələrini cəlb etməyə imkan verir. BMT İnkişaf Proqramının yoxsulluğun aradan qaldırılmasına dair təyin edilmiş bəzi fəaliyyət sferaları yeni iş yerlərinin açılması üzrə tədbirləri, geniş miqyasda maliyyə əməliyyatlarının mövcudluğunu və müasir texnologiyalara keçidin təmin edilməsini əhatə edir. BMT-nin İnkişaf Proqramı həmçinin regional və dünya səviyyəsində iqtisadi inteqrasiyaya dair bacarıqların artırılmasında, məsələn, ticarət şərtlərinin müzakirə olunması və inkişafın maliyyələşdirilməsinin idarə edilməsi üçün daha güclü imkanların inkişaf etdirilməsi vasitəsilə ölkələrə kömək edir.

Məsələn, BMT-nin İnkişaf Proqramı Lesotoda dövlət məmurlarını və vətəndaş cəmiyyəti nümayəndələrini yoxsulluğun aradan qaldırılması üzrə milli strategiyaların işlənib hazırlanması, o cümlədən qadınların hüquq və səlahiyyətlərinin inteqrasiyası ilə əlaqədar müzakirələr ətrafında birləşdirən konsultasiyaların milli prosesini dəstəkləmişdir. Hal-hazırda strategiyaya qadınların QİÇS kimi xəstəliklərə qarşı zəifliyinin aradan qaldırılması və təhsil sahəsində gender bərabərsizliyinin ləğv olunmasına dair tədbirlər daxil edilmişdir. Malavidə tez-tez yağan yağışlar, vaxtaşırı təkrarlanan və eləcə də qlobal istiləşmə ilə müşayiət olunan quraqlıq və daşqınlar kimi faktorlar nəticəsində torpaqların məhsuldarlığının aşağı düşməsi yüksək dərəcəli yoxsulluğa gətirib çıxarır. Bütün bunlar həmçinin ərzaq mallarını təhlükəyə məruz qoyur və daimi aclığın artmasına gətirib çıxarır. 2005-ci ildə hökumət həyat şəraitini və qida qəbulunu yaxşılaşdırmaq üçün kiçik təsərrüfatlara vəsaitlər vermək məqsədilə əkin işləri və gübrələnməyə maliyyə yardımlarının artırılmasını nəzərdə tutan bir proqram təklif etmişdir. BMT-nin İnkişaf Proqramı

hökumətə inkişaf sahəsində digər beynəlxalq təşkilatlarla birgə işləməkdə kömək edib. Bununla belə, əlavə resursların səfərbər edilməsi və bu plan ilə əlaqədar fermerlər üçün milli ictimai maarifçilik kampaniyasının keçirilməsində göstərilən Proqramın rolu danılmazdır. 2006-2007-ci illərdə Proqramın reallaşdırılması qonşu ölkələrin defisit ilə üzləşməsinə baxmayaraq, Malaviyə qarğıdalı məhsulunun ən yüksək səviyyəsini əldə etməyə kömək etdi. 2006-cı ildə Şərqi Avropa və MDB ölkələri üzrə regional təşəbbüs keçid dövrünün uğurlu iqtisadi strategiyalar haqqında bilikləri ilə bölüşməkdə bu ölkələrə kömək etdir. BMT-nin İnkişaf Proqramı Gürcüstanda hökumətə iqtisadi artımı və biznesin inkişafını yeni iş yerlərinin açılması ilə birləşdirən siyasət işləyib hazırlamağa imkan verən bir proqram həyata keçirtdi. BMT-nin İnkişaf Proqramı həmçinin statistika şöbəsinə bu sektorun xalq təsərrüfatının ümumi planlaşdırılmasına inteqrasiya etməsinə imkan yaradan tədbirlər kimi qeyri-rəsmi iqtisadiyyatın ölçülməsi üçün bacarıqların işlənib hazırlanmasına köməklik göstərmişdir. Təhsil Nazirliyi ilə tərəfdaşlıq peşəkar təhsilin xüsusi sektorun ehtiyacları ilə birləşdirilməsinə yönəldi. Digər növ yardımlar dövlət idarəçiliyində islahatların aparılması, idarəçiliyin yenilənməsi, rüşvətxorluq ilə mübarizə və ictimaiyyət ilə əlaqələrin yaxşılaşdırılmasına kömək etdi. Bir çox ölkələrdə aşkar olunan siyasi və iqtisadi desentralizasiyaya kömək etmək üçün BMT-nin İnkişaf Proqramı həmçinin bilavasitə iqtisadi inkişaf strategiyalarının göstərilən nailiyyətlərlə tətbiq edilməsi məqsədilə milli regionlar və yerli icmaların hüdudları çərçivəsində fəaliyyət göstərir. Tacikistanda BMT-nin İnkişaf Proqramı neçə onillik ərzində 100 kənd bələdiyyəsində mikromaliyyələşdirmə fondlarının təmin edilməsi üzərində işləmişdir. Bu, Sovet İttifaqının süqutu və Tacikistanda vətəndaş müharibəsinin fəlakətli sosial və iqtisadi nəticələrindən sonra özlərini və öz ailələrini təmin etməkdə insanlara kömək etdi. Demək olar ki, 80 min ailə qaramal yetişdirmək, tərəvəz becərmək və tikiş sexləri açmaq üçün kreditlərdən istifadə edərək, yoxsulluqdan çıxa bildi. Mikromaliyyələşdirmə fondları cəmiyyətin inkişafının içməli su sistemi, məktəb və xəstəxanaların yenidən qurulması kimi əsas prioritetlərinin həyata keçirilməsini təmin etmişdir. Analoji layihə qonşu Qırğızıstanda həyata keçirilmişdir ki, bu da ümumi qənaətlərini birləşdirən və kredit verən təqribən 2000 yerli yardım qruplarının formalaşdırılmasına gətirib çıxartdı. BMT-nin İnkişaf Proqramı dinamik iqtisadiyyata nail olmaq üçün lazımi vasitə kimi xüsusi sektorun inkişaf etdirilməsi məqsədilə öz razılaşdırılmış fəaliyyətini davam etdirir.

Yoxsulluğun təyin olunması üçün müəyyən dövlətlər fərdi yanaşmadan istifadə edirlər. Bəzi ölkələrdə yoxsulluğun ölçülməsinə dair istifadə olunan yanaşma üsullarını nəzərdən keçirdək.

ABŞ-da yoxsulluğun dövrü olaraq ölçülməsinə 1960-cı illərin ortalarından başlamışlar. Bu sahədə irəli sürülmüş ilkin fikirlər Moli Orşanskiyə məxsusdur (6; 38). O, ilkin olaraq ABŞ-da yoxsulluq həddinin hesablanması üçün düstur hazırlayıb tətbiq etmişdir. O, ABŞ-ın Kənd Təsərrüfatının məlumatlarına istinad edərək orta amerikalı ailəsinin ərzağa xərclədiyi pulun miqdarını hesablamışdır. 1955-ci ildə vergiləri çıxdıqdan sonra amerikalıların gəlirlərinin 1/3-i ərzaq məhsullarına xərclənirdi. Bu fakt Orşanskini belə bir fikrə gətirir ki, ərzağa xərclənən gəlirləri 3-ə vurmaqla alınmış məbləğ ailə üzvlərinin əsas tələbatlarını ödənmiş olacaq. Bununla da, yoxsulluq həddinin hesablanması düsturu meydana gəldi.

İlkin mərhələdə həqiqətən də amerikalılar gəlirlərinin 1/3-ni ərzaq məhsullarına xərcləyəndə bu düstur səhvsiz, çox gözəl işləyirdi. Ehtiyacları olan ailələr həqiqətən də lazımi ehtiyaclarını ödəməkdən ötrü lazım olan yardımı alırdılar. ABŞ iqtisadiyyatı çox sürətlə inkişaf edirdi. Kənd təsərrüfatında, ərzaq istehsalı sənayesində yeni texnologiyanın tətbiq

olunması ona gətirdi ki, amerikalıların ərzağa xərclədiyi məbləğ 1970, 1980 və 1990-cı illərdə dəyişərək 1/4-dən 1/5-ə və nəhayət, onların aylıq əmək haqqının 1/6-nə qədər azaldı. Orşanskinin məntiqinə əsasən ərzağa xərclənən hissəni 6-ya vurmaq lazım idi. Amerika hökuməti isə bunu etməyərək köhnə qayda ilə 3-ə vurmaqla kifayətlənirdi.

50-ci illərin sonundan etibarən ABŞ-ın Əhalinin Siyahıya Alınma Bürosu ölkə əhalisinin müxtəlif kateqoriyaları üçün yoxsulluq həddini hesablayır. Bu məlumatın rəsmiləşdirilməsindən sonra Səhiyyə Nazirliyi yoxsulluq həddinə əsaslanan özünün "Yoxsulluq üzrə təlim dərsliyi"ni hazırlayır. Bu kitab ehtiyacı olan əhaliyə yardım etməklə məşğul olan bütün hökumət orqanlarına gödərilir. Bu kitab hökumət işçiləri tərəfindən yardımların yönəldilməsi zamanı istifadə olunur.

Hal-hazırda əvvəldə istifadə olunan üsul köhnəlmişdir. ABŞ əhalisi gəlirlərin əksər hissəsini kommunal xərclərə, icarə xərclərinə və vergiyə xərcləyirlər. Ona görə də, hal-hazırda Əhalinin Siyahıya Alınma Bürosu yoxsulluq həddinin təyin olunması üçün yeni düstur işləyib hazırlamışdır.

Bundan əlavə, ABŞ-da yoxsulluqla mübarizə üzrə xüsusi proqramlar fəaliyyət göstərir. Onlardan "Medikeyd" və AFDS (asılı uşaqlı ailələrə yardım) proşramları əsas rol oynayır. "Medikeyd" proqramının xərclərində federal büdcənin payı 50-83% çivarında dəyişir, bu halda qrantın ölçüsü, ştat əhalisinin şəxsi gəliri həcminin ölkə üzrə həmin göstəricinin orta qiymətinə nisbəti kimi hesablanmış ştatın vergi potensialı indeksinə tərs mütənasibdir.

Yoxsul ailələrdən olan uşaqların təhsil almasına yardıma gəldikdə, Amerikada bir neçə proqram mövcuddur ki, belə xərclərin müəyyən dərəcədə azaldılmasına imkan verir. Misal üçün, "Xedstart" proqramı gəliri yoxsulluq həddindən aşağı ailələrdəki məktəbəqədər yaşlı uşaqlar üçün nəzərdə tutulmuşdur. Bu proqramda həmçinin tibbi xidmətlərin, qidalanmanın təqdimatı və s. nəzərdə tutulmuşdur.

Proqramın əsas yardım obyektləri-hindu rezervasiyaları, mühacir ailələridir.

Qərbi Avropadan fərqli olaraq, ABŞ-da aztəminatlı ailələrin dəstəklənməsində yoxsullara pulsuz yardım növlərinin əhəmiyyətli rolu var.

Yoxsullara ərzaq talonları vasitəsilə yardım daha geniş yayılmışdır. Ehtiyacı olan, bir qayda olaraq, ictimai yardım təşkilatının yerli ofisinə ərzaq talonlarının verilməsi barədə ərizə ilə müraciət edirlər. 30 gün ərzində qərar qəbul edilir. Yardımın bu növünə iddia edən şəxs gəlir səviyyəsi, mükiyyət həcmi və s. səbəblərə görə belə yardımı almaq hüququna malik olarsa, ona yaşayış yerində mağazada istifadə edilə bilən ərzaq kartları verilir.

Son illər Amerikada yardım alanlarda əmək fəaliyyətinə stimulların gücləndirilməsi, qismən məcburi tədris, ictimai layihələrdə iştirak, gənclərin, əlillərin, yaşlıların işə qəbul edilməsinə, sahibkarların həvəsləndirilməsi kimi komponentlərin yardım proqramına daxil edilməsi meyillərini aydın şəkildə izləmək olar.

Yoxsulluq problemini ənənəvi üsullarla (həddi-buluğa çatmamış uşaqlı ailələrə müvəqqəti pullu yardım tipli sosial yenidən bölüşdürmə proqramları, fövqəladə birdəfəlik yardım, vergi gəlirinin subsidiyalaşdırılması və s. hesabına) həll etmək cəhdləri, amerikalı mütəxəssislərin fikrincə, həm çırf maliyyə cəhətdən, həm də sosial cəhətdən səmərəsizdir.

ABŞ-da dərin yoxsulluq göstəricisi kimi, rəsmi yoxsulluq həddinin 75%-dən aşağı olan gəlir səviyyəsi geniş şəkildə istifadə olunur.

Kanadada, əhalinin minimal gəlirinin zəmanətləndirilməsi barədə avropasayağı siyasət aparan bir dövlətdə, ABŞ-dan fərqli olaraq, rəsmi yoxsulluq həddi mövcud deyil. Lakin gəlir səviyyəsi aşağı

olan əhalinin sayının müəyyənləşdirilməsi üçün, ölkənin statistik orqanları qeyri-rəsmi yoxsulluq həddini hesablayırlar (7).

Yoxsulluğun dəf edilməsi və gəlir hüquqlarının təminatı-bu məqsədləri aparıcı qərb ölkələri hökumətlərinin hamısı bəyan edirlər. XX-ci əsrin 60-cı illərindən başlayaraq, bir çox inkişaf etmiş ölkələr minimal gəlirə zəmanət verən müxtəlif qanunvericilik aktları qəbul etmişlər (Almaniya, Niderland, Böyük Britaniya, Lüksemburq, Fransa). Bu zaman məşğul olmayan əhaliyə dövlət maddi yardımı, yalnız buna ehtiyac sübut olunduqda təqdim edirdi. Digər Avropa ölkələrində və ABŞ-da zəmanətli minimal gəlir yalnız qocalara və əlillərə təyin olunur. Zəmanətli minimal gəlir, bir qayda olaraq, ilkin zərurətli əmtəə və xidmətlər "səbət"inin dəyəri əsasında, ya da ki, qanunla müəyyən edilmiş minimal əmək haqqına müvafiq həcmdə təsbit edilir.

Niderlandda və İtaliyada minimal gəlir minimal əmək haqqının müəyyən faizi miqdarında, Fransada-orta əmək haqqının müəyyən hissəsi qədər hesablanır. ABŞ-da qocaları və əmək qabiliyyətindən məhrum əlilləri əhatə edən zəmanətli gəlir proqramı çərçivəsində federal hökumət və ştatlar tərəfindən ödənilən minimal gəlir yoxsulluq həddi səviyyəsinin təxminən 60%-ni təşkil edir (8).

Çində tətbiq olunan yoxsulluqla mübarizə üsulları da diqqətəlayiqdir. Bu üsullar, o cümlədən, məşğulluğun genişlənməsinə və əhalinin yoxsul təbəqələrinin gəlirlərinin artmasına yönəlmişdir. Bunlar, ilk növbədə, infrastruktur quruculuğu və inkişaf məqsədli layihələrin reallaşdırılmasına əsaslanır. Bundan başqa, əhalinin yoxsul təbəqələrinə təklif olunur ki, daha varlı rayonlarda iş yerləri axtarsınlar.

Yer kürəsi əhalisinin təqribən yarısını özündə birləşdirən yoxsul insanların bir qismi də qloballaşan dünyanın bir hissəsi olan Azərbaycan Respublikasının payına düşür. SSRİ dövründə də yoxsulluğun səviyyəsi kifayət qədər yüksək olan Azərbaycan dotasiya almayan respublika olmasına baxmayaraq, əhalinin maddi rifah halının səviyyəsinə görə Sovet İttifaqında 10-cu yeri tuturdu. Respublikamız müstəqillik əldə etdikdən sonra mövcud təsərrüfat əlaqələrinin qırılması, inflyasiya, Ermənistan-Azərbaycan münaqişəsi, qaçqın və məcburi köçkünlər probleminin yaranması yoxsulluğun daha da yüksəlməsinə öz təsrini göstərmişdir (9; 185). Təbii ki, zəngin yeraltı və yerüstü sərvətlərə malik olan Azərbaycanda belə vəziyyət uzun sürə bilməzdi və bütün bunlar təxirəsalınmadan geniş miqyaslı sosial-iqtisadi islahatlara başlanmasını zərurətə çevirmişdir. Məhz bu səbəbdəndir ki, 1994-cü ildən başlayaraq, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda əsas məqsədi ölkədə yoxsulluğun azaldılması və davamlı inkişafın təmin edilməsi olan çoxşaxəli islahatlar həyata keçirilməyə başlandı. Azərbaycan Respublikasında yoxsulluğun azaldılması istiqamətində Dövlət Proqramı hələ 2001-ci ildə hazırlanmışdır. 2003-2005-ci illəri əhatə edən proqramda Azərbaycan Respublikasında yoxsulluğun azaldılması istiqamətində həyata keçiriləcək tədbirlər öz əksini tapmışdır.

Yoxsulluğun azaldılması istiqamətində görülən tədbirlər tezliklə öz müsbət nəticələrini verdi. Çox keçmədi ki, Azərbaycanda Yoxsulluğun azaldılması istiqamətində Proqram əsasında həyata keçirilən tədbirlər öz bəhrəsini verərək ölkədə yoxsulluq səviyyəsi 2003-cü ildəki 49% səviyyəsindən 2007-ci ildəki 15,8% səviyyəsinə qədər dəyişdi. Əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində əldə olunan müsbət meylləri davam etdirmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı əsasında "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı

inkişaf Dövlət Proqramı" hazırlandı və hal-hazırda bu proqramın icrası uğurla həyata keçirilir (10). Belə ki, 2010-cu ilin yekunlarına görə, Azərbaycanda yoxsulluğun səviyyəsi 2009-cu illə müqayisədə 1,8% azalaraq 9,1% təşkil etmişdir. 2009-cu ildə isə ölkədə yoxsulluq 10,9% səviyyəsində olmuşdur. Bu göstərici 2008-ci ildə ölkə əhalisinin 13,2%-ni əhatə etmişdir (11).

Beləliklə, yoxsulluq problemi qlobal miqyas almasına baxmayaraq onun təzahür və varlığı hər bir ölkəyə xas olmaqla bir-birindən keyfiyyətcə fərqlənir. Onun aradan qaldırılması geniş məna kəsb edir və çoxcəhətli sosial problemlərin həll edilməsindən asılıdır.

**Nəticə**

Araşdırmalardan aydın olur ki, qloballaşma özünün müsbət xüsusiyyətləri ilə yanaşı, müəyyən problemlərin daha da kəskinləşməsinə, qlobal xarakter almasına şərait yaradır. Eyni zamanda, dünya tarixində baş vermiş hadisələrin xronoloji təhlili göstərir ki, dünyada insanlar arasında yaranmış qlobal qeyri-bərabərliyin qarşısı alınmazsa yoxsulluq problemi dünyanın sabit və stabil iqtisadi inkişafının əsas təhlükə mənbəyinə çevrilə bilər. Əksər mənbəələrdə davamlı inkişafa nail olmaq üçün şəxsiyyətin toxunulmazlığın, insanların təmiz su, sanitariya, müvafiq mənzil, enerji, tibbi xidmət və s. əsas tələbatlarının ödənilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi, biomüxtəlifliyin müdafiəsi və daha səmərəli müasir texnologiyaların tətbiqi davamlı inkişafın əsas göstəriciləri kimi qeyd olunur ki, bütün bunlar həm də, yoxsulluğun azaldılması və aradan qaldırılmasını xarakterizə edən mühüm göstəricilərdir.

**Ədəbiyyat**


1. "Население и глобализация". По24925д общей ред. Н.М.Римашевской. М.Наука 2002.s.15.

2. Smith A. (1776) An inquiry into the nature and causes of the wealth of nations 1892 ed. (Routledge).

3. Kakwani, N. "How to Measure Goodness of Fit in a Simultaneous Equation Model" // Journal of Quantitative Economiks. Vol 12 January 1996, pp. 27-42.

4. Townsend, P.Poverty in the United Kinqdom: a Survey of Household Resources and Standarts of Livinq (Pengin), 1979.

5. "Minilliyin inkişaf məqsədləri" Bəyannaməsi.2000-ci il.

6. Orshansky, M.How Poverty is Measured // Monthly Labour Review, vol. 92. 1969, p.38.

7. Римашевская Н.М.Риски бедности в современной России. Народонаселение, №2, 2010,с.4-9.

8. Суховский А. Государственное регулирование социальной сферы в развитых странах Запада.// Проблемы теории и практики управления, 2007,№8.

9. Ş.M.Muradov. "Yoxsulluq problemi və onun azaldılmasının əsas istiqamətləri" Azərbaycan Milli Elmlər akademiyası İqtisadiyyat İnstitutu 2007. s.208.

10. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 15 sentyabr tarixli, 3043 nömrəli sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"

11. Azərbaycanın statistik göstəriciləri-DSK. Bakı 2010.

# MİLLİ İQTİSADİYYAT VƏ İQTİSADİ İNKİŞAFIN NƏZƏRİ ƏSASLARI

***Müəl. Natiq HACIYEV***
*Azərbaycan Dövlət İqtisad Universiteti, n.qadjiev2012@yandex.ru*

**Theoretical principles of the national economy and economic development**

**Abstract**

The article touched theoretical basis of the national economy and economic development, a lot of value in resolving the economic issues and concludes that the price was an important factor, western economists, especially for the economic development of the newly independent states of the theoretical views and ideas put forward have been references to the distinguished economists and their main a number of directions of development as they are to be carried out in Azerbaijan.

**Key words:** *the national economy, economic development, value*
**JEL code :** A1 1B2 N10

**Giriş**

Milli iqtisadiyyatla bağlı məsələlərin tədqiqi bilavasitə milli xüsusiyyətlərə uyğun olaraq mövcud iqtisadi durumun iqtisadi problemlərinin araşdırılması və aradan qaldırılmasının yol və istiqamətlərinin göstərilməsindən ibarətdir. Iqtisadiyyat və ya milli iqtisadiyyat haqda bir çox alimlərin və mütəfəkkirlərin fikirlərinin və nəzəri mülahizələrini qeyd edərək müsbət və ya mənfi tərəflərininin açıqlamasından önəmli hər bir tədqiqatçı kimi müəyyən bir baxışın ifadə edilməsi məncə daha təbii olar. Belə ki, iqtisadiyyat ne`mətlər arxasında gizlənmiş xüsusi halda insan və ətraf mühüt arasında münasibətdir. Hər hansı bir fikirin əsaslandırılması üçün sadəcə «inkişaf» anlayışını kənara atmaq və tədqiqata başlamaq lazımdır. Bunun üçün lap dərinə hələ getməyək və fikrimizi insan fiziologiyası ilə başlayaq. Insan təbiətin bir hissəsi və ya üzvü tərkib hissəsi olduğundan, o, istər təbiətin tam şəkildə və istərsə də, ayrı-ayrı hissələrinə şamil edilən təkrarçılıqdan və ardıcıllıqdan – başqa sozlə nizamlı nizamsızlıqdan kənarda deyildir. (Burada «qanun» və ya «qanunauyğunluq» anlayışının istifadəsinə və ümumiyyətlə bu anlayışlardan istifadəyə lüzum yoxdur. Belə ki, təbiətdə heç bir «qanun» və ya «qanunauyğunluq» yoxdur, sadəcə ardıcıllıq və təkrarçılıq var. Fərqlənmə ancaq məkan və zamanla bağlıdır). Sadəcə gündəlik həyatda insan öz arzu və istəklərini - tələbatlarını (maddi və mənəvi, bu tələbatların bir-birindən ayrılması təhriflərə gətirir) subyektiv və ekvivalent məqbulluq baxımından (həyatda hər şey subyektivdir, ekvivalentdr və məqbulluq üzərində qurulub) ödənilməsi haqda düşünməli olur və əməllər edərək fəaliyyət qurur. Zaman və məkan fərqindən asılı olaraq bu tələbatlar dəyişmələrə mə`ruz qalır. Lakin bu tələbatların forması dəyişsə də mahiyyət e`tibarı ilə heç bir fərqlə seçilmir. Fərdli insan daima təbiətlə təmasda olaraq özünün tam və ya «mütləq» azadlığınının səviyyəsilə manevr edərək düşüncə qədər və təbiət qədər sonsuz olan tələbatının ödənilməsinə çalışır. Bu azadlıqla manevr və ya müəyyən «qurban»ların verilməsi həyatda heç nəyin havayı olmadığını nəzərə alaraq özlərini təbii bölgüdə göstərmiş olur.

**İqtisadiyyata fəlsəfi-sosial aspekdən yanaşma**

İnsan öz fəaliyyətində digər insanlarla və təbiətlə münasibətdə olaraq, girişdə qeyd edilditi kimi, bölgüyə əsaslanmaq şərtilə ailə və cəmiyyətdə müəyyən funksiyalar yerinə yetirmiş olur. Özlərinin dövlətini yaradaraq bir çox məsələlərin həllini ona həvalə edərək əvəzində bəzi azadlıqlardan imtina etmiş olurlar. Insan vaciblik və ya başqa sözlə özünün bilavasitə mövcudluğu baxımdan fəaliyyətini birbaşa və dolayı tənzimlədiyi kimi, ailədə də bir çox məsələlər bu və ya digər şəkildə ümumi ailə mənafeyi baxımdan bilavasitə və ya dolayı şəkildə ailə rəhbərliyi tərəfindən tənzimlənir. Cəmiyyətdə isə bu prosesin davamı və ya başqa forması kimi, bir dövlət daxilində insanlar arasında münasibətlər və dövlətlərarası münasibətlər qurulmuş olur. Bu münasibətlərin qurulması dövlətin vasitəçiliyi ilə həyata keçirildiyindən və hər bir vasitəçilik tamamilə təmannasız olmadığından insani fərd bunun üçün müəyyən ne`mətlər verməli olur. Bu qarşılıqlı ekvivalent mübadilə (mübadilələr daima ekvivalent olurlar) nəticəsində insan öz mövcudluğunu saxlamış olur. Zamanın axarı boyu bu mübadilə, mübadilə edilənlərdən asılı olaraq müxtəlif məkanlarda, başqa sözlə bazarlarda həyata keçirilir. Bu bazarların isə kəmiyyət və keyfiyyət fərqi əsasən zaman dəyişmələrinə mə`ruz qalır. Yuxarıda verdiyimiz müəyyən etməyə görə – yəni ne`mətlər arxasında gizlənmiş insan və təbiət münasibətlərini əhatə edən iqtitsadiyyatın formalaşması və inkişafı məhz tələbatların bu və ya digər şəkildə, formada və səviyyədə ödənidməsi prosesini, başqa sözlə ardıcıllıq və təkrarçılığı əhatə etməli və ona əsaslanmalıdır.

Müasir həyatda iqtisadiyyat söylənilən müəyyənetməyə əsasən, təbiət özüdə əsas və birinci, başqa sözlə müəyyənedici bazar olmaqala çoxlu sayda bazarlarla əhatə olunmuşdur. Belə ki, insanların bilavasitə maddi və qismən də mə`nəvi tələbatını ödəyən maddi ne`mətlər - əmtəə və ya insan tərəfindən bilavasitə və son istehlak olunan məhsullar bazarı, insanların bilavasitə mə`nəvi və qismən də maddi tələbatını ödəyən, başqa sözlə qismən istehlak edilən və qismən də istismar olunan xidmətlər bazarı. Bu iki bazardan əsasən insanlar fərdi və ya qurup şəkilində istifadə edirlər. Başqa sözə desək bu iki bazar, xüsusilə, birinci bazar əsasən insan fərdlərinə aiddir. Düzdür iqtisadiyyatda insanlar və ətraf mühüt arasında münasibət dedikdə ətraf mühüt anlayışına təbiətin özündən savayı bilavasitə dövlət və onun qurumları da daxil olduğundan dövlət özü də özünün mövcudluğunu tə`min etmək üçün və ya başqa sözlə öz fünksiyalarını qarşılıqlı məqbulluq və ekvivalentlik baxımından həyata keçirməsi üçün o da, həmin bazarlara müraciət etmiş olur. Münasibətlər eləcə də bu son istehlak ne`mətlərinin istehsalında istismar edilən (istifadə-istehlak edilən) digər ne`mətlər və ya son istehlak məhsulu olmayanların, başqa sözlə resurs adı ilə ümumiləşmiş ne`mətlərin bazarında qurulur. Burada da insan fəaliyyətinin növündən asılı olaraq həmin bazarlarda ya fərdi satıcı və alıcı kimi və ya özlərinin qurupları şəkilində (fiziki və ya hüquqi şəxs timsalında) çıxış edir. Dövlət də öz qurumları timsalında və göstərdiyi fəaliyyətdən asılı olaraq bu və ya digər şəkildə alıcı və satıcı kimi çıxış edir. Bu dövlətin mülküyyət və sahibkarlıq mövqeyindən asılı olaraq baş verir. Belə ki, dövlət bu mövqeyin səviyyəsindən asılı olaraq yüxarıda qeyd olunan resurs adı ilə ümumiləşdirilmiş ne`mətlər bazarınqda alıcı və ya satıcı olur. Bu resurslar isə müxtəlif və kəmiyyət baxımdan qeyri-müəyyəndir. Belə ki, insanın bilavasitə özünün istehsal etdiyi və istehlak etdiyi halında bu resurs onun öz enerjisindən, təbiət enerjisindən ibarət olur. Dövlətin meydana gəlməsindən sonra həmin resursa, yəni insana onun öz şəxsi təhlükəsizlikliyindən irəli gələrək dövlətlə bağlı xidmət resursu, başqa sözlə nisbi sərbəst fəaliyyət üçün tə`minat və zəmanət resursundan istifadə etmək lüzumu gəlir. Daha sonra

fəaliyyəin əhatəliyindən asılı olaraq həmin resurslara digər fərdlərin istər fərdli və ya istərsə də qrup şəkilində fəaliyyətinin məhsulları aid olur. Yəni hər şey hər bir fərdin istər fərdi və ya istərsə də qrup şəklində fəaliyyətində hansı ne`mətdən resurs (vasitə) kimi istifadəsindən asılıdır. Digər bazar və ya resurs isə heç şübhəsiz ki, insanlar arasında bu münasibətdə və ya başqa sözlə iqtisadiyyatda ümumi münasibət obyekti və ya predmetindən ibarər olan ümumi ekvivalent adı ilə ümumiləşən bir ne`mətə aiddir. Bu da ki, pul bazarıdır. Alqı-satqı obyektlərinin kəmiyyət və keyfiyyət dəyişmələri ozünü heç şübhəsiz ki, sövdələşmə məkanlarının və bu sövdələşmələrin də kəmiyyət və keyfiyyət dəyişmələrində, başqa sözlə artmasında göstərir. Belə bir fikir dərin əsasa malikdir ki, kainatda hər şey daima artır və daima azalır - yəni ədədi və ya həndəsi silsilə ilə artır və (və ya) azalır. Maltusun dediyi kimi, əhalinin sayı, başqa sözlə tələbatı həndəsi, ödəniləcək resursların sayı, təklif isə ədədi silsilə ilə artır. Bu da özünü qeyd etdiyimiz kimi alqı-satqı və sövdələşmə məkanlarının, bu məkanlaracan və bu məkanlarada formalaşan dəyərlərin və onların ifadəsi olan - qeyd olunan və ya qeydə alınan qiymətlərin sayının çoxlunda özünü büruzə verdi. Bütün bü halar yəni sövdələşmələrin kəmiyyət və keyfiyyət dəyişmələri müxtəlif sayda və keyfiyyətdə ümumi mübadilə ne`mətlərinin başqa sözlə ümumi ekvivalent rolunu oynayan pulların meydana gəlməsinə səbəb oldu. Bütün bunlar iqtisadiyatın mükəməl şəkildə tədqiqinə əsas verir.

Deməli, milli iqtisadiyyatın formalaşması və inkişafı anbaan kəmiyyət və keyfiyyət dəyişmələrinə məruz qalan (həndəsi və ya ədədi silsilə ilə artan) ne`mətlərin, bu ne`mətlərin istehsal-istelak edilməsi üçün şərait və şərtlərin, başqa sözlə sövdələşmə məkanlarının (bazarların) artması, bu sövdələşmələri həyata keçirən subyektlərin kəmiyyət və keyfiyyət artımları və həmin sövdələşmələrdə hər bir subyekt tərəfindən subyektiv şəkildə dəyərləndirmə proseslərinin və bu proseslərin nəticəsi olan dəyərlərin, həmin dəyərlərin ifadəsi olan qiymətlərin çoxluğu heç şübhəsiz bu dəyərləri qiymət adı ilə ifadə edən ümumi mübadilə ne`mətlərinin və ya ümumi ekvivalentlərin (pulun) çoxluğu ilə sıx əlaqədar olduğubdan hər bir sövdələşmə məkanının (bazarın), onun tərkib hissələri ilə, tələbi və təklifi ilə, orada ani olaraq formalaşan kəmiyyət (həcm) və qiymət ifadələrinin tədqiqini önə çəkmək lüzumludur. Bunun üçün qeyd olunan ümumi makrotarazlığın tədqiqindən, onun tərkib hissəsindən başlayaraq, həmin tarazlığın yaradıcısı olan məcmu tələb və məcmu təklifin hər birinin tərkib hissələrini öyrənmək və bununlada çoxlu miqdarda, yəni bu tərkib komponentləri sayda sövdələşmə məkanlarından başlamaq və yekun olaraq ancaq yeganə bir qiymətin, lakin gizli qalan və o qədər də düzgün olmayaraq ancaq pul, kapital sövdələşmələrinə aid edilən icarə, istifadə həqqının ifadəsi olan faizin_təbiətini açıb göstərmək lazımdır.

**İqtisadi inkişafın Qərb qiymətləndirmələri**

Qərb iqtisadi fikrində önəmli və özünəməxsus baxışlarına malik olan Holland ekonometriki Y.Tinberqen zənn edirdi ki, "inkişaf xətti proses deyildir və onun məqsədi sadəcə sənayecə inkişaf etmiş dövlətləri iqtisadi, sosial, siyasi və mədəni sahədə ötüb keçmək deyildir. Bu dövlətlərin varlı dövlətləri imitasiya etmələri ancaq onu bildirəcəkdir ki, onlar bir problem kompleksini digərilə əvəz edəcəklər və bununlada onların adam resurslarında olan qiymətli, dəyərli olanı məhv edəcəklər" [Р.И.Хасбулатов, Ц.Гурбадам, Э.Е.Оминский, Ю.Кимак и др.; рук. авт. колл. и отв. ред. Р.И.Хасбулатов. (1987).255]. Bu yeni

müstəqillik qazanmış dövlətlərin iqtisadi inkişaf model və istiqamətlərinin seçimi zamanı müəyyən üstünlüyə malik olan "Gəlib çatan, yetişən inkişaf" ideologiyasından xeyli fərqli idi.

Yan Tinberqen qeyd edir ki, aparılan araşdırmalara görə müəyyən olunmuşdur ki, ancaq iqtisadi artıma səmtlənmək olmaz, iqtisadi və sosial problemlərin həlli üçün bir tərəfdən "məşğuluq və gəlirlərin bölüşdürülməsi üçün böyük imkanların yaradılması, digər tərəfdən köklü torpaq və vergi slahatların aparılması zəruridir. Belə bir siyasətin təməli Ulu öndər tərəfindən qoyulmuş, həyata keçirilməyə başlamış və möhtərəm Prezident tərəfindən uğiurla davam etdirilməkdədir.

Araşdırmalardan belə nüəyyən olunmuşdur ki, dövlətlərin inkişaf planlarının ancaq xüsusi sektor tərəfindən həyata kecirilməsini şübhə altına alınmamalı, iqtisadi siyasətlərinin prioritet istiqaməti kimi kütləvi işsizliklə mübarizə durmalıdır. Milli iqtisadiyyatın formalaşması və inkişafı mərhələsində işsizlərin gəlirləri demək olar ki, olmadığından, məşğuluğun istənilən yüksəlməsi özü-özlüyündə nə qədər də az olca da artıq gəlirlərin bölüşdürülməsinin yaxşılaşdırılmasından xəbər verir. Yeni iş yerlərini başlıca olaraq kənd rayonlarında yaratmaq lazımdır, cünkü, yer kürəsinin əhalisinin böyük hissəsi məhz burada yaşayırlar. Malik olunan kapitalın çox da olmadığından yoxsulluğun effektiv şəkildə aşağı salınması üçün inkişaf proqramları üzrə layihələt əsasən işçi qüvvəsinin intensiv istifadəsinə əsaslanmalıdır. Demoqrafik partlayışı nəzərə alaraq üstünlük ərzaq məhsullarının istehsalına verilməlidir. Kənd təsərrüfatı məhsuldarlığının və texnoloji planda məhsuldatlığın artırılması kənd təsərrüfatı mütəxəsisslərinin işi olduğunu zənn edərək o, yoxsulluq və acliğla mübarizənin beynəlxalq stratekiyasının hazırlanmasında təhsilə və ictimai təşkilatlarımn roluna böyük diqqət yetirməyi təklif edilmişdir. Respublika Prezidentinin ərzaq təklükəzizliyi proqramı, yoxsuluğun aradan qaldırılması üzrrə iki proqram, iqtisadi rayonların sosial-iqtisadi inişafı üzrə iki proqram, Apşeron rayonun, Bakı ətrafil rayonların sosial-itiadi inkişaf proqramlari, ayrı-ayrı sahələrin, elm və təhsili, səhiyyənin inkişaf proqramı, əhalinin ərzaq təminatı proqramı, yeni iş yerlərinin açılması - 900 minə yaxın, məhz Tinberqin nəzəri müddəalarının doğruluğundan xəbər verir.) [http://**Ошибка! Недопустимый объект гиперссылки.** ].

Digər iqtisadi inkişaf modelinin - "Alternativ inkişaf"ın tərəfdarları kustat istehsal sferasında, pərakəndə ticarər, yerli nəqliyyat, müxtəlif kommunal-məişət xidmətlərində, şəxsi kredit sahəsində "qeyri-formal" sekrorun və ya kicik və orta sahibkarlığın inkişafına önəm verirdilər. Belə ki bu sahələr yüksək, əməkdən isifadə etmək qabiliyyətinə malikdir və məşğulluğun əhəmiyyətli dərəcəfdə atrmasına imkan verəcəkdir. O, bazar konyunkturasına çevik reaksiya verir və əhalinin aşağı tədiyyə qabiliyyətilə və tələbin inkişaf etməməsilə bağlı olaraq müasir sektorlarla rəqabət apara bilir. Azərbaycanda rayonlarıda kiçik sahibkarlığa, Respublikada kiçik və orta sahibkarçılığın inkişafına qayğı göz qabağındadır.

"Qeyri-formal" sekrorun və ya kicik və orta sahibkarlığın inkişaf problemlərinin tədqiqində qərb mütəxəsisləri, o cümlədən BMT-nin və onun ixtisaslaşmış təşkilatlarının işçiləri ondan çıxış edirlər ki, sosial təminatın və bu və ya digər formada əhaliyə köməyin hansı səviyyədə olub-olmamasından asılı olmayaraq istənilən ödənilən məşğulluq əhalinin kasıb təbəqəsinin gəlirlərinin yüksəldilməsi hesabına onların həyat şəraitinin yaxşılaşdırılmasına gətirmək qabiliyyətindədir. Artıq, inkişaf etməkdə olan dövlətlərin hökümətləti qarşısında, BMT və onun ixtisaslaşmış təşkilatlarının fəaliyyəti qarşısında duran

başlıca məqsəd kimi ÜDM-nin mütləq artımı deyil, "kənd təsərrüfatının inkişafı" və bu əsasda əhalinin "əsas ehtiyaclatrının" ödənilməsi durur.

Bir sıra qərb iqtisdçıları L.Emmeri, C.Renşou, E.Li, A.Raxman bu konsepsiyaların reallaşması imkanına daha realist yanaşdılar. Məsələn BMT-nin BƏT-nin məşğulluq və inkişaf departamentinin keçmiş direktoru . Emmeri belə hesab edirdi ki, "əsas tələbatların ödənilməsi" strategiyasının həyata keçirilməsi üçün vacib zəmin "..mülküyyətin və ya torpaqdan digər istehsal resurslarından isifadənin yenidən bölüşdürülməsi" zəruridir.

Bu dövlətlərdə keçid dövrü olduğundan iqtisadi artıma görə müəyyən siyasi güzəştlərin gedilməsini də irəli sürürdilər. Belə ki, amerika iqtisadçısı bəyan edirdi: "İnkişafın məqsədi azadlıq deyil, qaydadır". Onun fikrinə görə kütlələrin siyasətə müdaxiləsi destrukyiv xarakter daşıyır, siyasi sabitliyə təhlükə yaradan gərginlik və böhran doğurur və nəticə kimi də umumən inkişafın özü üçün də arzu olunmaz hallara gətirib çıxarır. [Р.И.Хасбулатов, Ц.Гурбадам, Э.Е.Оминский, Ю.Кимак и др.; рук. авт. колл. и отв. ред. Р.И.Хасбулатов. (1987).260]

Iqtisadi ədəbiyyatlarda ""Şimal-Cənub" dövlətlərinin "qarşılıqlı asıllığı" konsepsiyasının tələblərinin, texnologiyanın, xammal və resursların istifadəsinə "çoxtərəfli" yanaşmanın, vahid demoqrafik siyasətin içlənib hazırlanmasını, bütün dövlətlərin valyuta münasibətlərinin tənzimlənməsinin nəzərə alınmasını nəzərdə tutan "harmonik qlobal artım"" ideyasından ibarət strategiya yaranmağa başladı. Məsələn 90-ci illərdə Beynəlxalq Əmək Bürosunun baş direktoru F.Blanşar qeyd edirdi: "Şimalın-kapitalın və texnologiyanın mənbəyinin, eyni zamanda xammal əmtəələr və hazır məmulallar bazarının çiçəklənməsi Cənubun inkişafı üçün zəruridir. Şimalın iqtisadi artımı da xammal əmtəələrinin təchizatından, bazarların olmasından və nəticə etibarı ilə Cənubun sabitliyindən asılıdır" [Кузмин С. А. (1965),75]. Qərb alimlərinin hesablamalarına görə sənaye dövlətlərində artım tempinin 1% yüksəlməsi inkişaf etməkdə olan dövlətlərdə ixracın 2-3% atmasına səbəb olur. Hələ belə bir məsələ də təsdiq edilirdi ki, güclü iqtisadiyyatlı dövlət "asqıranda", zəiflərin "ciyərlərinin soyuqlanması" təhlükəsi yaranır.

Iqtisadi inkişaf yolunda ictimai formasiyaların dəyişməsinə də yeni baxişlarla seçilənlər var idi. Onlar, SSRİ sosializmini kapitalist cənayeləşməsinin, sürətləndirilmiş kapitalist yığımının metodu kimi qiymətləndirirdilər. Amin yazirdı: "Rus sosialist inqilabı tarixdə milli dövlət kapitalizmi sistemi xarakterini almış kapitalist yığımı təcrübəsinin məlum nəticəsidir". A.Adededli kimi o da inkişaf etmiş dövlətlər qarşısında duran başlıca vəzivəsini "asılı kapitalist inkişafı modelimim milli ausentrirləşmiş inkişaf modelı ilə əvəzi adlandırmışdır". [Кузмин С. А. (1965),89]

**Nəticə**

Nəticə kimi qeyd etmək olar ki, milli iqtisadiyyatla bağlı məsələlərin tədqiqi bilavasitə milli xüsusiyyətlərə uyğun olaraq mövcud iqtisadi durumun iqtisadi problemlərinin araşdırılması və aradan qaldırılmasının yol və istiqamətlərinin göstərilməsindən ibarətdir. Müasir həyatda iqtisadiyyat söylənilən müəyyənetməyə əsasən, təbiət özüdə əsas və birinci, başqa sözlə müəyyənedici bazar olmaqala çoxlu sayda bazarlarla əhatə olunmuşdur/ Deməli, milli iqtisadiyyatın formalaşması və inkişafı anbaan kəmiyyət və keyfiyyət dəyişmələrinə məruz qalan, həndəsi və ya ədədi silsilə ilə artan, ne`mətlərin, bu ne`mətlərin istehsal-istelak edilməsi üçün şərait və şərtlərin, başqa sözlə sövdələşmə məkanlarının (bazarların) artması,

bu sövdələşmələri həyata keçirən subyektlərin kəmiyyət və keyfiyyət artımları və həmin sövdələşmələrdə hər bir subyekt tərəfindən subyektiv şəkildə dəyərləndirmə proseslərinin və bu proseslərin nəticəsi olan dəyərlərin, həmin dəyərlərin ifadəsi olan qiymətlərin çoxluğu heç şübhəsiz ki, bu dəyərləri qiymət adı ilə ifadə edən ümumi mübadilə ne`mətlərinin və ya ümumi ekvivalentlərin (pulun) çoxluğu ilə sıx əlaqədar olduğubdan hər bir sövdələşmə məkanının (bazarın), onun tərkib hissələri ilə, tələbi və təklifi ilə, orada ani olaraq formalaşan kəmiyyət (həcm) və qiymət ifadələrinin tədqiqini önə çəkmək lüzumludur. Bunun üçün qeyd olunan ümumi makrotarazlığın tədqiqindən, onun tərkib hissəsindən başlayaraq, həmin tarazlığın yaradıcısı olan məcmu tələb və məcmu təklifin hər birinin tərkib hissələrini öyrənmək və bununlada çoxlu miqdarda, yəni bu tərkib komponentləri sayda sövdələşmə məkanlarından başlamaq və yekun olaraq ancaq yeganə bir qiymətin, lakin gizli qalan və o qədər də düzgün olmayaraq ancaq pul, kapital sövdələşmələrinə aid edilən icarə, istifadə haqqının ifadəsi olan faizin təbiətini açıb göstərmək lazımdır.

Bir sıra Qərb iqtisdçıları L.Emmeri, C.Renşou, E.Li, A.Raxman Y.Tinberqen mülahizələrinə əsasən dövlətlərin inkişaf planlarının ancaq xüsusi sektor tərəfindən həyata kecirilməsini şübhə altına alınmamalı, iqtisadi siyasətlərinin prioritet istiqaməti kimi kütləvi işsizliklə mübarizə durmalıdır, kicik və orta sahibkarlığın inkişafına önəm verirdilər. Belə ki, bu sahələr yüksək, əməkdən isifadə etmək qabiliyyətinə malikdir və məşğulluğun əhəmiyyətli dərəcəfdə atrmasına imkan verəcəkdir. O, bazar konyunkturasına çevik reaksiya verir və əhalinin aşağı tədiyyə qabiliyyətilə və tələbin inkişaf etməməsilə bağlı olaraq müasir sektorlarla rəqabət apara bilir.

**Ədəbiyyat siyahısı**


1. (1990). *Истоки: вопросы теории народного хозяйства и экомической мысли. Вып.2*. "Экономика" М.
2. Р.И.Хасбулатов, Ц.Гурбадам, Э.Е.Оминский, Ю.Кимак и др.; рук. авт. колл. и отв. ред. Р.И.Хасбулатов. (1987).*Освободившийся страны в переходной период: (политико-экономический анализ)* – "Экономика". М. 279.
3. Под ред. В.А. Шульги. (2002.) *Национальная экономика*. "Экономика". М.,
4. Селигмен В. (1968).*Основные течения современной экономической мысли.* "Прогресс". М.
5. Кузмин С. А. (1965). *Развивающиеся страны: занятость и капиталовложения.* "Мысль". М.
6. http://**Ошибка! Недопустимый объект гиперссылки.** . 13.07.2012.
7. http//:www.economy.gov.az . 15.07.2012

# HAYALDEN-GERÇEĞE ASRIN PROJESİ: TÜRKİYE'DEN KIBRIS'A BORULARLA SU GETİRME PROJESİ

*Kısa vadede, KKTC'nin Su Sorununa Çözüm Getirecek, Orta Ve Uzun Vadede ise Doğu Akdeniz'in Hidropolitiğini Değiştirecek Proje*

**Prof. Dr. Hüseyin GÖKÇEKUŞ**
*Yakın Doğu Üniversitesi, ghuseyin@neu.edu.tr*

**Dünya'daki Su Krizi**

Dünyamız, uzaydan bakıldığı zaman mavi bir gezegen olarak görünmektedir. Nedeni ise, yüzeyinin %70'den fazlasının suyla kaplı olmasıdır. Ancak görünenin aksine, dünyada içilebilir durumdaki su kaynakları sanıldığından çok daha azdır, üstelik az olan bu yaşam kaynağını kirletmekteyiz, ve ne yazık ki iyi yönettiğimiz de söylenemez. Sonuç olarak gelinen noktada, dünyanın büyük bir kesimini etkileyen küresel ölçekli bir su kriziyle karşı karşıyayız.

Son dönemlerde, küresel iklim değişikliğinin su kaynakları üzerindeki olumsuz etkileri, uzun süreli yaşanan kuraklıklar, hızlı ve çarpık kentleşme ile endüstrileşmeye bağlı ortaya çıkan atıkların yarattığı çevre kirliliğinin mevcut yüzey ve yeraltısuyu kaynakları üzerindeki olumsuz etkileri, özellikle gelişmekte olan ülkelerde nüfusun kontrolsüz bir biçimde artması, buna karşın yaşamlarını sürdürebilmek için hergün daha fazla suya ihtiyaç duyulması, öte yandan gelişmiş ülkelerde artan yaşam standartlarına bağlı olarak daha çok ve daha kaliteli suya erişme isteği, tüm bunların bir sonucu olarak su arz-talep dengesinin git gide bozulması, sonucunda dünyada bugün tam bir kaos yaşanmaktadır. Bu konuda yapılan ileriye dönük çalışmalar, projeksiyonlar ise ileriki günlerde bugünleri arar durumda olacağımız yönündedir.

Dünyadaki içilebilir su kaynaklarının ne denli az olduğu olgusuna geri dönecek olursak, mevcut suların %97'sini tuzlu okyanus ve deniz suları oluştururken, tatlı su diye adlandırabileceğimiz %3'lük kısmın, %68.7'si kutuplardaki buzulları, %30.1'i yeraltısuyu kaynaklarını, % 0.3'ü yüzey sularını ve %0.9'u ise diğer kaynakları oluşturuyor. Kısacası, dünyada bu denli bol su kaynağı bulunmasına karşın, mevcut suların ancak %1'inden azını doğrudan kullanmamız mümkün olabilmektedir. Diğer önemli bir husus ise, bu değerli ve kıt kaynağın kıtalar üzerindeki ve nüfus yoğunluğuna göre dağılımlarının da eşit olmayışıdır. Avrupa'da dünya nüfusunun %13'ü yaşarken su kaynaklarının %8'ine sahip olduğu görülmektedir. Öte yandan, Asya'da %60 nüfusa karşın %36 su kaynağı, Avusturalya ve Okyanusya'da ise %1 nüfus ve %6 su kaynağı, Arfrika'da, %13 nüfus %11 su kaynağı, Kuzey ve Orta Amerika'da %8 nüfus %11 su kaynağı, Güney Amerika'da ise %6 nüfusa karşılık dünya su kaynaklarının %26'sı bulunmaktadır.

Bir diğer somut gerçek ise, dünyanın farklı coğrafyalarında yaşayan ve gelişmişlik düzeyleri farklı olan insanların yeterli miktarda ve kaliteli içme suyuna erişebilme oranlarında gözlenen farklılıklardır. Konu bu açıdan ele alınıp irdelendiğinde, dünyada yaşayan insanların kaliteli ve yeterli suya erişim konusunda da ciddi farklılıklar gösterdiği ve Arfrika'nın ise bu açıdan dünyanın en kötü kıtası konumunda olduğunu görürüz. Afrika'nın Sahra Altı (Sub-Sahra) bölgesinde, nüfusun %50'den fazlasının, yer yer %87'sinin yeterli ve güvenli içme

suyuna ulaşamadığını görmekteyiz. Bu durumu daha iyi anlamak için, kişilerin günlük su tüketimlerine bakmak gerekir. Afrika'da bir bireyin günlük kullanabileceği ortalama su miktarı 10 litre iken, Avrupa'da bu rakam 200 litre, ABD'de ise 400 litreye çıkmaktadır.

Dünyada yaşanan su krizini, içme ve temizlik-hijyen (sanitasyon) açısından ele alacak olursak, dünya nüfusunun 6.3 milyar olduğu bir dönemde, 1.2 milyar insanın sağlıklı içme suyuna ulaşamadığını, 2.6 milyar insanın ise hijyen ve temizlik(sanitasyon) amaçlı sudan yoksun olduğunu, buna bağlı olarak çoğunlukla 5 yaş altı olmak üzere yılda 5 milyon çocuğun temiz içme suyuna ulaşamadığı için ekseriyetle ishal ve kirli suya bağlı benzeri hastalıklardan öldüğünü söyleyebiliriz. Hal böyleyken, gelişmekte olan ülkelerin %90'ında kanalizasyon suları halen dere ve nehir yataklarına deşarj edilmeye devam edilmekte, özellikle Afrika'daki hastahanelerde yatan hastaların yarıdan fazlasını, sağlıksız su kullanımı nedeniyle hastalanan hastalar oluşturmaktadır. Basit hijyen koşullarının yerine getirildiği durumlarda (sabunla ellerin yıkanması) ishal nedenini %47 oranında azaltmaktadır. Bir kalıp sabun ve ellerini yıkayacak kadar suyu bulamadıkları için ishalden son 10 yılda ölen çocukların sayısı ikinci dünya savaşında ölen insanların sayısından çok daha fazladır.

Gelişmekte olan ülkelerde, okullarda yeterli sayıda tuvaletin ve bunun yanısıra temizlik amaçlı kullanılacak yeterli miktarda suyun olmayışı nedeniyle, özellikle ergenlik döneminden sonra kız çocukları okula gönderilmemektedir. Öte yandan, gelişmekte olan birçok ülkede 10 yaşından itibaren kız çocukları ve kadınlar evlerine hergün ortalama 6 kilometre mesafeden su taşımakta, yıllar boyu süre gelen bu işlem sonucunda, kafataslarında, boyunlarında ve omurgalarında kalıcı hasarlar meydana gelmekte, bu kalıcı hasarlar ise, hamilelik sürecinde ve doğum anında ciddi sorunlara yol açmaktadır.

Tüm bu anlatılanlardan sonra, önümüzdeki 20 yıl içerisinde, başta nüfus artışı olmak üzere sayısız nedenden ötürü, dünyada ihtiyaç duyulacak su miktarının %40 artacak olması gerçeğinden hareketle, önümüzdeki günlerde, dünyada yaşanan su sorununun, su krizinin, çok daha büyük ve içinden çıkılması çok daha güç bir hale geleceğini söyleyebiliriz.

**KKTC'deki Su Sorunu**

Küresel İklim Değişikliği etkisiyle meydana gelen uzun süreli kuraklıklar, olumsuz etkilerini dünyanın birçok bölgesinde olduğu gibi Akdeniz Bölgesin'de de hissettirmektedir. Son yüzyılda, kurak, yarı kurak iklim bölgesinde yer alan Kuzey Kıbrıs Türk Cumhuriyeti'nde (KKTC) gözle görülür sıcaklık artışları yanı sıra yağış oranlarında ise % 25'den fazla azalma görülmüştür. Gelecek 100 yıl içerisinde bulunduğumuz coğrafyada durumun daha da kötüleşmesi bekleniyor. 2100 yılına yönelik yapılan projeksiyonlarda Akdeniz Bölgesi'nde yağışların daha da azalacağı, buna karşın sıcaklık değerlerinde önemli artışların olacağı yönünde hesaplamalar mevcuttur. Küresel iklim değişikliğine bağlı olarak ortaya çıkması muhtemel olumsuz durumdan, en fazla, Akdeniz'in doğusunun etkileneceği ve başta Türkiye'nin iç kesimleri, Kıbrıs Adası, Lübnan, İsrail, Nil Deltası, Mısırın doğusu, ve Libya'nın halen var olan su kıtlığı sorununda ciddi artışların olacağı tahminleri yapılmaktadır.

Son yüzyılda, KKTC'ye düşen yağışlar ¼ oranda azalması yağışlardaki bu azalmaya bağlı olarak KKTC Halkı; özellikle su kıtlığı, tuzlanmaya bağlı su kalitesi ve yasaların eksikliği karşısında su yönetimi sorununu tüm sektörler üzerinde etkisi hissedilmektedir.

KKTC'de azalan yağışlar karşısında su ihtiyacının neredeyse tamamının yeraltı suyu kaynaklarından karşılanıyor olması (%92 yeraltısuyu, %5 yüzeysuları ve %3 ise deniz suyu

Ayşen Kaya 2006'da yaptığı bir çalışmada Türkiye'nin AB-15 ve AB-10 ülkeleri ile 1991-2003 döneminde imalat sanayi ihracatında karşılaştırmalı üstünlük sahibi olan endüstrileribelirlemeye çalışmış ve bu çalışma sonucunda 151 imalat sanayi alt ürün grubu içinde 53 endüstride karşılaştırmalı üstünlük olduğu sonucuna varmıştır.SITC teknoloji sınıflandırmasına göre Türkiye'nin ihracatta 53 malda karşılaştırmalı üstünlük elde ettiği mallardan 1'i hammadde yoğun, 27'si emek yoğun, 16'sı sermaye yoğun, 9'u zor taklit edilen araştırma yoğun mallardır (Kaya, 2006:1-10).

Recep Kök ve Orhan Çoban tarafından yapılan çalışmada Türkiye'nin AB karşısında tekstil ve hazır giyim sektörlerinin rekabet gücü analiz edilmiş olup Türkiye'nin gerek tekstilde gerekse hazır giyimde karşılaştırmalı üstünlük elde ettiği sonucuna varılmıştır (Kök ve Çoban, 2005:70-80).

Uluslararası nitelikte yapılan çeşitli çalışmalar Tablo-1'de gösterilmiştir (Kösekahyaoğlu ve Özdamar, 2011:36).

**Tablo 1: Açıklanmış Karşılaştırmalı Üstünlük İndeksleri Kullanılarak Yapılan Uluslararası Çalışmalar**

| Yazarlar | Konu / Yöntem | Sonuç |
|---|---|---|
| De Benedictis | Akü indeksi yardımıyla İtalya'nın ihracat kompozisyonunun zaman içindeki değişimi ve 1970 sonrası sektörel rekabet gücü bölgesel veri kullanılarak incelenmiştir. | İtalya'nın AKÜ düzeyinin yüksek olduğu, 1980'lerde karşılaştırmalı dezavantaja sahip olan çeşitli endüstrilerin zamanla avantajlı hale geldiği görülmüştür. |
| Yue ve Hua | Akü indeksleri kullanılarak yapılan çalışmada Çin'in 1980-2000 dönemi için sektörelbazda ölçülmüş ihracat performansı ile sektörel AKÜ indeksleri arasındaki ilişki hesaplanmıştır. | Çin'in sanayileşme stratejisi sanayi mallarındaki AKÜ indekslerinde artış meydana getirmiştir. Karşılaştırmalı avantajların Çin'in ekonomik dönüşüm sürecindeki ihracat yapısını ve trendini açıkladığı görülmüştür. |
| Havrila ve Gunawar-dana | Avustralya'nın tekstil ve giyim sanayii için rekabet gücü Balassa, Vollrath ve endüstri içi ticaret yöntemleri ile 1965-96 yılları için incelenmiştir. | Balassa indeksine göre, Avustralya'nın tekstil ve giyim endüstrilerinde güçlü düzeyde rekabet dezavantajına sahip olduğunu ortaya koymuştur. |
| EuropeanCommission | AB-27'nin dünya karşısındaki rekabet gücü ana ürün grupları itibariyle 1996-2006 dönemi için ölçülmüştür. | Yapılan analize göre, AB-27 2006 verilerine göre dünya karşısında 21 ana ürün grubundan 11 tanesinde karşılaştırmalı üstünlüğe sahiptir. |

**Kaynak:** L. Kösekahyaoğlu ve G. Özdamar, (2011), Türkiye, Çin ve Hindistan'ın Sektörel Rekabet Gücü Üzerine Karşılaştırmalı Bir İnceleme, Uludağ Journal of EconomyandSociety Cilt / Vol.XXX, Sayı / No.2, pp. 29-49.

## 7- TÜRKİYE VE AZERBAYCAN DIŞ TİCARETİNDE KARŞILAŞTIRMALI ÜSTÜNLÜK ANALİZİ

Türkiye ve Azerbaycan arasındaki dış ticaretin karşılaştırılmasında 9 farklı mal grubu iki ülke içinde aynı indeks kullanılarak hesaplanmıştır. Analizde ülkelerin ticaret performansları ve ticaret üstünlükleri ülkelerin ticaret performanslarını ölçmeye yarayan Açıklanmış Karşılaştırmalı Üstünlükler indeksi ile açıklanmaya çalışılmaktadır.

Analizde kullanılan mal grupları fasıllara göre ticaret rakamlarından yararlanılarak oluşturulmuş olup, söz konusu gruplandırmadauluslararası ticaret sınıflaması esas alınmıştır. Aşağıdaki tablo yapılan 8 grubun içeriklerini göstermektedir.

**Tablo 2: Fasıllara Göre Ticaret Kodları**

| Grup No | Mal Grubu Tanımı | Fasıllara Göre Ticaret Kodları |
|---|---|---|
| **1** | Canlı Hayvanlar ve Mahsulleri | (1-2-3-4-5) |
| **2** | Bitki Menşeli Mahsuller | (6-7-8-9-10-11-12-13-14) |
| **3** | Hayvani ve Bitkisel Yağlar | (15) |
| **4** | Hazır Gıda Mahsulleri ve Alkollü Alkolsüz İçkiler | (16-17-18-19-20-21-22-23-24) |
| **5** | Petrol Ürünleri | (25-26-27) |
| **6** | Kimya Sanayi Mahsulleri | (28-29-30-31-32-33-34-35-36-37-38) |
| **7** | Plastik Mamulleri | (39-40) |
| **8** | Demir ve Çelik, Bakır, Alüminyum, Çinko, Kalay ve Bunlardan Mamul Eşya | (72-73-74-75-76-77-78-79-80-81-82-83) |

(Parantez içerisindeki rakamlar fasıllara göre ticaret grubundan alınan ve kullanılan kod numaralarıdır).

Yukarıdaki mal grupları dahilinde Türkiye ekonomisinin ticaret performansını açıklamaya yönelik hesaplanan AKÜ indeksi sonuçları aşağıdaki tabloda sunulmaktadır. Sonuçlar yorumlanırken esas alınacak kıstas AKÜ indeksinin değerinin büyük ya da küçük olmasıdır. AKÜ indeksinin yüksek olması ülkenin söz konusu mal gurubunda ihracat performansının yüksek olduğu anlamına gelmektedir.

**Tablo 3:AKÜ İndeksleri: Türkiye**

| **Türkiye** / Azerbaycan | **2005** | 2005 | **2006** | 2006 | **2007** | 2007 | **2008** | 2008 |
|---|---|---|---|---|---|---|---|---|
| Canlı Hayvanlar ve Mahsulleri | **3,07** | 0,01 | **3,23** | 6,36 | **3,18** | 0,01 | **3,66** | 3,56 |
| Bitki Menşeli Mahsuller | **4,89** | 0,65 | **5,18** | 0,31 | **2,75** | 0,15 | **1,65** | 0,07 |
| Hayvani ve Bitkisel Yağlar | **1,10** | 1,07 | **0,92** | 0,63 | **0,80** | 0,52 | **0,70** | 0,25 |
| Hazır Gıda Mahsulleri ve Alkollü Alkolsüz İçkiler | **3,80** | 1,74 | **3,92** | 0,15 | **3,36** | 0,16 | **2,95** | 0,04 |
| Petrol Ürünleri | **0,29** | 2,96 | **0,28** | 2,79 | **0,33** | 5,01 | **0,33** | 20,6 |
| Kimya Sanayi Mahsulleri | **0,28** | 0,40 | **0,33** | 0,31 | **0,31** | 0,08 | **0,33** | 0,03 |
| Plastik Mamulleri | **0,61** | 0,39 | **0,65** | 0,30 | **0,66** | 0,12 | **0,70** | 0,07 |
| Demir ve Çelik, Bakır, Alüminyum, Çinko, Kalay ve Bunlardan Mamul Eşya | **1,03** | 0,12 | **1,45** | 0,09 | **0,96** | 0,07 | **1,11** | 0,07 |

Tablo 3, 2005-2008 Türkiye'nin ve Azerbaycan'ın fasıllar itibariyle mal gruplarının AKÜ indeksiyle karşılaştırılmasını göstermektedir. Bu tablolara göre, seçilen 8 mal grubu içerisindeki canlı hayvanlar ve mahsulleri mal grubunda Türkiye'nin 2005, 2006, 2007 ve 2008 yıllarındaki ticaret performansının Azerbaycan'a göre daha avantajlı konumda olduğu sonucu çıkarılmıştır. Aynı şekilde, bitki menşeli mahsuller, hayvani ve bitkisel yağlar grubunda 2006, 2007 ve 2008 yıllarında, Göreli İhracat ve İthalat indeksimiz 1'den küçük olduğu için ticaret performansı bu yıllarda dezavantajlı durumdayken, hazır gıda mahsuller ve alkol, alkolsüz içkiler mal gruplarında Türkiye Azerbaycan'a göre daha avantajlı konumdadır. Petrol ürünleri mal grubunda Azerbaycan'ın Türkiye'ye göre daha avantajlı olduğu sonucuna ulaşılırken, demir ve çelik mal grubunda ise Türkiye'nin ticaret performansı 2007 yılı dışındaki indekslerin büyük olduğu görülmektedir. Makinalar ve mekanik cihazlar grubunda Türkiye'nin bir üstünlüğünün olmadığı görülürken Azerbaycan'ın ise 2006, 2007 ve 2008 yıllarında üstünlük elde ettiği sonucuna ulaşılmıştır.

**Grafik 8: AKÜ İndeksleri: Türkiye**




Grafik 8, 2005-2008 yılları için Türkiye'nin AKÜ indekslerini göstermektedir. Bu grafikte öncelikle dikkati çeken unsur 2 numaralı mal grubu olarak tanımlanan bitki menşeli mahsuller grubunun AKÜ indeksinin diğer mal gruplarına göre daha yüksek değerde olduğu ancak 2006 yılından sonra hızlı bir trendle azalış gösterdiğidir.Bir diğer önemli trend ise, 5 ve 6 numaralı mal gruplarının AKÜ indekslerinin seçilen 4 yıl içinde istikrarlı bir seviyede ancak düşük değerde bir seyir göstermesidir.

**Grafik 9: AKÜ İndeksleri: Azerbaycan**




Grafik 9 ise, 2005-2008 yılları için Azerbaycan'ın AKÜ indekslerini göstermektedir. Bu grafiğe göre, Azerbaycan 2005- 2007 yılları arasında. 5 numaralı petrol ürünleri mal grubu bazında ise AKÜ indeksi 2007'den sonra hızlı bir artış göstermiştir. 3, 8 ve 6 numaralı mal gruplarında ise, AKÜ indeksinin düşük değerde ve istikrarlı bir seyir izlediği görülmektedir.

## 8- SONUÇ

Türkiye ve Azerbaycan'ın ihracat ve karşılıklı ihracat performanslarının analiz edildiği çalışmada ülkelerin ihracat performanslarını ölçmek amacıyla AKÜ (Açıklanmış Karşılaştırmalı Üstünlükler İndeksi) kullanılmıştır. Fasıllara göre ticaret rakamlarının kullanıldığı analizde seçilen fasıllar canlı hayvanlar ve mahsulleri, bitki menşeli ürünler, hayvansal ve bitkisel yağlar, hazır gıda mahsulleri alkollü alkolsüz içkiler, petrol ürünleri, kimyasal mahsuller, plastik ürünler, demir, çelik, bakır, alüminyum, çinko, kalay ve bunlardan mamul eşya ve mahsulleridir.

İlk olarak ülkelerin söz konusu fasıllardaki ihracat ve ithalat rakamları ile toplam ihracat ve ithalat rakamları kullanılarak hesaplanan AKÜ indekslerinin sonuçlarına göre, canlı hayvanlar ve mahsulleri, bitkisel ürünler, hayvani ve bitkisel yağlar, hazır gıda ürünleri alkollü alkolsüz içkiler, plastik mamulleri ve demir çelik fasıllarında Türkiye'nin ticaret performansı yüksek iken, petrol ürünlerinde ve 2005 yılı hariç kimya ürünlerinde Azerbaycan'ın ticaret performansının yüksek olduğu saptanmıştır. Çıkan sonuçlar bağlamında Türkiye ekonomisindeki bitki menşeli ürünlerde 2007 – 2008 yıllarındaki düşüş, Azerbaycan ekonomisinde petrol ürünlerindeki 2008 yılındaki artış önemli ve dikkat çekici noktalardır.

Sonuç olarak coğrafi sınır, kültürel yakınlık ve ticaret ilişkileri açısından bağları bulunan Türkiye ve Azerbaycan Devletleri'nin ticaret ilişkilerini daha yukarı noktalara taşımaları gerektiği aşikârdır. Bunun yanında Türkiye ekonomisinin yüksek enerji bağımlılığı ve Azerbaycan'ın önemli petrol ihracatçısı olması ticaret ilişkilerinde belirleyici konumundadır.

**KAYNAKÇA**

Bayramoğlu, Z. (2007), "Türkiye ve Azerbaycan Arasında Tarımsal Ürünlerin Dış Ticaret Potansiyeli ve Karşılaştırmalı Üstünlükleri", Journal of Azerbaijaini Studies, <http://www.jas-khazar.org/wp-content/> s.740, 28.08.2012.

Bayülgen, O. (2003), " Facingthe Dilemma of Global Capitalism: the Case of Azerbaijan", Central AsianSurvey, Cilt:22, Sayı:2/3, s.209.

Benli, A. O. (2008), "Azerbaycan Cumhuriyeti Ülke Raporu", T.C. Başbakanlık Dış Ticaret Müsteşarlığı İhracatı Geliştirme Etüd Merkezi, s.4.

DEİK / Türk–Azerbaycan İş Konseyi, (2011), "Azerbaycan Ülke Bülteni", s.13.

Dikkaya, M. ve Çaylak A. (2008), "Haydar Aliyev Döneminde Azerbaycan'ın Ekonomik ve Politik Dönüşümü: Fırsatlar ve Sorunlar", *Uluslararası Stratejik Araştırmalar Kurumu,* OAKA, Cilt:3, Sayı:5, s.133.

Erkan, B. ve Kara, O.(2011), "Türkiye'nin Emek Yoğun Mal İhracatındaki Karşılaştırmalı Üstünlüklerin Makro Ekonomik Büyüklüklerle İlişkisi", *Ekonomik ve Sosyal Araştırmalar Dergisi*, Bahar (2011), Cilt 7, Sayı 1, s.67-93.

Erlat, G. ve Erlat, H. (2012), "Türkiye'nin Orta Doğu Ülkeleri İle Olan Ticareti (1990-2002)", *Türkiye Ekonomi Kurumu Tartışma Metni,* s.9.

Hüseynov, V. (2009), "Türkiye-Azerbaycan Ticari İlişkileri ve Geliştirilmesine Yönelik Öneriler", Yayınlanmamış Yüksek Lisans Tezi, Marmara Üniversitesi Sosyal Bilimler Enstitüsü, İstanbul, s.52.

Kaya, A. A. (2006), "İmalat Sanayi İhracatında Uzmanlaşma: Türkiye-Avrupa Birliği Analizi (1991-2003)", *Ege UniverstyWorkingPapers in Economics,* No:06/05, s.1-10.

Kök, R. ve Çoban, O. (2005), "Türkiye Tekstil Endüstrisi ve Rekabet Gücü: AB Ülkeleriyle Karşılaştırmalı Bir Analiz Örneği (1989-2001)", *İktisat/İşletme ve Finans Dergisi*, C:20, s.70-80.

Kösekahyaoğlu, L. ve Özdamar, G. (2009), "Avrupa Birliği'ne Üyelik Sürecinde Türk İmalat Sanayinin Rekabet Gücündeki Değişimler", *Süleyman Demirel Üniversitesi İ.İ.B.F. Dergisi,* C.14, S.1, s.17-30.

Kösekahyaoğlu, L. ve Özdamar, G. (2011), "Türkiye, Çin ve Hindistan'ın Sektörel Rekabet Gücü Üzerine Karşılaştırmalı Bir İnceleme", *Uludağ Üniversitesi İ.İ.B.F. Dergisi,* Cilt XXX, S.2, s.29-49.

Seyidoğlu, H. (2009), *Uluslararası İktisat*, İstanbul: Güzem Can Yayınları, No:24, s.20.

Somuncuoğlu, T. (2012), "Azerbaycan Ülke Raporu", Ankara, s.12.

Şimşek, N. vd. (2007), "Turkey'sCompetitiveness in the EU Market: A Comparison of DifferentTradeMeasures", *EuropeanTradeStudyGroup (ETSG) 9thAnnualConferance,* 2007 Atina, s.1-44.

Utkulu, U. ve Seymen, D. (2004), "RevealedComparative Advantage andCompetitiveness: EvidenceforTurkeyvisa-a-visthe EU/15" *EuropeanTradeStudyGroup 6th AnnualConferance, ETSG 2004,* Nottingham, 9-11 September.

Utkulu, U.(2005), "Türkiye'nin Dış Ticareti ve Değişen Mukayeseli Üstünlükler", *Dokuz Eylül Üniversitesi Yayınları,* İzmir, s.29.

Yılmaz, R. (2010), "Türkiye-Azerbaycan İlişkilerinde Son Dönem", *Bilge Adamlar Stratejik Araştırmalar Merkezi*, Cilt:2, Sayı:2, s.23.

http://www.dpt.gov.tr 10.09.2012.

www.birlesmismarkalar.org.tr/images/UF/ulke-raporlari/Azerbaycan.pdf, 22.09.2012.

# ELEKTRON HÖKUMƏT: DÖVLƏT VƏ VƏTƏNDAŞLARIN YÜKSƏLƏN İQTISADİ VƏ HAKİMİYYƏT MÜNASİBƏTLƏRİ

***Prof. Dr. Elşən HACIZADƏ***
*Azərbaycan Dövlət İqtisad Universiteti, elshan@hajizadeh.co*

**Xülasə**

Məqalə informasiya-kommunikasiya texnologiyaları və «elektron hökumət» infrastrukturu kontekstində dövlət və vətəndaşların iqtisadi və hakimiyyət münasibətlərinin inkişafının təhlili və qiymətləndirilməsinə həsr olunmuşdur. Burada geniş aspektdə tədqiqat predmeti ilə bağlı nəzəri və təcrübi araşdırmalar, sahəvi normayaratma problemlərinin təhlili, «elektron hökumət» fenomeninin sosial-iqtisadi inkişafa təsiri, habelə qlobal çağırışlardan irəli gələrək «Elektron Azərbaycan» institusional yaranışının vətəndaşların iqtisadi və hakimiyyət münasibətlərinin yeni paraqdiqmasının formalaşmasında və milli sahibkarlığın və biznesin inkişafındakı rolu və əhəmiyyəti məsələləri öz əksini tapmışdır. Tədqiqat prosesində metodoloji alət kimi təhlilin amilli, qiymətləndirmə və statistik metodlarından istifadə olunmuşdur. Tədqiqat nəticələrinin milli «elektron hökumət» təsisatlandırmalarının genişləndirilməsi strategiyasının və «Azərbaycan - 2020» Gələcəyə Baxış İnkişaf Konsepsiyasının hazırlanması istiqamətində istifadə imkanlığı nəzərdə tutulur.

**Açar sözlər:** Azərbaycan iqtisadiyyatı, informasiya-kommunikasiya texnologiyaları, «elektron hökumət», sosial-iqtisadi effektivlik, elektron biznes.

## Electron government: increased economic and governmental affairs of state and citizens

**Abstract**

The article devoted on analyses and evaluation of the development of economic and governmental affairs of state and citizens on context of information-communication and «Electron-government» infrastructure. The problems of theoretical and practical researches, analyses of the branch norm creation problems, influence of the «electron-government» phenomena to the social-economic development, the role and importance of «Electron Azerbaijan» institutional creation in the formation of the new paradigm of the economic and government affairs and the development of the national ownership and business of citizens found its reflection in wide range herein. The factor of analyses, valuation and statistic methods used as the methodological instruments in the research process. The usage possibilities are implied in the direction of the broaden strategy of the national «electron-government» institution of the research results and Future of Vision development Conception.

**Key words:** Azerbaijan economy, information-communication technology, “electron-government”, social-economic effectiveness, electron business.

**JEL Classification Codes:** *A13, D83, E02, L86*

## Giriş

Bəşəri sivilizasiyanın ayrı-ayrı inkişaf mərhələlərində mühüm yeni yaranışlar hər zaman köklü epoxial dəyişikliklərlə müşayiət olunmuşdur. Bu baxımdan hazırkı məqamda internetin inkişafı, ondan irəli gələrək cəmiyyətin bütün təbəqələrində geniş informatizasiya proseslərinin gedişi müasir informasiya cəmiyyətinin formalaşmasına təkan vermişdir. Bu proseslər radiotexnikada, mikroprosessorların, hesablama texnikasının inkişafında və bir sıra sosial elm sahələrində informasiya-kommunikasiya texnologiyalarının (*İKT*) sürətli artımı ilə baş verən digital (*rəqəmsal*) inqilabdan qaynaqlanmışdır. Nəticədə texniki vasitə və metodları, yeni biliklərin istehsalı texnologiyaları və müvafiq infrastruktur sistemləri ilə bağlı tam bir sənaye şəbəkəsi - informasiya industriyası formalaşmışdır. Buna rəğmən bir sıra müvafiq

tənzimləyici qurumlar təşkilati islahatlar apararaq institusional struktur yenidənqurmasını gerçəkləşdirmişlər.

Bütün dünyada müasir informasiya cəmiyyətinə keçid prosesində biznes strukturları qətiyyətlə müəyyən etmişlər ki, İKT korporativ idarəetməni optimallaşdırmaq, transsaksion xərcləri azaltmaq, müştəri ilə işləmənin keyfiyyətini artırmağa geniş imkanlar açır. Mühüm idarəetmə strukturları və xüsusi dövlət xidmətləri göstərən qurumlar olan dövlət orqanları şəbəkəsində İKT inzibati idarəetmənin səmərəliliyini yüksəldən, ictimai prosesləri tənzimləyən, büdcə vəsaitlərini səmərəli məsrəf edən və dövlət aparatı xərclərini azaldan bir sistem kimi əhəmiyyətini artırır (Hacızadə, 2006: 42-43. 125). İKT həmçinin innovasiyaları genişləndirən, inteqrsaiya proseslərinə yeni dəyər gətirən keyfiyyətliliyi ilə də fərqlənir. Elə buna görədir ki, Moskvada 2011-ci ilin dekabrında MDB Dövlət Başçıları Şurasının qeyri-rəsmi iclasında rabitə və İKT istiqamətində işbirliyi üzv ölkələrin 2012-ci ildə iqtisadi sahədə əməkdaşlığının əsas prioriteti kimi müəyyənləşdirilmişdir (www.president.az).

Respublikamızda İKT sahəsində geniş fəaliyyətlərə ümummilli lider Heydər Əliyev tərəfindən qəbul edilən (*Azərbaycan Respublikası Prezidentinin 17.02.2003 tarixli 1146 №-li sərəncamı*) Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (*2003-2012-ci illər*) ilə təkan verilmişdir. Milli Strategiyanın əsas məqsədi İKT-dən geniş istifadə olunmaqla ölkənin demokratik inkişafına təkan vermək və informasiya cəmiyyətinə keçidi təmin etməkdir. Prezident İlham Əliyevin İKT istiqamətində imzaladığı çoxsaylı fərman və sərəncamlarla ölkədə informasiya cəmiyyətinə keçid yeni mərhələyə qədəm qoymuşdur. Cənab prezidentin «Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci və 2010-2012-ci illər üçün Dövlət Proqramı»nın (Elektron Azərbaycan)» təsdiq edilməsi haqqında (*Azərbaycan Respublikası Prezidentinin 21.10.2005 tarixli 1055 №-li və 11.09.2010 tarixli 1056 №-li sərəncamları*) sərəncamlarıyla isə ölkədə İKT sahəsində mühüm və əhəmiyyətli bir infrastruktur formalaşdırılmışdır. Hazırda müvafiq proqramlar çərçivəsində dövlət orqanlarının fəaliyyətinin səmərəliliyini artıran, əhaliyə və özəl qurumlara keyfiyyətli informasiya xidmətləri göstərən «Elektron hökumət»in tam fəaliyyətləndirilməsi istiqamətində işlər davam etdirilir. Bunun üçün isə konkret olaraq (*Azərbaycan Respublikasının Prezidentinin 13 iyul 2012-ci il tarixli 2187 №-li Sərəncamı*) Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaradılmışdır. Geniş aspektdə bu agentliyin təsisatının məqsədi dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılmasını, vətəndaşlara göstərilən xidmətlərin daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsini, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsini, vətəndaş məmnunluğunun təmin olunmasını, dövlət orqanları tərəfindən göstərilən xidmətlərin təkmilləşdirilməsini, elektron xidmətlərə keçidin sürətləndirilməsini ehtiva edir (www.president.az, www.e-qanun.az).

Çağdaş zamanda «Elektron hökumət» dünya hökumətlərinin fəaliyyətini gücləndirərək onun səmərəliliyini artıran müasir mexanizmlərdən biri kimi çıxış etməkdədir. Bu istiqamətdəki inkişaf meyilləri həyatımızın bütün sahələrinə nüfuz edir. «Elektron hökumət» yeni institusional sistem olaraq «hökumət-vətəndaş», «hökumət-hökumət», «hökumət-biznes» əlaqələrinin yaradılmasına təkan verir. Onun sosial effektivliyi, biznes mühütinin inkişafına təsiri və özünün çoxfunksional bir İKT məhsulu olması həm də bu sferada tədqiqatlara geniş meydan açır. Bundan irəli gələrək, məqalədə «Elektron hökumət»in funksional təyinatının,

dövlət və vətəndaşların iqtisadi və hakimiyyət münasibətlərinin inkişafının təhlili və qiymətləndirilməsi, həmçinin müvafiq sahədəki iqtisadi və sosial effektivlik məsələləri tədqiqat predmetinə çevrilir.

**«İnformasiya-kommunikasiya texnologiyaları və «Elektron hökumət» fenomeni**

«İnformasiya-kommunikasiya texnologiyaları» ifadəsinin hər üç struktur sözü latın mənşəlidir. «İnformasiya» - (*latınca - informatio - məlumat vermə, ifadəetmə, aydınlaşdırma*) - təqdimat formasından asılı olmayaraq hər hansı bir şey haqqında məlumatı ifadələndirir. «Kommunikasiya» - (*latınca - communicate - rabitə*) məlumat və rabitə vasitəsi kimi şərh edilir. «Texnologiya» - (*latınca - techne - sənət, ustalıq, bacarıq və logos - söz, təlim, oyrənmə*) maddənin enerjiyə çevrilməsi, informasiyanın hazırlanması, ötürülməsi, materialın emalı, hazır məhsulun yığılması, keyfiyyətə nəzarət, idarəetmə və s. bu kimi təyinatlara malikdir. Ümümilkdə ifadədə isə «İnformasiya-Kommunikasiya Texnologiyaları» - informasiyaların təsbit olunmasını, onun emalını və mübadiləsini təmin edən texnologiyalar məcmusu kimi anlaşılır (Козырев, 2000: 34-35, www.itu.int). İKT olaraq həmçinin mikroprosessorlar və hesablama texnikası bazasında aparat-proqram avadanlıqlar, qurğular və elektron informasiyanın yaradılması, yığılması, saxlanması, ötürülməsi sisteminin müasir vasitələri də nəzərdə tutulur. Buraya kompüterlər, proqram təminatları, şəbəkə infrastrukturu, elektron rabitə vasitələri və s. daxildir. Bu baxımdan İKT həm də iqtisadi və sosial məzmun kəsb etməkdədir (Потемкин, 2000: 34, 234-238). Xüsüsi olaraq qeyd edilməlidir ki, 2002-ci ilin 20 dekabr tarixində BMT Baş Assambleyasının 57/295 saylı «İnkişaf naminə informasiya kommunikasiya texnologiyalarının istifadə olunması» qətnaməsində məhz bu məsələlər önə çəkilərək İKT-nin sosial-iqtisadi həyatın bütün bölmələrində təsirindən bəhs edilir (www.un.org).

«Elektron hökumət» (*ingiliscə - e-Government*) qlobal sferada əsrlərin qovşağında formalaşmağa başlamışdır (Голобуцкий, Шевчук. 2007: 23-24). Mahiyyətcə o, yaşadığımız informasiya cəmiyyətinin əsas elementlərindən biri olaraq konstitusiyalı dövlətin inkişafının yeni mərhələsini ifadə edir. Sadələşdirilmiş təqdimatda «Elektron hökumət»i hökumət orqanları ilə vətəndaşların qarşılıqlı münasibətlərində yeni informasiya texnologiyalarından istifadə etməyə imkan verən müvafiq kommunikativ infrastrukturun yaradılması kimi də səciyyələndirmək olar. Burada texniki tərəflə yanaşı prinsipial cəhət üstün olaraq huquqi-siyasi aspektlidir.

«Elektron hökumət»i maksimal yığcam təyinatda «dövlət xidmətlərinin təqdimatının avtomatlaşdırılması prosesi» kimi də xarakterizə etmək olar (Иванова. 2009: 42).

Dünya Bankı tərəfindən «elektron hökumət» «informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə hökumətin səmərəliliyi, qənaətciliyi və şəffaflığı artıran və onun üzərində ictimai nəzarət imkanları verən vasitə» kimi anlaşılır (www.worldbank.org).

İnformasiya texnologiyaları bazarında tədqiqat və konsaltinq kompaniyası olaraq ixtisaslaşmış «Gartner Group» «elektron hökumət»i «xidmətlərin təqdimatının fasiləsiz optimallaşdırması, ictimaiyyətin dövlət idarəetməsi və daxili proseslərdə iştirak səviyyəsinin artırılması məqsədi ilə texniki vasitələr, internet və müasir kütləvi informasiya vasitələri imkanlarından istifadə əsasında dövlət orqanlarının daxili və xarici münasibətlərinin dəyişdirilməsi» kimi müəyyən edir (http://www.gartner.com/technology/home.jsp).

Müasir dövrdə İKT-nin inkişafı kargüzarlığın normariv bazasını genişləndirməklə və

real elektron sənədlərin hüquqi əsasını artırmaqla sənəd dövriyyəsində ənənəvi kağız daşıyıcılarından istifadəni xeyli məhdudlaşdırmışdır. Elektron imzanın tətbiqi ilə isə elektron idarəetmə sistemi daha da təkmilləşdirilmiş, onun nəzarət mexanizminin sadələşməsi və mükəmməlləşməsinə yeni imkanlar yaradılmışdır.

«Elektron hökumət»in məqsədi bir neçə iqtiqamətlərdə əhatə olunur. Buraya əhaliyə İnternet şəbəkəsində inteqrir formada xidmətlərin təqdimatı, informasiya bərabərsizliyinin aradan qaldırılması, bütün həyatı boyu insanlara öyrənmək, oxumaq imkanlarının açılması, iqtisadiyyatın inkişafına yardımçı olması, zaman maneələrini təcrid edən müqabil idraklı qanunların işlənməsi, daha çox vətəndaşın iştirakınına təminat verən idarəetmə formalarının yaradılmsı və s. daxildir. Vətəndaşlara və biznesə hökumət xidmətlərinin təqdimatının optimallaşdırılması, seçicilərin ölkəyə rəhbərlik və idarəetmə proseslərində iştirak səviyyəsinin yüksəldilməsi, vətəndaşların özünəxidmət imkanlarının dəstəklənməsi və genişləndirilməsi, onların ixtisasının və texnoloji məlumatlandırılmasının artımı, coğrafi yerləşmə amilinin mülayimləşdirilməsi kimi mühüm komponentlər də «elektron hökumət»in məqsədini ehtiva edir. Bu məqsədləri gerçəkləşdirmək üçün informasiya cəmiyyəti qanunvericilik qarşısında vətəndaşların identifikasiyası və onların şəxsiyyətinin təsdiqi, konfidensiallıq və göstəricilərin mühafizəsi, elektron kommersiyada vergiqoyma, kiber-məkanda hüqaqü münasibətlər, kiber-cinayətkarlıq və kiber-terrorizm kimi yeni çoxsaylı problemlər qoyur (Голобуцкий, Шевчук. 2007: 120-124). Bundan irəli gələrək, dövlət bütün növ elektron əməliyyatlara etibar etmək, iqtisadi inkişaf və informasiya konfidensiallığının təminatı arasında zəruri tarazlığı saxlamaqla yeni çevik qanunvericilik formalaşdırmalıdır.

### Dövlət və vətəndaşların iqtisadi və hakimiyyət münasibtlərinin təkmilləşməsi aspektəri

«Elektron hökumət»i ənənəvi hökumətin analoqu və ya əlavəsi kimi dəyərləndirməməli. Belə ki, o, İKT-dən fəal istifadə etməklə bu sferada dövlət xidmətlərinin səmərəliliyinin artırılması məqsədi ilə yeni qarşılıqlı münasibətlər sistemini təyin edir. Bu inkişaf dövlət və vətəndaşların iqtisadi və hakimiyyət münasibətlərinin təkmilləşməsində əks olunur.

Təcrübü reallıqlar «elektron hökumət»in tətbiqinin üç mərhələ üzrə formalaşdığını təsdiq edir:

Birinci (*aşkarlıq*) mərhələdə İKT vasitələri genişlənərək vətəndaşların, müəssisə və təşkilatların hakimiyyət orqanlarının informasiyalarına girişini asan və çevik edir. Bu mərhələ həmin orqanların öz veb saytlarının açılması və orada təqdimat informasiyalarının, sahəvi normativ-hüquqi aktların, zəruri sənədlərin formalarının, statistik və iqtisadi göstəricilərin yerləşdirilməsi ilə təmin olunur.

Əməliyyatların emalının real vaxt ərzində reallaşdırıldığı (*onlayn-tranzaksiya*) ikinci mərhələdə dövlət xidmətləri (*ərizələrin təqdimatı və icazələrin alınması, torpaq sahələrinin, daşınmaz əmlakın, vergi bəyannamələrinin qeydiyyatı və s.*) onlayn rejimdə təqdim edilir. Bu mərhələdə dövlət xidmətlərinin elektron formada (*e-services*) göstərilməsi bürokratik və əməktutumlu proseslər optimallaşdırılır və korrupsiya miqyaslarını kiçildir.

Üçüncü (*iştirak*) mərhələdə ictimaiyyətin dövlət idarəetməsində iştirakı, dövlət siyasətinin bütün hakimiyyət həlqələrində formalaşması, vətəndaşların və şirkətlərin qarşılıqlı münasibətləri interaktiv sistemdə təmin edilir. Bu mərhələdə normativ və qanunvericilik aktları veb-forumlarda müzakirə olunur.

«Elektron hökumət» modelində qarşılıqlı münasibətlər əsasən üç sferaya ayrılır (Иванова. 2009: 113-115):

1.G2C - dövlət və vətəndaşlar arasında (*Government-to-Citizen*);

2.G2B - dövlət və biznes arasında (*Government-to-Business*);

3.G2G - dövlət hakimiyyətinin ayrı-ayrı qolları arasında (*Government-to-Government*);

Buraya dördüncü sfera olaraq G2E - dövlət və dövlət qulluqçuları arasında (*Government-to-Employees*) münasibətlər də qatılır.

Bu qarşılıqlı münasibərtləri matrisa formasında aşağıdakı kimi təqdim etmək olar:

***Şəkil 1***

**«Elektron hökumət»də virtual qarşılıqlı münasibətlər matrisası**

| **İştirakçılar** | **Vətəndaşlar** | **Hökumət** | **Biznes** | **Dövlət qulluqçuları** |
|---|---|---|---|---|
| ***Vətəndaşlar*** (C) | C2C | C2G | C2B | C2E |
| ***Hökumət*** (G) | G2C | G2G | G2B | G2E |
| ***Biznes*** (B) | B2C | B2G | B2B | B2E |
| ***Dövlət qulluqçuları*** (E) | E2C | E2G | E2B | E2E |

**Mənbə:** Голобуцкий А., Шевчук О. (2007) Электронное правительство. М.: Знание,

materialları əsasında müəllif tərəfindən işlənmışdir.

Özəl qurumların dövlət orqanları ilə internet vasitəsi ilə qarşılıqlı əlaqəliyi onların rəqabətqabiliyyətini artırır, müxtəlif rəsmi prosedurların sadələşdirilməsinə imkanlar yaradır, kargüzarlıq işlərinin kəmiyyətini azaldır. İnternet vasitəsi ilə elektron formada sənədlərin dövriyyəsi vergilərin ödənişi, statistik hesabatların təqdimatı şirkətlərin qanunvericiliyə əməl etməsini asanlaşdırır və fəaliyyət səmərəliliyinin yüksəldilməsində əhəmiyyətini artırır. Bununla belə, dövlət xidmətlərinin səmərəliliyinin artırılması məqsədi ilə yeni qarşılıqlı münasibətlər sistemini təkmil formaya salmaq üçün həmin xidmətlərin təqdimat sayı optimal həddə gətirilməli və onların keyfiyyətliliyi artırılmalıdır. Avropa İttifaqı 265 xidmətin elektronlaşması və əhali tərəfindən istifadəsini standart olaraq önə çıxarır (www.europa.eu.int). Belə optimallq vətəndaş və biznes aktivliyini artıran iqtisadi və sosial inkişafı davamlı edən şərt kimi irəli sürülür. Bu isə bir daha onu göstərir ki, müasir mərhələdə dövlət və vətəndaşların iqtisadi və hakimiyyət münasibətlərinin yeni paradiqmasının tam formalaşması üçün daha optimal sayda xidmətin elektronlaşdırılması vacibdir.

Beləliklə, «Elektron hökumət» yalnız daha çox effektivli və daha az məsrəfli inzibatçılığı təmin etmir, o həm də ictimaiyyətlə hökumət arasında münasibətlərin köklü dəyişməsini stimullaşdırır. Nəticə etibarı ilə bu fenomen ölkədə demokratiklləşməni təkmilləşdirir və hakimiyyətin xalq qarşısında məsuliyyətini artırır. «Elektron hökumət»in ölkədə tətbiqi cəmiyyət və hakimyyət arasında konstruktiv elektron dialoqa rəğmən münasibətləri harmonikləşdirərək narazılıqları azaldır və siyasi qarşıdurmanı mülayimləşdirir. Bununla da, internet vasitəsi ilə dövlətin cəmiyyətin bütün struktur və institutlarına (*ictumai qruplar və təşkilatlar, fəal vıətəndaşlar, biznes, təhsil və elmi-tədqiqat institutları və s.*)

qarşılıqlı təsirinə əsaslanan yeni idarəetmə paradiqması formalaşır.

«Elektron hökumət»in hərtərəfli inkişafı istiqamətində bir sıra maneələrin açılması da vacibdir. Belə ki, ilk əvvəl çalışılmalıdır ki, elektron xidmətlər ənənəvi «kağız» prosedurlarda olduğu kimi genişliklə yerini taparaq qəbul edilsin. Xidmətlərin onlayn rejimdə təqdimatı öncəsi onların kəsərli təhlükəsizlik və konfidensiallıq elementləri ilə mühafizəsi də bu sırada zəruri hesab olunur. Digər bir problem bu sferada hüquqi normaların və standartların qəti müəyyən edilməsi ilə bağlıdır. Təcrübə göstərir ki, İKT-nin yüksək inkişaf templəri onların tətbiqi sferasındakı normayaratma prosesini daim üstələyir. Büdcə normativləri də «elektron hökumət» üzrə təşəbbüsləri məhdudlaşdırır (Иванова. 2009: 219-220). Bundan irəli gələrək də bir sıra iqtisadi inkişaf etmiş ölkələrdə müvafiq fondlar təsis edilir. Bu reallıq isə onu əsaslandırır ki, iqtisadi obyektivlik baxımından İKT sahəsinə yönələn xərclərə gələcək mənfəəti və maliyyələşmıəni təmin edən invesitiyalar kimi baxılmalıdır.

İKT inkişaf etdikcə isə «bir qapı» prinsipinə əsaslanan «elektron hökumət»in funksionallığı daha da genişlənəcək və ənənəvi veb-servisləri üstələyən, istifadəçilərin özləri tərəfindən inkişaf etdirilən və yaxşılaşdırılan internetin və softun yeni «Web 2.0» nəsli daha geniş sferada reallaşacaqdır. Bu texnoloji nailiyyətlər siyasi kommunikasiyanın da imkanlarını genişləndirəcək, hökumətlə vətəndaşlar və biznes arasında inteqrasiyanın daha mütərəqqi formalarının yaranmasına təkan verəcəkdir.

**«Azərbaycan - 2020» Gələcəyə Baxış İnkişaf Konsepsiyası və təkmilləşən milli İKT infrastrukturu**

Ötən iki onillik müddət ərzində ölkəmizdə dövlət quruculuğu istiqamətində çox mühüm keyfiyyət dəyişiklikləri baş vermiş, dövlət aparatının institusional sistemi inkişaf etmiş və daha da təkmilləşmişdir. Bu dövr ərzində iqtisadiyyatımız 20 dəfə artmışdır. Hazırda isə Azərbaycan ictimai həyatın bütün istiqamətləri əhatə olunan innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması və bu perspektivdə güclü sosial irəliləyişləri sürətləndirən inkişafın yeni mərhələsinə qədəm qoyur. İnkişafın bu mərhələsi yaxın on ildə ÜDM-in daha iki dəfə artırılması ilə müşayiət olunacaqdır. Bu yüksəlişi hərtərəfli təmin etmək üçün Azərbaycan Respublikası Prezidentinin sərəncamına müvafiq olaraq «Azərbaycan - 2020» Gələcəyə Baxış İnkişaf Konsepsiyası hazırlanmaqdadır (www.president.az, www.e-qanun.az). Hesab olunur ki, bu konsepsiyada İKT sektoru mühüm tutum əldə edəcəkdir. Bu qənaəti ölkə prezidentinin «neft faktorunu insan kapitalına çevirək» tezisi və bundan irəli gələrək informasiya texnologiyalarının respublikada prioritet sahə elan olunması strategiyası bir daha əsaslandırır.

Hazırda informasiya texnologiyalarının qlobal sosial-iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsinə çevrilmişdir. Müasir zamanda İKT sektoru mültiplikativ effektivliyi ilə daha çox fərqlənərək dünya ÜDM-ində mühüm pay yüksəlişləri əldə edir. Buradakı sürət hər beş ildə iki dəfə artan yüksəliş templəri ilə ölçülür (www.mincom.gov.az, Рекитар, Демидова, 2001: 57, Костельс Мануель, 2000: 78-79).

İKT sahəsində Azərbaycanda da sürətli inkişaf müşahidə olunur. Müasir mərhələdə İKT sosial-iqtisadi sistemin bütün sahələrinə və insanların gündəlik fəaliyyətinə sürətlə nüfuz edərək, ictimai-iqtisadi münasibətlərin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Hazırda respublikada informasiya cəmiyyətinin bərqərar olması və bunun tərkib hissəsi kimi İKT-nin geniş tətbiq edilməsi istiqamətində sistemli fəaliyyət aparılır. Bunun nəticəsidir ki, son 5 ildə

İKT sektorunda əlavə dəyər 2,1 dəfə artmış və Azərbaycan müvafiq səhəvi göstəricilərə görə bir çox inkişaf etmiş ölkələri geridə qoymuşdur. İKT-nin inkişaf indeksləri üzrə qlobal mənzərəyə baxdıqda görərik ki, Azərbaycan 2008-2010-cu illər arasında ən sürətlə inkişaf edən 10 ölkədən biri olmuş, «İKT-nin inkişafı indeksi» üzrə 154 ölkə arasında 74-cü yerdə, «Texnoloji hazırlıq indeksi» üzrə isə 2010-cu ildə 70 ölkə sırasında qərar tutmuşdur (www.itu.int, www.weforum.org). 2012-ci il Dünya İqtisadi Forumunun hesabatına əsasən «Gələcək üçün dövlətə İKT-nin vaciblik indeksi» üzrə 142 ölkə arasında 14-cü, «Şəbəkə hazırlığı indeksi»nə görə 61-ci yeri, «Qlobal rəqabətqabiliyyətlilik indeksi»nə görə 55-ci, «İnnovasiyaların tətbiqi üzrə reytinq»də 52-ci yeri tutur (www.weforum.org).

Statistika göstərir ki, 2011-ci ildə ölkədə İKT sektorunda fəaliyyət göstərmiş müəssisələr tərəfindən 1,236 milyard manat məhsul istehsal olunmuş 0,742 miyard manatlıq əlavə dəyər yaradılmışdır. 2020-ci ildə respublikanın İKT sahəsindən 9,3 milyard manat gəlir əldə edəcəyi gözlənilir. İstehsal sahəsinin hazırkı (*2011-ci il*) İKT strukturunda 9,54%-lik payı 2020-ci ildə 25%-ə yüksələcək, onun ÜDM-dəki hazırkı 2,5% tutumu isə 2020-ci ildə 10%-i aşacaqdır. İKT sahəsinə yönələn investisiyaların $7,2 milyad təşkil edəcəkdir. Ümumiyyətlə, 2020-ci ilədək İKT sektorunun 5 dəfə artması gözlənilir (www.azstat.org, www.mincom.gov.az).

Azərbaycanda İKT-nin davamlı inkişaf etdirilməsi üçün bir sıra vəzifələrin həlli vacib hesab olunur. Burada ilk növbədə telekommunikasiya, xüsusən də genişzolaqlı internet inkişaf etdirilməli, sahəvi infrastruktur təkmilləşdirilməli, İKT-nin özünün iqtisadiyyatın digər sektorlarda rolu və əhəmiyyətinin artırılması istiqamətdə adekvat layihələr həyata keçirilməlidir. İKT sektorunda ixrac yönümlü istehsal da stimullaşdırılmalı, burada xüsusi vergi və gömrük siyasəti həyata keçirilməli, konkret olaraq vergi güzəştləri tətbiq olunmalı, gömrük rüsumları optimallaşdırılmalıdır. Rentabelliliyi və reinvestisiya imkanlığı ilə fərqlənən fiberoptik infrastrukturun inkişafı da diqqətdən yayınmamalıdır. Bu gün ölkə ərazisinin 75%-ni əhatə edən fiberoptik kanallar şəbəkəsi tam maksimal həddə genişləndirilməlidir. Burada İnformasiya Texnologiyaları İnkişafı Dövlət Fondu (*İTİDF*) ilə yanışı ölkədə fəaliyyət göstərən digər dövlət investisiya qurumlarının (*ARDNF, Sahibkarlığa Kömək Milli Fondu, Azərbaycan İnvestisiya Şırkəti və s.*) imkanlarından genişliklə istifadə olunmalı, İKT sahəsi üzrə sahibkarlığa dəstək gücləndirilməli, innovativ layihələr həyata keçirən startap kompaniyaların (*Start-up*) maliyyələşdirilməsinə, onlara vençur investisiyaların yönəldilməsinə üstünlüklər verilməlidir.

Statistik tədqiqatlar göstərir ki, İKT-nin 10% inkişafı iqtisadiyyatın 1% inkişafına təkan verir. Azərbaycanda isə bu sahədəki inkişaf templəri daha uğurlu hesab edilir. Belə ki, ölkə üzrə buradakı inkişaf sürəti müqabil ümumdünya göstəricilərini 2-3 dəfə qabaqlayır (www.itu.int). Lakin bu nəticələrlə kifayətlənməməli, informasiya cəmiyyətinin artan tələblərindən irəli gələrək dövlət informasiya sistemlərinin inkişafı, İKT məhsulları üzrə yerli istehsal və ixrac potensialının gücləndirilməsi, ayrı-ayrı sahələr üzrə İKT-nin tətbiqinin genişləndirilməsi, normativ hüquqi, texniki və texnoloji baza təkmilləşdirilməli və sahəvi kadr hazırlığı daim diqqət mərkəzində saxlanılmalıdır.

**«Elektron Azərbaycan»**

Azərbaycanda «elektron hökumət» layihəsi Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı

(Elektron Azərbaycan) çərçivəsində həyata keçirilir (*Azərbaycan Respublikası Prezidentinin 11.08.2010 tarixli 1056 №-li sərəncamı*). Tutumluluğu və uzaq hədəfliliyi ilə fərqlənən həmin Dövlət proqramı mütləq əksəriyyətlə respublika üzrə bütün dövlət qurumlarını əhatə edir.

«Elektron hökumət»in özəl qaynaqları «Informasiya əldə etmək haqqında» qanunda da öz əksini tapıb. Həmin Qanuna əsasən, dövlət qurumları sahibi olduqları ictimai məlumatları açıqlamaq üçün ən qısa zamanda özlərinin internet resurslarını yaratmalıydılar. Bu çox mühüm bir vəzifədir. Tələblər bələdir ki, heç bir dövlət qurumu «elektron hökumət» infrastrukturundan kənarda qalmamalı, dövlət və vətəndaşların iqtisadi və hakimiyyət münasibətlərinin yeni inkişaf mərhələsinin fəal iştirakçıları olaraq çıxış etməlidirlər. Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi (*RİTN*) isə bu fəaliyyətlərə texniki-texnoloji tənzim verən mühüm orqan kimi bu infrastrukturun təkmilliyini daim nazərətdə saxlamalı və inkişaf etdirməlidir. Bunlardan irəli gələrək, RİTN tərəfindən həyata keçirilən «Elektron hökumət dövlət informasiya sistemi» layihəsi çərçivəsində dövlət orqanlarının məlumat bazaları və informasiya sistemlərinin inteqrasiyası, vətəndaşların müraciətlərinin dövlət orqanlarına çatdırılması, həmçinin, elektron xidmətlərin «bir pəncərə» prinsipi əsasında təşkili və istifadəsi ilə bağlı «elektron hökumət» şlüzü və «elektron hökumət» portalı (*sayt - http://e-gov.az*) yaradılmışdır. Bu infrastrukturlar dövlət orqanlarının informasiya sistemləri arasında təhlükəsiz əlaqələrin yaradılması, sorğuların verilməsi, cavablandırılması və elektron xidmətlərin göstərilməsi zamanı dövlət orqanları tərəfindən aparılan informasiya sistemlərində mövcud olan sənədlərin vətəndaşlardan istənilməməsini təmin edir. Hazırda **30-dan çox dövlət qurumu** «Elektron hökumət» şlüzünə qoşulmuşdur (www.mincom.gov.az).

Bütün bu işlərin daha rasional təminatını, konkret olaraq vətəndaşlara dövlət orqanları tərəfindən göstərilən xidmətlərinin yeni üslubda, daha keyfiyyətli və müasir innovasiyalar tətbiq edilməklə göstərilməsi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən reallaşdırılacaqdır. Agentlik dövlət orqanlarının əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsini, nəzarət və qiymətləndirmənin aparılmasını, dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyasını, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsini və bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsini təmin edən dövlət orqanı olaraq çıxış edəcəkdir. Dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin həyata keçirilməsini təmin etmək məqsədi ilə isə «ASAN xidmət» (*Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi - ingiliscə Azerbaijan Service and Assessment Network*) mərkəzlərinin yaradılması nəzərdə tutulur. «Bir qapı» prinsipli ASAN xidmət konsepsiyası müxtəlif dövlət qurumlarının göstərdikləri xidmətlərin bir mərkəzdə cəmlənməsini ehtiva edir. Burada yalnız bir qapıdan daxil olmaqla bir mərkəzdən ayrı-ayrı dövlət qurumlarının müxtəlif xidmətlərindən eyni məkanda və eyni vaxtda istifadə etmək mümkün olacaqdır. Bu isə məsrəflərin azalmasına, vaxt itkisinin aradan qaldırılmasına, şəffaflığa və şəxsi rahatlığa imkan verəcək, dövlət və vətəndaşların iqtisadi və hakimiyyət münasibətlərinin inkişafını təmin edəcəkdir (www.president.az).

Bu və ya digər pozitivləri rəhbər tutaraq belə qənaətə gəlinə bilər ki, ölkədə «elektron hökumət» infrastrukturunun müasir vəziyyəti qənaətbəxş hesab edilləndir. Bunu BMT hesabatlarında «Elektron hökumət inkişafı indeksi» üzrə Azərbaycanın 192 ölkə arasında 96-ci yerdə qərarlaşması da bir daha əsaslı edir (www.unpan.org).

Yaxın perspektivdə «elektron hökumət» sferasında daha ciddi dəyişikliklərin olacağı yəqin edilir. Belə ki, hazırda (*2012-ci il*) dövlət xidmətlərinin elektron formada təqdimatı 30%, vətəndaşların elektron xidmətlərə çıxış imkanlarının 80% təşkil edir. Bu göstəricilərin 2020-ci ildə 100%-ə çatdırılması məqsəd olaraq qarşıda durur. Həmçinin, 2020-ci ildə elektron xidmətlərdən istifadə edən vətəndaşların xüsusi çəkisinin də indiki 20%-dən 80%-ə qaldırılması da əsas strateji hədəflər sırasındadır (www.mincom.gov.az).

«Elektron hökumət»in tam reallaşdırılması ölkədə hakimiyyət strukturlarının şəffaf fəaliyyət göstərməsində ən mühüm mexanizm olaraq çıxış edəcəkdir. Buna görə də, bu infrastrukturun genişlınməsinə hökumət zəruri resursları ayırmalı və təkmilləşməsi istiqamətində davamlı məsrəflər etməlidir. Proqnozlara görə 2020-ci ildə dövlətin İKT xərcləri kosmik sənayenin, yerüstü və simsiz rabitə şəbəkəsinin inkişafı və elektron hökumət və kibercinayətkarlıqla mübarizə xərcləri hər bir sahə üzrə bərabər olmaqla $3 milyard təşkil edəcəkdir. Bu xərclər perspektivi nəzərdə tutulan regional iqtisadi zonaların yaradılması üzrə isə $500 milyon, rəqəmsal televiziyanın inkışafı üzrə isə $100 milyonu ötəcəkdir (www.mincom.gov.az). Nəticədə dövlət və vətəndaşların iqtisadi və hakimiyyət münasibətlərinin inkişafı yeni templərlə irəliləyərək biznes mühütinin yaxşılaşdırılmasında da təsirli olacaq və bu proseslər öz növbəsində makroiqtisadi effektivliyin yüksəlməsi ilə müşayiət olunacaqdır.

**Nəticə**

Dövlət cəmiyyətin informasiya erasına keçidində ən başlıca liderdir. Onun sıradakı imkanları bənzərsizdir. Bu gerçəkliyin təmin edilməsində isə ən güclü mexanizm «elektron hökumət» infrastrukturudur. «Elektron hökumət»ə keçid İnternetdən başlayır. Belə yaranış isə offlayn (*ingiliscə - off-line «şəbəkədən açılma»*) rejimindən fərqli olaraq, bundan üstün onlayn (*ingiliscə - on-line - «şəbəkəyə bağlanma»*) rejimində, yəni vətəndaşların istədiyi zamanda, forma və məkanda dövlət tərəfindən tədqim edilən xidmət və məlumatlarını almasına imkanlı edir.

«Elektron hökumət» dövlətin vəzifələrini icra etmək üçün yaradılmış çox unikal bir infastrukturdur. Bu infrastrukturun işlənməsi ictimai portallar arasına texniki inteqrasiya və onun mükəmməlliyindən keçir. Bu şəbəkədəki müxtəlif iştirakçılar öz aralarında eksklyuziv müqavilələr bağlamırlar. Burada hər bir hərəkət açıq, texniki tələblər standartlarına uyğun biznes qaydalara müvafiq qurulur. Yeni texnologiyaların sürətli təkamülü rəqəmsal qeyri-bərabərsizliyi (*ingiliccə - digital divide - rəqəmsal maneə*) mülayimləşdirir, renovasiyanı qaynaqlandırır və eyniliklə də hüquqi müstəvidə də «rəqəmsal dünyaya» adaptasiyaya təkan verir.

«Elektron hökumət»ə keçid dövlət orqanlarına islahatlar aparmağa, iqtisadi irəliləyişləri davamlı etməyə, rəqabətqabiliyyətliyi artırmağa geniş imkanlar açır. Aparılan təhlili əsaslandırmalar bir daha göstərir ki, Azərbaycanda da elektron sistemə keçidə milli iqtisadi inkişafın mühüm strateji amili kimi yanaşılır. Burada hərtərəfli dəstək qazanan İKT sisteminin və qurulmaqda olan «elektron hökumət» infrastrukturunun dövlət və vətəndaşların iqtisadi və hakimiyyət münasibətlərinin inkişafının yeni paraqdiqmasının formalaşmasındakı, milli sahibkarlığın və biznesin inkişafındakı rolu və əhəmiyyəti daim güclənir.

«Elektron sistemə keçid qaçılmaz bir reallıqdır. Bu, labüddür və biz bunu etməliyik. Dünya iqtisadiyyatının inkişafı bu istiqamətdə gedir, eyni zamanda, bu, bizə həm şəffaflıq

gətirəcəkdir, həm çox məsələlər daha da dəqiq təşkil ediləcək və xoşagəlməz hallara qarşı mübarizə daha da güclü olacaqdır» (www.president.az). Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2012-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dediyi bu sözlər həqiqətən də bir daha onu göstərir ki, Azərbaycanda «elektron hökumət» quruculuğu prosesi dövlət siyasətinin mühüm prioritetidir və ölkədə vətəndaşların iqtisadi və hakimiyyət münasibətlərinin, genişliklə iqtisadi inkişafın mühüm vektorları sırasındadır.

**Ədəbiyyat siyahısı**

1.Hacızadə E.M. (2006) Sosiallaşan iqtisadiyyat. Bakı: Elm, 509 s.

2.Голобуцкий А., Шевчук О. (2007) Электронное правительство. М.: Знание, 433 с.

3.Государство и отрасли инфраструктуры в современной рыночной экономике (*Отв. ред.: Я.А. Рекитар, Л.С. Демидова*) (2001) М.: Наука, 310 с.

5.Козырев А.А., Юдин А.П. (2000) Информационные технологии в экономике, Санкт-Петербург, Издательство Михайлово, 64 с.

5.Костельс Мануель. (2000) Информационная эпоха. Экономика, общество и культура, М.: ГУ ВШЭ, 608 с.

6.Потемкин А.П. (2000) Виртуальная экономика, М.: ИНФРА-М, 384 с.

7.Электронные правительства: потенциал и практическое использование / под ред. Ивановой Г.Р. (2009) М.: Знание, 329 с.

8.www.president.az - Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı.

9.www.mincom.gov.az - Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin saytı.

10.www.un.org - Birləşmiş Millətlər Təşkilatı.

11.www.worldbank.org. - Dünya Bankı.

12.www.gartner.com - İnformasiya texnologiyaları üzrə konsaltinq kompaniyası.

13.www.europa.eu.int - EU - Avropa İttifaqı

14.www.itu.int - Beynəlxalq Kommunikasiya İttifaqı.

15.www.weforum.org - Beynəlxalq İqtisadi Forum (*Davos Forumu*).

16.www.unpan.org - BMT-nin Dövlət Administrasiya Şəbəkəsi.

17.www.e-qanun.az - Azərbaycan Respublikasının qanunvericilik aktları.

18.www.azstat.org - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.

# AVROPA İTTİFAQININ "ŞƏRQ TƏRƏFDAŞLIĞI" PROQRAMI VƏ ONUN TƏRƏFDAŞ ÖLKƏLƏR ÜÇÜN ƏHƏMİYYƏTİ

***Dr. Şahin BAYRAMOV***
*Azərbaycan Dövlət İqtisad Universiteti, sh.bayramov@gmail.com*

**Xülasə**

Məqalə Avropa İttifaqının (Aİ) xarici siyasət strategiyasının yeni elementlərindən biri hesab olunan Şərq Tərəfdaşlığı (ŞT) proqramının tədqiqinə həsr olunmuşdur. Bununla əlaqədar olaraq, ŞT proqramını zəruri edən obyektiv şərtlər, proqramın qarşıya qoyduğu məqsədlər, proqramın reallaşdırılması mexanizmi və proqram çərçivəsində tərəfdaş ölkələrə təqdim olunan perspektiv imkanlar nəzərdən keçirilmişdir.

Təhlil göstərir ki, ŞT proqramı çərçivəsində həyata keçirilən layihələr ilk növbədə tərəfdaş ölkələrdə iqtisadi islahatların həyata keçirilməsinə dəstək göstərilməsini, demokratik təsisatların inkişaf etdirilməsini və Aİ səviyyəsində sınaqdan keçmiş müsbət idarəetmə təcrübəsinin tərəfdaş ölkələrə gətirilməsini nəzərdə tutur. Birgə iştiraka əsaslanan ŞT proqramı Assosiasiya Sazişlərinin imzalanması, Avropa İqtisadi Məkanına inteqrasiyanın sürətləndirilməsi, dərin və hərtərəfli azad ticarət zonalarının yaradılması, tərəfdaş ölkə vətəndaşlarının Aİ-yə daha asan səfər etmələri, enerji təhlükəsizliyi tədbirlərinin gücləndirilməsi və Aİ tərəfindən təqdim olunan maliyyə yardımlarının artırılması üçün geniş perspektivlər açır.

Aparılan tədqiqatın nəticəsi olaraq, ŞT proqramının Azərbaycan üçün vəd etdiyi potensial imkanlar və onun Azərbaycan iqtisadiyyatının Avropa İqtisadi Məkanına inteqrasiyası baxımından əhəmiyyəti yüksək qiymətləndirilmişdir. Müəyyən olunmuşdur ki, bütün sahələrdə əməkdaşlığın ən azı enerji sahəsindəki əməkdaşlıq səviyyəsinə çatdırılması və Assosiasiya Sazişinin mövcud Avropa Qonşuluq Siyasəti (AQS) Fəaliyyət Planlarını əvəz edəcək müvafiq sənədlər vasitəsilə icra olunması nəzərdə tutulmuşdur.

Belə qənaətə gəlinmişdir ki, ŞT proqramı AQS-nin məntiqi davamı olmaqla yanaşı, onunla müqayisədə bir sıra üstünlüklərə malikdir və ölkənin siyasi, iqtisadi və sosial infrastrukturunun modernləşdirilməsi və beləliklə də, cəmiyyət həyatının bütün sahələrində Avropaya səmərəli inteqrasiyasının sürətləndirilməsi üçün yeni imkanlar yaradır.

***Açar sözlər:*** Şərq Tərəfdaşlığı (ŞT), Avropa İttifaqı (Aİ), inteqrasiya, Azərbaycan.
***Keywords:*** Eastern Partnerships (EP), European Union (EU), integration, Azerbaijan.

## Giriş

Məlum olduğu kimi, Avropa İttifaqı (Aİ) bu quruma üzvolma perspektivi olmayan və ya çox az olan ölkələrlə münasibətləri xarici siyasətin müxtəlif alətləri ilə tənzimləməyə üstünlük verir. Belə ki, Aİ Avropa Qonşuluq Siyasəti (AQS) proqramı çərçivəsində çoxsaylı qonşu ölkələrlə hərtərəfli əməkdaşlığın yaradılmasına və inkişaf etdirilməsinə nail olmuşdur.

Bu baxımdan, mahiyyət etibarilə AQS-nin məntiqi davamı olaraq meydana çıxmış Aİ-nin Şərq Tərəfdaşlığı (ŞT) təşəbbüsü mühüm əhəmiyyət kəsb edir. Aİ-nin 6 Şərq qonşusunu (Ukrayna, Moldova, Belarus, Azərbaycan, Gürcüstan, Ermənistan) əhatə edən ŞT təşəbbüsü 2008-ci ilin mayında Polşa və İsveç tərəfindən irəli sürülmüşdür. 2009-cu ilin 7 may tarixində Praqada keçirilmiş ilk Zirvə Toplantısında Birgə Bəyannamənin qəbul edilməsi ilə bu təşəbbüsə rəsmi olaraq start verilmişdir.

## ŞT proqramının mahiyyəti

Qeyd etmək lazımdır ki, ŞT proqramı ilk növbədə AQS ilə müqayisədə daha konkret məqsədləri hədəfləməsi ilə xarakterizə olunur. Başqa sözlə, Aİ ŞT proqramını irəli sürməklə tərəfdaş ölkələrlə daha konkret və sıx əməkdaşlığa ümid edir. ŞT təşəbbüsü tərəfdaş ölkələrdə islahatların sürətlənməsinə ümid etməklə, poqrama daxil olan ölkələr üçün viza rejiminin

sadələşdirilməsini, ticarət məhdudiyyətlərinin aradan qaldırılmasını və enerji əməkdaşlığının genişləndirilməsini nəzərdə tutur.[1]

Birgə iştiraka əsaslanan ŞT Assosiasiya Sazişlərinin imzalanması, Avropa İqtisadi Məkanına inteqrasiyanın sürətləndirilməsi, dərin və hərtərəfli azad ticarət zonalarının yaradılması, tərəfdaş ölkə vətəndaşlarının Aİ-yə daha asan səfər etmələri, enerji təhlükəsizliyi tədbirlərinin gücləndirilməsi və Aİ tərəfindən təqdim olunan maliyyə yardımlarının artması üçün geniş imkanlar perspektivlər açır. Ümumiyyətlə, ŞT təşəbbüsü Aİ tərəfindən tərəfdaş ölkələrin problemlərinə, arzu və istəklərinə cavab olaraq irəli sürülmüşdür. Belə ki, Aİ Şərq qonşularında iqtisadi inkişafın, daha geniş demokratik idarəetmənin və artan sabitliyin təmin olunmasında çox maraqlıdır.

ŞT proqramı Aİ ilə onun Şərq qonşuları arasında yeni qarşılıqlı çərçivə sazişlərinin – Assosiasiya Sazişlərinin bağlanmasına geniş imkanlar yaratmışdır. Belə ki, sözügedən Assosiasiya Sazişləri ya geniş və hərtərəfli azad ticarət zonalarının yaradılmasını, ya da ən azı, gələcəkdə tərəfdaş ölkə buna hazır olduğu zaman belə bir azad ticarət zonasının yaradılması məqsədini özündə ehtiva edir.

ŞT təşəbbüsü çoxşaxəli əməkdaşlıq üçün həm ikitərəfli, həm də çoxtərəfli formatda müvafiq tədbirlərin həyata keçirilməsini təklif edir. Tərəfdaş ölkələrin öz imkanlarına uyğun səviyyədə Aİ-yə yaxınlaşması və əməkdaşlıq vasitəsilə Aİ-nin müsbət təcrübəsini öz aralarında bölüşməsi nəzərdə tutulur.[2]

Qeyd edək ki, ŞT proqramı həm Aİ, həm də Azərbaycan üçün kifayət qədər ambisiyalı bir təşəbbüsdür. Proqram Azərbaycana genişmiqyaslı iqtisadi fayda verməklə yanaşı, milli iqtisadiyyatın davamlı inkişafının tımin olunmasında da mühüm rol oynayacaqdır. ŞT təşəbbüsü çərçivəsində 2013-cü ilə qədər Azərbaycana 400 milyon avrodan 600 milyon avroyadək vəsaitin ayrılması planlaşdırılır. Bu məbləğin 2013-cü ildən sonra bir qədər də artırılması nəzərdə tutulmuşdur.

Ümumiyyətlə, ŞT proqramı çərçivəsində ikitərəfli səviyyədə tərəfdaş ölkələrdə aşağıdakı tədbirlərin həyata keçirilməsi planlaşdırılır:

- proqrama daxil olan hər bir ölkə ilə ayrı-ayrılıqda assosiasiya sazişinin imzalanması;
- azad ticarət zonasının yaradılması;
- tərəfdaş ölkələrlə Aİ arasında viza rejiminin sadələşdirilməsi (viza prosedurlarının sadələşdirilməsindən başlayaraq, nəticədə viza rejiminin ləğv edilməsi və tərəfdaş ölkələrlə Aİ arasında vətəndaşların sərbəst hərəkətinin təmin olunması perspektivi);
- tərəfdaş ölkələrdə hərtərəfli institutional inkişafın təmin olunması.

**ŞT proqramının reallaşdırılması mexanizmi**

ŞT proqramı Aİ ilə konkret və uzunmüddətli əməkdaşlığa yönəlmiş tədbirləri və tərəfdaş ölkələr üçün təqdim olunan imtiyazları əks etdirir. Bu tədbirlər, ilk öncə, vahid və hərtərəfli azad ticarət zonalarının yaradılmasını nəzərdə tutur. Həmin zonalar ümumi daxili bazarın inkişafı üçün baza olmalı və Aİ-nin İslandiya, Norveç və Lixtenşteynlə mövcud olan "Avropa iqtisadi məkanı"na bənzəməlidir. Belə zonanın yaradılması isə, ŞT təşəbbüsü üzrə tərəfdaş ölkələrin milli qanunvericiliyinin Aİ qanunvericiliyinə uyğunlaşdırılmasını tələb edir. Eyni zamanda, ŞT layihəsi uzunmüddətli perspektivdə Aİ ilə tərəfdaş ölkələr arasında vizasız rejimin tətbiqini nəzərdə tutur.[3]

ŞT proqramının çoxtərəfli əməkdaşlıq xəttinin bir hissəsi kimi, altı aparıcı təşəbbüs bu proqrama əlavə stimul və konkret mahiyyət verir. Bu təşəbbüslər müxtəlif beynəlxalq maliyyə qurumlarından maliyyələşməni və özəl sektordan sərmayəni səfərbər edir. Qeyd olunan altı təşəbbüs aşağıdakılardır:[4]

- *İnteqrə edilmiş Sərhəd İdarəçiliyi (İSİ).* İnsanların mobilliyini dəstəkləmək üçün İSİ çərçivəsində İSİ strategiyalarının hazırlanmasında, sərhəd idarəçiliyi qaydalarının uyğunlaşdırılmasında və Aİ standartlarına uyğun olaraq müsbət təcrübələrin qəbul edilməsində tərəfdaşlara yardım göstərilir. Bura ticarət, gömrük, vizalar, sərhədlərin təyin olunması, təhlükəsizlik (qaçaqmalçılıq və insan alveri) və Pan-Avropa nəqliyyat dəhlizləri kimi sahələr daxildir.
- *Kiçik və Orta Sahibkarlıq mexanizmi.* Burada əsas məqsəd tərəfdaş ölkələrdə biznes mühitinin yaxşılaşdırılması ilə Kiçik və Orta Sahibkarlığın (KOS) rolunu artırmaqdır. Bu təşəbbüs çərçivəsində KOS-lara normativ-hüquqi bazanın təkmilləşdirilməsi üçün məsləhətlər, maliyyələşmə və texniki yardım göstərilir. KOS mexanizmi Avropa Yenidənqurma və İnkişaf Bankı və Asiya İnkişaf Bankı tərəfindən dəstəklənir və digər beynəlxalq maliyyə qurumları da yardım göstərməsi üçün açıqdır.
- *Regional elektrik enerjisi bazarları, enerjidən səmərəli istifadə və bərpa olunan enerji mənbələri.* Burada əsas məqsəd Aİ-nin və ŞT proqramına daxil olan ölkələrin enerji bazarlarının inteqrasiyasına nail olmaqdan, enerjidən səmərəli istifadəni artırmaqdan, enerji təchizatının təhlükəsizliyini gücləndirməkdən və iqlim dəyişikliyi ilə əlaqədar qarşıya qoyulan məqsədlərin əldə edilməsinə yardım etmək üçün bu enerji sistemlərinin bir-biri ilə birləşdirilməsindən ibarətdir.
- *Enerji təchizatının çoxşaxəli inkişafı.* Bu təşəbbüs gələcəkdə enerji böhranına yol verməmək üçün enerji təchizatı və tranzit marşrutlarının alternativ mənbələrini təmin etmək üçün ŞT proqramına daxil olan ölkələrlə əməkdaşlığın qurulmasına yönəlmişdir. Burada məqsəd Avropaya və tərəfdaş ölkələrə etibarlı enerji təchizatının təmin olunması üçün hasilatçılar, istehlakçı və operatorlar arasında əməkdaşlığı gücləndirməkdir. Bura uzun müddətli təchizat şərtlərinin və satınalmaya dair öhdəliklərin, tranzit zəmanətlərinin və üçüncü ölkədən olan təchizatçılar və potensial infrastruktur sərmayəçiləri üçün cəlbedici ola biləcək insfrastrukturun təhlükəsizliyinin təkmilləşdirilməsi daxildir.
- *Təbii və insan tərəfindən törədilən fəlakətlərin qarşısının alınması, onlara hazırlıq və cavab reaksiyası.* Təbii fəlakətlərin (daşqın, yanğın, səhiyyə riskləri, dənizin çirklənməsi) və iqlim dəyişikliyinin təsirlərinin qarşısını almaq üçün bu təşəbbüsün məqsədi yerli, regional və milli səviyyədə fəlakətin idarə edilməsi sahəsində potensialı artırmaqdır. Burada Aİ-nin mövcud təşəbbüslərinə (Birliyin Vətəndaş Müdafiəsi üzrə Mexanizmi) əsaslanmaqla İttifaqla ŞT-yə daxil olan ölkələr arasında müvafiq əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulur.
- *Ətraf mühit sahəsində idarəçilik.* Bu təşəbbüsün məqsədi ətraf mühitin qorunmasını təşviq etmək və iqlim dəyişikliyi məsələsini hədəfləməkdir. Beynəlxalq, regional və ölkə səviyyəsində tədbirlər kompleksinin aparılması ilə təşəbbüs çərçivəsində çoxtərəfli çirklənmə ilə mübarizə aparılır. Ətraf mühit sahəsində idarəçilik rəsmi və qeyri-rəsmi mexanizmlər və qurumlar dəstidir ki, o da təbii ehtiyatlardan və ətraf mühitdən istifadə ilə əlaqədar olan problem və imkanların necə ünvanlandığını, hansı davranışın məqbul hesab

edildiyini, təbii ehtiyatlar və ətraf mühitdən istifadə hallarına təsir etmək üçün hansı qayda və sanksiyaların tətbiq olunmasını müəyyən edir.

Assosiasiya Sazişləri mövcud Tərəfdaşlıq və Əməkdaşlıq Sazişlərini əvəz etməklə, Aİ ilə ŞT-yə daxil olan ölkələr arasındakı əlaqələri əhəmiyyətli dərəcədə artıracaqdır. Bu sazişlər təhlükəsizlik siyasəti, qanunvericiliyin uyğunlaşdırılması və hərtərəfli azad ticarət zonalarının yaradılması baxımından tərəfdaş ölkələri Aİ-yə daha da yaxınlaşdıracaqdır.

Bütün sahələrdə əməkdaşlığın ən azı enerji sahəsindəki əməkdaşlıq səviyyəsinə çatdırılması və Assosiasiya Sazişinin mövcud AQS Fəaliyyət Planlarını əvəz edəcək müvafiq sənədlər vasitəsilə icra olunması nəzərdə tutulmuşdur. Siyasi və iqtisadi amillərlə yanaşı, demokratiya, qanunun aliliyi və insan hüquqları baxımından əldə edilmiş tərəqqi Assosiasiya Sazişləri üzrə danışıqların başlanması üçün əsas ilkin şərt qismində çıxış edir.

Artıq qeyd etdiyimiz kimi, ŞT proqramı çərçivəsində qarşıya qoyulan məqsədlərin reallaşdırılması ikitərəfli və çoxtərəfli əməkdaşlıq xətti ilə mümkün olacaqdır. Çoxtərəfli əməkdaşlıq xətti elə bir çərçivə nəzərdə tutur ki, burada (ikitərəfli əməkdaşlıq xəttindən fərqli olaraq) Aİ və ŞT-yə daxil olan ölkələr ümumi problemləri bir qrup olaraq həll edirlər. Çoxtərəfli əməkdaşlıq xətti ŞT layihəsi üzrə qoyulmuş məqsədlərə dörd siyasi (tematik) platforma və bir sıra aparıcı təşəbbüslər vasitəsilə nail olunmasını dəstəkləyir.[5]

Bu platformalar açıq müzakirələrin aparılması və tərəqqinin nəzərdən keçirilməsi məqsədi daşımaqla, hökumət qurumları, parlament, vətəndaş cəmiyyəti, beynəlxalq təşkilatlar (ATƏT, Avropa Şurası, İƏİT), beynəlxalq maliyyə qurumları və özəl sektor nümayəndələrini özündə birləşdirir. Tematik platformaların işində iştirak könüllüdür və bir sıra konkret hallarda üçüncü ölkələrin də cəlb edilməsi istisna olunmur. Hər bir tematik platformanın fəaliyyəti sahə üzrə bir sıra konkret panellər tərəfindən dəstəklənir. Aşağıdakı tematik ekspert platformaları mövcuddur:

- *Demokratiya, yaxşı idarəçilik və sabitlik.* Bu platforma vasitəsilə tərəfdaş ölkələrdə sabit demokratik qurumların (o cümlədən seçki standartları, informasiya vasitələri qanunvericiliyi və anti-korrupsiya sahəsində göstərilən cəhdlər) və səmərəli dövlət strukturlarının inkişafına yönəlmiş demokratik və iqtisadi islahatlar təşviq olunur. Eyni zamanda, bu platforma vətəndaş cəmiyyətinin bu prosesə daha çox cəlb olunmasını nəzərdə tutur. Eləcə də, bu platformada tərəfdaş ölkələrdə təhlükəsizliyin və sabitliyin təmin olunmasına, müstəqilliyin və ərazi bütövlüyünün qorunmasına xüsusi diqqət yetirilir.
- *İqtisadi inteqrasiya və Aİ siyasətinə uyğunlaşma.* Bu platforma tərəfdaşların Avropa məkanına iqtisadi inteqrasiyası və milli qanunvericiliyin Avropa qanunvericiliyinə uyğunlaşdırılması istiqamətlərini əhatə edir. Tərəfdaşlarla Aİ arasında və tərəfdaşların öz aralarında gələcəkdə dərin və hərtərəfli azad ticarət zonalarının (və ya regional azad ticarət sazişlərinin) yaradılması bu platformanın əsas hədəflərindən biridir.
- *Enerji təhlükəsizliyi.* Bu platformada əsasən enerji təchizatı, təhlükəsizliyi və tranzitinə, eləcə də bu sahədə Aİ və ŞT-yə daxil olan ölkələr arasında koordinasiya məsələlərinə diqqət yetirilir. Platforma çərçivəsində tərəfdaşların enerji siyasətlərinin və qanunvericiliyinin Aİ təcrübəsi və qaydalarına uyğunlaşdırılması istiqamətində də iş aparılır. Aİ-yə və tərəfdaş ölkələrə təsir edə biləcək gələcək enerji böhranlarının qarşısının alınması üçün platforma çərçivəsində Aİ-nin Enerji Təhlükəsizliyi Korrespondentlər Şəbəkəsi (NESCO), Qaz Əlaqələndirmə Qrupu, Neft Təchizat Qrupu və Enerji Birliyinin iştirakı ilə

enerji təhlükəsizliyi mövzusunda dialoqun genişləndirilməsi və enerji böhranına hazırlığın gücləndirilməsi nəzərdə tutulmuşdur.[4]

- *İnsanlar arasında əlaqələr.* Bu platformada Aİ və tərəfdaş ölkələrin vətəndaşları arasındakı əlaqələrin genişləndirilməsi istiqamətində iş aparılır və bu zaman informasiya cəmiyyəti və informasiya vasitələrinin inkişaf etdirilməsi ilə əsas diqqət gənclərə yönəldilir. İnsanlar arasında əlaqənin digər aspektlərinə mədəniyyət, elm və təhsil sahələrində əməkdaşlıq daxildir. Qeyd edək ki, insanlar arasında əlaqələr tərəfdaş ölkələrdə müsbət dəyişiklikləri və tərəqqini təşviq edən əsas faktor hesab edilir.
- *Yüksək səviyyəli məmurların görüşləri.* Bu platforma Aİ üzv dövlətlərinin və ŞT-yə daxil olan ölkələrin müvafiq sahələrdə aparılan islahatlar prosesində iştirak edən yüksək səviyyəli məmurlarının ən azı ildə iki dəfə bir araya gəlməsini nəzərdə tutur. Bu görüşlərin keçirilməsində məqsəd tematik platformalar üzrə məqsədləri müəyyən etməkdən və əldə edilmiş tərəqqini nəzərdən keçirməkdən ibarətdir.

Aİ-nin və tərəfdaş ölkələrin qeyri-hökumət təşkilatları ŞT proqramına böyük maraq göstərirlər. 2009-cu ildə Brüsseldə ŞT proqramının Vətəndaş Cəmiyyəti Forumunun ilk iclası keçirilmişdir. Burada 200-ə yaxın QHT iştirak etmişdir. Forumun işi cəmiyyətlər arasında əməkdaşlığın stimullaşdırılması və ŞT layihəsinin vətəndaş aspektinin möhkəmləndirilməsi məqsədini daşıyır.

**ŞT proqramı çərçivəsində həyata keçirilən layihələr**

Tərəfdaş ölkələr üçün praktiki dəstək İnstitusional İnkişaf naminə Proqram Kompleksinin tərtibi və tətbiqi olacaqdır. Bu proqram assosiasiya sazişi və azad ticarət haqqında müqavilələrin effektiv həyata keçirilməsi baxımından mühüm olan tərəfdaş ölkələrinin institutlarının möhkəmləndirilməsi məqsədini daşıyır. Bu proqramın icrası üçün Aİ tərəfindən 173 milyon avro ayrılmışdır.

Ötən dövr ərzində ŞT proqramı çərçivəsində bir sıra layihələrin həyata keçirilməsinə başlanılmış və müəyyən işlər görülmüşdür. Belə ki, çoxtərəfli tədbirlər çərçivəsində 50 milyon avro büdcəsi ilə İnteqrasiya Edilmiş Sərhəd İdarəçiliyi layihəsi həyata keçirilməyə başlanmış, Kiçik və Orta Sahibkarlığa Dəstək (2010-2013-cü illər üçün 57 milyon avro) proqramı hazırlanmışdır. Bu proqramın həyata keçirilməsinin ilk addımı olan və tərəfdaş ölkələrdə investisiya durumunun yaxşılaşdırılması, eləcə də, Aİ və onun Şərq qonşuları arasında işgüzar əlaqələr şəbəkəsinin yaradılması məqsədini daşıyan East-Invest layihəsinə (7 milyon avro) start verilmişdir. Bundan başqa, Təbii və İnsan tərəfindən Törədilən Fəlakətlərin Qarşısının Alınması təşəbbüsü (6 milyon avro) fəaliyyətə başlamışdır.[6]

ŞT proqramının təsisi üzrə Praqa zirvə görüşünün öhdəliklərinə uyğun olaraq, Avropa İnvestisiya Bankı ŞT üzrə tərəfdaş ölkələrə investisiya yatırmaq üçün nəzərdə tutulan və onun Şərqi Avropa regionuna xarici mandat investisiyasını (3,7 milyard avro) tamamlayan ŞT çərçivəsində layihələrə sərmayə vasitəsini (Eastern Partners Facility, 1,5 milyard avro) yaratmışdı.

AQTA İnformasiya Mərkəzi tərəfindən Xarici Əlaqələr üzrə Baş Direktorluq (RELEX), Aİ-nin tərəfdaş ölkələrdəki Nümayəndəliklərinin və EuropeAid Əməkdaşlıq İdarəsinin dəstəyi ilə Aİ-nin ŞT proqramı çərçivəsində istifadə olunan terminlərin izahından ibarət terminlər lüğəti də hazırlanmışdır. Altı səhifəlik "Şərq Tərəfdaşlığının terminlər lüğəti" səkkiz dildə (o cümlədən, azərbaycan dilində) tərtib olunmuşdur. Bu nəşrin məqsədi tərəfdaşlıqdan

danışarkən istifadə edilən terminləri və ifadələri anlamaqda insanlara yardım etməkdir ki, bu da Aİ-ni və onun Şərqdəki altı qonşusunu – Ukrayna, Moldova, Belarus Azərbaycan, Gürcüstan və Ermənistanı bir-birinə daha da yaxınlaşdırmağa xidmət edir.

Beləliklə, bu qənaətə gəlmək olar ki, ŞT proqramı AQS-nin məntiqi davamı olmaqla yanaşı, onunla müqayisədə bir sıra üstünlüklərə malikdir və ölkənin siyasi, iqtisadi və sosial infrastrukturunun modernləşdirilməsinin və beləliklə də, Avropa İqtisadi Məkanına inteqrasiyasının sürətləndirilməsi üçün yeni imkanlar açır. Fikrimizcə, bu imkanlardan tam və səmərəli istifadə üçün ölkənin inkişaf perspektivlərini və milli maraqlarını nəzərə alan, regionda və dünyada gedən proseslərə çevik reaksiya verən ardıcıl, məqsədyönlü və sistemli siyasət aparılmalıdır. Eyni zamanda, bu siyasət ölkənin ümumi inkişaf strategiyası ilə üzvi şəkildə əlaqələndirilməli və onun tərkib hissəsi kimi çıxış etməlidir. Bu baxımdan, ŞT proqramı çərçivəsində həyata keçiriləcək layihələrin ölkənin qarşılaşdığı aktual problemlərin həllinə yönəlməsi və onların səmərəli şəkildə həyata keçirilməsi üçün bu layihələrin hazırlanmasında və icrasında fəal iştirak taktikasının izlənilməsini məqsədəuyğun sayırıq.

**Nəticə**

Ölkənin inkişaf xüsusiyyətlərininin təhlili göstərir ki, yaxın perspektivdə ŞT proqramı çərçivəsində Azərbaycanda həyata keçiriləcək layihələrdə aşağıdakı istiqamətlərə üstünlük verilməsi məqsədəuyğun olardı:

- müasir menecmentin tətbiqinin genişləndirilməsi və institusional islahatların dərinləşdirilməsi üçün nazirlik və idarələrin potensialının artırılması məqsədilə onlara Aİ-nin mütəxəssislər, avadanlıq və proqram məhsulları formasında texniki yardımının gücləndirilməsi;
- Avropa bazarlarının qeyri-neft ixracatı üçün daha əlçatan olmasının stimullaşdırılması və ixracyönümlü biznesin dəstəklənməsi;
- kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi;
- investisiya mühütinin yaxşılaşdırılması;
- ÜTT-yə üzvolma prosesinin dəstəklənməsi;
- vətəndaş cəmiyyəti sektorunun (QHT-lər, müstəqil ekspertlər, tədqiqat mərkəzləri və gənclərin təşəbbüsləri) daha geniş dəstəklənməsi;
- viza rejiminin sadələşdirilməsi;
- mütəxəssislərin Aİ ölkələrində təhsili və təkmilləşdirilməsi proqramlarına cəlb olunması;
- tələbə və magistrlərın Avropa universitetlərində təhsil proqramlarına cəlb olunması;
- elmi və mədəni mübadilə proqramlarının həyata keçirilməsi və s.

Qeyd olunanların təsdiqi baxımından, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2009-cu ilin 28 aprel tarixində Brüsseldə Avropa Siyasi Mərkəzinin nümayəndələri ilə keçirilmiş görüşdə dediyi aşağıdakı fikirlər mühüm əhəmiyyət kəsb edir: "ŞT proqramında həm Avropaya, həm də Azərbaycana fayda gətirəcək konkret və dəqiq elementlər mövcuddur. İlk mərhələdə AQS proqramına start verildi və biz bunun yaxşı bir addım olduğunu başa düşdük. Bu regiona verilən önəmin göstəricisi idi. Lakin, indi ŞT proqramından biz daha çox şey gözləyirik...Ümumiyyətlə, məqsədimiz Aİ-nin qabaqcıl

təcrübələrinə çıxış əldə etmək, həyatımızın müxtəlif sahələrini Aİ standartlarına yaxınlaşdırmaq və gələcək illər üçün çiçəklənən və dayanıqlı ölkə qurmaqdır".[7]

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. http://ec.europa.eu/external_relations/eastern/index_en.htm;
2. http://ec.europa.eu/europeaid/where/neighbourhood/overview/how-does-enpi-work_en.htm;
3. http://www.azhumanrights.az/news/inthecountry/329-350601rq-t601r601fda351l305287305n305n.html;
4. www.enpi-info.eu/main.php?id=403&id_type=2;
5. Azərbaycan Respublikasının Avropa İttifaqı ilə münasibətləri, www.mfa.gov.az;
6. "A Strategy for EU Foreign Policy", EU Institute for Security Studies, Report 7, June 2010.
7. "Bakı-Brüssel, Azərbaycan – Avropa İttifaqı münasibətləri", Heydər Əliyev İrsini Araşdırma Mərkəzi, Bakı, 2011, səh.158.

# AZƏRBAYCANIN İNNOVATİV İNKİŞAFINA KONSEPTUAL YANAŞMALAR: GƏLƏCƏYƏ BAXIŞ- 2020

**_Dr. Allahyar MURADOV_**
_AMEA İqtisadiyyat İnstitutu_

**_Dr. Emin MƏMMƏDZADƏ_**
_AMEA İqtisadiyyat İnstitutu_

Cənab Prezident İlham Əliyevin modernləşdirmə kursu Azərbaycanda uzunmüddətli inkişafın təmin olunması üçün ciddi, lakin həlli mümkün məqsədlərə nail olunması nəzərdə tutulur. Bu məqsədlər içərisində əhalinin yüksək maddi və mənavi rifahının təmin olunması və eyni zamanda respublikanın əhəmiyyətli geosiyasi mövqeyindən irəli gələn üstünlüklərdən faydalanaraq, respublikamızın regionda lider dövlət kimi siyasi mövqeyinin daha da möhkəmləndirilməsi məqsədlərinə nail olunması bu günki siyasətimizin əhəmiyyətli məsələlərindəndir. Nəzərdə tutulmuş məqsədlərə nail olmağın yeganə mümkün yolu iqtisadiyyatın innovasiyalı sosial-iqtisadi inkişaf təmayüllü modeli əsasında inkişaf etdirilməsi imkanlarının reallaşdırılmasıdır. Bu isə o, deməkdir ki, iqtisadiyyatın innovasiyalar əsasında formalaşdırılmasında üstün mövqelər, liderlik əldə etmək lazımdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən təsdiq olunmuş 2020-ci ilə qədər respublikanın strateji inkişaf planının həyata keçirilməsinin kəmiyyət göstəricilərində yüksək texnologiyalar və intellektual xidmətlərin 5-7 mövqeyi üzrə respublikanın payının 5-10 % olması, həmçinin elmin büdcə vəsaitləri vasitəsi ilə maliyyələşdirilməsinin 0,2%-dən 1-2% qədər artırılması, sənaye məhsulları içərisində innovasiya məhsulları və innovasiya müəssisələrinin çəkisinin artırılması nəzərdə tutulur.

Qeyd etmək lazımdır ki, 2008-2009-cu illərdə dünya iqtisadi böhranı bütövlükdə dünya təsərrüfatı səviyyəsində bir sıra məqsədlərin reallaşdırılmasını çətinləşdirdi. Bütün bunlar isə öz növbəsində özəl biznes sektorunda innovasiya təyinatlı xərclərin azalmasına, ölkənin innovasiya sisteminin strukturundakı zəifliyi bir qədər artırdı. Lakin qeyd etmək yerinə düşərdi ki, qısa müddətli perspektivdə müəyyən çətinliklərin olması heç də uzun müddətli inkişaf perspektivlərinin yenidən nəzərdən keçirilməsini tələb etmir, burada daha çox 2013-2020-ci illərdə iqtisadi inkişafa nail olmaq üçün kəmiyyət və keyfiyyət göstəricilərinə tələb bir qədər yüksəlmiş olur. Yəni həyata keçirilən iqtisadi tədbirlər daha keyfiyyətlə və daha sürətlə yerinə yetirilməlidir. Böhrandan sonrakı inkişafın təmin olunması məsələsinin həlli, respublikanın innovasiyalı inkişaf yoluna qədəm qoyması qarşıya qoyulmuş vəzifələrin həll olunmasını çətinləşdirən bir sıra xarici və daxili çağırışların təsirinə məruz qalmaqdadır. Digər tərəfdən bütün bunlara baxmayaraq, respublikanın innovasiya sistemində yığılıb qalmış problemlərin həlli bütün səylərin intensivləşdirilməsini tələb edir.

Respublika iqtisadiyyatının innovasiyalı inkişafının təmin olunmasına təsir edən ən diqqətəlayiq çağırışlar, dünya iqtisadiyyatında texnologiyaların yüksək sürətlə inkişaf etdirilməsidir. Lider dövlətlərin növbəti texnoloji (yəni altıncı) quruluşa keçidi, resurslara qənaət edilməsində və alternativ energetikada texnoloji inqilabların baş verməsi Azərbaycan iqtisadiyyatının inkişafında qeyri-müəyyənliyi artırır. Çünki Azərbaycanın dünya

bazarlarındakı mövqeyinin əsasını ənənəvi enerji daşıyıcılarının ixrac olunması təşkil edir. Alternativ energetikanın inkişaf etdirilməsi, karbohidratların hasilatında iqtisadi cəhətdən daha səmərəli üsullardan istifadə olunması, eyni zamanda qeyri ənənəvi enerji mənbələrinin (külək, su, günəş enerji mənbələri,neftli qumlar, lay-lay quruluşlu süxurlar və s.) aşkar və inkişaf olunması respublikamızdan ixrac edilən xam mala tələbin azalmasına, müvafiq olaraq qiymətlərin aşağı düşməsinə və ölkəyə daxil olan maliyyə resurslarının azalmasına səbəb ola bilər. Qeyd etmək lazımdır ki, maliyyə resursların azalması Azərbaycan iqtisadiyyatının modernləşdirilməsinə, respublikamızın regional və dünya siyasətində rolunun yüksəldilməsinə öz mənfi təsirini göstərə bilər.

2009-cu il böhranı bu çağırışın Azərbaycan üçün bir daha əhəmiyyətini gündəmə gətirdi. Bu isə onunla əlaqədardır ki, texnoloji inkişafa, "innovasiya təkanına" yatırılan investisiyalar ABŞ, Yaponiya, Avropa Birliyinin iri ölkələri və eyni zamanda Çin, Hindistan, Cənubi Koreya və Braziliya kimi ölkələrin əsas antiböhran vasitəsi kimi qəbul olunur. Bir neçə il ərzində yatırılması nəzərdə tutulan investisiyalar, inkişaf etmiş dövlətlərin antiböhran tədbirləri paketi çərçivəsində sərf olunması nəzərdə tutulan vəsaitlərin həcminə yaxınlaşmaqdadır. Eyni zamanda on milyardlarla dollar həcmində əlavə maliyyə vəsaitlərinin səhiyyənin, biotexnologiyanın, alternativ və bərpa olunan energetikanın, atom energetikası və informasiya texnologiyaları sahələrinə yatırılması nəzərdə tutulmuşdur. Maliyyə resurslarının bu qədər güclü axını 3-5 il ərzində texnoloji quruluşun yenisi ilə əvəz olunmasına səbəb ola bilər.

Bizim ölkəmiz üçün açar çağırışlardan biri də innovasiya sisteminin qlobal miqyasda rəqabət qabiliyyətini müəyyən edən faktorlar uğrunda mübarizənin güclənməsidir. Bu isə özünü ilk növbədə yüksək ixtisaslı işçi qüvvəsi, "ağıllı" pullar (yeni bilikləri, texnologiyaları cəlb edən investisiyalar) uğrunda rəqabət mübarizəsində, bu faktorların kəskin surətdə rolun yüksəlməsində büruzə vermişdir. Milli innovasiya sisteminin inkişaf səviyyəsində səmərəliliyin aşağı səviyyədə olması isə o deməkdir ki, rəqabət qabiliyyətli potensialın, kadrların, ideya və kapitalın respublikadan kənara müəyyən axını baş verir.

Təkcə bizim ölkəmiz deyil, bütün bəşəriyyət iqlim dəyişiklikləri, əhalinin qocalması və qlobal hüdudlarda səhiyyə, ərzaq təhlükəsizliyi ilə əlaqədar həyəcanlı çağırışlarla qarşı-qarşıyadırlar. Qlobal çağırışlara tutarlı cavab verə bilmək üçün Azərbaycanın dünya innovasiya sisteminə daha dərindən inteqrasiya olunur.

Son illər ərzində dövlət hesabına elmin, yəni fundamental elmi və tətbiqi xarakterli araşdırmaların maliyyələşdirilməsi xeyli artmışdır (2005-2010-cu illərdə 3,3 dəfə). Ali təhsildə innovasiya və elmi tədqiqat fəaliyyətlərinin stimullaşdırılması üçün diqqətəlayiq səylər göstərilməkdədir. 2006-cı ildə Təhsil Nazirliyi ilə ABŞ-ın CİSCO SYSTEMS təşkilatı ilə bağlanılan qarşılıqlı anlaşma memorandumunda Bakı və Sumqayıt şəhərlərində 218 məktəbin kompyuterlə təchiz olunması və İnternetə çıxışının təmin olunması nəzərdə tutulurdu.

Təhsil Nazirliyi 2002-ci ildən etibarən «Project Harmony» təşkilatı ilə birlikdə "Əlaqələr və mübadilə Proqramı" çərçivəsində məktəblərdə İnternet mərkəzlərinin yaradılması, təhsildə kompyuter texnologiyalarının tətbiq olunması proqramını həyata keçirir. İndiki dövrdə respublikanın müxtəlif regionlarında onlarla məktəb sözügedən Layihənin reallaşdırılmasına cəlb olunmuşdur. Bu məktəblərdə resurs mərkəzləri açılmış, mərkəzlər

kompyuter texnikası ilə təchiz olunmuş, həmçinin müəllimlərin ixtisas səviyyəsinin yüksəldilməsi həyata keçirilmişdir.

Təhsil Nazirliyi ilə İnformasiya Kommunikasiya Texnologiyalarının inkişaf etdirilməsi sahəsində nüfuzlu şirkət "Maykrosoft" ilə bağlanmış "Təhsil sistemində müasir informasiya texnologiyalarının inkişaf etdirilməsi sahəsində əməkdaşlıq", "Təhsildə əməkdaşlıqlar" qarşılıqlı anlaşma memorandumunda əməkdaşlıqların şərtləri və hüdudları müəyyənləşdirilmişdir. Memorandumda qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün bir neçə layihələr əsasında əməkdaşlıqların inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Eyni zamanda Azərbaycanda ali təhsil məktəblərində elmi araşdırmalara dünyanın ən məşhur tədqiqatçılarının cəlb olunması, ali məktəblərdə innovasiya infrastrukturlarının inkişaf etdirilməsi üçün müəssisələrlə ali təhsil məktəbləri arasında əlaqələrin genişləndirilməsi də nəzərdə tutulmuşdur. Milli elmi tədqiqat mərkəzlərinin və innovasiya fəaliyyətinin dəstəklənməsi infrastrukturunun yaradılması istiqamətində işlər yerinə yetirilməkdədir. Məsələn, Sumqayıtda texnopark yaradılmış və həmin texnoparkın yaradılması məqsədlərindən biri də respublikada AMEA-nın elmi tədqiqat institutları, ali təhsil məktəbləri nəzdindəki elmi araşdırma mərkəzləri ilə sıx əlaqələrinin yaradılması, texnologiyaların beynəlxalq elmi araşdırma mərkəzlərindən transfer olunmasının təşkili, olduqca nadir avadanlıqların müştərək istifadə olunmasıdır. Müsabiqələr yolu ilə innovasiya klasterlərinin yaradılması və inkişaf etdirilməsi nəzərdə tutulur. Deyilənlərlə yanaşı son illərdə respublikanın elmi və işgüzar dairələrində müəssisələrdə innovasiya fəaliyyətinin inkişaf etdirilməsinin hüquqi rejiminin inkişaf etdirilməsi ilə əlaqədar polemikalar genişlənməkdədir. Bunun üçün isə ilk növbədə vergi imtiyazlarının tətbiq olunması tələb olunur. Bu məsələnin həlli ilə əlaqədar təklif etmək istərdik ki, büdcədən maliyyələşdirən elm və təhsil təşkilatlarına kiçik innovasiya müəssisələrinin yaradılmasına icazə verilsin. Eyni zamanda innovasiya təyinatlı məhsulların xarici ölkələrə ixrac olunmasının gömrüklə tənzimlənilməsi təkmilləşdirilməlidir.

Qeyd etmək lazımdır ki, ölkənin innovasiyalı inkişafında əhəmiyyətli addım Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2009-cu ilin may ayında "2009-2015-ci illərdə elmin inkişaf etdirilməsinin milli strategiyasının" qəbul olunması hesab edilə bilər. Azərbaycan Respublikasının innovasiya nöqteyi nəzərindən inkişaf etdirilməsində üstünlüklərindən biri də insan kapitalı hesab oluna bilər. Respublikamız 18-21 yaşda olan gənclərin ali təhsillə əhatə olunma səviyyəsinə görə dünyada lider ölkələrdən geridə qalır. Belə ki, 2011-cu ildə BMT-in İnsan Inkişafı haqqda Məruzəsinin məlumatlarına əsasən, 2001-2010-cu illər müddətində Azərbaycanda 18-21 (bir sıra ölkələrdə 21-24, 19-23 yaş hədləri götürülür) yaşda olan gəncləri 19,1 %-i ali təhsil alır. Norveçdə 73,5%, Avstraliyada 82,3%, ABŞ-da 85,9%, Kanadada 62,3%, Rusiyada 77,2%, Belarusda 77,0%, Türkiyədə 38,4% təşkil edir. Göründüyü kimi bu digər qərb və digər xarici dövlətlərin göstəricisindən xeyli aşağı səviyyədədir. Lakin Azərbaycan bu göstəriciyə görə Kuveyt, Katar, Rumıniya, Özbəkistan və Hindistan kimi ölkələri qabaqlayır. Qeyd etmək lazımdır ki, ölkəmizdə təbiət elmləri və mühəndis-texniki ixtisasları üzrə ali təhsillilərin sayının çox olması səmərəli innovasiya sisteminin yaradılmasına kömək edir.

Azərbaycan innovasiya sisteminin ən qabaqcıl texnologiyalardan kifayət qədər yararlana bilməməsinə və əksər sahələrin hazır texnologiyaların mənimsənilməsi imkanlarının xeyli məhdud olmasına görə, respublikamızda innovasiya sistemini hələ ki, imitasiya (təqlid)

xarakterli innovasiya sistemi kimi xarakterizə etmək olar. Yəni ən yeni radikal məzmunlu texnoloji yeniliklərin respublikamızda yaradılması innovasiya sistemi üçün xarakterik deyil. İnnovasiya sistemi ilə əlaqədar bütün bu deyilənlər özünü real sektorda daha qabarıq büruzə verir. Belə ki, Qlobal İnnovasiya İndeksin hesablamalarına əsasən 2011-ci ildə Azərbaycan 125 ölkə arasında 88-cü yerdə olmuşdur. Qeyd etmək lazımdır ki, MDB ölkələrindən həmin göstəricilər üzrə Azərbaycanı qabaqlayaraq Gürcüstan 73-cı yerdə, Ukrayna 60-cı yerdə, Qazaxıstan 84-cü yerdə, Rusiya Federasiyası 56-cu yerdə qərar tutmuşdur. Lakin eyni zamanda bu göstəriciyə görə ölkəmiz, İran (95-cı yer), Pakistan (105-ci yer), Tacikistan (116-ci yer) kimi dövlətləri geridə qoya bilmişdir. Sözügedən indeks beynəlxalq INSEAD (The Business School for the World) təşkilatı tərəfindən işlənilib hazırlanmışdır. Milli şirkətlər səviyyəsində texnoloji innovasiyalara çəkilən xərclərin strukturu xarici ölkələrin şirkətlərində çəkilən xərclərin strukturundan ciddi surətdə fərqlənir. Araşdırmalar göstərdi ki, 2012-ci ilin birinci yarısında Azərbaycanda müəssisələrin öz gücləri hesabına texnoloji innovasiyalarla əlaqədar aparılan araşdırmalara çəkilən xərclər şirkətlərin bütün xərclərinin 12,3 %-ni təşkil etmişdir. Eyni zamanda şirkətlər yeni maşın və avadanlıqların alınması üçün bütün innovasiya xərclərinin 51,2%-ni sərf etmiş, proqram təminatının yeniləşdirilməsinə ancaq xərclərin 1,3%-ni sərf etmişdilər. İnnovasiya fəaliyyətində xərclərin bölgüsü strategiyası elmi potensialı bir qədər zəif olan ölkələr (məsələn Rumınıya, Polşa, Slovakiya və digər ölkələr) üçün xarakterikdir. Qərbi Avropa ölkələrində də innovasiya xərcləri strukturunda olduqca kəskin fərqlər müşahidə olunur. Yəni innovasiya xərclərinin 80%-i ancaq elmi araşdırmalara sərf edilir. Məsələn, Niderlandda şirkətlərin öz qüvvələri ilə apardıqları elmi araşdırmalara çəkilən xərclər şirkətin ümumi xərcinin 62,5 %-ni, kənar təşkilatlar ilə əməkdaşlıqda isə 17,6 %-ni təşkil edir. Eyni zamanda maşın və avadanlıqların alınmasına innovasiyalara çəkilən xərclərin 19 %-i sərf olunmuşdur. Bənzər proporsiyalar Danimarka, Belçika, İsveç və Avropa Birliyinin digər dövlətləri üçün səciyyəvidir.

Azərbaycan cəmiyyətinin ümumi vəziyyətinin qiymətləndirilməsi respublikamızda innovasiyalı inkişaf üçün bütün imkanların mövcud olduğunu göz önünə gətirir. Ölkədə sabit iqtisadi artımı təmin etmək üçün xam mal və energetik resurslar mövcuddur. Əhalinin savadlılıq səviyyəsinin və elmi potensialın kifayət qədər yüksək olması "bilik iqtisadiyyatının" inkişafı üçün- intellektual əməyin üstünlük təşkil etdiyi yüksək texnologiyalar istehsalına keçmək üçün əlverişli başlanğıcı təmin etmiş olur. İstehsalın bəzi sahələrinin perspektiv inkişaf etdirilməsi imkanları mövcuddur. Bunlar birinci növbədə neft sənayesi kompleksinin tərkibinə daxil olan sahələrdir. Azərbaycan hər zaman olduğu kimi bu gündə innovasiya təfəkkürlü, cəsarətli mühəndis fikirləri irəli sürən istedadlarla zəngindir. Təkcə Azərbaycan Milli Elmlər Akademiyasının saytına girərək Azərbaycan alimləri tərəfindən təklif olunan kommersiya təkliflərinə diqqət yetirmək kifayətdir. Nəhayət bir diqqətəlayiq fakt kimi qeyd olunmalıdır ki, ictimaiyyətdə və dövlət strukturlarında azərbaycan iqtisadiyyatında, prinsipial olaraq, yeni inkişaf səviyyəsinə çıxara biləcək iri innovasiyaların həyata keçirilməsi vacib hesab olunur. Bütün bunlar ölkənin innovasiyalı inkişafına təkan vermiş olur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2007-ci il mayın 15-dəki Fərmanında müxtəlif ölkələrdə elm tutumlu və yeni texnologiyaların, innovasiyaların öyrənilməsi üçün Azərbaycan Milli Elmlər Akademiyası qarşısında çox böyük vəzifələr müəyyənləşdirilmişdir. Bu tapşırığın, zənnimizcə, yerinə yetirilməsi üçün respublikanın elmi

cəhətdən əsaslandırılmış, praktiki baxımdan istiqamətləndirilimiş milli iqtisadiyyatın intensiv inkişaf yoluna keçməsi üçün xüsusi proqram tələb olunur. Eyni zamanda dünya ölkələrinin və öz ölkəmizin təcrübəsi əsasında milli iqtisadiyyatın intensiv innovasiya sisteminə keçməsi üçün ən səmərəli mexanizm –biliklərin yayılması və istifadəsini təşkil etməyə imkan yaradan, onların yeni məhsullar, texnologiyalar və xidmətlərdə, bütünlükdə insan həyatının bütün sferalarında tətbiq olunmasına imkan yaradan müasir instituonal generasiya modelinin yaradılmasını tələb edir. Azərbaycanın yeni strateji inkişaf konsepsiyasında innovasiya fəaliyyətinin gücləndirilməsi üçün milli innovasiya sisteminin qurulması; innovasiya fəaliyyəti üçün əlverişli iqtisadi, hüquqi və sosial-mədəni mühitin yaradılması; istehsalın və sosial sferanın yüksək texnologiyalar əsasında maddi-texniki bazasının modernləşdirilməsi; iqtisadiyyatın müxtəlif sahələrində keyfiyyətcə yeni texnoloji quruluşa nail olunması; yüksək texnoloji ixracın səviyyəsinin yüksəldilməsi, iqtisadi və energetik təhlükəsizliyin təmin olunması üçün idxalın ixracla əvəz olunması; əhalinin intellektual potensialının və yaradıcı fəallığının yüksəldilməsi məqsədəuyğundur.

Elmi texniki potensialın səmərəliliyinin yüksəldilməsi, milli texnoloji təhlükəsizliyin təmin olunması problemlərinin həll olunması, ölkəmizdə istehsal olunan və idxal olunan texnologiyaların təhlükəsiz transfer edilməsi prosesinin uçot və nəzarət sisteminin yaradılması əhəmiyyətlidir. Elmi texniki potensialın səmərəliliyinin yüksəldilməsinə nail olmaq üçün, ilk növbədə, iqtisadiyyatın müxtəlif sahələrinin yeni texnologiyalarla zənginləşməsi prosesi üçün şərait yaradılır. Bu ideyanın praktiki olaraq reallaşdırılması ölkə daxilində və ölkə xaricində innovasiyaların yayılması üçün texnologiyalar bankının yaradılması və səmərəli fəaliyyət göstərməsi mexanizminin, həmçinin elmi-texniki potensialın təkrar istehsalını özündə ehtiva edir.

Azərbaycanın inkişaf etdirilməsinin üstün istiqamətlərindən biri də, respublikamızda elmi-texniki sıçrayışları həyata keçirə biləcək sahələrin, (məsələn, nana texnologiyalar sahəsinin) və yüksək maliyyələşdirmə potensialın mövcudluğudur.Yeni texnologiyaların tətbiq olunması imkanlarının genişləndirilməsi isə innovasiya fəaliyyətinin müvafiq informasiya-analitik təminatının yaradılmasını tələb edir. İnnovasiya proseslərinin inkişaf etdirilməsinin əhəmiyyətini nəzərə alaraq, respublikada elmin prioritet istiqamətləri üzrə elmi-texniki informasiyanın mübadilə sistemi inkişaf etdirilidir. Qeyd etmək lazımdır ki, Azərbaycanda innovasiya sferasının bazar elementləri də formalaşmağa başlamışdır: özəl sahibkar müəssisələri, özəlləşdirilmiş iri elmi-istehsal birlikləri, xarici kapital əsasında yaradılmış müştərək müəssisələr. Eyni zamanda dövlətimiz prioritet və innovativ layihələrin maliyyələşdirilməsində də (müxtəlif büdcə və qeyri-büdcə fondları vasitəsilə) özü iştirak edir. Qeyd etmək lazımdır ki, iqtisadi islahatların həyata keçirilməsində əsas məqsədlərdən biri istehsalda səmərəliliyin yüksəldilməsinə nail olmaqdır. Bu səbəbdən də innovsiya siyasəti Elmi Texniki Tərəqqinin silsilələrinə “ETT-İnnovasiyalar-Təkrar istehsal”- sistemli yanaşmaya və eyni zamanda çoxlu saylı nümunəvi layihələrin reallaşmasına xidmət edən və innovasiya prosesinin bütün elementlərini vahid mexanizmdə birləşdirilməsini təmin edən tədbirlərin həyata keçirilməsinə yönəldilib. Elmi-texniki araşdırmalara investisiya yatırımlarının stimullaşdırılmasında ən əhəmiyyətli qərarlardan biri müəssisələrin əmtəə və xidmətlərinin reallaşdırılmasından əldə edilən mənfəətlərinin 0,5-1%-nin elmi-texniki və təcrübə-konstruktur işlərinin, innovasiyalarının maliyyələşdirilməsinə yönəldilməsi hesab edilə bilər. Bununla da liberal iqtisadiyyatın prinsipləri əsasında, müəssisələr mənfəətin əldə

olunması və məhsullarının rəqabət qabiliyyətliliyinin təmin olunması üçün vəsaitlərini özləri istədikləri kimi xərcləyə bilərlər. Eyni zamanda onlar fundamental və tətbiqi elmlər sahəsində öz araşdırmalarını Azərbaycan Milli Elmlər Akademiyasnda, Ali Təhsil Məktəblərində və ya özünün elmi-tədqiqat mərkəzlərində aparılmaq üçün seçim imkanları əldə edə biləcəklər. Bütün hallarda innovasiya prosesində direktiv orqanlar tərəfindən sifariş edilən deyil, bazarda tələb olunan işlərə üstünlük veriləcəyi təkzibedilməz faktdır. Bu məqsədlərə Azərbaycanda Milli Elmlər Akademiyasının tərkibində İnnovasiya Mərkəzi fəaliyyət göstərir. Həmin İnnovasiya Mərkəzi texnoloji, elmi və innovasiya məzmunlu araşdırmaların toplanılması, qeyd olunması və təhlilini həyata keçirir. Sözügedən struktur milli iqtisadiyyatda innovasiya prosesinin fəallaşdırılmasına xidmət edir.

Göründüyü kimi, Azərbaycan iqtisadiyyatının və cəmiyyətinin innovasiya texnologiyalarının mənimsəməsi prosesi mürəkkəb olsa da uğurla həyata keçirilir. Əldə olunmuş nailiyyətlərin möhkəmləndirilməsi və bu məqsədlərə doğru hərəkəti istiqamətləndirən özünəməxsus milli innovasiya sistemi – insititut, münasibətlər, sosial praktika sistemi yaradılır. Onun yaradılması insanın hər tərəfli inkişaf etdirilməsinə əsaslanır. İnsan kapitalına sosial-siyasi, sosial-mədəni, iqtisadi-idarəetmə və texnoloji innovasiyaların əsas halqası kimi, daha çox diqqət yetirilməsinə ehtiyac vardır.

# AZƏRBAYCAN SƏNAYESİNİN RƏQABƏT QABİLİYYƏTİNİN YÜKSƏDİLMƏSİ MƏSƏLƏLƏRİ

**_Dos. Dr. Gülbəniz ƏLİYEVA_**
_Azərbaycan Dövlət İqtisad Universiteti, gulbeniz_aliyeva@mail.ru_

## Xülasə

Sənaye siyasətinin düzgün formalaşması və həyata keçirilməsi xeyli dərəcədə sənayenin optimal inkişaf modelinin formalaşdırılmasından və rasional şəkildə reallaşdırılmasından asılıdır. Tədqiqat işinin məqsədi sənayenin rəqabətqabiliyyətinin formalaşmasının nəzəri-metodoloji aspektlərinin və mövcud vəziyyətinin kompleks şəkildə öyrənilməsi əsasında onun yüksəldilməsi yollarının müəyyənləşdirmək və bu istiqamətdə elmi cəhətdən əsaslandırılmış nəzəri və praktiki əhəmiyyət kəsb edən təklif və tövsiyələr işləyib hazırlamaqdan ibarətdir. Tədqiqatda rəqabət mexanizminin xarakterik xüsusiyyətləri tədqiq edilmiş, rəqabətin səviyyəsinə təsir göstərən amillər və onun qiymətləndirilməsi, eləcə də rəqabət mexanizminin formalaşmasının xarakterik xüsusiyyətlərinin tədqiqi baxılan məsələlər sırasına aiddir. Burada əsasən ölkədə, o cümlədən sənaye müəssisələrində islahatların aparıldığı şəraitdə səmərəli təsərrüfat fəaliyyətinin aparılması qaydaları, sənayenin strukturunun optimallaşdırılması məqsədilə müəssisələrdə islahatların aparılması məsələləri, həmçinin dövlətin rəqabət siyasətinin əsas istiqamətləri göstərilmiş, rəqabət qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində mühüm təkliflər irəli sürülmüşdür. Tədqiqatda rəqabətqabiliyyətliyinin maliyyə aspektləri də araşdırılmışdır. Burada sənaye müəssisələrinin maliyyələşdirilməsində dövlətin rolu əsaslandırılmışdır, sənayenin rəqabətqabiliyyətliyinin yüksəldilməsində səmərəli vergi siyasətinin təsiri, həmçinin sənaye müəssisələrinin vergi yükünün aşağı salınması məsələləri araşdırılmış, sənaye müəssisələrinin rəqabətqabiliyyətliyinin aşağı olması səbəbləri aşkar edilmişdir.

**Açar sözlər:** sənaye, investisiya, institusional, rəqabət qabiliyyəti, innovasiya.

## Issues Increasing of Competitiveness of Azerbaijan Industry

## Abstract

Formulation and implementation of industrial policy significantly depends on the optimal development of the industry and rational realization. The aim of the research work is that determine of the theoretical and methodological aspects of the formation of industry competitiveness and its increasing ways on the base in complexly studying current situation and in this direction to prepare offers and recommendation from point of view of theoretical and practical based on scientific aspect. It has been investigated institutional aspects in increasing of competitiveness of industry in research work. Here basically in the country, including in condition of carrying out reforms in industrial enterprises rules for the conduct of effective economic activity, problems of the reform in enterprises in order to optimize of the industrial structure, as well it was showed main directions of competition policy of government and it was given offers improvement in direction competition legislation. It has been investigated financial aspects of competitiveness in research. Here it was based the role of government in financing of industrial enterprises, impact to effective tax policy in increasing of industrial competitiveness, as well investigated decreasing the tax burden of industrial enterprises, it was discovered reasons of low of competitiveness of industrial enterprises.

**Key words:** industry, investment, institutional, competitiveness, innovation.
**JEL Classification Codes:** D40; F12; F14

Sənaye – Azərbaycan iqtisadiyyatının daha çox inkişaf etmiş sahələrindən biridir. Bu vacib sahə özündə yanacaq və energetika, kimya, maşınqayırma, metallurgiya, yüngül, yeyinti və digər sənaye sahələrini birləşdirir. Azərbaycanın bazar münasibətlərinə keçməsi konstekstində sənaye müəssisələrinin özəlləşdirilməsi, onların fəaliyyətinin dövlət tərəfindən dəstəklənməsi, xarici investisiyanın cəlb edilməsi, neft strategiyasının uğurla reallaşdırılması və s. bu kimi tədbirlər sənayedə bazar münasibətlərinin bərqərar olmasına və inkişafına təkan vermişdir. Bununla belə, ötən əsrin 90-cı illərində bazar münasibətlərinə keçid prosesi ilə əlaqədar baş vermiş transformasiya böhranı ölkənin sənaye potensialının və onun rəqabət üstünlüklərinin zəifləməsinə səbəb olmuşdur. Azərbaycan sənayesində 1996-cı ilə qədər davam edən transformasiya böhranı nəticəsində sənaye istehsalı 1990-cı ilin 28%-i səviyyəsinə enmiş və ya 3,6 dəfə aşağı düşmüşdür. Ölkədə sənayenin sonrakı inkişafı əsasən yanacaq-energetika kompleksinin sürətli inkişafı üzərində qurulmuş və sənaye müəssislərinin ümumi məhsulunda həmin sahənin payı 1990-cı ildəki 4,8 faizdən 2011-ci ildə 78,2 faizə çatmışdır.(Azərbaycanın statistik göstəriciləri 2012:848-469.)

Sənayemiz 1997-ci ildən başlayaraq davamlı şəkildə inkişaf edir. 1997-2010-cu illərdə Azərbaycan sənayesi ildə orta hesabla 10% artmış, artım templəri 2005-ci ildə 33,5%, 2006-cı ildə 36,6%, 2007-ci ildə 24% səviyyəsinədək qalxmışdır. Amma sənaye sahəsindəki bu cür qeyri-adi yüksək dinamika daha çox neft amili hesabına baş vermişdir. Dünyanın inkişaf etmiş ölkələrinin neft şirkətləri ilə bağlanan müqavilələr neft və qaz sənayesinin sürətlə inkişaf etməsinə təkan vermişdir. Belə ki, Azərbaycanda 1995-ci illə müqayisədə 2009-cu ildə sənaye istehsalı 3,4 dəfə, o cümlədən hasilat sənayesi 5,2 dəfə, emal sənayesi isə 1,5 dəfə artmışdır. Transformasiya böhranı daha çox sənayeni vurduğundan, bu cür yüksək artım şəraitində Azərbaycan sənayesi yalnız 2009-cu ildə 1990-cı il səviyyəsinə çata bilmişdir.

Həmin dövr ərzində hasilat sənayesi 1990-cı ilin səviyyəsini 2,8 dəfə üstələsə də, 2009-cu ildə emal sənayesi 1990-cı ilin yalnız 43%-i səviyyəsinə çata bilmişdir. Sənayenin böhrandan sonrakı inkişafı əsasən yanacaq-energetika kompleksinin sürətli inkişafı üzərində qurulduğundan, sənaye müəssisələrinin ümümi məhsulunda həmin sahənin payı 1990-cı ildəki 10,1%-dən 2010-cu ildə 79,8%-ə çatmışdır. Qida məhsullarının istehsalının xüsusi çəkisi 26,6%-dən 1,4%-ə, toxuculuq sənayesinin xüsusi çəkisi 19,9%-dən 0,1%-ə, maşın və avadanlıqların istehsalının xüsusi çəkisi 20,3%-dən 0,9%-ə, kimya sənayesinin xüsusi çəkisi isə 5,3%-dən 1%-ə enmişdir. Eyni zamanda sənayenin neftdənkənar sahələrinin səmərəlilik və rəqabətqabiliyyətlilik göztəriciləri də azalmışdır. 2010-cu ildə Azərbaycanın ixracının 94%-dən çoxunu neft və neft məhsulları təşkil etmiş, maşınlar, mexanizmlər, elektrotexniki avadanlıqlar isə yalnız 0,2% səviyyəsində olmuşdur. İdxalda isə maşınlar, mexanizmlər 28,8% təşkil etmişdir. Sənayenin neftdənkənar sahələrinin rəqabət qabiliyyətinin və məhsuldarlığın aşağı olması, neft hasilatının sürətli artımı ilə yanaşı, onun strukturunda hasilat sahələrinin payının daha sürətlə artmasında özünəməxsus rol oynamışdır.

**Cədvəl 1**

**Sənaye istehsalının indeksləri (1990-cı illə müqayisədə faizlə)**

| [redacted] | | Mədənçıxarma sənayesi | Emal sənayesi | Elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təchizat | Su təchizatı; çirkli suların və tullantıların təmizlənməsi |
|---|---|---|---|---|---|
| | | 1990=100 | | | |
| **1995** | 30 | 53 | 28 | 64 | 98 |
| **1996** | 28 | 52 | 25 | 67 | 93 |
| **1997** | 28 | 52 | 25 | 63 | 85 |
| **1998** | 29 | 64 | 22 | 67 | 76 |
| **1999** | 30 | 77 | 20 | 68 | 73 |
| **2000** | 32 | 78 | 23 | 70 | 67 |
| **2001** | 34 | 82 | 24 | 70 | 60 |
| **2002** | 35 | 84 | 25 | 69 | 74 |
| **2003** | 37 | 86 | 30 | 79 | 101 |
| **2004** | 39 | 88 | 33 | 80 | 83 |
| **2005** | 52 | 124 | 38 | 84 | 73 |
| **2006** | 71 | 180 | 41 | 93 | 73 |
| **2007** | 88 | 232 | 44 | 86 | 61 |
| **2008** | 93 | 244 | 46 | 84 | 61 |
| **2009** | 101 | 275 | 43 | 82 | 61 |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.

**Cədvəl 2**

**Sənaye istehsalının sahə strukturu** (yekuna görə faizlə)

| [redacted] | | | | | |
|---|---|---|---|---|---|
| **Bütün sənaye, O cümlədən:** | 100 | 100 | 100 | 100 | 100 |
| **Mədənçıxarma sənayesi** | 10,1 | 46,2 | 53,4 | 67,4 | 79,8 |
| **Qida məhsullarının istehsalı** | 26,6 | 10,4 | 2,6 | 3,2 | 1,4 |
| **Toxuculuq sənayesi** | 19,9 | 9,5 | 0,9 | 0,4 | 0,1 |
| **Kimya sənayesi** | 5,3 | 3,0 | 3,4 | 2,4 | 1,0 |
| **Metallurgiya sənayesi** | 3,7 | 1,2 | 0,1 | 3,2 | 0,7 |
| **Maşın və avadanlıqların istehsalı** | 20,3 | 3,6 | 1,1 | 0,4 | 0,9 |
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | 4,1 | 19,2 | 15,2 | 5,7 | 3,1 |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.

Rəqəmlər göstərir ki, son illər Azərbaycan sənayesi qeyri-adi sürətlə inkişaf etsə də, neftdənkənar sənaye sahələrinin böhrandan əvvəlki səviyyəsi və onun rəqabət üstünlükləri hələ də bərpa olunmamışdır. Emal sənayesində əmək məhsuldarlığı ölkə üzrə sənayenin orta göstəricisindən 6,8 dəfə mədənçıxarma sənayesindəkindən isə 29,5 dəfə aşağıdır. Belə şərait

emal sənayesi məhsullarının maya dəyərini artırır ki, bu da onun rəqabət qabiliyyətinə mənfi təsir göstərir.

Son illər xeyli səy göstərilsə də, hələlik sənaye istehsalında müasir, resurslara qənaət edən və ekoloji cəhətdən təhlükəsizlik texnologiyalarının tətbiqi əsasında elmtutumlu, rəqabətqabiliyyətli yüksək texnoloji məhsulun buraxılışının təmin edilməsi və şaxələndirilməsi aparıcı istiqamətə çevrilə bilməmişdir. Sənaye istehsalında elmtutumlu və rəqabətqabiliyyətli məssul istehsalının aşağı səviyyədə olması, sənayenin texnoloji cəhətdən geri qalmasından qaynaqlanır. Bu da innovasiya sektoruna sərmayələrin səviyyəsinin aşağı olması ilə bilavasitə əlaqədardır.

**Cədvəl 3**

**2010-cu ildə mal qrupları üzrə xarici ticarət dövriyyəsi**

| [redacted] | | | | |
|---|---|---|---|---|
| **Cəmi** | **6599354,7** | **100,0** | **21324777,7** | **100,0** |
| **Mineral məhsullar** | 208159,5 | 3,2 | 20083591,0 | 94,2 |
| **Kimya sənayesi məhsulları** | 437786,0 | 6,6 | 47886,7 | 0,2 |
| **Toxuculuq materialları və məmulatları** | 60850,1 | 0,9 | 42785,2 | 0,2 |
| **Daş, gips, sement, asbest, slyuda, keramika və şüşə məmulatları** | 201714,5 | 3,1 | 1386,6 | 0,0 |
| **Az qiymətli metallar və onlardan hazırlanan məmulatlar** | 925153,1 | 14,0 | 126221,4 | 0,6 |
| **Maşınlar, mexanizmlər, elektrotexniki avadanlıqlar, aparatura** | 1902650,0 | 28,8 | 39530,9 | 0,2 |
| **Quru nəqliyyat vasitələri, uçan aparatlar, üzən nəqliyyat vasitələri** | 796718,3 | 12,1 | 181123,2 | 0,8 |
| **Optik, topoqrafik, ölçü nəzarət, tibbi alət və aparatlar, saatlar və musiqi alətləri** | 174705,4 | 2,6 | 7019,0 | 0,0 |
| **Müxtəlif sənaye malları** | 94253,6 | 1,4 | 4611,7 | 0,0 |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.

İnnovasiyalar sahəsində hazırki vəziyyəti qənaətbəxş hesab etmək olmaz. Bunun da əsas səbəbi odur ki, innovasiya fəaliyyətində investisiyaların xüsusi çəkisi aşağı olmaqla yanaşı, struktur dəyişikliklərinə texnoloji proseslərin təsiri zəifdir. 2009-cu ildə sənayeyə yönəldilən sərmayələr 3225 mln. manat təşkil etmişdir. Onun 64,8%-i və ya 2088 mln. manatı mədənçıxarma, 11%-i və ya 354 mln. manatı isə emal sənayesinin payına düşmüşdür. Bu məbləğ emal sənayesinin investisiya tələbatından qat-qat aşağıdır. Sənayedə texnoloji innovasiyalara çəkilən xərclər 2005-ci ildəki 53,3 mln. manatdan 5 il ərzində 11,6 dəfə azalaraq 2009-cu ildə 4,6 mln. manata enmişdir. Buna müvafiq olaraq ölkə sənayesində yeni tətbiq olunanməhsulun həcmi cəmi 0,7 mln. manat, təkmilləşdirilmiş məhsulun həcmi isə 69 min manat təşkil etmişdir ki, bu da üst-üstə götürülməklə sənaye istehsalımızın cəmi 0,00003%-ni təşkil edir.

Cədvəl 4

**İnnovasiyaların tiplərinə görə sənayedə texnoloji innovasiyalara çəkilən xərclər**

(min manat)

| | | | | | |
|---|---|---|---|---|---|
| **Bütün sənaye** | **53273** | **1330** | **49620** | **8020** | **4618** |
| **Məhsul innovasiyaları** | 53265 | 777,4 | 34114 | 7245 | 2328 |
| **Proses innovasiyaları** | 8,3 | 552,3 | 15507 | 777,4 | 2291 |
| **Mədənçıxarma snayesi** | **43892** | **191,7** | **97,6** | **592,3** | **397,5** |
| **Məhsul innovasiyaları** | 43892 | 169,8 | 97,6 | 592,3 | 387,8 |
| **Proses innovasiyaları** | 0,2 | 21,9 | - | - | 9,7 |
| **Emal sənayesi** | **8572** | **1138** | **49493** | **7428** | **4102** |
| **Məhsul innovasiyaları** | 8564 | 607,6 | 34016 | 6652 | 1940 |
| **Proses innovasiyaları** | 8,1 | 530,4 | 15477 | 775,4 | 2162 |

Mənbə:Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Bununla belə uzun illərdir ki, sənaye ölkə iqtisadiyyatının əsasını təşkil etməkdə davam edir. Azərbaycan sənayesi çox böyük potensiala malik olmaqla, həm də güclü perspektivləri vardır. İqtisadiyyatda məşğul olan əhalinin 13,5%-nin çalışdığı bu sahə əsas fondların 55,4 faizini əhatə edir. Əsas kapitala investisiyaların 41,7%-i, ölkə üzrə yaradılan əlvə dəyərin 50%-i, xalis mənfəətin 63,5%-i sənayenin payına düşür. Sənayedə çalışanların orta aylıq əmək haqqı ölkə üzrə orta göstəricidən 1,4 dəfə yüksəkdir. Azərbaycanda neft sektorunun dinamik inkişafı qeyri-neft sahələrinin inkişafının daha da sürətləndirilməsi üçün möhkəm zəmin yaratmışdır. Son illər qeyri-neft sənayesinin inkişaf tempini xeyli üstələməyə başlamışdır. Dünya İqtisadi Forumu tərəfindən 2010-2011-ci illər üçün hazırlanmış “Qlobal Rəqabətlilik Hesabatı”nda Azərbaycan dünyada 55-ci, MDB ölkələri arasında yenə də birinci, makroiqtisadi sabitlik altindeksi üzrə isə 14 pillə irəliləyərək 139 ölkə arasında 13-cü yerdə qərarlaşmışdır. “2010-2011-ci illərdə qlobal rəqabətqabiliyyətliliyi haqqında” Ümumdünya İqtisadi Forumunun məruzəsinə görə, Azərbaycanın innovasiyalıq amilinə görə, dünyanın 139 ölkəsi arasında 61-ci, MDB-də 2-ci (Rusiyadan sonra) yeri tutur, Qafqaz və Mərkəzi Asiyadakı öz qonşularını xeyli qabaqlayır. “Standard and Poors” Beynəlxalq Reytinq Agentliyi 2009-2010-cu illər üzrə ölkə reytinqini “Stabil”dən “Pozitiv”ə yüksəltmiş, “Fitch Ratings” Agentliyi ölkəmizə ilk dəfə olaraq investisiya reytinqi vermişdir.

Cədvəl 5

**Yenilik səviyyəsinə və iqtisadi fəaliyyət növlərinə görə innovasiya məhsulunun həcmi**

(min manat)

| [redacted] | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 2006 | 2007 | 2008 | 2009 | 2006 | 2007 | 2008 | 2009 |
| **Sənaye-cəmi** | 1852 | 826,2 | 6842 | 730,9 | 693,3 | 399,4 | 1715 | 68,9 |
| **Mədənçıxarma sənayesi** | 323,0 | 208,5 | 4566 | - | - | - | - | - |
| **Emal sənayesi** | 1529 | 617,7 | 2276 | 730,9 | 693,3 | 399,4 | 1715 | 68,9 |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Azərbaycanın qlobal rəqabət qabiliyyətlilik göstəricisənə görə dünyanın öndə gedən 50 ölkəsi sırasına düşməsindən və tədricən daha yuxarı pillələrə doğru irəliləməsindən ötrü, digər şərtlərlə yanaşı, sənayenin rəqabət qabiliyyətinin yüksəldilməsi problemlərinin həllinin sürətləndirilməsinə də böyük ehtiyac vardır.

Qlobal maliyyə-iqtisadi böhranı dünyanın əsas əmtəə bazarlarını həm xeyli daraltmış, həm də rəqabəti xeyli kəskinləşmişdir. Hansı ölkə bu raqəbət mübarizəsindən qalib çıxsa, o da önə çıxacaqdır. Ona görə də qlobal böhranın dərsləri rəqabət məsələsini daha da aktuallaşdırmışdır.

- Bazar münasibətlərinə əsaslanan iqtisadi sistemdə rəqabət iqtisadi proseslərin əsas tənzimləyicisi rolunu oynayır.
- Rəqabət ölkə iqtisadiyyatında tələb və təklifin qarşılıqlı təsirini təmin edən, bazar qiymətini tarazlaşdıran qüvvə kimi çıxış edir.
- Rəqabətli bazar sistemi təchizatçılar, istehsalçılar və istehlakçıların qərarları arasındakı qarşılıqlı əlaqəni təmin edir. Bu baxımdan, bazar iqtisadiyyatında rəqabət iqtisadi resursların səmərəli bölgüsü və onlardan səmərəli istifadənin təmin edilməsində əhəmiyyətli rol oynayır.
- Sənayenin inkişaf səviyyəsi və rəqabət qabiliyyəti istənilən ölkənin davamlı və tarazlı inkişafının təmin edilməsinin mühüm amillərindən biridir.
- Qloballaşma şəraitində sənayenin rəqabət qabiliyyəti davamlı iqtisadi artımın və əhalinin həyat səviyyəsinin yüksəldilməsinin təminatçısı kimi çıxış edir.
- Sənayenin rəqabət qabiliyyəti daxili bazarın qorunmasının ən etibarlı vasitəsidir.
- Sənayenin rəqabət qabiliyyəti ölkənin eksport imkanlarının genişləndirilməsinin əsas şərtidir.
- Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyəti xeyli dərəcədə sənayemizin rəqabət qabiliyyətindən asılıdır.
- Sənayenin rəqabət qabiliyyəti Azərbaycanın iqtisadi təhlükəsizliyinin əsas meyarlarından biridir.

Cədvəl 6

**Sənaye müəssisələrində innovasiyalara mane olan amillər**

| [redacted] | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | əsas və ya həlledici | | | əhəmiyyətli | | | az əhəmiyyətli | | |
| | 2007 | 2008 | 2009 | 2007 | 2008 | 2009 | 2007 | 2008 | 2009 |
| **İqtisadi amillər** | | | | | | | | | |
| **Öz pul vəsaitinin kifayət qədər olmaması** | 28 | 24 | 35 | 11 | 14 | 11 | 30 | 32 | 35 |
| **Dövlət tərəfindən maliyyə yardımının kifayət qədər olmaması** | 19 | 25 | 19 | 10 | 11 | 13 | 17 | 19 | 19 |
| **Təzə məhsullara ödəniş qabiliyyətli tələbatın aşağı olması** | 7 | 6 | 38 | 12 | 16 | 7 | 34 | 37 | 38 |
| **Yeniliklərin dəyərinin yüksək olamsı** | 15 | 8 | 45 | 13 | 23 | 9 | 35 | 40 | 45 |
| **Yüksək iqtisadi risk** | 4 | 3 | 34 | 14 | 15 | 9 | 36 | 40 | 34 |
| **Təzə məhsullara çəkilən xərclərin əvəzinin ödənilməsi müddətlərinin uzun olması** | 11 | 7 | 47 | 12 | 12 | 10 | 39 | 42 | 47 |
| **İstehsal amilləri** | | | | | | | | | |
| **Müəssisənin innovasiya potensialının aşağı olması** | 4 | 8 | 18 | 20 | 17 | 18 | 22 | 27 | 18 |
| **İxtisaslı işçilərin çatışmaması** | 2 | 3 | 27 | 8 | 9 | 9 | 35 | 38 | 27 |
| **Yeni texnologiyalar haqqında informasiyanın çatışmaması** | 3 | 8 | 24 | 13 | 19 | 15 | 25 | 26 | 24 |
| **Müəssisələr tərəfindən yeniliklrin qəbul edilməməsi** | 3 | 4 | 29 | 6 | 10 | 10 | 31 | 36 | 29 |
| **Satış bazarları haqqında informasiyanın çatışmaması** | 2 | 5 | 28 | 11 | 13 | 9 | 27 | 39 | 28 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Digər müəssisələr və digər elmi təşkilatlar ilə kooperasiya üçün imkanların olmaması** | 1 | 1 | 28 | 10 | 16 | 9 | 29 | 35 | 28 |
| **Digər səbəblər** | | | | | | | | | |
| **Daha əvvəlki innovasiyalar nəticəsində təzə məhsullara ehtiyacın olmaması** | - | 2 | 35 | 1 | 3 | 4 | 40 | 47 | 35 |
| **İnnovasiya fəaliyyətini tənzimləyən və həvəsləndirən qanunvericilik və normativ-hüquqi sənədlərin olmaması** | 3 | 7 | 25 | 9 | 14 | 10 | 27 | 26 | 25 |
| **İnnovasiya prosesi müddətinin qeyri-müəyyən olması** | 1 | 4 | 29 | 5 | 9 | 8 | 32 | 35 | 29 |
| **İnnovasiya infrasturkturunun (vasitəçilik, informasiya, hüquq, bank və s. xidmətlərinin) inkişaf etməməsi** | 6 | 7 | 23 | 9 | 14 | 12 | 38 | 35 | 23 |
| **Texnologiyalar bazarının inkişaf etməməsi** | 5 | 5 | 24 | 13 | 16 | 12 | 25 | 36 | 24 |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Rəqabətin səviyyəsinə təsir göstərən amillərin bir qrupu bazarda fəaliyyət göstərən təchizatçıların, istehsalçıların və alıcıların strateji davranışları (strateji qiymətqoyma, reklam, məhsulun differensasiyası və s.) ilə, digər qrupu isə istehsalın texnologiyası, tələbin dinamikası, institusional amillər, xarici rəqabət və s. kimi sahənin obyektiv xüsusiyyətləri ilə əlaqədar olur.(Портер М. Международная конкуренция, 1993:896-26.)

Beynəlxalq rəqabət şəraitində hər bir sahədə səmərəliliyin nisbi standartı ilə (ölkə daxilində bir sahənin digər sahələrə nisbətən səmərəli olması) yanaşı, mütləq standartı da mövcud olur ki, buna nail olmadan da xarici rəqiblərlə rəqabət aparmaq qeyri-mümkündür. Ölkədə ən səmərəli sahələrin xarici rəqiblər qarşısında öz mövqelərini itirməsi iqtisadi səmərəliliyin və əmək haqqının azalmasına, iqtisadi inkişaf tempinin aşağı olmasına səbəb olur. Buna görə də, nisbətən mürəkkəb sənaye sahələrində ölkənin rəqabət aparmaq qabiliyyəti, onun rəqabət üstünlüklərinə malik olması iqtisadi inkişafın əsas şərtidir.

Məhsulun rəqabət qabiliyyəti keyfiyyət və qiymətin nisbətində formalaşdığından rəqabət üstünlükləri də qiymətə və keyfiyyətə əsaslanır.

Sənaye müəssisələrinin rəqabət üstünlüyü əldə etməsi üçün o, istehlakçılara rəqiblərinə nisbətən eyni keyfiyyətdə olan məhsulu daha ucuz sata bilmli və ya nisbətən yüksək qiymətə nisbətən daha keyfiyyətli məhsul təqdim etməlidir.

Müasir dövrdə əmək bölgüsünün dərinləşdiyi şəraitdə istənilən məhsulun istehsalını müxtəlif sahələrin iştirakı ilə təmin etmək mümkündür. Rəqabət qabiliyyətli məhsul istehsalı müəssisənin lazımi həcmdə yüksək keyfiyyətli xammal, material və dəstləşdirici məmulatlarla təmin olunmasından, ixtisaslı kadrlarının olmasından, inkişaf etmiş satış şəbəkəsinə malik olmasından asılıdır. Ölkə sənayesinin rəqabət qabiliyyəti bu əlaqələrin təşkilindən əhəmiyyətli dərəcədə asılıdır. Təcrübə göstərir ki, keçid iqtisadiyyatı ölkələrində vaxtilə mövcud olmuş ənənəvi və ünvanlı əlaqələrin pozulması onların iqtisadi inkişafında geriləmələrin baş verməsinin əsas amillərindən biri olmuşdur. Çünki bunun nəticəsində bu sistemdə toplanmış bütün təcrübə, əvvəllər həyata keçirilmiş investisiya keçid dövründə dəyərini itirmişdir.

Makroiqtisadi səviyyədə sənayenin rəqabət qabiliyyətinə təsir edən amillərə iqtisadiyyatın açıq xarakteri, dövlət siyasətinin keyfiyyəti, maliyyə sisteminin səmərəliliyi, infrastrukturun inkişaf səviyyəsi, əmək bazarlarının mobilliyi, işçi qüvvəsinin təhsil səviyyəsi, idarəetmənin təkmilliyi, ictimai institutların keyfiyyəti aiddir. (Албегова и др. Государственная экономическая политика, 1998:320-257)

Sənaye istehsalının son illərdə qloballaşmasına baxmayaraq, yerli amillər rəqabət üstünlüklərinin formalaşmasında əsas rola malikdir. Bazar qüvvələrinin təsiri əsasında sənaye istehsalı nisbətən yüksək mənfəət norması təmin edən regionlarda yerləşir. Bu baxımdan, sənaye firmalarının rəqabət üstünlükləri yerli şəraitlə əlaqədar yaranır və inkişaf edir. Firmaların yerləşdiyi rayonun xüsusiyyətləri istehsal xərclərinin səviyyəsinə, investisiya qoyuluşlarının həcminə əhəmiyyətli şəkildə təsir göstərərək, onların rəqabət qabiliyyətinin formalaşmasında mühüm rol oynayır.

Mürəkkəb istehsal sahəsi kimi, sənaye müəssisələrinin yerləşməsi regionda nəqliyyatın, rabitənin və digər sahələrin inkişafına, istehsalın enerji və xammalla təminatının, rayonlararası və sahələrarası əlaqələrin mürəkkəbləşməsinə, ətraf mühitin qorunmasının əhəmiyyətinin artmasına və s. təsir göstərir. Eyni zamanda, sənayenin rəqabət qabiliyyəti regionun infrastruktur təminatı, ixtisaslı kadrların mövcud olmasından əhəmiyyətli dərəcədə asılıdır.

Sənaye istehsalının rasional yerləşdirilməsi həm regionun mövcud resurslarından səmərəli istifadə etməyin, həm də rəqabət qabiliyyətli sənaye məhsulları istehsalının mühüm amilidir. Azərbaycan iqtisadiyyatının bazar münasibətlərinə keçidi sənaye müəssisələrinin fəaliyyətinə köklü şəkildə təsir göstərmişdir ki, bu da onların əksəriyyətinin restrukturizasiyasının həyata keçirilməsini zəruri edir. Lakin araşdırmalar göstərir ki, bazar münasibətlərinə keçid dövründə sənaye müəssisələrinin inkişaf strategiyasının düzgün müəyyən edilməməsi və onların restrukturizasiyası istiqamətində aktiv addımlarınartırılması emal sənayesi məhsulunun azalmasının əsas səbəblərindən biridir. Sənaye müəssisələrinin istehsal fəaliyyətindən gəlirlərin artırılmasına istiqamətlənən aktiv strategiya əvəzinə, qarşıya çıxan problemlərin həlli istiqamətində gecikmiş tədbirlərin həyata keçirilməsinə əsaslanan passiv strategiya əsaslanması, son nəticədə onların rəqabət qabiliyyətlərinin aşağı düşməsinə səbəb olmuşdur.

1998-2011-ci illərdə sənayedə artım mədənçıxarma sənayesinin inkişaf tempi ilə birbaşa əlaqədar olmuşdur. Belə hal sənaye məhsulunda mədənçıxarma sənayesinin payının yüksək olması ilə əlaqədardır.Bununla belə son illərin tendensiyalarına nəzər saldıqda görürük ki, sənaye məhsulunda mədənçıxarma sənayesinin payı 2009-ci ildəki 80,7 faizdən 2011-ci ildə 78,2 fazə enmişdir. (Azərbaycanın statistik göstəriciləri, 2012:848-469)

Sənaye istehsalının texniki-iqtisadi səviyyəsinin yüksəldilməsi və yenidənqurulması investisiya proseslərində həyata keçirilir. Bu zaman istehsalın intensivləşdirilməsi amilləri maddiləşir, istehsalın inkişafının yeni maddi-texniki bazası yaradılır. Burada iki şərt qeyd etmək lazımdır: birincisi, investisiya prosesinin səmərəliliyi istehsalın texniki səviyyəsindən və onun yeniliklərə uyğunlaşmasından və bu yeniliklərdən səmərəli istifadə etmək qabiliyyətindən asılıdır; ikincisi, təkrar istehsal prosesində istehsalın texniki cəhətdən yenidənqurulmasında investisiya prosesi həlledici rola malikdir. İnvestisiyanın həcmi və istiqaməti iqtisadiyyatda texniki yeniliklərin və mütərəqqi dəyişiklişlərin tempini müəyyən edir. Hazırda emal sənayesinin texniki-iqtisadi səviyəsinin yüksəldilməsi və bu sahənin inkişafı üçün iri həcmli investisiya qoyuluşlarının həyata keçirilməsi tələb olunur. Belə şəraitdə, ilk növbədə, emal sənayesi müəssisələrində isehsalın texniki səviyyəsinin yüksəldilməsi zəruridir. Çünki, istehsalın texniki səviyyəsinin aşağı olması rəqabət qabiliyyətli məhsul istehsal etmək imkanlarını məhdudlaşdırır ki, bu da müəssisədə istehsalın, əməyin və idarəetmənin təşkilinin təkmilləşdirilməsi sahəsində həyata keçirilməli olan tədbirlərin əhəmiyyətini azaldır. Xüsusilə, bəzi istehsallarda, məsələn neft emalı, kimya və neft-kimya, yeyinti sənayesinin bəzi sahələrində istehsalın texniki səviyyəsi istehsalın səmərəliliyinin və istehsal edilən məhsulun keyfiyyətinin yüksəldilməsində həlledici rola malikdir.

Ölkədə sənaye istehsalının texniki cəhətdən yenidən qurulması ayrıca bir istehsal növü üzrə həyata keçirilməsi ciddi çətinliklərlə əlaqədardır. Belə şəraitdə sənaye istehsallarının klaster şəklində inkişaf etdirilməsi məqsədəuyğundur. Çünki, texnoloji səviyyəsi yüksək olan istehsalların inkişafı əlaqədar istehsalların texniki-iqtisadi səviyyəsindən asılıdır. Buna görə də ölkədə yeni istehsalların yaranmasına şəait yaradan sahələrin inkişafı təmin edilməlidir. Dövlət daxili tələbatın stimullaşdırılması,importun tənzimlənməsi, eksportun stimullaşdırılması və dəstəklənməsi, texnoloji inkişafın stimullaşdırılması,dövlə- xüsusi sektor partnyorluğunun optimal variantlarının tətbiqi,klasterlərin inkişafının dəstəklənməsi, perspektivli və rəqabətqabiliyyətli sahələrə sərmayələrin birbaşa dəstəklənməsi, vergi stimulları,xarici kapitalın cəlb edilməsi və s. istiqamətlərdə sistemli və davamlı tədbirlər həyata keçirməlidir.(Вопросы экономики, 2012:144)

Ölkədə fəaliyyət göstərən sənaye müəssisələrini əksəriyyəti sovet dövründən qalmışdır. Belə şəraitdə mövcud müəssisələrin təşkilatı və idarəatmə strukturunun təkmilləşdirilməsinə ehtiyac vardır. Hazırda sənaye müəssisələrinin əksəriyyətində strateji idarəetmədən istifadə edilmir. Onların isə inkişaf strategiyasına malik olmadan bazarda müvəffəqiyyət qazanmaq imkanları məhduddur. Buna görə də, ölkədə fəaliyyət göstərən sənaye müəssisələri tərəfindən bazarın kompleks tədqiqi, özlərinin rəqabət üstünlüklərinin və bazardakı mövqelərinin qiymətləndirilməsi əsasında inkişaf strategiyalarının hazırlanması və həyata keçirilməsi zəruridir.

Sənaye müəssisələrində uzunmüddətli, ortamüddətli və cari planların tərtibi onların inkişafının uzunmüddətli məqsədlərinin müəyyən edilməsi, iqtisadi potensialının qiymətləndirilməsi və fəaliyyətgöstərdiyi xarici mühitin dərindən öyrənilməsi əsasında həyata keçirilir. Bu zaman aparılmış təhlil və proqnozlaşdırma işləri müəssisənin fəaliyyət

istiqamətlərinin alternativ variantlarının işlənilməsinə gətirib çıxarır ki, bu da xarici mühitdə baş verən dəyişikliklərə vaxtında və çevik reaksiya vermək üçün müəyyən fəaliyyət planının formalaşdırılmasına gətirib çıxarır.

Sənaye müəssisələrinin istehsal-təsərrüfat fəaliyyətinin səmərəliliyi menecmentin səviyyəsindən asılıdır. Bunu isə menecerlərin peşəkarlığı və təcrübəsi müəyyən edir. Ölkədə bazar münasibətləri şəraitində təcrübəli və yüksək ixtisaslı menecerləri azlığı şəraitində xarici ölkələrdən ayrı-ayrı sənaye müəssisələrinin inkişafını təmin edə bilən menecerlərin cəlb edilməsi məqsədəuyğundur. Belə menecerlər muzdlu işçi kimi, həm də xarici firmaların alınması yolu ilə yerli müəssisələrin xarici müəssisələrlə inteqrasiyası formasında həyata keçirilə bilər. Fikrimizcə, ölkənin neft strategiyasının uğurla reallaşdırılmasından gələn gəlirlərin bir hissəsini xarici müəssisələrin alınması və onların yerli müəssisələrlə inteqrasiyası əsasında ölkənin iqtisai inkişafının lokomotivinə çevrilə bilən iri şirkətlər yaratmaq mümkündür.

Vaxt amili istehsalın səmərəliliyinin mühüm göstəricisi olduğundan istehsal prosesində istifadə edilən maddi əşyaların, maliyyə vəsaitlərinin və informasiya axınlarının sürəti və dəyəri sənayenin rəqabət qabiliyyətinə birbaşa təsir göstərir. Bu axınların sürətini və onlarla əlaqədar xərclərin həcmini isə ölkədə nəqliyyatın, rabitənin, bazar infrastrukturunun və s. sahələrin inkişaf səviyyəsi müəyyən edir. Buna görə də, sənayenin inkişafı və onun rəqabət qabiliyyəti istehsala xidmət sahələrinin inkişafında əhəmiyyətli dərəcədə asılıdır. Fikrimizcə, ölkənin infrastruktur sahələrinin inkişafı sahəsində həyata keçirilən köklü tədbirlər sənayenin rəqabət qabiliyyətinə müsbət təsir göstərəcəkdir.

Əsas sənaye-istehsal fondlarının yeniləşmə və sırada çıxma göstəriciləri də rəqabət qabiliyyətli sənaye istehsalı tələblərinə yetərincə cavab vermir. (Azərbaycanın statistik göstəriciləri, 2012:848-502)

Rəsmi hökumət proqnozlarına görə, 2012-2014-cü illəri əhatə edən orta perspektiv dövrdə Azərbaycanda hasilat sənayesinin artım templəri əvvəlki dövrlə müqayisədə xeyli aşağı düşəcək və bunun təsiri ilə sənayenin orta illik tempi 2,5% təşkil edəcəkdir.

Mədənçıxarma sənayesində də 2013-cü ilədək artım bundan da aşağı – 2,2% səviyyəsində gözlənilir. Ölkə iqtisadiyyatında həmin sahənin xüsusi çəkisi yüksək olduğundan, bu, ÜDM-in artım templərinə də mənfi təsir göstərəcəkdir. Amma qeyri-neft sektorunda əlverişli investisiya mühitinin yaradılması istiqamətində nəzərdə tutulan tədbirlər, aparılan özəlləşdirmə prosesi və digər islahatlar 2012-2014-cü illər ərzində qeyri-neft sahələrinin daha intensiv inkişafını təmin edəcəkdir. Sənayenin toxuculuq, kimya, metallurgiya sənayesi, maşın və avadanlıqların istehsalı kimi sahələrində artım templərinin bundan 3-8 dəfə yüksək olması gözlənilir. Məsələn, 2012-2014-cü illərdə maşın və avadanlıqların istehsalı sahəsində orta hesabla 20%, o cümlədən 2012-ci ildə 20,7%, 2013-cü ildə 19,2%, 2014-cü ildə 12,1% artım proqnozlaşdırılıb. Bu, sənayedə nefdənkənar sahələrin payının artmasına təsir göstərəcəkdir. Fikrimizcə, emal sənayesində, eləcə də qeyd etdiyimiz sahələrdə gözlənilən artım templəri isteshal olunan məhsullarının keyfiyyətinin yaxşılaşdırılması, maya dəyərinin aşağı salınması və rəqabət qabiliyyətinin artırılması ilə müşaiyət olunmalıdır.

Cədvəl 7

**Azərbaycanda ÜDM-in artımı və sənayenin inkişaf proqnozları** (əvvəlki ilə nisbətən faizlə)

| | | | |
|---|---|---|---|
| **ÜDM-in artım tempi** | 6,4 | 5,4 | 9,2 |
| **Bütün sənaye** | 3,9 | 3,1 | 3,2 |
| **Mədənçıxarma sənayesi və karxanaların işlənməsi** | 3,8 | 2,3 | 12,5 |
| **Emal sənayesi** | 5,1 | 4,2 | 3,6 |
| **Qida məhsullarının istehsalı (tütün və içkilər də daxil olmaqla)** | 3,9 | 3 | 3,2 |
| **Toxuculuq sənayesi** | 15,7 | 14,4 | 12,5 |
| **Kimya sənayesi** | 7,2 | 5,9 | 1,2 |
| **Metallurgiya sənayesi** | 25,8 | 13,5 | 3,4 |
| **Maşın və avadanlıqların istehsalı** | 20,7 | 19,2 | 12,1 |
| **Optik və elektrik avadanlığı** | 6,3 | 5,9 | 8 |
| **Nəqliyyat avadanlığı** | 11,9 | 11,8 | 8,4 |
| **Elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi** | 6,1 | 5,8 | 5,4 |

Mənbə: Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi. Sosial-iqtisadi inkişafın orta müddətli(2012-1024-cü illər) prioritetləri.

Azərbaycan sənayesinin inkişafının hazırki mərhələsində sənayenin həm daxili, həm də xarici bazarlarda rəqabət qabiliyyətinin təmin edilməsi problemini fundamental şəkildə həll etməkdən ötrü, hər şeydən əvvəl, sənaye siyasəti ilə rəqabət siyasətinin optimal kombinasiyasına nail olmaq lazımdır. Belə ki, ölkə sənayesinin rəqabət qabiliyyətini artırmaqdan ötrü çoxpilləli innovasiyalı inkişaf modelinə keçilməsi zəruridir. Bu modelin aşağıda sadalanan dörd səviyyədə formalaşdırılması məqsədəuyğundur.

-Azərbaycanın sənaye siyasətinin innovasiyalı modelinin formalaşdırılması və həyata keçirilməsi;

-Regionlar səviyyəsində sənaye siyasətinin innovasiyalı modelinin formalaşdırılması və həyata keçirilməsi;

-Sənaye sahəsi səviyyəsində innovasiyalı modelin formalaşdırılması və həyata keçirilməsi;

-İnnovasiyalı modelin müəssisə səviyyəsində həyata keçirilməsi.

Bu konteksdə həm sənaye siyasətinin mezosəviyyədə inkişafın klaster modelinin formalaşdırılmasının vasitələrini təklif etmişik. Həmin modeli həyata keçirməkdən ötrü aşağıdakı tədbirlərin sistemli şəkildə reallaşdırılmasını zəruri hesab edirik:

- Sənayenin səmərəli fəaliyyətinin təmin edilməsinə, sənaye sektorunda mövcud problemlərin həllinin sürətləndirilməsinə, rəqabət mühitinin inkişaf etdirilməsinə, sənayenin inkişafına dövlət dəstəyi mexanizminin səmərəliliyinin artırılmasına, sənaye komplekslərinin formalaşması və inkişafını təşviqləndirən istiqamətlərdə "Rəqabət Məcəlləsi"nin qəbulunun sürətləndirilməsi də daxil olmaqla, qanunvericilik bazasının təkmilləşdirilməsi;
- Satış bazarı olan və yenidən qurulması iqtisadi cəhətdən məqsədəuyğun olan sənaye müəssisələrinin fəaliyyətinin bərpası ilə bağlı tədbirlərin həyata keçirilməsinin davam etdirilməsi;

- Sənayenin neftdənkənar sahələrində restrukturizasiya və özəlləşdirmə prosesinin sürətləndirilməsi;
- Müasir texnologiyalara əsaslanan sənaye müəssisələrində beynəlxalq standartların tətbiqinə keçidin sürətləndirilməsi;
- İnvestisiyaların təşviqi ilə bağlı tədbirlərin həyata keçirilməsinin sürətləndirilməsi;
- Mövcud sərmayələrin sənaye sahələri arasında vacibliyinə görə bölüşdürülməsi;
- Elm tutumlu istehsalın inkişaf etdirilməsi məqsədilə tətbiqi elmlərin, müasir şəraitdə bazar konyukturunun tələblərinə uyğun elmi-tədqiqat institutlarının maddi-texniki bazasının gücləndirilməsi;
- Sənayedə istehsalın texniki cəhətdən modernləşdirilməsinə, regionlarda müasir tələblərə cavab verən yeni sənaye komplekslərinin yaradılmasının təşviqləndirilməsinə yönəldilmiş struktur islahatlarının həyata keçirilməsi;
- Daxili bazarda rəqabət qabiliyyətli, ixracı əvəz edəcək və ixrac yönümlü məhsulların istehsalının stimullaşdırılması;
- Sənaye klasterlərinin və müasir tipli sənaye komplekslərinin hərtərəfli dəstəklənməsi;
- Sənaye məhsullarının ixracının stimullaşdırılması;
- Ölkənin ixrac potensialının artırılmasına xidmət edən sənaye şəhərciklərinin və xüsusi iqtisadi zonaların yaradılması işinin sürətləndirilməsi;
- Ənənəvi milli sənətkarlıq sahələrinin inkişafını sürətləndirən təşviqləndirici tədbirlərin həyata keçirilməsi;
- Enerji və resurslara qənaət edən, ekoloji təmiz texnologiyaların tətbiqinin genişləndirilməsi;

Sənaye müəssisələrində elmi-texniki yeniliklərin tətbiqi yüksək rəqabətli bazarda onların öz mövqelərini saxlamalarının zəruri şərtinı çevrilmişdir. Hazırda ölkənin innovasiyaya əsaslanan iqtisadi inkişaf yoluna keçidi dövlətin aktiv rolu olmadan qeyri-mümkündür. Bu baxımdan, ölkədə təhsil sisteminin yenidən qurulmasına, elm və istehsalın səmərəli inteqrasiyasına nail olmaq zəruridir. Dövlətin innovasiya siyasəti milli innovasiya sisteminin formalaşmasına istiqamətlənməlidir. Bu sistemin əsas vəzifəsi şirkətlərin, ali təhsil müəssisələrinin, Milli Elmlər Akademiyasının və digər qurumların maliyyə və texnoloji resurslarını səfərbər edərək ölkədə sənayenin innovasiyaya əsaslanan inkişafına nail olmaqdan ibarət olmalıdır. Milli innovasiya sisteminin inkişafı məqsədilə dövlət aşağıdakı məsələləri həll etməlidir:

- Milli innovasiya sisteminin ayrı-ayrı həlqələri arasında səmərəli əlaqənin qurulmasının dəstəklənməsi;
- Ölkədə fəaliyyət göstərən ali təhsil müəssisələrinin elmi-tədqiqat fəaliyyətinin canlandırılması və Milli Elmlər Akademiyasının restrukturizasiyasının həyata keçirilməsi;
- Güclü elmi-tədqiqat və təcrübə konstruktur bölmələrinə malik iri şirkətlərin yaradılması və ya elmi-texniki və istehsal texnoloji sferalsrını şaquli və üfiqi inteqrə edilmiş strukturların formalaşdırılması;
- Ölkədə innovasiya fəaliyyətinin büdcədən və büdcədənkənar fondlar vasitəsilə maliyyələşdirmə mexanizminin təkmilləşdirilməsi;
- İnnovasiyaya əsaslanan iqtisadiyyat üçün kadrların hazırlanması işinin təşkili, innovasiyaların idarə edilməsi ilə əlaqədar menecerlərin hazırlanması.

Ölkədə innovasiyanın inkişaf etdirilməsi innovasiya fəaliyyətini maliyyələşdirən Azərbaycan İnnovasiya Fondunun yaradılmasının mühüm əhəmiyyəti vardır. Fond ölkənin iqtisadi inkişafı üçün əhəmiyyət kəsb edən real innovasiya layihələrinin maliyyəşdirilməsi haqqında qərarlar qəbul etməlidir. Fikrimizcə, İnnovasiya Fondu sənaye müəssisələri ilə innovasiya məhsulları istehsal edən təşkilatlar arasında vasitəçilik funksiyalarının həyata keçirə bilər və bu qurumlar arasında səmərəli əlaqələrin formalaşmasında mühüm rol oynaya bilər.

Dövlətin siyasətinin innovasiyalı modelinin həyata keçirilməsi iqtisadi artımı təmin etməklə yanaşı, sənayenin strukturunun təkmilləşdirilməsinə yönəldilməlidir. Bəzi sahələrin inkişafını təmin etmək üçün bu sahələrdə istehsalın səmərəliliyinin yüksəldilməsi üçün dövlət tərəfindən xərclər çəkilir. Bu xərclərin səmərəli olması üçün sənayenin prioritet istiqamətləri düzgün müəyyən edilməli, bu prioritet istiqamətlər əlaqələndirilməli və qarçıya qoyulmuş məqsədlərin həyata keçirilməsi üçün qarşılıqlı əlaqəli bütün tədbirlər həyata keçirilməlidir. Araşdırmalar göstərir ki, rəqabət qabiliyyətli sahələrdə yaranan gəlirlər hesabına geridə qalmış sahələrin inkişaf etdirilməsinə cəhdlər heç də həmişə uğurla nəticələnmir. Bəzən belə hal rəqabət qabiliyyətli istehsallarda da problemlərin yaranmasına səbəb olur, onların inkişafını məhdudlaşdırır. Buna görə də, sənaye siyasətini işləyib hazırlayarkən prioritet sahələrin düzgün müəyyən edilməsi, bu sahələrin inkişaf imkanlarının dəqiq qiymətləndirilməsi zəruridir.

Müasir dövrdə sənayenin inkişafı və onun rəqabət qabiliyyətinin yüksəldilməsi sahəsində dövlətin qarşısında duran mühüm vəzifələrdən biri istehsala mütərəqqi texnologiyaların tətbiqinin dəstəklənməsi, buraxılan məhsulların keyfiyyətinin yüksəldilməsi və maya dəyərinin aşağı salınması sahəsində kompleks tədbirlərin həyata keçirilməsidir. Bu tədbirlər isə həm makro, həm də mikro səviyyəni əhaət etməklə mövcud təbii və əmək potensialından səmərəli istifadənin təmin olunmasına istiqamətlənməlidir. Çünki, iqtisadi resurslardan səmərəli istifadə sənayenin rəqabət qabiliyyətinin yüksəldilməsinin əsaında dayanır. Neft strategiyasının uğurla reallaşdırılması nəticəsində son illərdə Azərbaycanın gəlirlərinin artması sənayedə köklü dəyişikliklərin həyata keçirilməsi və rəqabət qabiliyyətinin yüksəldilməsi üçün hökumətin imkanlarını artırır.

Dövlət sənayenin rəqabət qabiliyyətinin yeksəldilməsində, sənaye müəssisələrinin inkişafının maliyyələşdirilməsində mühüm rol oynamalıdır. Sənaye siyasətinin işlənib hazırlanmasında vergilərin stimullaşdırıcı və bölüşdürücü funksiyanın nəzərə alınması zəruridir. Vergilərin səviyyəsi istehsal edilən sənaye məhsullarının qiymətinə əhəmiyyətli şəkildə təsir göstərməklə onların rəqabət qabiliyyətini müəyyən edən amilləşrdən biridir.

Vergi yükünün azaldılması iqtisadi artıma müsbət təsir göstərir. Bununla yanaşı hökumətin büdcə vəsaitlərini səmərəli şəkildə istifadə etməsindən sənayenin rəqabət qabiliyyəti müəyyən dərəcədə asılıdır. Bu baxımdan, vergi yükü ilə dövlət tərəfindən təklif edilən ictimai nemətlərin həcmi arasında optimal səviyyənin müəyyən olunması zəruridir.

Hazırda gömrük siyasəti sənayenin strukturuna əhəmiyyətli dərəcədə təsir göstərsə də, daxili bazarın qorunması vasitəsi kimi sənayenin inkişafı üçün böyük stimul yaratmır. Çünki sənaye sahələrinin əksəriyyətinin inkişafı xarici bazarlardan asılıdır və daxili bazar hesabına sənayenin inkişafı sahəsində potensialı tam şəkildə reallaşdırmaq qeyri-mümkündür.

Bununla yanaşı, gömrük vasitələrindən xarici ticarət siyasətinin həyata keçirilməsi vasitəsi kimi istifadə edmək olar. Yəni, Azərbaycan məsulları üçün əlverişli şərait yaratmayan ölkələrə qeyd edilən vasitələri tətbiq etmək olar. Eyni zamanda, ölkənin Ümumdünya Ticarət

Təşkilatına daxil olması ilə əlaqədar tarif dərəcəsinə yenidən baxılacaqdır. Hazırda danışıqlar prosesində sənaye məhsulları üzrə orta tariflərin səviyyəsinin 10,4%-ə bərabər olması müəyyən olunmuşdur. Sənaye məhsulları üzrə tarif dərəcələrinin 0%-50% arasında təsdiq edilməsi planlaşdırılır. Ümumdünya Ticarət Təşkilatına daxil olmaqla əlaqədar yüksək tarif dərəcələrinin əsasən trikotaj, paltar və geyim əşyaları, kimya sənayesi, metallurgiya, mebel sənayesi məhsullarına tətbiqi nəzərdə tutlmuşdur. Azərbaycanda istehsal və emal üçün xammal kimi idxal olunan məhsulların isə gömrükdən azad olunması planlaşdırılır. Fikrimizcə, bu yanaşma optimaldır. Bununla belə qeyd etmək lazımdır ki, sənaye məhsullarına gömrük dərəcələrinin səviyyəsini dəqiqləşdirməkdə sənayenin inkişaf proqramının olmaması çətinlik yaradır. Ümumdünya Ticarət Təşkilatın daxil olma prosesində razılaşdırılmış tarif dərəcələrinin yüksək olması və bu təşkilata daxil olma şərtlərinin əlverişli olması istiqamətindəhökumət səylər göstərməlidir. Bu, gələcəkdə hökumətin bu sahədə manevr imkanlarını artırar. Lakin bununla yanaşı, qeyd etmək lazımdır ki, sənaye istehsallarının bəziləri istehlak rayonlarına, bəziləri isə xammal mənbələrinə yaxın yerləşdirilir. Bu baxımdan, bəzi sənaye məhsullarının istehsalının yerləşmə xüsusiyyəti onların əlavə rəqabət üstünlükləri əldə etməsinə və gömrük tariflərinin onların yerləşməsinə təsirini məhdudlaşdırır. Eyni zamanda, bəzi istehsalların inkişafı ümumiyyətlə daxili bazarda məhdudlaşmır və bu məhsulların inkişafına da gömrük siyasətinin stimullaşdırıcı təsiri kiçik olur. Buna görə də, sənayenin inkişaf proqramının mövcudluğu şəraitində hansı sənaye məhsullarına yüksək gömrük dərəcələrinin tətbiqi məsələsinin dəqiq müəyyən edilməsi haqqında qərar vermək asanlaşır. Bütövlükdə, fikrimizcə, hazırda Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına daxil olmasının sənayenin inkişafına mənfi təsiri çox kiçik olacaqdır.

Sənaye müəssisələrinin istehsal etdiyi məhsulların xarici satış bazarlarının marketinqi, reklamı və satışına kömək üzrə ixtisaslaşan İxracın İnkişafına Kömək Təşkilatının yaradılması məqsədəuyğundur. Bu təşkilatın sənaye məhsulları ixrac edən müəssisələrin iştirakı ilə yaradılması səmərəli olar.

Sənaye müəssisələri ixrac etdikləri məhsulların ixrac edilən ölkədə sertifikatlaşdırılmasına, yəni bu məhsulların xarici ölkədə qüvvədə olan keyfiyyət və təhlükəsizlik üzrə tələblərə, onların istehsal, daşınma, saxlanma, qablaşdırma, etiketləşdirmə və satış şərtlərini müəyyən edən tələblərə uyğunluğunun təsdiq olunmasına nisbətən uzun müddət və böyük məbləğdə xərc sərf edir. Buna görə də, bu xərclərin bir hissəsinin dövlət tərəfindən ödənilməsi və bu sahədə təşkilatı dəstək göstərilməsi yerli sənaye məhsullaırının rəqabət qabiliyyətinə müsbət təsir göstərər.

Araşdırmalar göstərir ki, idxalı əvəz etmə və maliyyə güzəştlərinin verilməsi ilə emal sənayesinin inkişafını təmin etmək və rəqabət qabiliyyətini yüksəltmək imkanları məhduddur. Buna görə də, ölkədə emal sənayesinin rəqabət qabiliyyətinin yüksəldilməsinin əsas yolu bu sahənin maddi texniki bazasını yaxşılaşdırmaq, istehsalın və əməyin təşkilinin səviyyəsini yüksəltməklə iqtisadi resurslardan səmərəli istifadəyə nail olmaqdan ibarətdir. Dövlətin bu istiqamətdə həyata keçirəcəyi əsas tədbirlərdən biri inkişaf institutlarının yaradılması ilə əlaqədardır. Bu inkişaf institutları özəl bölmənin maliyyələşdirilməsi, onlar üçün əlvrişli şəraitin yaradılması vasitəsi kimi çıxış edir.

Sənayenin inkişafının mühüm məsələlərindən biri onun ərazi strukturunun təkmilləşdirilməsidir. Bu baxımdan, ölkənin ayrı-ayrı regionlarında onun potensial imkanlarına cavab verən konkret məhsullar istehsalı üzrə xüsusi iqtisadi zonaların yaradılması

mümkündür. Xüsusi iqtisadi zonaların yaradılmasının məqsədi yerli və xarici investisiyaların cəlb edilməsi yolu ilə regionların iqtisadi potensialından səmərəli istifadə etməklə sənayenin prioritet sahələrinin inkişafının təmin etmək olmalıdır. Belə yanaşma ayrı-ayrı regionlarda klasterlərinyaranmasına səbəb olar ki, bu da struktur əmələgətirici istehsalların inkişafı üçün əlverişli şərait yaradır. Fikrimizcə, xüsusi iqtisadi zonaların yaradılması yalnız güzəştlərin verilməsi ilə deyil, ərazidə inkişaf etdiriləcək istehsalların müəyyən olunması, bunun üçün zəruri olan infrastrukturu (yol, elektrik enerjisi, qaz, su təminatı və s.) yaradılması, kadrların hazırlanması və s. məsələləri əhatə etməlidir. Xüsusi iqtisadi zonaların yaradılması prosesində dövlət və özəl bölmənin səmərəli əməkdaşlığına nail olmaq zəruridir.

Son illərdə dövlət və biznesin əməkdaşlığının formalarından biri kimi, "İnvestisiya fəaliyyətinin təşviqi üzrə əlavə tədbirlər haqqında" ölkə prezidentinin 30 mart 2006-cı il tarixli sərəncamına əsasən, "Azərbaycan İnvestisiya Şirkəti" açıq səhmdar cəmiyyətinin yaradılması olmuşdur. Şirkətin fəaliyyət məqsədi əsasən ölkədə qeyri-neft sahələrində fəaliyyət göstərən səhmdar cəmiyyətlərin və digər kommersiya təşkilatlarının nizamnamə kapitalından pay almaqla müddətli investisiya qoyuluşlarını həyata keçirməkdir. Fikrimizcə, bu şirkətin fəaliyyətinin genişləndirilməsi və onu səmərəli investisiya qərarları verə bilən və bu investisiyaları həyata keçirə bilən təşkilatlara çevrilməsi zəruridir.

Hazırki şəraitdə sənayenin prioritet istiqamətlərinə müvafiq olaraq iqtisadi inkişafın lokomotivinə çevrilə bilən dövlət müəssisələrinin yaradılmasının mühüm əhəmiyyəti vardır. Çünki özəl bölmə tərəfindən iri sənaye müəssisələrinin yaradılması nisbətən uzun müddət tələb edə bilər. Buna görə də, yüngül, yeyinti sənaye sahələrində iri dövlət müəssisələrinin yaradılması, neft hasilatı, maşınqayırma, kimya, elektroenergetika və s. sahələrində mövcud dövlət müəssisələrinin inkişaf etdirilməsi zəruridir. Belə müəssisələrin inkişafında investisiya qərarlarının verilməsi ilə əlaqədar təkmil mexanizmin yaradılması mühüm rol oynayır. Çünki müəssisənin inkişafı ilə əlaqədar qərarların verilməsinin dövlət orqanlarında razılaşdırılması və qəbulu nisbətən uzun müddət tələb edə bilər. Eyni zamanda, belə qərarların əsaslandırılması səviyyəsinin zəif olması ehtimalı böyükdür. Buna görə də, bu sahədə qərarların verilməsi məqsədilə İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi və Sənaye və Energetika Nazirliyinin, aidiyyatı müəssisənin mütəxəssislərinin iştirakı ilə ixtisaslaşmış komissiyanın yaradılması zəruridir. Bu komissiya dövlət müəssisəsinin inkişaf planının razılaşdırılmış son variantının müəyyən olunması üzərində işləyir və təsdiq edilməsi üçün Nazirlər Kabinetinə tövsiyə edir. Fikrimizcə, dövlət müəssisəsində korporativ idarəetmənin tətbiqi özəl müəssisələr üçün də nümunə ola bilər. Belə ki, hazırda ölkədə sənayenin dövlət tənzimlənməsində ən mühüm problemlərdən biri sənaye müəssisələrində planlaşdırma işinin zəif olması ilə əlaqədardır. Sənaye müəssisələrində korporativ idarəetmənin səviyyəsinin yüksəldilməsi müəssisənin menecmetni tərəfindən onun sahibləri üçün müəssisənin inkişaf planının işlənib hazırlanmasını tələb edir. Belə planın mövcudluğu menecmentin işini qiymətləndirmək imkanı verməklə, hökumətin sosial iqtisadi inkişaf proqramını hazırlaması üçün mühüm informasiya verir. Hazırda korporativ idarəetmə səviyyəsinin aşağı olması belə planlaşdırma işini həyata keçirməyi məhdudlaşdırır.

Sənaye siyasətinin innovasiyalı modelinin ölkə səviyyəsində formalaşdırılması, regionlar, sahələr və müəssisələr səviyyəsində alt modellərin yaradılması və reallaşdırılması orta perspektivdə aşağıdakı nəticələrin əldə edilməsini təmin edəcəkdir:

- Sənaye siyasətinin innovasiyalı modelinin regionlar, sahələr və müəssisələr səviyyəsində alt modellərinin tətbiqi ölkənin, xüsusən də regionların elmi-texniki potensialının hərəkətə gətirlməsinə impuls verəcəkdir;
- Sənayenin həm daxili, həm də xarici bazarlarda rəqabət qabiliyyətinin təmin edilməsi probleminin həllinə müsbət təsir göstərəcəkdir;
- Sənaye siyasətinin innovasiyalı modelinin tətbiqi təhsilin keyfiyyətinin yüksəldilməsinə tələbi artıracaq və stimulu gücləndirəcək, bu isə sənayenin yüksək ixtisaslı kadrlarla təminatını yaxşılaşdıracaqdır;
- Ölkədə, xüsusən də sənaye siyasətinin innovasiyalı modelini tətbiq edən regionlarda rəqabət qabiliyyətli və yüksək maaşlı iş yerləri artacaqdır;
- Azərbaycan sənayesinin yeni məhsullarına daxili təlabat artacaq və ölkə sənyesində idxalı əvəz edən sahələrin inkişafı başlayacaqdır;
- İxrac yönümlü istehsal sahələrinin formalaşması prosesi göclənəcəkdir;
- Azərbaycanın neftdənkənar sənaye sahələrinin məhsulları ilə dünya bazarına, deməl həm də dünya bazarının resurslarına, qabaqcıl texnika və texnologiyalara çıxış imkanları genişlənəcəkdir.

Bütün bunlar Azərbaycan iqtisadiyyatının balanslı və davamlı inkişafına, əhalinin rifahının yaxşılaşmasına müsbət təsir göstərəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Албегова и др. Государственная экономическая политика. Изд-во «Дело и сервиз».1998,320с. С257.)
2. Вопросы экономики.2012, №4, с.144)
3. Джон Д. Дениелс, Ли Х. Радеба. Международный бизнес. М.: Дело лтд, 1994, с.164
4. Ламбен Ж. Менеджмент, ориентированный на рынок. СПб., Питер, 2004, 800 с.
5. М.У.Рустамов. Концепция развития нефтеперерабатывающей и нефтехимической промышленности Азербайджана. Azərbaycan neft təsərrüfatı, №5, 2006.
6. Портер М.. Международная конкуренция. Конкурентные премушества стран. М.: Международные отношения, 1993. 896 с. с. 26.
7. "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydaları haqqında" Azərbaycan Respublikası Prezidentinin 24 iyun 1997-ci il tarixli fərmanı.
8. "Antiinhisar fəaliyyəti haqqında» Azərbaycan Respublikası qanunu, maddə 8.
9. "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitinin istifadəsi qaydaları"na dair Azərbaycan Respublikasının Prezidentinin 28 dekabr 2006-cı il tarixli Fərmanı.
10. "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqıda" Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2003-cü il tarixli Fərmanı.

11. “Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun vəsaitinin istifadəsi qaydaları”na Azərbaycan Respublikasının Prezidentinin 28 dekabr 2006-cı il tarixli Fərmanı
12. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”Azərbaycan Respublikası qanunu, 12 dekabr 2003-cü il (maddə 8.3)
13. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər).
14. Azərbaycanın statistik göstəriciləri 2012.Bakı.2012,848s. s.469
15. International Financial Statistics Washington: IMF, 2006, c.68.
16. International Financial Statistics Washington: IMF, 2007, c.68.
17. VERGİ MƏCƏLLƏSİ, (maddə 165.1.3)

# BİZNESİN QLOBALLAŞMASINDA LOGİSTİK SİSTEMLƏRİN ROLU

***Dos. Dr. Telman İMANOV***
*Azərbaycan Dövlət İqtisad Universiteti,* telman.adiu@gmail.com

Dünya miqyasında makrologistik sistemlərin əsas inkişaf ənənələri, meylləri qoloballaşma hesab edilir. Bu ənənə bir tərəfdən iri transmilli korporasiyalar və sənaye maliyyə qrupları üçün xarakterik olan tədarükat və hazır məhsul satışı bazarlarının, istehsalın, işçi qüvvəsinin və kapitalın qloballaşması ilə xarakterizə olunursa, digər tərəfdən qlobal dövlətlərarası nəqliyyat-logistik, telekommunikasiya, distributiv və digər makrologistik sistemlərin yaradılması və inkişafı ilə səciyyələnir. Son illərdə əksər iri şirkətlərin menecerlərində belə qənaət formalaşmışdır ki,qlobal bazarların yaratdıcı imkanlar və onların logistik kontekstdən tədqiqi zəruridir və labüddür. Məsələn, bir çox firmalar özləri üçün aşkar etdilər ki, logistik imkanlardan geniş istifadə etmək və material resurslarının idarə edilməsini optimal təşkil etmək məqsədilə potensial xarici xammal və material mənbələrinin qiymətləndirilməsi işini aparılmalıdır. Hazır və onlara bərabər tutulan məhsulların ixracatı prosesi və xarici bazarlara əlverişli formada daxil olmaq zəruriyyəti qlobal logistik sisem və şəbəkələrin yaradılmasına tələbat yaradır.

Digər tərəfdən, müasir şəraitdə iri şirkətlər coğrafi baxımdan öz məhsullarının potensial satış bazarlarının və xammal mənbələrinin marketinq tədqiqi ilə bağlı fəaliyyət sferalarını bir qədər də genişləndirmişlər. Onlar rəqabət üstünlüklərinin təmin edilməsi məqsədilə intensiv olaraq məhsuldarlıq, səmərəlilik və differensasiya kimi amilləri ön plana çəkmək,onları yüksəltməklə qlobal logistik konsepsiyaların tətbiqinə daha çox meyl göstərirlər. Mövcud problemin praktik həlli baxımından logistik menecerlər qlobal miqyasda effektiv hesab edilən əsas logistk konsepsiyaların işlənib hazırlanması, logistik təşəbbüslərin planlaşdırılması və həyata keçirilməsi ilə əlaqədar böyük həcmli işlərin yerinə yetirilməsi problemi ilə üzləşirlər. Bundan başqa, rəqabət mübarizəsi şəraitində konkret şirkət tərəfindən qlobal logistik yanaşmalara üstünlük verilməsi və ya onların əlverişli formada tətbiqi logistika, marketinq və tədarükat kimi şöbələrin yüksək səviyyədə koordinasiyası tələbini ortaya qoyur. Daha doğrusu, belə bir inteqrativ əlaqə olmadan bazar seqmentini genişləndirlmək, biznes fəallığını artırmaq mümkünsüz görünür.

Aydındır ki, bu gün dünyada qloballaşma prosesinin hərəkətverici qüvvəsi dövlətlərarası ticarətin kəskin surətdə artması, xarici ticarətin liberallaşdırılması, istehsalın texniki və texnoloji səviyyəsinin getdikcə daha çox beynəlxalq xarakter kəsb etməsi, beynəlxalq əmək bölgüsünün dərinləşməsi və s.-dən ibarətdir.

Dünya təsərrüfat sisteminə fəal qoşulmaqla dövlətlər, bir tərəfdən iqtisadiyyatın səmərəli strukturunu formalaşdırmaq, daha mütərəqqi texnika və texnologiyaları, elmi yenilikləri əldə edir, digər tərəfdən də özlərinin beynəlxalq əmək bölgüsündə malik olduqları üstünlükləri reallaşdırmaq imkanları əldə etmiş olurlar (3).

Qeyd olunan məsələnin həlli elmi-nəzəri cəhətdən əsaslandırılmış beynəlxalq iqtisadi fəaliyyət üzrə siyasətin hazırlanması və uğurla həyata keçirilməsini nəzərdə tutur. Bu da öz növbəsində real şəraitə uyğun siyasətin əsas prinsiplərinin, inkişaf qanunauyğunluqlarının öyrənilməsini və bunların dünya təsərrüfat sistemində baş verən proseslərə

uyğunlaşdırılmasını tələb edir. Belə bir şəraitdə milli iqtisadiyyat ərazi hüdudlarını aşaraq dünyanın böyük bir hissəsini əhatə edən iqtisadi sistemin tərkibinə daxil olaraq formalaşır.

Qloballaşma, hər şeydən əvvəl, dünya regionları və bütün ölkələrin arasındakı qarşılıqlı asılılığın güclənməsi, habelə milli iqtisadiyyatın hüdudlarından kənara çıxan, genişlənən elmi-texniki tərəqqi və məhsuldar qüvvələrin bununla əlaqədar olan transformasiyası ilə şərtlənir.

Qloballaşma prosesi həm coğrafi yayılma baxımından, həm də konkret ölkənin iqtisadiyyatı səviyyəsində spesifik xüsusiyyətlərə malikdir. Yeni istehsal və informasiya sistemlərinin (texnologiyalarının) genişlənməsi baxımından qloballaşma beynəlxalq rəqabətin güclənməsinə gətirib çıxarır. Ayrı- ayrı sahələrin xarici rəqiblər tərəfindən artan təziyiqlərə məruz qalması fonunda qloballaşma bütövlükdə iqtisadiyyatın səmərəli fəaliyyətinə müsbət təsir göstərir (1).

Qloballaşma düşünülmüş xarici iqtisadi siyasətin (xüsusilə kapitalın idxal və ixracı baxımından) həyata keçirilməsini tələb edir. Məhz bu səbəbdən də xarici ticarət əlaqələrinin genişləndirilməsi və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasının təmin olunması son dövrlər Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi islahatların strateji istiqamətlərindən biri olaraq müəyyən edilmişdir.

Təcrübə göstərir ki, nə qədər ki, qloballaşma rəqabət mübarizəsini kəskinləşdirir, onda bu proses bir nəticə olaraq səmərəli fəaliyyət göstərən xarici ölkələrə məxsus rəqiblərdən texniki və texnoloji aspekt nöqteyi-nəzərindən geri qalan sahələrə böyük güc və qısa zaman kəsiyində neqativ təsir göstərir.

Logistikada qloballaşmanın mühüm hərəkətverici qüvvəsi aşağıdakılar hesab edilir:

- ✓ iqtisadi artım;
- ✓ qlobal bazarların perspektiv inikişafı;
- ✓ qlobal rəqabət;
- ✓ texnologiyanın tətbiq sferasının genişlənməsi;
- ✓ nəqliyyatın tənzimlənməməsi və logistik infrastrukturun inkişafı (4).

İqtisadi artım ənənəsi müharibədən sonrakı dövrlərdə bir çox ölkələrin iqtisadi inkişafının xarakterik cəhətidir. Onun fərqləndirici əlaməti: mili sərhədlərdən kənarda bazarların genişlənməsi; yeni məhsul növlərinin meydana gəlməsi və yayılması; idxal-ixracat əməliyyatlarının genişlənməsi; ümummilli məhsulun dinamik artımı, əhalinin həyat səviyyəsinin yuüksəlməsi və s. Sənayecə inkişaf etmiş ölkələrdə iqtisadi artım logisik məhsuldarlığın və effektivliyin artmasına səbəb olur. İqtisadi artım üçün yeni ehtiyat mənbələrinin axtarılması və rəqabətin kəskinləşməsi bir çox istehsalçı firmaları mənsub olduqları ölkənin hüdudlarından kənarda yeni satış bazarları, ucuz xammal mənbələri və əmək resursları axtarmağa vadar edir.

Dünya ticarəti və logistika sahəsində çəkilən xərclər mütəmadi olaraq artır. Beynəlxalq ticarətin həcmi dünya istehsalının artım tempitndən iki dəfə yükmsək artır.

XX əsrin sonu, XXI əsrin əvvəllərindən artıq bütöv və tam dinamik inteqrasiya olunmuş sistem kimi formalaşmış dünya təsərrüfat sistemi ölkələrarası qarşılıqlı ticarətin daha da inkişaf etdirilməsini obyektiv bir zərurət kimi ön plana çəkmişdir. Bu dövrdən etibarən xarici ticarətin inkişaf səviyyəsi ölkələrin iqtisadi inkişaf səviyyəsini müəyyən edən ən mühüm göstəricilərdən biri kimi qəbul olunmağa başlanılmışdır.

Milli istehsalın müxtəlif sferalarında qarşılıqlı asılılığın güclənməsi, son nəticədə milli iqtisadiyyatın gələcək inkişafını digər ölkələrdə baş verən iqtisadi proseslərdən asılı edir. Belə

bir şəraitdə Azərbaycanda yaxın gələcək üçün müəyyən edilən iqtisadi siyasətdə ən başlıca problem milli iqtisadiyyatın beynəlmilləşmə, regionlaşma və qloballaşma proseslərinə qovuşmasının elə bir optimal forma və miqyasını seçməkdir ki, o, respublikamızda sağlam və səmərəli milli iqtisadiyyat formalaşdırmağa imkan versin. Öz növbəsində, bu gün hər hansı bir ölkənin dünya təsərrüfat əlaqələrinə qoşulma dərəcəsi, xarakteri və intensivliyi, hər şeydən əvvəl, ölkənin keçid mərhələsində seçdiyi inkişaf modeli, iqtisadi inkişafın start vəziyyəti, elmi-texniki və iqtisadi potensial, resurs balansı və ondan istifadə səviyyəsi və s.-dən asılı ola bilər (2).

Müasir Azərbaycan Respublikası indiki sosial-iqtisadi mənzərəsi ilə möhkəm ictimai-siyasi sabitliyin mövcud olması, aparılan ardıcıl islahatlar yolu ilə iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafı, vətəndaş cəmiyyətinin qurulmasında əldə edilmiş nailiyyətlərin dönməz xarakter alması, ölkənin XX əsrə dünyanın inkişaf etmiş dövlətləri ilə eyni səviyyədə daxil olması üçün möhkəm xarici ticarət əlaqələrinin özülünün yaradılması ilə səciyyələnir.

Qloballaşmanın hakim olduğu müasir dövrün özünəməxsus spesifik xüsusiyyətlərindən biri dünya təsərrüfat sisteminin yeni iqtisadi şəraitin tələblərinə uyğun formalaşmasıdır. Müasir dünya təsərrüfatı beynəlxalq iqtisadi münasibətlər vasitəsilə bir-birilə qarşılıqlı əlaqədə və sıx asılılıq şəraitində olan milli iqtisadiyyatların toplusu, funksional məcmusu kimi təzahür edən qlobal iqtisadi orqanizmdir. Bu orqanizm beynəlxalq iqtisadi münasibətlərin tarixi inkişafı prosesində yaranmış və uzun, mürəkkəb, eyni zamanda ziddiyyətli təşəkkül yolu keçmişdir. Dünya təsərrüfat sisteminin sürətli inkişafı böyük sənaye inqilabından, maşınlı sənayenin yaradılmasından sonra başlamış və ölkələrarası iqtisadi münasibətlərin, ticarət əlaqələrinin dərinləşməsini labüd etmişdir. Monopolist kapitalist sənayesi üçün böyük həcmdə xammal, material tələb olunduğu bir şəraitdə baş verən texniki-texnoloji inqilabın sənayedə ixtisaslaşma və kooperasiya əlaqələrinə ciddi təsiri nəticəsində sənaye ölkələrinin iqtisadiyyatında gedən struktur dəyişiklikləri intensiv xarakter almış, milli təsərrüfatların qarşılıqlı iqtisadi əlaqələri daha da güclənmişdir. Beləliklə, dünya təsərrüfat sisteminin inkişafında beynəlxalq istehsal-ticarət qurumlarnın rolu artmışdır.

Bu baxımdan, dünya ölkələri hal-hazırda xarici ticarət əlaqələrinin iqtisadi səmərəliliyini artırmaq üçün müəyyən iqtisadi bloklarda birləşmək məcburiyyəti ilə üzləşirlər. Dünya ölkələrinin ticarət dövriyyəsinin həcmi onların dünya təsərrüfat sisteminə və müxtəlif beynəlxalq, regional iqtisadi bloklara inteqrasiyasından asılı olaraq ilbəil artmaqdadır. Şübhəsiz, bütün bu müsbət meyllər zəngin istehsal resurslarına malik ölkəmizin ticarət-iqtisadi əlaqələrinin strukturunun yaxşılaşdırılmasına, yeni istehsal sahələrinin yaradılmasına, məhsul istehsalı həcminin artmasına, beynəlxalq bazarlara sərbəst çıxışın təmin edilməsinə əlverişli şərait yaradır.

Müasir dünya təsərrüfatı sistemi bazar iqtisadiyyatı prinsiplərinin, kapitalın və istehsalın beynəlmiləlləşməsi və qloballaşması, beynəlxalq əmək bölgüsünün qanunauyğunluqlarına əsaslanaraq sürətlə inkişaf edir və ölkəmiz də bu sistemdə geniş fəaliyyət göstərir. Bu sistem və ona uyğun beynəlxalq iqtisadi münasibətlər aşağıdakı mühüm əlamətlərlə xarakterizə olunur:

- ✓ beynəlxalq əmək bölgüsünün daha da dərinləşməsi, istehsalın koope-rasiyası və beynəlxalq ticarət-iqtisadi əlaqələrin ixtisaslaşması;

- ✓ istehsal amillərinin beynəlxalq hərəkətinin yüksək intensivliyi, kapitalın, iş qüvvəsinin miqrasiyası, elmi-texniki tərəqqi sahəsində əməkdaşlığın və informasiyalardan istifadənin mobilliyinin artması;
- ✓ kapitalın və istehsalın beynəlmiləlləşməsi, beynəlxalq iş birliklərinin yaradılması, onların sürətlə inkişafı və istehsalın beynəlxalq formalarının çoxalması;
- ✓ açıq tipli milli iqtisadiyyatın yaradılması və inkişafı, xarici iqtisadi əlaqələrin liberallaşdırılması;
- ✓ beynəlxalq maliyyə qurumlarına sürətlə inteqrasiya və ölkələrin xarici ticarət-iqtisadi əlaqələrdə intensiv iştirak meyllərinin çoxalması;
- ✓ dünya iqtisadiyyatında informasiyalaşdırma və informasiya texno-logiyalarının intensiv tətbiqi;
- ✓ beynəlxalq aləmdə, cari iqtisadi və valyuta-maliyyə proseslərinin tənzimlənməsində dövlətin, beynəlxalq institutların rolunun artması və s.

Dünya ticarəti sistemində son illər ərzində əsas yerlərdən birini xidmətlərin idxalı və ixracı tutur. XXI əsrin əvvəllərində dünya əhalisinin fəal hissəsinin 35-40%-i sənayenin Milli iqtisadiyyatın əsas hissəsinə çevrilmiş xidmət bölməsinə yerini dəyişmişdir. Dünyada baş verən qloballaşma və beynəlmiləlləşmə meylləri xarici ticarətdə xidmətlərin olduqca müxtəlif formalarını (qlobal internet sistemi vasitəsi ilə formalaşan elektron ticarətini) üzə çıxarmış və dünya ticarətində rolunu xeyli artırmışdır.

Dünya ticarət sisteminin və xarici ticarətin müasir inkişaf meylləri, müəyyən dövlətlərin iqtisadi bloklarda birləşməsi, regional zonaların yaradılması və ölkəmizin bu bloklarda iştirakı, onun beynəlxalq aləmdə layiqli yer tutmasına, səmərəli xarici ticarət siyasətinin həyata keçirilməsinə əlverişli zəmin yaradır (5).

Beləliklə, yuxarıda deyilənləri ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, yeni iqtisadi sistemə keçən və eyni zamanda müstəqillik əldə edən Azərbaycan iqtisadi münasibətlərin inkişafı və xarakteri baxımından dilemma qarşısında qalır. Bu baxımdan, o, bu gün perspektiv problemlərin həllini ön plana çəkməklə, iqtisadi inkişafda regionlaşma prinsiplərinə, qlobal logistik sistemlərdən istifadəyə üstünlük verilməlidir. Bütün bunlar, bir proses kimi qloballaşmanın mahiyyətini, onun sosial-iqtisadi nəticələrinin nəzəri cəhətdən düzgün başa düşülməsini obyektiv zəruriyyətə çevirir.

**Ədəbiyyat siyahısı**


1. Долгов С.И. Глобализация экономики: новое слово или новое явление? М.: Экономика, 1998.

2. Носкова И.Я. Максимова Л.Н. Международные экономические отношения. М.: Юнити, 2005.

3. Нухович Э.С. и др. Мировая экономика на рубеже XX-XX1 веков. Учебное пособие. М.: Финансовая Академия при Правительстве РФ, 2005.

4. Сергеев В.И. Менеджмент в бизнес логистике. М.: Инф.-изд. дом «ФИЛИНЬ», 1997.

5. Сергеев В.И., Кизим А.А. Глобализация как важнейший фактор развития макро-логистики./Бизнес и логистика 98. Сборник материалов 2-й Международной конференции-семинара. М.: Брендес, 1998.

# DÜNYA İQTİSADİ İNKİŞAFINDA AZƏRBAYCANIN YERİ

***Suqra HÜMBƏTOVA***
*Azərbaycan Dövlət İqtisad Universiteti,* s.qunbatova2012@yandex.ru

## Abstract

The article of the global economic development and Economic growth and oil price factors during investigation of the theoretical basis of economic development in the world touched, "free trade" concepts have been interpreted, are the main features of protectionist. Factor in economic development and the exploration of oil in the world's leading countries of the world economy and the dynamics of economic development, global oil production, consumption and price analysis of the dynamics of world GDP, industrial production, oil production, oil consumption and oil price increase of oil prices on the basis of mutual relations the last 10 years, the world's gross domestic product, industrial production, oil production, oil consumption, regardless of the outcome of hesitation, and the mathematical and economic models have been built and proven.

International comparison of economic development of Azerbaijan and the oil factor (price) In a study carried out in the detailed interpretation of the results of socio-economic development strategy, and his place in the world in the macro-economic indicators, the main macroeconomic indicators of Azerbaijan and the dynamics of the Commonwealth of Independent States, Eastern European countries in comparison with, The price of world oil prices, although demand for economic growth and to act as a factor in forming the conclusion, which is less than the exporter and the export share of the state, as well as economic growth was mainly the result of oil production and oil prices, and mathematical background is grounded on the economic equation.

***Key words:*** *free trade, protectionism, economic growth, the dynamics of oil prices, GDP, mathematical-economic model.*

**JEL :** O11, O2,F, E3, E37

## Giriş

Xarici iqtisadi siyasətin seçim dilemması, əvvəl-axır bütün dövlətlər qarşısında durur. Üç əsr boyu parlamentlərdə və digər qanunverici orqanlarda bu mövzunun qızğın müzakirələri gedir, alimlər və siyasətçilər tərəfindən sanballı tədqiqatlar aparılır, saysız-hesabsız traktatlar yazılır. Qərbdə qurulmuş ənənəyə görə bu məsələdə öz nöqteyi-nəzərinə malik olmaq hər bir görkəmli iqtisadçı üçün məcburi hesab edilir və elmi yetkinliyə imtahan kimi qiymətləndirilir.

Bu bir həqiqətdir ki, beynəlxalq iqtisadi əlaqələr problemlərində ən çətin iqtisadi asılılıqlar cəmlənmişdir. Bu və ya digər ölkənin xarici iqtisadi siyasətinin seçimi, milli iqtisadiyyatın maraqlarının nəzərə alınmasına əsaslanan, həlli dövlətin daxili və xarici siyasət prinsiplərinin kifayət qədər dəqiq müəyyən edilməsi şəraitində, öz iqtisadiyyatının inkişaf qanunauyğunluqlarının tədqiqi və nəhayət dünya bazarında vəziyyətin ixtisaslı qiymətləndirilməsilə ancaq mümkün olan çox çətin və mürəkkəb bir məsələdir.

### 1. Dünya iqtisadi inkişfın nəzəri əsasları

Şübhəsiz dünya iqtisadi inkişfında beynəlxalq iqtisadi münasibətlər və o cümlədən xarici ticarət böyük rol oynayır. Xaricdən idxal edilmiş əmtəələrə ayrı-seçkili məhdudiyyətləri uzaqlaşdıran xarici ticarət siyasətin xüsusiyyəti kimi "azad ticarət" anlayışı XVIII əsrin əvvəlindən məlum idi və onun vətəni İngiltərə sayılır. Azad ticarət siyasəti bəzi ticarət

şirkətləti üçün o vaxta qədər mövcud olan xüsusi üstünlüklərin rejiminə əks olaraq bu ölkədə meydana çıxmışdır. Azad ticarət özünün ilkin mənasında gömrük məhdudiyyətlərinin ləğv edilməsi deyildir. 1604-cü ildə İngiltərədə qəbul edilmiş azad ticarət haqda qanun təkcə müəyyən coğrafi ərazilər ilə ticarət əlaqələrində ixtisaslaşmalı olan ticarət şirkətlərinin yaradılışını nəzərdə tuturdu.

XVIII və XIX əsrlər üçün İngiltərə proteksionizmdən fritrederçiliyə keçidin klassik nümunəsini bildirir. Sənaye inqilabı və xarici ticarət əlaqələrinin inkişafına kəskin tələb iqtisadi fikirin də eyni istiqamətdə inkişafı üçün impuls kimi xidmət etmişdir. Bu səbəbdən də, azad ticarət ideyalarının tarixi haqqında danışanda - biz həmişə bu ölkəyə müraciət edirik. İngiltərədə o dövrdə manufakturaların sür'ətli inkişaf prosesi gedirdi. Başqa sənaye sahələrinin inkişafına təkanı verən, bu dövr üçün xas olan əyirmə və toxuculuq istehsalının sürətli artımı İngiltərəni öz məhsulu üçün xaricdə yeni satış bazarları axtarıb tapmaq zərurətini qoymuşdur. Eyni zamanda ölkədə kəndlilərin ekspropriasiaysının səbəb olduğu ərzaq və kənd təsərrüfatı xammalın bəzi növlərinin çatışmazlığı hiss edilirdi.

Azad ticarətin ilk ciddi nailiyyəti İngiltərənin Fransa ilə 1786-cı ildə bağladığı ticarət müqaviləsi olmışdur. Pitta müqaviləsi adlanan bu müqavilə, buna qədər mövcud olan və bu iki ölkə arasında ticarətə mane olan bir çox qadağaları və rüsumları ləğv etmişdi. Eyni müqavilələr bir qədər sonra İngiltərə və bir çox digər şey ilə dövlətlər ilə də bağlanılmışdır. XIX əsrin ortalarına qədər İngiltərədə, 1823-cü ildə lord Haskisson tərəfindən başlanmış və 50-ci illərdə Qladston tərəfindən bitirilmiş gömrük rüsumların islahatı baş verir. Proteksionist məhdudiyyətlərin ləğvi ərzaq məhsullarına daxili qiymətlərin azalmasından itkiyə məruz qalmaq istəməyən ingilis mülkədarlarının sərt müqavimətini doğurmuşdur. Əvvələr daxili bazarı qoruyan və kənd təsərrüfatı məhsullarını daha yüksək qiymətə satmağa imkan verən gömrük rüsumlarının ləğvi ilə ingilis mülkədarları bu imtiyazdan məhrum olurdular. Beləliklə, islahat müxtəlif sosial qruplar arasında kəskin mübarizə şəraitində keçirdi və sərt polemika ilə müşayiət edilirdi.

Azad ticarət siyasəti onun müasir mənasında ilk dəfə Adam Smitin tərəfindən 1776-cı ildə nəşr edilən məşhur "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" (A. Смит. (1962) *Исследование о природе и причинах богатства народов*. M.) əsərində müəyyən edilmişdir. O dövrdə İngiltərədə mövcud olan ticarət məhdudiyyətlərini bu işdə araşdıraraq, bu məhdudiyyətlərin əsaslandığı nəzəriyyələri və xüsusi halda o dövrdə ənənəvi olan, ölkənin xarici ticarətinin inkişafının hər şeydən əvvəl onun öz iqtisadiyyatından asılı olması haqqında spesifik fikirini çox kəskin tənqidə məruz qoymuşdur. Smit öz kitabında gömrük məhdudiyyətlərinin zəifl ədilməsi yolu ilə xarici əmtəələrin idxal şərtlərinin liberallaşdırması zərurətini əsaslandıran, dünya ticarətinin yeni nəzəriyyəsini irəli sürmüşdür. XVIII əsrin Fransız filosofu, sensationalists məktəbinin nümayəndəsi E.Kondilyak bunu aşağıdakı qaydada ifadə etmişlər: “Hər bir millət, mübadiləyə girərək, ticarətdən alına biləcək bütün mənfəətə malik olmaq istərir. Bu millətlər görmürər ki, mübadilənin əsl təbiəti qarşılıqlı faydaya əsaslanır." [*"Grand Dictionnaire Universel du XIXe siècle"*, 1875; 872-873.]

Məhz bu dövrdə əmək bölgüsünün ilk nəzəriyyələri, beynəlxalq istehsalın ixtisaslaşması haqqında doktrina formalaşmışdır. Adam Smitin ideyaları bir qədər sonra İngilis iqtisadçıları

David Rikardonun[1], qərbdə indi "klassiklər" adlandırılan Robert Torrensın[2] və Con Styuart Millin [3]əsərlərində davamını almış və inkişaf etmişdir. XIX əsrinin İngilis iqtisadçılarının xarici ticarət əlaqələri nəzəriyyələrinin inkişafında səyləri fritrederçilik ideyasının təkcə daxili deyil, həm də xarici rəqiblərinə inandırılmasına yönəldilməmişdir.

Proteksionizm ideyasının bərpası dövründən bütün Avropanın və İngiltərənin ticarət tərəfdaşları olan Avropa ölkələrində azad ticarət uğrunda hərəkat İngiltərədə olduğu kimi belə geniş vüsat almamışdır, XVI əsrə qədər Avropa dövlətlərinin əksəriyyətində xarici ticarətdə heç bir hökumət məhdudiyyətləri qətiyyən mövcud deyildir. Feodallar dövlətin köməyinə müraciət etməyərək tacirlərdən rüsum toplayırdılar. Xarici ticarət əməliyyatlarına dövlət nəzarəti yalnız XVI əsrdə meydana çıxmağa başladı. O dövrün gömrüyü çox vaxt sadəcə xalis maliyyə, fiskal funksiyanı yerinə yetirirdi. Özü ilə yığım epidemiyasını gətirmiş merkantilizm dövrünün yaxınlaşması ilə qızıl ehtiyatlarının həcmi dövlətin sərvətinin yeganə meyarı oldu. Almayaraq satmağı təşfiq edən, çağıran merkantilizm ideyaları XVI əsrdə bütün Avropanı əhatə etmişdir. Ticarət balansının aktiv qalığı iqtisadi siyasətin qiymətləndirilməsi meyarı və dövlət sərvətinin inkişafının yeganə mənbəyi kimi hesab edilirdi.

Almaniyayada əvvəllər pərakəndə halda olan Alman dövlətləri arasında ticarətdə məhdudiyyətlərin əsasən ləğvinə yönəlmiş bir sıra islahatlar keçirilmişdir. Yalnız Bismarkın vaxtında, birləşmə dövründə bir sıra əmtəələr üzrə ticarət tarifləri bəzi digər dövlətlərə münasıbətdə aşağı salınmişdir. Lakin bu əmtəələrin və ölkələrin sayı əhəmiyyətsiz dərəcədə az idi. Almaniya XIX əsrin sonu XX əsrin əvvəllərində milli sənayeni xarici rəqabətdən yüksək gömrük sədləri ilə qoruyaraq onun komplek inkişafı yolunda sürətlə hərəkət edirdi.

Fransada da vəziyyət həmçinin fritrederçilik ideyalarının müvəffəqiyyətinə səbəb olmamışdı. Proteksionist siyasətdə birinci yumşalma XVII əsrinin başlanğıcında koloniyalardan əmtəə axınlarının artımı ilə əlaqədar olaraq edilmişdir. Lakin XIV Lyudovikin hakimiyyəti dövrü Fransa tarixinə proteksionist meyllərinin daha da gücləndiyi bir dövr kimi daxil olmuşdur. 1786-cı ildə İngiltərə ilə bağlanmış və əsasən qaçaqmalçılıqla mübarizə məqsədi ilə bəzi qadağanedici tarifləri aşağı salan müqavilə demək mümkündür ki, bu hərəkatda yeganə böyük nailiyyətdir. Ancaq artıq 1792-ci ildə bu müqavilə pozulmuşdır. 1800-cü ildə hökumət müşaviri Şaptalın təşəbbüsü ilə, fransız fabrikantlarına sənaye xammalının rüsumsuz idxal hüququ verilmişdir. Lakin 1876-ci ildə dekretlə əvvəlki qadağalar bərpa edilmiş və yeni məhdudiyyətlər tətbiq edilmişdir. XVIII Lyudovikin Fransanın ticarət əlaqələrinin genişləndirməsi üçün cəsarətsiz cəhdləri proteksionizmin tərəfdarlarının inadcıl müqaviməti ilə qarşılaşdı. XIX əsrin sonrakı illərində olduğu kimi məhdudiyyətlərin ləğvini nəzərdə tutan hər bir yeni qanun layihəsi daha ciddi qadağanedici qanunların qəbul olunması ilə yekunlaşan yeni müzakirələr doğururdu. O ki, qaldı Amerika Birləşmiş Ştatlarına, özünün sənayesinin yaradılışının bütün dövrü boyu o, ultraprotektionist dövlət olaraq qalmışdır. 1787-ci ilin Konstitusiyasına görə Konqres bütün idxal edilmiş əmtəələrə rüsum qoymaq hüququnu əldə etdi. 1790-cı ildə Konqresə müraciət edərək, prezident Corc Vashington proteksionist siyasətin aparılmasının zəruriliyini aşağıdakı qaydada əsaslandırmışdır: "Azad adamlar yalnız,

[1] Давид Рикардо. (1955). *Начала политической экономии и налогового обложения.* — Соч., т. 1. М.,

[2] R. Torrens. (1815). *An Essay on the External Corn Trade*. London.

[3] Джон Стюарт Милль. (1860). *Основания политической экономии с некоторыми из их применений к общественной философии,* т. 1. СПб.

silahlanmalı və intizamlı olmamalıdır...onun təhlükəsizliyi və maraqları, öz müstəqilliyini tam şəkildə təmin etmək üçün öz manufakturasının hərtərəfli inkişafına köməyi tələb edir..." [*"The Encyclopedia Americana"*, 1940; 537]. Bu kurs, gediş bütün sonrakı illər ərzində davam etmişdi.

Beləliklə, İngiltərədə XVIII və XIX əsrlərdə geniş yayılmiş və inkişaf etmiş fritrederçılıyin "məntiqi və inandırıcı" ideyaları digər Avropa dövlətlərinin və inkişaf edən sənaye Amerikasının "proteksionist süstlüyünə" üstün gəlməyə məhkum deyildi. David Rikardonun, Robert Torrensin və Con Styuart Milın milli sənaye ixtisaslaşmasının qapalı iqtisadiyyatdan şübhəsiz üstünlükləri haqda harmonik nəzəriyyələri bu ölkələrdə ticarət siyasətini müəyyən edən adamların "köhnə" və "etibarsız" ürəklərində öz cavabını, əksini tapmadı. Onlar bu dövlətlərin hər birində xarici bazarlarda İngiltərənin sənayesi ilə rəqabət aparmağa qadir olan öz milli sənayesinin yaradılmamasına qədər tanınmamışdılar.

Ancaq məhz bu vaxt İngiltərə rüsumsuz ticarətə marağı itirir və 1903-cü ildə Jozef Çemberlen tərəfindən başlamış İngiltərənin daxili bazarının gənc, İngiltərəni iqtisadi inkişafda ötüb keçmış dövlətlərin məhsullarından müdafiəsi kampaniyası iki yüz illik fritrederçılık siyasəti dövrünü tamamilə yekunlaşdıran (1921-1925-ci illərdə) bir sıra sənaye-qoruyucu aktların qəbulu ilə bitir. O, "dənizlərin imperatriçası"nın əvvəlki əzəmətinin və xarici bazarlar təsirin itirilməsilə birlikdə bitir.

İstər proteksionizm və istərsə də fritrederçılık eyni bir ağacın — sosial-siyasi əsaslarının hər iki halda dəyişilməz qalan kapitalist iqtisadiyyatı budaqlarını bildirir.

Avropa dövlətlərinin əksəriyyətinin milli təsərrüfatını zəiflətmiş müharibə ABŞ-ın ən böyük xarici ticarət rəqiblərini dünya bazarından müəyyən vaxt ərzində uzaqlaşdırmışdır. Müharibədən sonrakı dövr ərzində Amerika idxalşıları üçün, xüsusilə əlverişli şərait yaradılmışdı. Avropada və başqa bazarlara Amerika mallarının axını artmışdır. Kapital qoyuluşu fəaliyyətin kəskin güclənməsi ilə bağlı olaraq Amerika kapitalı öz beynəlxalq mövqeini gücləndirmişdir. Əmtəə və kapitalın ixracını iqtisadi ideyaların ixracı da müşayiət edirdi. Bu illərdə beynəlxalq ticarət nəzəriyyələrinin sonrakı inkişafı və məşhurlanmasının güc mərkəzi ABŞ-a keçmişdi. Xarici iqtisadi əlaqələr problemləri orada bütün iqtisadi tədqiqatların aparıcı istiqaməti oldu. 20-ci ildən bəri və sonrakı dövr ərzində bu mövzuda kifayət qədər əsərlər nəşr edilmişdir. Bunların ən əhəmiyyətliləri kimi aşağıdakıları qeyd etmək olar: F.Taussigın "Beynəlxalq ticarət", Wienerin "Beynəlxalq ticarət nəzəriyyəsinin tədqiqı", S.Tauelın "Beynəlxalq ticarət və komersiya siyasət", C.Kindlbergerın "Beynəlxalq iqtisadiyyat", S.Harrisin "Beynəlxalq və regionlararası iqtisadiyyat" və həmçinin P.Samuelsonun[4] bir sıra əsərlərini. Bütün bu monoqrafiyalarda beynəlxalq iqtisadi münasibətlərin qanunauyğunluqların tədqiqi azad ticarət nəzəriyyəsi mövqeyindən aparılırdı və Rikardo müqayisəli xərclər nəzəriyyəsi onlarda inadlı leytmotivlə yeni qüvvə ilə səslənirdi.

1948-cı il yanvar ayının 1-dən Ticarət və Tariflər üzrə Baş Saziş (QATT) qüvvəyə mindi. Bu saziş müharibədən ilk illərdə ABŞ-ın ideoloji rəhbərliyi altında işlənib hazıdlanan dünya ticarəti Xartiyasının (Nizamnaməsinın) bir hissəsi kimi düşünülmüşdür. Eyni zamanda bu dövrdə Belçika, Niderland və Lüksemburq Benilüks ölkələri adlı gömrük birliyini

[4] Frank W. Taussig. (1927). *International Trade. New York*, Jacob Finer. (1937).*Studies in the Theory of International Trade.* New York, Laurence W. Towle. (1948). *International Trade and Commercial Policy.* New York, Charles P. Kindleberger. (1953). *International Economics* New York. *Homewood*, (Seymour E. Harris. (1957). *International and Interregional Economics* New York. P. Samuelson. (1947). *Foundations of Economic Analysis. Cambridge*; P. Samuelson. *International Trade and the Equalisation* New York.

bağladılar. Həmin ilin 17 aprelində Parisdə, 17 Avropa dövləti Avropa İqtisadi Əməkdaşlığ Təşkilatının (OEGS) yaradılması haqda razılığa gəlirlər. Noyabrın 2-dən bu təşkilatdan bu ölkələr arasında dövriyyənin 50 %-ni təşkil edən əmtəələrə gömrük liberallaşdırması tətbiq edildi və 1955-ci il 14 yanvardan onların miqdarı 90 %-ə qədər artırıldı.

XX əsrin 70-80-ci illərində Tariflər və Ticarət üzrə Baş Saziş ölkələri və hər şeydən əvvəl ABŞ və Qərbi Avropa ölkələri arasında "Kennedi raundu" adını alan danışıqlar seriyası keçirilmişdir. Hələ 1963-cü ildə prezident C. Kennedinin təşəbbüsü ilə başlanmış bu danışıqlar tariflərin qarşılıqlı olaraq 50 % azaldılması yolu ilə başlıca olaraq Qərbi Avropa və ABŞ arasında xarici ticarət dövriyyəsinin genişləndirilməsi məqsədinin güdürdü. Rüsumların orta hesabla 2/3 azaldılması haqda nail olunmuş razılıq xarici dövriyyəsi dünya bazarının ümumi əmtəə dövriyyəsinin 80 %-ini təşkil edən ölkələri əhatə edirdi.

1995-ci ildən isə UTT "həyata qədəm" qoydu, amma ticarət sistemi qeyd edildiyi kimi əsrdən artıq bir muddəti əhatə edir. 1948-ci ildən başlayaraq GATT (Tariflər və Ticarət uzrə Baş Saziş) ticarət sistemi ucun qaydalar muəyyənləşdirmişdir. GATT-ın ən boyuk və eləcə də ən uzun muzakirələr raundu tarixə Uruqvay Raundu kimi daxil olmuşdur və bu da 1995-ci ildə UTT-nin yaradılması bitmişdir. UTT sələfinin muəyyənləşdirdiyi ticarət qaydalarının daha da təkmillədirilməsi ilə məşğuldur. Bu uzvlukdən ən cox bəhrələnənlər və nə qədər paradoksal olsa da ən cox ziyan gorənlər sahibkarladır. UTT uzvluyu azad rəqabət deməkdir. Məhz fəaliyyətlərində yeni metodlardan yarananlar, qabaqcıl texnologiyadan faydalananlar, daha sadə dillə desək oz işini bilənlər bu rəqabətdən qalib cıxacaq. Bu təkilata uzvluk bu sahibkarlara dəstək olacaq. Azərbaycanən isə cox yaxın zamanlarda həmin rəqabət sisteminə qoşulacagı gozlənilir. [3, səh.3]

**2.Dünya iqtisadi inkişafı və neft amili**

Dünya iqtisadiyyatında önəmli yer tutan dövlətlərin iqtisadi durumunun təhlilinə nəzər yetirərkən aydın olur ki, təhlil olunan 1992-2011-ci illər ərzində aparici dövlətlərdən olan Çin iqtisadiyyatında iqtisadi artım 7,6-14,2 % cüvarında tərəddüd etmişdi: ən aşağı göstərici 7,6%, 1999-cu ildə, ən yüksək göstərici isə 1992-ci və 2007-ci illlərdə olmuşdur. Aşağı göstəricini 1998-ci il Şərqi Asiya dövlətlərində baş vermiş böhranla, ən yüksək göstəricini isə 1989-1993-ci illərdə dünyada baş verən ictimai-siyasi deformasiyanın Çin dövlətinə az təsirilə və 2007-ci il böhranqabağı canlanmanın zirvəsilə əlaqələndirmək olar.

Çində iqtisadi inkişaf göstəricisi dünya ÜDM göstəricisindən və ABŞ, Yaponiya, Böyük Britaniya, Avropa Ittifaqi, Kanada kimi inkişaf etmiş dövlətlərin iqtisadi artımından yüksək olmuşdur. ABŞ, Böyük Britaniya, Avropa ittifaqı dövlətlərində 1997-1999-cu illərdə iqtisadi artımın davamı müşahidə olunduğu halda, Çində, Yaponiyada, Rusiyada o cümlədən dünyada iqtisadi tənəzzül baş vermişdir. Bu yuxarıda qeyd olunduğu kimi, Şərqi Asiya və Rusiyadakı böhranla bağlı idi. Bütün bu dövlətlərin iqtisadi göstəricilərində ümumi cəhət odur ki, onların hamısında ən yüksək göstərici məhz 2007-ci ilə, ən aşağı göstərici isə 2008-ci ilə təsadüf edir. (Qrafik 1)

Dünya iqtisadiyyatında önəmli istehsal amili kimi çıxış edən neft amili təkcə sosial-iqtisadi proseslərə deyil, eyni zamanda siyasi proseslərə də təsir etdiyindən onun dünya istehsalı və istehlakının, başqa sözlə dünya təklif və tələbinin neftin qiymət dəyişməsilə asıllığının təhlilinə fikir verməк zəruridir. Belə ki, təhlil olunan 1989-2011-ci illlər ərzində neftin dünya təklifi və tələbi sabit təbii artıma malik olmuşdur. Lakin bunu neftin qiyməti haqda deməк qəti olmaz. Bu baxımdan neftin qiymətinin yaxın keçmişdə baş verən

dəyişməsini iki dövrə, onların hər birini isə bir neçə dövrə bölmək olar. 1989-1992-ci il, 1992-1996-cı il, 1996-2000-ci ilə qədərki I dövr və 2000-2003-ci il, 2003-2008-ci il, 2008-2011-ci illəri əhatə edən II dövr. 1989-1992-ci illlərdə

**Qrafik 1 Dünya iqtisadiyyatının və aparıcı dövlətlərin iqtisadi inkişaf dinamikası**




**Mənbə:**
<http://www.ereport.ru/stat.phpərazdel=country&count=world&table=ggecia&time=2>,19.07.2012.
<http://www.ereport.ru/stat.phpərazdel=country&count=russia&table=ggecia&time=2>,19.07.2012.
<http://www.ereport.ru/stat.phpərazdel=country&count=usa&table=ggecia&time=2>,19.07.2012.
<http://www.ereport.ru/stat.phpərazdel=country&count=eu&table=ggecia&time=2>,19.07.2012.
<http://www.ereport.ru/stat.phpərazdel=country&count=uk&table=ggecia&time=2>,19.07.2012.
<http://www.ereport.ru/stat.phpərazdel=country&count=japan&table=ggecia&time=2>,19.07.2012.
<http://www.ereport.ru/stat.phpərazdel=country&count=china&table=ggecia&time=2>,19.07.2012.

baş verən qiymət artımını Körfəz müharibəsilə, 1992-1996-cı illərdəki neftin qiymətinin azalmasını dünyada 1989-cu ildən baş verən siyasi dəyişikliklərin və dünyanın yeni siyasi bölgü prosesinin yekunlaşması ilə əlaqələndirmək olar. 1996-2000-ci illər ərzində baş vermiş 1998-ci ilin qiymət azalması Şərqi Asiya dövlətlərində və Rusiyada baş verən iqtisadi böhranla bağlı olmuşdur. 2000-ci ildəki dünya iqtisadiyyatında baş verən iqtisadi dirçəliş neftin qiymət artımına və sonrakı nisbi tənəzzül qiymət azalmasına səbəb olmuşdur. Lakin neftin sonrakı qiymət dəyişməsini, başqa sözlə onun qiymətinin sürətlə artımının maksimum həddə (2008-ci il) çatmasının və sonradan kəskin şəkildə aşağı düşməsinin əsas səbəbibin real iqtisadiyyatla, real sektorda baş verən iqtisadi artımla əlaqəli olmamasının təbii etirafı 2008-ci ildən başlayan və hal-hazırda müəyyən qədər səngiyən iqtisadi böhranın təkanvericisinin ipoteka və bununla sıx əlaqədə olan maliyyə bazarlarında tənəzzül meyylərinin güclənməsi olmuşdur. Neftin qiymət dəyişməsinin birinci dövrünü təhlil etdikdə bu tərəddüdlərin əsasında siyasi məsələlərlə yanaşı iqtisadi artımın da dürdüğünu israr etməmiz, yəni, neftə tələbin əsasən real sektorda formalaşması, bu dövrdə dünya ÜDM-in sabit artması iddiası ilə qarşılaşa bilər. Lakin unudulmamalıdır ki, ÜDM-in tərkibində maliyyə bazarının göstəriciləri də öz əksini tapır. Deməli neft bazarında baş verən hadisələr, başqa sözlə onun qiymət dəyşməsi artıq onun real əmtəədən çox maliyyə portfellərindən birinə çevrildiyindən xəbər verir.

**Qrafik 2 Dünya neft istehsal, istehlakı və qiymətinin dinamikası**




**Mənbəə:** <http://www.ereport.ru/stat.phpərazdel=metal&count=oi&table=prod&time=2>,19.07.2012.
<http://www.ereport.ru/stat.phpərazdel=metal&count=oi&table=cons&time=2>,19.07.2012.
<http://www.ereport.ru/stat.phpərazdel=metal&count=oi&table=price>,19.07.2012.

**Qrafik 3 Dünya ÜDM, sənaye istehsalı, neft istehsalı, neft istehlakı və neft qiymətinin artımı (keçən ilə nisbətən)**




**Mənbəə:**
<http://www.ereport.ru/stat.phpərazdel=metal&count=oi&table=prod&time=2>,19.07.2012.

<http://www.ereport.ru/stat.phpərazdel=metal&count=oi&table=cons&time=2>, 19.07.2012.

<http://www.ereport.ru/stat.phpərazdel=metal&count=oi&table=price>,19.07.2012.

<http://www.ereport.ru/stat.phpərazdel=country&count=world&table=ggecia&time=2>,19.07.2012.

<http://www.ereport.ru/stat.phpərazdel=country&count=world&table=ipecia&time=2>,19.07.2012.

Qrafik 2 və 3-dən tam aydın olur ki, dünya ÜDM-i, sənaye istehsalı, neftin tələb və təklifinin diamikasında müəyyən qədər uyğunluq olsa da neftin qiyməti arasında heç, bir məntiqi və iqtisadi əlaqə görünmür. Bunu biz dünya ÜDM-i, neftin tələb və təklifi və qiyməti arasında qarşılıqlı əlaqəni əks etdirən riyazi-iqtisadi modellərin qurulmasından söyləyə bilərik.

1989-2003-ci illər üzrə

$$R = 0,547364$$

$$R^2 = 0,299607$$

$$Q = 0,0464N_L^{(-3,07045)}N_K^{(5,869558)}e^{0,00822t} \quad (1)$$

$R^2$-ın' determinasiya əmsalının belə rəqəm alması asıllığın olmamasını əks etdirir və riyazi məntiqə sığmayan tənlik əmələ gəlir.

2003-2011-ci illər.

$R = 0,956777$

$R^2 = 0,915422$

$$Q = 1,0372E\text{-}27N_L^{(-1,2213085)}N_K^{(14,1618259)}e^{0,02884139t} \quad (2)$$

$R^2$-ın' determinasiya əmsalının aldığı rəqəm yüksək asılığın olmasını əks etdirsə də yenə riyazi məntiqə sığmayan tənlik əmələ gəlir və qiymətin məhz bu amillərlə proqnozlaşdırılması üçün o qədər də, yararlı olmur.

1989-2011-ci illər.

$R = 0,917489$

$R^2 = 0,841787$

$$Q = 0,004546N_L^{(-11,7804))}N_K^{(13,83593)}e^{0,059496t} \quad (3)$$

$R = 0,984071$

$R^2 = 0,968395$

$$Q = 7,17521E\text{-}18ÜDM^{8,998125389}N_L^{(3,41952116))}N_K^{(-2,38094412)}e^{-0,18514445t} \quad (4)$$

(3) və (4) tənlikləri haqqında da bunları söyləmək olar.

Burada, $Q$ – neftin qiyməti
$N_L$ – neftin istehsalı
$N_K$ – neftin istehlakı
ÜDM – dünya ÜDM-i
t – il

Araşdırmalardan aydin olur ki, 1989-cu ildə 2000-ci illə müqayisədə neftin isehsalı və istehlakı təqribən 19-20% artsa da, neftin qiyməti 57%-ə qədər atmışdır. 2011-ci illdə isə bu göstərici müvafiq olaraq 37-38% və 610% olmuşdur. Buradan da artıq şərhə ehtiyac yoxdur.

**3.Azərbaycanın iqtisadi inkişafının beynəlxal müqayisəsi və neftin qiymət amilinin) tədqiqi**

Respublikada aparılan sosial-iqtisadi inkişaf strategiyası sayəsində Azərbaycanda yaradılmış sosial-iqtisadi potensial davamlı iqtisadi inkişafı və makroiqtisadi sabitliyi təmin etmişdir. Bu strategiyanın həyata keçirilməsi nəticəsində iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sahələrinin, regionların inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarının səmərəli istifadəsi təmin olunmuş, həyata keçirilməsi gələcək illər üçün dayanıqlı inkişafın möhkəm təməlinin yaradılmasına, Azərbaycan Respublikası iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiyasının sürətləndirilməsinə, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına imkan verilmişdir.

Ölkə iqtisadiyyatının inkişafı bir sıra beynəlxalq təşkilatlar tərəfindən hazırlanan hesabatlarda öz müsbət əksini tapmışdır. Belə ki, “Qlobal Rəqabətlilik Hesabatı”na əsasən ötən ildə olduğu kimi Azərbaycan MDB ölkələri arasında 1-ci yerdə olmuşdur. Son hesabatda ölkəmiz 2 pillə irəliləyərək 142 ölkə arasında 55-ci yerə qalxmışdır. Hesabatda əks etdirilmiş bəzi göstəricilər üzrə isə xüsusi ilə yaxşı nəticələr əldə edilmişdir. Belə ki, “əmək bazarının səmərəliliyi” göstəricisi üzrə ölkəmiz dünya sıralamasında 14-cü, “makroiqtisadi sabitlik” göstəricisi üzrə isə 16-cı olmuşdur. Son “Doing Business” hesabatında isə ölkəmiz 3 pillə

irəliləyərək 183 ölkə arasında 66-cı yerə çıxmış və MDB ölkələri arasında ilk üçlükdə yer almışdır. Hesabatın aparıldığı 10 göstəricidən 4-ü üzrə Azərbaycan dünya ölkələrinin sıralamasında "ilk 25"-ə daxil olmuşdur. Belə ki, "mülkiyyətin qeydiyyatı" göstəricisi üzrə ölkəmiz dünyada 9-cu, "biznesə başlamaq" göstəricisi üzrə 18-ci, "investorların müdafiəsi" göstəricisi üzrə 24-cü, "müqavilələrin icrasının təmin edilməsi" göstəricisi üzrə isə 25-ci yerə layiq görülmüşdür.

Bununla yanaşı Azərbaycan iqtisadiyyatının vəziyyəti beynəlxalq reytinq agentlikləri tərəfindən də qiymətləndirilmişdir. Belə ki, 2011-ci ilin dekabr ayında "Standart & Poor's" reytinq agentliyi Azərbaycanın xarici və daxili valyutada uzunmüddətli suveren kredit reytinqini bir pillə artıraraq "BBB" səviyyəsinədək qaldırılmış və bununla da Azərbaycana investisiya reytinqi vermişdir. Agentlik, həmçinin, Azərbaycanın xarici və daxili valyutada qısamüddətli suveren kredit reytinqini də bir pillə artaraq "B" səviyyəsindən "A-3" səviyyəsinə çatdırmışdır. Eyni zamanda "Fitch Ratings" agentliyi Azərbaycanın yerli və xarici valyutada uzunmüddətli suveren investisiya reytinqini "pozitiv" proqnozu ilə "BBB" səviyyəsində saxlamışdır. "Moody's" agentliyi isə Azərbaycana şamil etdiyi "Ba1" səviyyəsində suveren reytinqi üzrə proqnozunu "stabildən" "pozitivə" dəyişmişdir. [http://www.economy.gov.az]

Bu gün Azərbaycan həm siyasi, həm iqtisadi sahədə mütərəqqi islahatların aparılması ilə güclü dövlətə çevrilmişdir. 2004-2011-ci illər ərzində ölkəmizdə ümumi daxili məhsul istehsalı real ifadədə 3 dəfə, adambaşına ÜDM 2.7 dəfə, sənaye məhsulu istehsalı 2.7 dəfə, kənd təsərrüfatı 1.3 dəfə, tikinti sektoru 3.2 dəfə, nəqliyyat sektoru 2.3 dəfə, informasiya və rabitə sektoru 6.4 dəfə, ticarət sahəsi isə 2.6 dəfə artmışdır. 2012-ci iin 6 ayi ərzində ÜDM 1,5 faiz artmişdir. Bu rəqəm əvvəlki dövrlərlə müqayisədə o qədər də böyük rəqəm deyildir. Ancaq ölkəmizin ümumi iqtisadiyyatı artdıqca hər bir faizin daha da böyük qiyməti və dəyəri vardır. Onu qeyd etmək olar ki, iqtisadiyyatın hər bir faizi təxminən 700 milyon dollara bərabərdir və iqtisadiyyatımızın 1,5 faiz artımı onu göstərir ki, keçən ilin müvafiq dövrü ilə müqayisədə ölkədə 1 milyard dollar dəyərində çox məhsul istehsal edilmişdir. [http://www. president. az] 2004-2011-ci illər ərzində ÜDM 3 dəfə, adambaşına ÜDM isə 2.7 dəfə artmışdır.

Neft strategiyasının müvəffəqiyyətlə davam etdirilməsinin nəticəsi olaraq 2004-2011-ci illər ərzində iqtisadiyyatın neft sektoru 4.3 dəfə artmışdır. Neft sektorunda əldə edilən uğurlar ölkə iqtisadiyyatının qeyri-neft sektorunun da yüksək templərlə inkişaf etməsinə təkan vermişdir. Belə ki, son 8 ildə qeyri-neft sektoru üzrə yaradılmış əlavə dəyər real ifadədə 2,2 dəfə artmışdır.

2011-ci ildə qeyri-neft sektorunun real artım tempi 2010-cu il ilə müqayisədə 9,4% olmuşdur. [http://www.economy.gov.az]

2012-ci ilin 6 ayının məlumatları üzrə aşağıdakıları söyləmək olar (mörtərizənin içindəki göstəricilər 2011-ci ilin 6 aylının göstəricilərinə nisbətən, faizlə): Ümumi Daxili Məhsul 25861,3 milyon manat (101,5), o cümlədən qeyri-neft ÜDM-si 12368,2 milyon manat (111,3), sənaye məhsulunun (işlərin, xidmətlərin) ümumi həcmi 17537,7 milyon manat (97), o cümlədən qeyri-neft sənayesi 3124,8 milyon manat (108,7), əsas kapitala yönəldilmiş vəsaitlər 5924,9 milyon manat (129,6), o cümlədən qeyri-neft sektoruna 4229,4 milyon manat (130,2), kənd, meşə və balıqçılıq təsərrüfatlarının ümumi məhsulu 1970,7 milyon manat (110,4), nəqliyyat sektorunda yük daşınması, 103,3 mlyn, ton (103,7), o cümlədən qeyri-neft

yüklərinin daşınması 69 mlyn, ton (108,5), informasiya və rabitə xidmətlərinin həcmi 643,5 milyon manat (117,9), pərakəndə ticarət dövriyyəsi 8196,5 milyon manat (109,2),əhaliyə göstərilən pullu xidmətlər 2504,9 milyon manat (108), xarici ticarət dövriyyəsi, 18 912,8 mlyn, ABŞ $ (93,3), o cümlədən: ixracın ümumi həcmi 15238,0 mlyn, ABŞ $ (91,5), idxalın ümumi həcmi 3674,8 mlyn, ABŞ $ (102,9), dövlət büdcəsinin gəlirləri 6715,3 milyon manat (139,2), dövlət büdcəsinin xərcləri 5648,5 milyon manat (153,5), dövlət büdcəsinin profisiti 1066,8, milyon manat, əhalinin gəlirləri 15099,8 milyon manat (114,2), hər nəfərə düşən gəlirlər, 1651,2 manat (112,7), bir işçiyə hesablanmış orta aylıq əmək haqqı, 382,6 manat (108,1). [http://www.azstat.org.]

**Cədvəl 1**

**Azərbaycan və MDB üzrə əsas makroiqtisadi göstəricilərin dinamikası**

| | 2001 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycan | 109,9 | 188,3 | 253,2 | 316,5 | 350,7 | 383,3 | 402,5 | 402,9 | ÜDM-in fiziki həcm indeksi |
| MDB | 106,0 | 138,0 | 150,1 | 163,3 | 171,9 | 160,1 | 167,7 | 175,6 | |
| Azərbaycan | 105 | 163 | 223 | 276 | 293 | 318 | 326 | 310 | Sənaye istehsalı |
| MDB | 105 | 140 | 148 | 159 | 161 | 146 | 159 | 167 | |
| Azərbaycan | 111 | 140 | 142 | 147 | 156 | 162 | 158 | 167 | Kənd təsərrüfati |
| MDB | 108 | 120 | 124 | 127 | 140 | 142 | 133 | 157 | |
| Azərbaycan | 121 | 608 | 701 | 868 | 1144 | 933 | 1131 | 1440 | Əsas kapitala investisiya |
| MDB | 113 | 178 | 209 | 256 | 283 | 237 | 249 | 270 | |
| Azərbaycan | 117 | 169 | 181 | 184 | 196 | 197 | 206 | 222 | Nəqiyyatda yük daşımaları |
| MDB | 103 | 131 | 140 | 149 | 153 | 134 | 145 | 162 | |
| Azərbaycan | 103 | 115 | 122 | 132 | 143 | 152 | 159 | 171 | Sərnişin daşımaları |
| MDB | 99 | 83 | 79 | 76 | 78 | 73 | 74 | 80 | |
| Azərbaycan | 110 | 170 | 192 | 220 | 255 | 277 | 301 | 332 | Pərakəndə əmtəə dövriyyəsi |
| MDB | 112 | 175 | 203 | 238 | 271 | 255 | 274 | 297 | |

Mənbəə: <http://www.cisstat>,09.07.2012.

**Qrafik 4. Azərbaycanın makroiqtisadi göstəriciləri üzrə dünyada tutduğu yeri (2011-ci il)**




**Mınbə:** <http://iformatsiya.ru/tabl/894-vvp-po-pps-paritetu-pokupatelnoy-sposobnosti-2011-goda.html>,02.07.2012.
<http://iformatsiya.ru/tabl/896-rost-padenie-vvp-v-stranah-mira-v-2011-godu.html>,02.07.2012.
<http://iformatsiya.ru/tabl/897-vvp-na-dushu-naseleniya-po-pps-2011.html>,02.07.2012.
<http://iformatsiya.ru/tabl/901-gosudarstvennyy-dolg-stran-mira-2011.html>,02.07.2012.
<http://iformatsiya.ru/tabl/903-vneshniy-dolg-stran-mira-na-2011-god.html>,02.07.2012.
<http://iformatsiya.ru/tabl/898-rabochaya-sila-stran-mira-2011.html>,02.07.2012.
<http://iformatsiya.ru/rossiya/711-zanyatost-i-bezrabotica-v-rossii-2011-avgust.html>,02.07.2012.
<http://iformatsiya.ru/tabl/34-saldo-vneshnej-torgovli-stran-mira.html>,02.07.2012.
<http://iformatsiya.ru/tabl/29-yeksport-nefti-v-mire.html>,02.07.2012.
<http://iformatsiya.ru/tabl/30-zapasy-nefti.html>,02.07.2012.

Son illərdə dünya iqtisadiyyatında baş verən qeyri-əlverişli konyunktura şəraitində Azəbaycan iqtisadiyyatında 2009-cu ildəki bəzi makroiqtisadi göstəriciləri çıxmaq şərtilə heç bir qeyri-əlverişli hall baş verməmişdir. Belə ki, 2010-cu və 2011-ci illərdə iqtisadi artım davam etmişdir. Bunu Azərbaycanın 2011-ci il üzrə bir çox makroiqtisadi göstəricilərə görə dünyada və MDB dövlətləri arasında tutduğu mövqeyi sübut edə bilər (Qrafik 4; Cədvəl 1)

Qrafikdən (4), (1) və (2) saylı cədvəllərdən Azərbaycanın istər dünya iqtisadiyyatında, istər MDB məkanında və istərsə də, Şərqi Avropa dövlətləri arasında xüsusi yeri hiss olunur. Bu, əsasən ÜDM, sənaye istehsalı, işsizlik, işçi qüvvəsi, inflyasiya, tədiyyə balansı, dövlət borcu, xarici borc, xarici dövlətlətə investisiya, xarici investisiya, xarici valyuta və qızıl ehtiyatları və ixrac kimi göstəricilərinə aiddir.

**Cədvəl 2**

**2000-2011-ci illər əszidə Azərbaycan və Şərqi Avropa dövlətləri üzrə bəzi orta makroiqtisadi göstəriciləri**

| | Inflyasiya | Məcmu tələb | Xarici investisiya | ÜDM | Əsas istehsal fondları | Şəxsi istehlak | Ixrac | Enerji istehsalı (mln Kvts) |
|---|---|---|---|---|---|---|---|---|
| Çex Respublikası | 2,6 | 3,7 | 4427,8 | 4,9 | - | 2,5 | 5,4 | 23,7 |
| Estoniya | 4,2 | 6,0 | 1223,3 | 9,9 | 4,9 | 3,7 | 4,5 | 3,4 |
| Macarıstan | 5,8 | 0,3 | 3123,9 | 7,9 | 2,5 | 1,8 | 5,3 | 10,7 |
| Polşa | 3,5 | 3,9 | 9364,3 | 7,2 | - | 3,5 | 5,6 | 75,8 |
| Slovak Respublikası | 4,7 | 3,8 | 1714,0 | 7,8 | - | 3,7 | 5,7 | 5,9 |
| Sloveniya | 4,5 | 2,2 | 416,0 | 6,5 | 1,8 | 2,1 | 5,5 | 3,5 |
| Türkiyə | 20,1 | 7,7 | 8383,5 | 26,3 | - | 4,5 | 5, 7 | 26,3 |
| Avro Zona | 2,1 | 1,3 | 306592,5 | 3,2 | - | 1,2 | - | 901,9 |
| Azərbaycan | 7,1[1)] | 2,9 | 3090,8 | 13,7 | 1,2 | 18,8 | 1,9 | 20,7 |

Mənbə: <http://www.azstat.org/MESearch/details>,13.07.2012.
<http://www.azstat.org/statinfo/system_nat_accounts/az/index.shtml>,13.07.2012.
<http://stats.oecd.org/>,05.07.2012.
<http://www.oecd.org/statsportal/0,2639,en_2825_293564_1_1_1_1_1,00.html>,05.07.2012.
<http://www.oecd.org/document/0,3746,en_2649_201185_46462759_1_1_1_1,00.html>, 05.07.2012.

[1)]2007 və 2008-ci ilin iki rəqəmli inflyasiyası səbəbdən

Respublika iqtisadiyyatında iqtisadi artımın mənbələri baxımdan təhlilinin aparılmasında investisiya, neft istehsalı və neftin qiyməti göstəricilərinə istinadın əhəmiyyətliliyini vurğulamağa dəyər. Belə ki, beynəlxalq iqtisadi və maliyyə təşkilatlarının təhlil və proqnozlarında makroiqtisadi göstəricilər və əsas iqtisadi artım amilləri kimi qeyd olunan göstəricilər çıxış edir. Bu baxımdan bizim də məhz bu amillərə istinadımız böyük əhəmiyyət kəsb edir. Cədvəl 2-də məhz bu baxımdan tərtib olunmuşdur.

**Cədvəl 3.**

**Azərbaycanda ÜDM, əsas kapitala investisiya, neft hasilatı, neftin qiyməti arasında asılılıq**

| Illər | ÜDM | ÜDM artımı | *Ln* (ÜDM artımı) | Əsas kapitala investisiya | Əsas kapitala investisiya artımı | *Ln* (Əsas kapitala investisiya artımı) | Neft hasilatı | Neft hasilatı artımı | *Ln* (Neft hasilatı artımı) | Neft qiym-əti | Neft qiyməti artımı | *Ln* (Neft qiyməti artımı) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2000 | 4 718,1 | 100 | 4,60517 | 967,8 | 100 | 4,60517 | 14 017 | 100 | 4,60517 | 28,5 | 100 | 4,60517 |
| 2001 | 5 315,6 | 112,7 | 4,724729 | 1170,8 | 120,9 | 4,794964 | 14 909 | 106,3 | 4,666265 | 24,4 | 85,6 | 4,449685 |
| 2002 | 6 062,5 | 128,5 | 4,855929 | 2107 | 217,7 | 5,383118 | 15 334 | 109,3 | 4,694096 | 24,9 | 87,3 | 4,46935 |
| 2003 | 7 146,5 | 151,5 | 5,020586 | 3786,4 | 391,2 | 5,969219 | 15 381 | 109,7 | 4,697749 | 28,5 | 100 | 4,60517 |
| 2004 | 8 530,2 | 180,8 | 5,197391 | 4922,8 | 508,7 | 6,231858 | 15 549 | 110,9 | 4,708629 | 37,9 | 132,9 | 4,889597 |
| 2005 | 12 522,5 | 265,5 | 5,581615 | 5769,9 | 596,2 | 6,390576 | 22 214 | 158,5 | 5,065755 | 55,1 | 193,1 | 5,263208 |
| 2006 | 18 746,2 | 397,3 | 5,984692 | 6234,5 | 644,2 | 6,468009 | 32186 | 229,6 | 5,436339 | 66 | 231,6 | 5,445012 |
| 2007 | 28 360,5 | 601,1 | 6,398761 | 7471,2 | 771,9 | 6,648855 | 42523 | 303,3 | 5,714722 | 72,7 | 255,1 | 5,541656 |
| 2008 | 40 137,2 | 850,7 | 6,74606 | 9944,2 | 1027,5 | 6,934884 | 44 395 | 316,7 | 5,757955 | 98,4 | 350,1 | 5,858219 |
| 2009 | 35 601,5 | 755,5 | 6,62738 | 7724,9 | 796,2 | 6,67985 | 50 364 | 359,3 | 5,884158 | 62,8 | 220,3 | 5,39499 |
| 2010 | 41 574,7 | 881,2 | 6,781285 | 9905,7 | 1023,5 | 6,930983 | 50900 | 363,1 | 5,894678 | 80,2 | 281,5 | 5,640132 |
| 2011 | 50069,3 | 1061,2 | 6,967156 | 12776,4 | 1320,1 | 7,185463 | 45397 | 323,9 | 5,780435 | 110,9 | 389,1 | 5,963836 |

Mənbəə: <http://www.azstat.org/statinfo/system_nat_accounts/az/index.shtml,>,13.07.2012.
<http://www.azstat.org/statinfo/construction/az/index.shtml>,13.07.2012.
<http://www.ereport.ru/stat.phpərazdel=metal&count=oi&table=price>,19.07.2012.

Cədvəl 2-nin göstəricilərə əsasən SPSS proqramından istifadə edərək Respublika ÜDM-nin investisiyadan, neftin hasilatından və neftin qiymətindən asılılığı əks etdirən riyazi-iqtisadi modelli (tənlik, istehsal funksiyasını) qura bilərik.

$$ÜDM= 0,68017 I_N^{0,034801} N_F^{0,705216} Q_{NF}^{0,346858} e^{0,085173t} \quad (5)$$

$$R=0,998171$$

$$R^2=0,996346$$

Modeldən aydın olur ki, $R^2$-ın vahidə yaxinliği asılılığın sıx olmasından xəbər verir. Modelin iqtisadi və riyazi məntiqliyini iqtisadi artım tempinin investisiyanın, neftin hasilatının və neftin qiymətinın artım tempinə nisbi yaxın olması ilə əlaqələndirmək olar. Belə ki, dünya iqtisadi konyunkturasından fərqli olaraq, yuxarıda qeyd edildiyi kimi, dünya neft hasilatı və neft istehlakı arasında tam vahidə yaxın olan asılılılıq, dünya neft hasilatı, neft istehlakı və dünya ÜDM-i arasında nisbi asıllıq olsa da, neftin qiyməti ilə bunlar arasında asılılıqdan, xüsusilə son on illikdə asılılılıqdan söhbət gedə bilmədiyi halda Respublikamızda əks proses baş verir. Dünya neft qiymətində iqtisadi artım və tələb hərçənd qiyməti formalaşdıran amil kimi çıxış etsə də, ixracatçı və ixracda xüsusi çəkisi az olan dövlət kimi, Azərbaycanın iqtisadi artımı əsasən neft hasilatından və neftin qiymətindən asılılığından danışmaq olar. Bu məsələ ilə bağlı baxışlarımı iyulun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2012-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında prezidentin giriş nitqində söylədiyi fikirlə tamamlamaq və əsaslandırmaq istərdim. “..Ancaq bizi daha çox sevindirən qeyri-neft iqtisadiyyatımızın inkişafı olmuşdur. Bu, demək olar ki, iqtisadi siyasətimizin əsas istiqamətidir və altı ayda qeyri-neft iqtisadiyyatımız 11,3 faiz artmışdır. Bu, hesab edirəm ki, dünya miqyasında ən yüksək göstəricidir. Ümumi iqtisadiyyatımızın cəmi 1,5 faiz artımının səbəbi ondan ibarətdir ki, neft hasilatında müəyyən dərəcədə azalma müşahidə edilir. Nəzərə alsaq ki, neft sektoru iqtisadiyyatımızın böyük hissəsini təşkil edir, əlbəttə, bu azalma istər-istəməz ümumi göstəricilərə də təsir göstərir. Ancaq biz bundan sonrakı illərdə də əsas diqqətimizi qeyri-neft iqtisadiyyatımızın inkişafına yönəldəcəyik və ilin altı ayının yekunları Azərbaycanda aparılan islahatların məntiqi nəticəsidir. Sənaye istehsalının ümumi həcmi 3 faiz azalmışdır. Bunun da səbəbi neft hasilatının aşağı düşməsi olmuşdur. Ancaq qeyri-neft sənayemizin inkişafı 8,3 faiz səviyyəsindədir. Bu da son illər ərzində sənayeləşmə proqramının icrasının nəticəsidir”. [http://www. president. az]

**Nəticə**

Azad ticarət siyasəti onun müasir mənasında ilk dəfə Adam Smitin tərəfindən 1776-cı ildə nəşr edilən məşhur "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" əsərində müəyyən edilmişdir. Istər proteksionizm və istərsə də fritrederçılık eyni bir ağacın — sosial-siyasi əsaslarının hər iki halda dəyişilməz qalan kapitalist iqtisadiyyatı budaqlarını bildirir. Dünya iqtisadiyyatı tarixi, əgər beynəlxalq iqtisadi həmrəyliyin siyasi birliyə uyğun gəlməyirsə, heç bir beynəlxalq iqtisadi həmrəyliyin real olmadığına şahidlik edən kifayət qədər tarixi hadisələrə malikdir.

Neftin qiymət dəyişməsinin birinci dövrünün təhlilinə bu tərəddüdlərdə siyasi məsələlərlə yanaşı iqtisadi artımın da dürdüğuna israrlığımız, belə ki, neftə tələbi əsasən real sektor formalaşdırır, bu dövrdə dünya ÜDM-in sabit artması iddiası ilə qarşılaşa bilər. Lakin unudulmamalıdır ki, ÜDM-in tərkibində maliyyə bazarının göstəriciləri də öz əksini tapır.

Deməli neft bazarında baş verən hadisələr, başqa sözlə onun qiymət dəyşməsi artıq onun real əmtəədən çox maliyyə portfellərindən birinə çevrildiyindən xəbər verir.

Dünya iqtisadi konyunkturasından fərqli olaraq, yuxarıda qeyd edildiyi kimi, dünya neft hasilatı və neft istehlakı arasında tam vahidə yaxın olan asıllılıq, dünya neft hasilatı, neft istehlakı və dünya ÜDM-i arasında nisbi asıllıq olsa da, neftin qiyməti ilə bunlar arasında asıllıqdan, xüsusilə son on illikdə asıllılıqdan söhbət gedə bilmədiyi halda Respublikamızda əks proses baş verir. Dünya neft qiymətində iqtisadi artım və tələb hərçənd qiyməti formalaşdıran amil kimi çıxış etsə də, ixracatçı və ixracda xüsusi çəkisi az olan dövlət kimi, Azərbaycanın iqtisadi artımı əsasən neft hasilatından və neftin qiymətindən asıllığından danışmaq olar.

**Ədəbiyyat:**


1. Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2012-cu ilin altı ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında Dövlət başçısının giriş **nitqli.** < http://www. president. az >
2. *Azərbaycanın UTT-yə uzvlüyü və ozəl sektor: Araşdırma nəticəlrinin analitik hesabatı* – 2008. Birləşmiş. Millətlər Təşkilatının inkişaf Proqramı Bakı, 2008
3. *Azərbaycanın UTT-ə Uzvlük Prosesinin Qiymətləndirilməsi uzrə Siyasət Sənədi*. Bakı 2010.
4. *"Beynəlxalq ticarət, standartlar və UTT: mövcud vəziyyt, problemlər və perspektivlər"* movzusunda beynlxalq konfransın məruzələr toplusu. Bakı, 2007
5. *Qloballaşmaya doru (məqalələr toplusu).* Baki. 2006 www.qasim-az.com
6. *Ticarət ehtiyaclarının qiymətlndirilməsinə yardım – Azərbaycan, Ticarət və insan inkişafı.* Bakı, 2010
7. *"The Encyclopedia Americana"*, vol. 22. New York — Chicago, (1940), p. 652
8. *"Grand Dictionnaire Universel du XIXe siècle".* Par Pierre Larousse, vol. 4. (1875). Paris, [s. d.], p. 872-873.
9. Афанасьев В.С. (1985). *Этапы развития буржуазной политической экономии (очерк теории).* "Экономика". М.

10.Альтер Л.Б. (1972). *Критика современной буржуазной политической экономии.* "Наука". М.

10. Альтер Л.Б (1971). *Буржуазная политическая экономия США.* "Наука". М.
11. http://www. president. az – Azərbaycan Respublikası Prezidentinin rəsmi web ünvani.
12. http: //www. meclis. gov. az – Milli Məclisin rəsmi web ünvani.
13. http: //www. cabmin. gov. az – Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi web ünvani.
14. http://www.economy.gov.az– AR İqtisadi İnkişaf Nazirliyinin rəsmi web ünvanı.
15. http://www.cbar.az –AR Mərkəzi Bankının rəsmi web ünvanı.
16. http://www.taxes.gov.az. – AR Vergilər Nazirliyinn rəsmi web ünvanı.
17. http://www.azstat.org. – Azərbaycan Dövlət Statistika Orqanının rəsmi web ünvani.
18. http://www.maliyye.gov.az – AR Maliyyə Nazirliyinin rəsmi web ünvanı.

# ULUSLAR ARASI TOPLUMSAL CİNSİYET REJİMİ

***Arş. Gör. Burcu HATİBOĞLU EREN***
*Hacettepe Üniversitesi*

## Özet

Uluslar arası toplumsal cinsiyet rejimi, dünyadaki birçok ülkede toplumsal cinsiyet eşitliğini sağlayacak politika ve uygulamaların prensiplerini ve yasal çerçevesini içermektedir. Birleşmiş Milletler İnsan Hakları Beyannamesi'nin kabulüyle tartışılmaya başlayan kadının insan haklarına ilişkin tartışmalar, ILO tarafından 1958'de kabul edilen "İş ve Meslek Bakımından Ayrım Hakkında Sözleşme" ve BM tarafından 1978'de kabul edilen Kadınlara Karşı Her Türlü Ayrımcılığın Önlenmesi Uluslararası Sözleşmesi (CEDAW)'nin kabulüyle devam etmiştir. Daha sonraki süreçte Viyana (1993), Kopenhag (1995), Pekin (1995 ve 2000) Bildirgeleri, AB Temel Haklar Şartı (2000) ve BM Milenyum Deklerasyonu, uluslar arası toplumsal cinsiyet rejiminin belirlenmesinde etkili olmuştur. Ancak asıl tartışma konusu uluslar arası toplumsal cinsiyet rejimini belirleyen kural ve prensiplerin, ekonomik, kültürel, politik ve dini yapılar çerçevesinde nasıl yorumlandığı, kabul edildiği, yeniden tanımlandığı ve uygulandığı olmaktadır. Dolayısıyla uluslar arası ve yerel düzeyde toplumsal cinsiyet sorunlarının nasıl tanımlandığı ve nasıl çözümleneceği, farklı sosyal politika seçenekleri ve refah sistemleri ile doğrudan bağlantılıdır.

Bu çerçevede Walby (2004: 10-11) farklı refah sistemlerinin farklı kamusal ve özel toplumsal cinsiyet rejimlerini yarattığını vurgular. Walby (2002, 2004) analizinde, ABD, İskandinav ülkeleri ve Avrupa Birliği ülkeleri'ndeki kamusal toplumsal cinsiyet rejimlerine odaklanmıştır. Bu çalışmada da Türkiye gibi geleneksel refah sistemi özelliklerinden beslenen ülkelerde nasıl bir toplumsal cinsiyet rejiminin olduğunu anlamak amacıyla, uluslar arası toplumsal cinsiyet rejimi incelenecektir.

**Anahtar Kelimeler:** Uluslar arası toplumsal cinsiyet rejimleri, toplumsal cinsiyet eşitliği

# INTERNATIONAL GENDER REGIME

## Abstract

International gender regime includes principles and policy frames for achieving gender equality all over the world. Discussions on women human rights (starting after UN Human Right Bill) have been continuing along with the Convention Concerning Discrimination in Respect of Employment and Occupation in 1958 and The Convention on the Elimination of All Forms of Discrimination Against Women in 1978. In this process, international gender regime has been effected by the declerations of Viyana (1993), Kopenhag (1995), Pekin (1995 ve 2000), EU Charter of Fundamental Rights (2000) and Milennium Development Goals. But the most important point of discussions is how international gender norms and principles are interpreted, received, redefined and applied in economic, cultural, political and religious context. So defining and analizing of gender problems in international and local levels is directly connected with different welfare systems and social policy options.

In this context, Walby (2004: 10-11) has emphasized that different welfare systems create different public and private gender regimes. In her analysis, Walby (2002, 2004) has focused on public gender regime of USA, Scandinavian and European Union countries. In this paper, international gender regime will be analysed for understanding how does the gender regime of countries like Turkey that is charectarized by traditional welfare system.

**Key words:** International gender regimes, gender equality

**Uluslararası Toplumsal Cinsiyet Rejimi Nedir?**

Bu çalışmada uluslararası toplumsal cinsiyet rejimi incelenirken, tüm dünyada yaşanan ekonomik ve kurumsal dönüşümden bahsetmek yerinde olacak. Gerçekten de giderek ekonomik ve kurumsal kaynaklar, kadınlara ücretli iş ve yaygın eğitim sağlama konusunda oldukça ilerlemiştir. Kadınlar artık daha fazla kamusal alanda görünür olmuş, kurumsal yapılar içerisinde yer almaya başlamış; dolayısıyla kamusal hakları için daha talepkar bir konuma gelmişlerdir. Bu durum, yapısal, ekonomik ve politik fırsatlardaki değişimi ve toplumsal cinsiyet rejiminde küresel bir dönüşümü getirmiştir. Dönüşümün biçimi, kadın haklarına ve kadına yönelik ayrımcılıkla mücadeleye ilişkin uluslararası düzeyde bir duyarlılığın artışıyla sonuçlanmış görünmektedir. Bu açıdan küresel cinsiyet rejimine ilişkin tartışmalara geçmeden önce küresel cinsiyet rejiminin oluşumunda belirleyici olan ve şekillendiren bazı yasal düzenlemelerden bahsetmek uygun olacaktır.

Küresel cinsiyet rejiminin nasıl şekillendiğine baktığımızda, gelişmelerin BM insan hakları bildirgesini takiben, bildirgenin cinsiyet körü yapısını dönüştürmek üzere gerçekleştirilen adımlarla şekillendiğini görürüz. Bu noktada kadınları odak alan en önemli adımın Kadınlara Karşı Her Türlü Ayrımcılığın Önlenmesi Uluslararası Sözleşmesi (CEDAW-1978)'nin oluşturulması ve kabulü olduğunu belirtmek gerekir. Daha sonra sırasıyla Viyana Bildirgesi (1993), Kopenhag Bildirgesi (1995), Pekin Bildirgeleri (1995 ve 2000), AB Temel Haklar Şartı (2000) ve BM Milenyum Deklerasyonu (2000) gibi gelişmelerle, küresel düzeyde kabul edilen bir cinsiyet rejiminden bahsetmek mümkün olmuştur.

Gelir getirme açısından OECD ülkeleri ile ilgili bilgilere baktığımızda 2009 ve 2010 yıllarında pozitif (+) yönlü gelir getirdikleri görülmektedir. *"Tüm ülkelerin (yerel para birimi cinsinden ve portföy yönetim maliyetleri düşüldükten sonra) yıllık reel yatırım getirisi ortalaması %3.5 nominal getiri ortalaması % 5.4'tür."*[48] 2010 yıl sonu itibariyle bu fonların değeri 3.0 trilyon dolardır. Türkiye'de 2011 yıl sonunda bir yıl öncesine göre %19'luk büyüyen bireysel emeklilik fonları14.3 milyar Türk lirası varlık değerine ulaşmıştır.

**Tablo 1. Bazı OECD ülkelerinin 2009-2010 Yılı Emeklilik Fonlarının Ülke Ekonomilerinin Boyutlarına Göre Oranları (%)**[49]

| Ülkeler | 2009 | 2010 |
|---|---|---|
| Hollanda | 129.8 | 134.9 |
| Amerika B.D. | 67.8 | 72.6 |
| İngiltere | 73 | 86.6 |
| Japonya | 25.2 | 25.2 |
| Almanya | 5.2 | 5.2 |
| Türkiye | 2.3 | 2.3 |

Bu rakamlara Türkiye'de yapılan emekli fonlarına yatırım büyüklüğünün 14 milyar lira büyüklüğünde olduğu gerçeği ile bakıldığında gelişmiş ekonomilerin bu alanda yapmış oldukları yatırımlar daha iyi anlaşılmaktadır.

Reel getiri oranları açısından bakıldığında 2009 ve 2010 yılları için %18.4 lük oranla Hollanda zirvede yer almakla birlikte Yunanistan için bu oran -%7.4 ile en kötü performanstır.[50] Türkiye'de emekli fonlarındaki değerlendirmelerde birincil olarak %60'ların üzerinde kamu borçlanmaları, daha sonra esnek yapılanma gelmekte olup hisse senetlerinin ağırlığı ise %10 seviyelerindedir.

Türkiye'de işverenlerin çalışanları, eşlerin bir diğeri için yapmış oldukları katkı payı ödemeleri, brüt ücretlerinin veya beyan edilen gelirlerinin %10'unu ve yıllık asgari ücreti aşmamak koşuluyla vergiden indirilebilmektedir. Bu yapının teşviki açısından vergi indirimi teşvikleri birçok ülkede uygulanmaktadır. Ayrıca yıl içinde en fazla 6 kez katılımcılar emeklilik fonlarının bileşimini değiştirebilmektedirler.

## SONUÇ ve ÖNERİLER

---

[47] http://www.egm.org.tr/?sid=70 (28.05.2012 tarih erişimli)
[48] http://www.egm.org.tr/bes2011gr/bes2011gr_tr.pdf (29.05.2012 erişim tarihli)
[49] OECD Pension Market in Focus, Issue 7, Issue 8 kaynağından asıl bilginin alındığı belirtilmiştir. Kullanılan erişim adresi http://www.egm.org.tr/bes2011gr/bes2011gr_tr.pdf (02.06.2012 tarih erişimli)
[50] http://www.egm.org.tr/bes2011gr/bes2011gr_tr.pdf (02.06.2012 tarih erişimli)

Bireysel emeklilik ve tasarruf uygulamalarının etkin kılınmasında birincil etken, risk hesaplamaları için birincil önemde olan nüfusların yaşlanmasından dolayı, sosyal güvenlik sistemlerinin kaynak dağıtım yönteminin geçmişteki gibi gereksinimlere yanıt verememesidir. Bu anlayış çerçevesinde yaş etkeni önemli olduğu için ülkenin nüfus yapısına bakılıp özellikle bebek patlamasının (baby boom) olduğu yıllarda doğanların emeklilik dönemlerine yönelik tedbirlerin alınması gereklidir. Bu hususun gerektirdikleri, ister bireysel emeklilik tasarruf uygulamalarıyla olsun, ister kamu eliyle olsun gerçekleştirilmesi sosyal güvenlik sistemlerinin işleyişi açısından ehemmiyet arz etmektedir.

Bireysel emeklilik uygulamaları piyasa ekonomisi güçlü olarak işleyen ülkelerde başarıyla uygulanmaktadır. Bireysel emeklilikte fonlara kaynaklar yatırılmaktadır. Fonların ise arz ve taleplerinin piyasada buluşması gereklidir. Eğer bu sağlanamazsa sıkıntılı bir sürece girilir. Ayrıca Türkiye örneğinde olduğu gibi bankalar ve bireysel emeklilik şirketleri %60'ların üzerinde kamu borçlanmasına kaynaklarını yatırmışlardır. Yine en güvenli liman devlet olarak görülmektedir. Fonlar değerlendikleri gibi bazı ülkelerde Yunanistan örneğinde olduğu biçimde, değerde yitirebilmektedirler. Bu nedenle bireysel emeklilik yapısının sosyal güvenlik çatısı altında ne kadar ağırlıklı olması planlanıyorsa, bu ülkenin ekonomik planlamaları ile uyumlu bir biçimde karar verilmelidir.

Türkiye'de uygulanan biçimiyle çalışanların ödeyecekleri katkı paylarında vergi indirimleri olması, sosyal güvenlik şemsiyesi altındaki emekliliğin artık devletler tarafından yüklenilmesinden ziyade devletin düzenleyici ve denetleyici rolü tercih ettiğini göstermektedir. Zira bu vergi indirimi uygulamasının, zaten sosyal güvenlik ödemelerinin mali açıdan yük olduğu devletlerce sürekli kılınması olanaksızdır. Bu teşviklerin, bireysel tasarrufların iktisadi yapılar içerisinde kalıcı hale gelmesi için uygulanan özendirici işlemler olduğu ortadadır. Bununla beraber bir diğer uygulama tasarrufları nemalandıracak olan iktisadi merkezlerce alınabilinen yönetim gideri kesintileri uygulamada ödenen tutar arttıkça azalmaktadır. Bu daha çok tasarruf yapanın daha çok kazanması anlamına gelmektedir. Ancak bütün bu uygulamalar cüz'i bir birikimi dahi yapamayacak olan yoksullar ile varsıl kesim arasındaki gelir eşitsizliğinin daha artması demektir. Bu nedenle bu uygulamalarda vergi indirimlerine, yönetim gideri kesinti oranlarına dikkat edilmelidir. Belirli bir kesime tasarruf yapması için imtiyaz tanınması hakkaniyet ilkesince de uygun değildir. Diğer taraftan bu teşvikler ile toplanacak tasarrufların yine kamunun yararına hizmet edeceği öngörüldüğü için yapılmaktadır anlayışı da ileri sürülmektedir. Ayrıca uygulamanın yayılması yolunda etkin bir yöntem olmakla beraber vergi indiriminin bahis olduğu bir üst sınırın çizilmiş olması gelir eşitsizliğinin çok aşırı boyutlara gitmemesi için alınmış bir önlemdir.

Bireysel emeklilik sistemlerinin iyi işleyebilmesi için bireylerin katkı payları ödeyebilecek durumda olması, yani birey başına düşen gelirin fazla olması gereklidir ki kişiler tasarruf yapabilsin. Bu noktada işverenlerin çalışanları adına bireysel emekliliğe katkı yapmaları ve bu katkıların vergiden muafiyeti düşünülebilir. Böylece bireysel olarak kendisi tasarruf yapamayacak kadar az gelir kazanan bireyler için de bireysel emeklilik sağlanmış olur.

Yalnız bireysel emekliliği tek çare olarak düşünmek tamamıyla yanlıştır. Emeklilik olgusu yalnız 65, 60, 67 yaşlarından sonra gerçekleşmeyip, bir kişinin iş kazası veya herhangi bir hastalık, olay sonucu malul olduğu durumlarda da emekliye sevk edilmesi gerekebilmektedir. Bu gibi durumlarda, bireylerin yeteri kadar birikim yapmamış

olmalarından dolayı sefalete terk edilmeleri toplumda sosyal güvenlik açısından sıkıntılar doğuracaktır. Bu konu bireysel emeklilik tasarruflarında tam olarak yanıtlanmamış olup bireyin başına elim olay gelip emekli olunca o güne kadar biriktirdiği ile yetinmesi öngörülmektedir. Bu uygulamaların temel kısıtlılığı bu anlayıştır. Sosyal güvenlik sistemlerinin ülkedeki zenginliklerin topluma yeniden dağıtımı yoluyla zor günlerde refahın teminatı olduğu hiçbir zaman unutulmamalıdır. Bu nedenle bireysel emeklilik sosyal güvenlik sistemleri için tek başına bir çözüm olmayıp yalnızca destekleyici araçlardan birisidir.

Sosyal güvenceleri sağlayanın temelde devlet olması gerektiği gerçeği göz ardı edilmemelidir. Devlet bireysel emekliliğe yönelik uygulamaları destekleyecek olsa dahi her bireye asgari olarak eşit emeklilik imkanları öncelikle sunularak kimsenin zor günlerinde yoksulluk riski ile karşılaşması engellenmelidir. Bireysel emeklilik bireylerin çalışırken kazandıkları gelirden emekli olunca daha aşağı inmemeleri amaçlı veya iyi bir gelir ile emeklilik yaşamı için araç olmalıdır. Yoksa devletler yaşlıları için yetersiz emeklilik maaşı öngörerek bireyleri artık kendi tasarruflarını kendileri yapsın demeleri ahlaki yönden de yanlış olacaktır. Ayrıca eşlerin her ikisinin emekli gelirlerine yönelik yatırım yapmalarının ve bir tarafta tek çalışan bireyin yapacağı yatırım miktarının farklı olacağı ve emeklilikte bireyler arasında gelir eşitsizliklerinin açılacağı görülmektedir.

**KAYNAKÇA**


1. http://epp.eurostat.ec.europa.eu/tgm/table.do?tab=table&language=en&pcode=tsiem010&tableSelection=1&footnotes=yes&labeling=labels&plugin=1 (04.06.2012 tarihi erişimli)
2. http://epp.eurostat.ec.europa.eu/tgm/table.do?tab=table&init=1&language=en&pcode=tps00002&plugin=1 (05.06.2012 tarih erişimli)
3. http://eunec.vlor.be/detail_bestanden/doc014%20Europe%202020.pdf (05.06.2012 tarih erişimli)
4. http://ec.europa.eu/social/main.jsp?catId=738&furtherPubs=no&langId=en&pubId=494&type=2 (03.06.2012 tarih erişimli)
5. http://web2.egm.org.tr/webegm2/chart/besgosterge/wg_sirketview_tablolu.asp?raportip=10 (03.06.2012 tarihinde erişimli)
6. http://www.spk.gov.tr/apps/ad/AylikPeriyodikDokumanHandler.ashx?pdt=PERD01&did=27&dt=0&submenuheader=null (03.06.2012 tarihinde erişimli)
7. http://www.egm.org.tr/?sid=70 (28.05.2012 tarih erişimli)
8. http://www.egm.org.tr/bes2011gr/bes2011gr_tr.pdf (02.06.2012 tarih erişimli)

# MİLLİ MARAQLAR VƏ MARJİNAL FAYDALILIQ: BÜDCƏ SİYASƏTİ

***Doktorant Amal HƏSƏNLİ***
*Azərbaycan Dövlət İqtisad Universiteti, hasanliamal@gmail.com*

## Xülasə

Məqalədə iqtisad elmində intensiv istifadə edilən marjinal faydalılıq və milli maraqların təmin edilməsi məsələləri araşdırılır. Qeyd olunur ki müasir iqtisadi fəaliyyətin və iqtisad elminin əsas inkişaf xəttinin mahiyyəti barəsində hazırda dünyada vahid hesab edilə biləcək yanaşma yoxdur. Fikrimizcə prinsip etibarı ilə heç zaman belə vahidlik olmamışdır. Yalnız zamanın müəyyən məqamlarında bəşəri inkişafın təsiri ilə klassik və ya neoklassik adlandırılan konsepsiyaların aparıcılığı müşahidə olunmuşdur. Fikrimizin ən yaxşı sübutu kimi dünyanın sosial, siyasi, hərbi və baza iqtisadi münasibətləri (məsələn, fərdi mülkiyyət hüququnun toxunulmazlığı) çox yaxın prinsiplər üzərində qurulan inkişaf etmiş ölkələrinin iqtisadi sistemi və inkişaf modelinin ciddi fərqlərə malik olmasını qeyd etməyi mümkün sayırıq.

Problem nədədir? Hesab edirik ki, bu sualın bir mənalı cavabı yoxdur və ya hər hansı cavab ən azı polemika mövzusudur. Fikrimizcə bu əsasən iqtisadi fəaliyyətin qiymətləndimə meyarı ilə bağlı olan məsələdir. İqtisadiyyatda faydalılıq və onun ölçülməsi bütün iqtisadi nəzəriyyələrin tədiqat predmetidir. Bu iqtisadiyyatın sosial mahiyyəti ilə bir başa bağlıdır. Eyni zamanda bu məsələnin həlli, müasir iqtisadi fəaliyətin bütün aspektləri, o cümlədən sahibkarlıq fəaliyyəti, təbiətdən istifadə, dövlətin iqtisadi siyasəti və iqtisadi fəaliyyətin milli və beynəlxalq səviyyələrdə tənzimlənməsi və s. kimi müstəvilərdə axtarılmalıdır. Təbiidir ki, daha dolğun nəticələrə malik olmaq üçün, belə müstəvilərin hər birində məsələyə yanaşma metodologiyası fərqlənməlidir. Eyni zamanda problemin həllində ümumu nəticələrin əldə edilməsi üçün milli maraqların prirotetliyi, Paretto optimallığı, ikinci ən yaxşı və ya son zamanlar dünyada prioritetə çevirilmiş davamlı inkişaf yanaşmaları arasında seçim və ya onların "sinergetik" formulunun tapılması vacibdir. Hesab edirik ki, milli dövlətlərin iqtisadi siyasətləri daima belə bir "formulun" axtarışındadır. Belə axtarışı asanlaşdırmaq mümkündürmü? Biz buna çalışırıq.

**Açar sözlər:** milli maraqlar, marjinal faydalılıq, iqtisadi siyasət, qiymətləndirmə meyarları

## The National Interest and the Marginal Effectiveness: Coordination Problem

## Abstract

There is no any single approach to the essence of modern economic activities and main stream of Economy as a science. Principally, there hasn't been such unity. Only in certain periods, classical or neoclassical concepts were observed. For example, economic system and development model of the developed countries have serious differences.

What is the problem? We consider that there is no meaningful answer to this question or it is the subject of polemics. We think this is related to the appreciation criterion of economic activity. Effectiveness and its measurement in economy is a research subject of an economic theory. This is related to the social merits of economy directly. At the same time, the problem solution should be found in the all aspects of the modern economy, including entrepreneurship, nature usage, regulation of economic activity and policy of the state in national and international meanings and so on. Obviously, approach methodology of each of these should differ. At the same time, it is important to find choice of "synergetic" formula among priority of national interests, Paretto optimal, recent sustainable development approaches in the world. We think the national economic policies are is always in search of such "formula". Is it possible to ease such a search? We're working on it.

**Key words:** national interests, marginal effectiveness, economic policy, assessment criteria.

**JEL Classification Codes:** H30, F41; F15, F36.

Müasir iqtisadi fəaliyyətin əsas inkişaf xəttinin mahiyyəti barəsində hazırda dünyada vahid yanaşma yoxdur. Əslində heç zaman belə vahidlik olmamışdır. Yalnız müəyyən zamanlarda bəşəri inkişafın təsiri ilə klassik və ya neoklassik nəzəriyyələrin aparıcılığı müşahidə olunmuşdur. Belə vəziyyətin yaranmasının əsas səbəbi, iqtisadi fəaliyyətin qiymətləndimə meyarı ilə bağlıdır. İqtisadiyyatda faydalılıq və onun ölçülməsi bütün mühüm iqtisadi nəzəriyyələrin tədiqat predmetidir. Bu iqtisadiyyatın sosial mahiyyəti ilə bir başa bağlıdır. Ona görədə məsələnin həlli müasir iqtisadi fəaliyətin bütün aspektlərini əhatə edən müstəvilərdə axtarılmalıdır. Təbiidir ki, daha dolğun nəticələrə malik olmaq üçün, belə müstəvilərin hər birində məsələyə yanaşma metodologiyası fərqlənməlidir. Lakin burada əsas və mürəkkəb məsələlərdən biri iqtisadi fəaliyyətdə milli maraqlarla marjinal faydalılığın potensial ziddiyyətlərinin həlli, onların uzlaşdırılmasıdır.

Qeyd olunan problemin çoxşaxəliliyi və mürəkkəbliyini nəzərə alaraq onun həllinə maliyyə münasibətləri kəsimində, xüsusi ilə büdcə siyasəti müstəvisində baxmağa çalışacağıq. Məlum olduğu kimi, son 30-40 ildə dünya iqtisadiyyatında baş verən iqtisadi böhranların əsas hissəsi məhz maliyyə sektorunun “aparıcılığı” ilə fərqlənmişdir. Beləki XX əsrin 70-ci illərində baş verən “enerji resursları” böhranından sonrakı bütün böhranlarda maliyyə münasibətlərinin doğurduğu şərait yeni kataklizmlərə rəvac vermişdir. Belə böhranları süjet xəttinə görə bir neçə qrupa ayırmaq olar – beynəlxalq hesablaşmalarda milli valyutaların dönərliyinin təmin olunması xüsusiyyətlərindən yaranan böhranlar; beynəlxalq maliyyə qurumları və iri sponsorların borcvermə tələblərindən yaranan böhranlar və dövlət maliyyəsinin idarə edilməsi, büdcə siyasətlərinin xarakterindən yaranan böhranlar.

İlk iki qrup problemlərin yaranmasında qloballaşmanın təsirlərini əsas hesab etmək olar. Buna görədə belə böhranların milli iqtisadi sistem çərçivəsində qarşısının alınması kifayət qədər çətindir. Sonuncu qrup problemlər isə bilavasitə milli iqtisadi siyasətin xarakterindən qaynaqlanır və buna görədə onların ertələnməsi milli iqtisadi idarəetmə sisteminin vəzifələri hesab edilməlidir.

Çağdaş iqtisadi nəzəriyyədə bazar münasibətlərinin ən səmərəli iqtisadi mexanizm kimi qəbul olunmasına rəğmən, ayrı-ayrı ölkələrdə Dövlətin iqtisadi idarəetmədə faktiki rolu mahiyyət etibarı ilə genişlənməkdədir. Döğrudur, bazar münasibətlərinin xarakterinə uyğun olaraq dövlətin rolu əsasən ictimai xarakterli xidmətlərin təqdimatı ilə məhdudlaşır. Fikrimizcə müasir inkişaf mərhələsində ən mühüm belə xidmətlərdən biri Dövlət büdcəsinin istiqamətləndirici fəaliyyətidir.

XX əsrdə dünyanın aparıcı inkişaf etmiş ölkələrində Dövlət büdcəsinin formalaşdırılması təcrübəsi əsasında, Büdcə sistemi 3 əsas funksiya : fiskal, tənzimləyici və sosial funksiyaları yerinə yetirir.

Ənənəvi olaraq Fiskal funksiya- özünün gəlir mənbələrinin olmadığı hallarda Dövlətin fəaliyyət göstərməsi məqsədi ilə zəruri maliyyə bazasının yaradılmasını nəzərdə tutur. Beləliklə faktiki olaraq fiskal funksiyanın vəzifələri və hüdudları dövlətin fəaliyyətinin məqsədləri, vəzifələri və seçilmiş fəaliyyət modeli ilə şərtlənir. İqtisadi mahiyyət baxımından zəruri maliyyə bazasının yaradılması zamanı dövlət mülkiyyətinin gəlirləri nəzərə alınmır. Çünki əvvəla, əksər ölkələrdə belə gəlirlər zəruri xərclərə nisbətdə çox kiçik olur və onlar stasionar gəlir kanalı kimi yox, fövqaladə hallarda istifadə olunacaq strateji ehtiyatlar kimi dəyərləndirilir. Digər tərəfdən iqtisadi sistemin “özünü inkişaf qabiliyyətinin” qorunması baxımından hesab edilirki, xərclər həmişə cari gəlirlərə hədəflənməlidir. Başqa sözlə, xəzinə

maraqlarının qorunması mənasını verən Fiskal siyasət dedikdə, iqtisadiyyatın Dövlət tənzimləməsinin mühüm aləti kimi, hökumət xərcləri və gəlirlərinin tənzimlənməsi üzrə maliyyə tədbirləri toplusu başa düşülməlidir.

İqtisadiyyatın tənzimlənməsi funksiyası dedikdə, Dövlətin öz iqtisadi siyasətini həyata keçirmək məqsədi ilə tətbiq etdiyi təsərrüfat mexanizmi, o cümlədən əsas gəlir mənbəələri kimi vergilərdən istifadə etməsi üzrə fəaliyyəti ; dövlət xərclərinin istiqamətləndirilməsi və büdcə kəsirinə münasibət siyasəti başa düşülür. Burada mühüm məqam, vergilərin səviyyəsinin müəyyənləşdirilməsi ilə yanaşı, vergi yükünün və inzibatçılığının stimullaşdırıcı və ya təzyiq təsirlərinin düzgün qiymətləndirilməsidir. Məsələn bazar konyunkturunun dəyişməsi ilə vergi daxilolmalarının artıb –azalması, vergi səviyyəsinin bazarda rəqabət mübarizəsi elementinə çevrilə bilməsi amilləri vergilərin iqtisadi tənzimləmədə rolunu düzgün müəyyənləşdirilməsinə ciddi təsir edə bilir.

Büdcənin tənzimləyici funksiyalarının xarakterinə əhəmiyyətli təsirlərin böyük qrupu milli iqtisadi inkişaf modelindən doğan xərclər siyasəti ilə bağlıdır. Bir sıra hallarda büdcənin sosial və ya investisiya yönümlü olması polemika mövzusuna çevirilir. Hesab edirik ki, büdcənin təməl təyinatının dövlətin sosial mahiyyət daşıyan xərclərinin maliyyələşdirilməsi olmasına rəğmən, onun sosial xarakteri aksiomatikdir. Deməli büdcənin, sosial və ya investisiya xarakterli xərclərin nisbəti kimi başa düşülən “statusu”nun müəyyənləşdirilməsinə yanaşma formal – kəmiyyət tutumlu olmamalıdır.

Büdcə kəsirinin formalaşdırılmasına yanaşmalar büdcənin xarakterini qiymətləndirməyə yaxşı imkan yaradır. Kəsirin “stimullaşdırıcı” xarakteri, əsaslandırılmış zəruri xərclərin ödənilməsi mənbələrinin yaradılması (müəyyənləşdirilmiş fəaliyyət vəzifələrinə düzgün əməl edilməsinin təminatı, gəlir və xərclərin proqnozlaşdırılmasının dəqiqliyinin artırılması və s.) həmişə qorunmalıdır. Kəsirin maliyyələşdirilmə mənbələrinin müəyyənləşdirilməsi baxımından isə, daxili bazarın yüksək aktivliyinin təmin edilməsi və bir sıra hallarda maliyyə bazarında sterilləşdirici rol oyanayan dövlət öhdəlikləri seqmentinin yardılması, fikrimizcə mühüm əhəniyyət daşıyır və daha nəticəli hesab edilə bilər. Burada kəsirin maliyyələşdirilməsi mənbələrinin inflyasiya təzyiqi yaratması və ya dövlət borcunun artırılmasına təsir kimi xüsusiyyətlərinə diqqət verilməsi vacibdir.

Son dövrlərdə büdcənin əlahiddə sosial funksiyalara malik olması ideyası yetərincə aktuallşmışdır. Sosial funksiya dedikdə əsasən – Dövlət büdcəsinin milli gəlirin yenidən bölgüsü vasitəsi kimi xüsusiyyətləri nəzərdə tutulur. Bu baxımdan əlbəttə o sosial xarakterə malikdir. Eyni zamanda yenidən bölgü xüsusiyyətinə büdcənin tənzimləyici funksiyasının elementi kimi də baxıla bilər. Ona görədə hesab edirik ki, sosial funksiya büdcənin ayrılmaz elementidir.

Məlum olduğu kimi üzərinə düşən iqtisadi funksiyaları reallaşdırmaq üçün Dövlət iqtisadi siyasət, bazar və digər tənzimləmə mexanizmlərinin birgə istifadəsinə çalışmaqla, iqtisadi fəaliyyətin, o cümlədən sahibkarlığın stimullaşdırılmasını təmin etməlidir. Bu məqsədlə ayrı ayrı ölkələrdə Büdcə sisysəti vasitəsi ilə iqtisadiyyatın tənzimləməsinə yanaşmalar əsasən iki müxtəlif nəzər konsepsiyaya- büdcənin neytrallığı və funksional büdcə konsepsiyalarına əsaslanır. Ən geniş yayılmış və qədim hesab edilən klassik bazar münasibəttərinə əsaslanan “Neytral büdcə” konsepsiyası, Dövlətin büdcə siyasətini bütövlükdə büdcənin balanslaşdırılmasına istiqamətləndirir və beləliklə büdcənin geniş təkrar istehsal prosesinə neytral yanaşmasının zəruriliyini təsbit edir. Bu halda hesab edilir ki,

maliyyənin normal idarə edilməsi elə, iqtisadiyyatın səmərəli fəaliyyətinin təmin edir. Başqa sözlə, büdcə xalis maliyyə məsələsinin həlli ilə - pul vəsaitlərinin toplanması və xərclənməsi ilə məşğul olur.

"Böyük tənəzzül"ün dərsləri və Keyns nəzəriyyəsi əsasında Dövlət büdcəsinin istifadə edilməsi təcrübəsi, büdcə alətlərinin iqtisadiyyatın güclü tənzimləyiciləri ola bilməsini aşkar etdi. Sonralar "sosial bazar təsərrüfatı" yanaşmasının uğurları bu ideyanı dahada gücləndirdi. Nəticədə, büdcənin iqtisadi inkişafdakı rolunu "funksional maliyyə" konsepsiyası əsasında qiymətləndirilməsinə rəvac verildi. Bu konsepsiyaya görə, büdcə siyasətinin formalaşdırılması və və realizasiyası eyni zamanda həm maliyyə, həmdə iqtisadi hədəflərə istiqamətlənə bilər və hətta, burada aparıcı iqtisadi hədəflər olmalıdır. Çünki, Dövlətin iqtisadi siyasətinin əsas şərtləndirici amillərindən biri – iqtisadiyyatın tarazlaşdırılmasıdır. İqtisadi tarazılıq isə, mahiyyət etibarı ilə, daima dəyişən zaman və konyunkturanın təsiri ilə yalnız, inkişafın davamlılığı və dayanıqlığı şəraitində arzu olunan nəticəliliyə gətirə bilər. Ona görədə "funksional maliyyə" konsepsiyası fikrimizcə, müasir dövrdə büdcə siyasətinin formalaşmasına, daha düzgün yanaşmadır. Eyni zamanda nəzərə almaq lazımdır ki, belə yanaşma büdcə quruculuğunun bir sıra mühüm parametrlərinin formalaşdırılması, o cümlədən büdcənin tənzimləyici rolunun gücləndirilməsi və büdcə kəsiri kateqoriyasının qiymətləndirilməsində düzgün nəticələrə gətirə bilər. Məsələn, adətən təcrübədə büdcə kəsirinə mənfi hal kimi, büdcənin borc yükünü artıran alət kimi baxılır. Funksional maliyyə konsepsiyasına görə isə, yalnız uzun müddət ərzində büdcə kəsirinin aradan qaldırılmaması iqtisadi stabillik məsələsinin əsaslı həlli olmadan mümkün deyildir. Hesab ediri ki, Dövlətin büdcə siyasətinə "iqtisadi yanaşma"nın mahiyyəti məhz bu məqamla bağlıdır.

Funksional maliyyə konsepsiyasında büdcəninin balanslaşdırılması nisbətən arxa plana keçirilir. İlk planda dövlətin cari iqtisadi siyasətinin məqsədləri dayanır. Məsələn, nəzəri baxımdan tam məşğulluğun təmin edilməsi, iqtisadi inkişafın stabilləşdirilməsi, struktur islahatlarının gerçəkləşdirilməsi və s. dayanır. Hesab edilir ki, bu məqsədlərə nail olunması baxımından yaxşı qurulmuş maliyyə sistemi və dövlət institutlarının etibarlılığı şəraitində, dövlət borclarının artması ciddi iqtisadi təhlükə yaratmır. Beləki: - Əvvəla belə şəraitdə dövlət borcunu başqa vasitələrlə qaytarmağa ehtiyac yaranmır. Çünki dövlətin qiymətli kağızları yüksək etibarlılığa malik olduqda, onlar hər bir investorun portfelinin mühüm hissəsini təşkil edir, həmdə milli gəlirin artması ilə belə kağızlara investisiyalar artır. Ona görədə dövlət borcu problemi onun qayrtarılmasında deyil, ona xidmətin təmin edilməsi, yəni dövlət büdcəsindən müvafiq faiz ödəmələrinin ayrılmasına transforfmasiya olunur. Başqa sözlə müvafiq qiymətli kağızların investorlar üçün cəlbediciliyini saxlamaqla dövlət borcunu həmişə yenidən maliyyələşdirmə mümkündür. İkincisi, iqtisadi siyasət mexanizmi vasitəsi ilə Dövlət borcunun azadılması üçün imkanlar həmişə mövcuddur. Məsələn vergi səviyyəsini qaldırmaqla büdcənin gəlir kanallarını genişləndirmək mümkündür. Üçüncüsü, Dövlət borc yükünü azaltmaq üçün bir sıra alətlərə malikdir. Məsələn ölkədə pul kütləsinin həcminin artırılması, valyuta siyasəti və s.

Funksional maliyyə konsepsiyası, bir sıra ölkələrdə büdcə quruculuğunda geniş tətbiq edilir. Lakin stabilləşdirmənin fiskal metodlarının tətbiqi bir neçə əlavə suallar yaradır. Büdcə kəsiri və dövlət borcunun limit hədləri hansılardır? Büdcə kəsirindan başqa, Dövlət borcuna təsir edən faktorlar varmı? Mahiyyətinə görə kəsirin və dövlət borcunun həcminin

səviyyəsi onların ÜDM-də xüsusi çəkiləri ilə müəyyənləşir. Lakin bu göstərici effektiv hesab edilə bilməz, çünki ayrı-ayrı ölkələrdə çox fərqli şərait vardır. Ona görədə bu göstəriciləri dəyərləndirərkən, ancaq onu qeyd etmək olar ki, dövlət borcu o vaxt ölkənin büdcə sistemi üçün ağır yükə çevirilir ki, borc üzrə faiz ödəmələri büdcə kəsirinin əsas yaradıcısı olur. Bu baxımdan dövlət borcunu qiymətləndirərkən, büdcə kəsirini, ümumi və ilkin kəsir olmaqla iki hissəyə ayırmaq məqsədə uyğundur. İlkin kəsir dedikdə, ümumi kəsirdən faiz ödəmələrini çıxdıqdan sonra qalan hissə başa düşülür. Stabilləşdirmə siyasətinin əsas aləti məhz ilkin kəsir olmalıdır. Dövlət borcu böyük olduğu halda, büdcənin kəsirinin mühüm hissəsi dövlət qiyməli kağızlarının faizlərinin ödənilməsinə yönəldilirsə, belə hal maliyyə sistemi üçün təhlükə yarada bilir. Dövlət borcunun dinamikasına təsir edən faktorlar sırasında ümumi və ilkin kəsirlərin nisbəti, ÜDM-n artım sürəti və dövlət qiymətli kağızları üçün real faiz dərəcəsi, xüsusi ilə mühüm əhəmiyyət kəsb edir. Məsələn, ilkin profisit yarandıqda, ÜDM-in artım sürəti faiz dərəcəsindən yüksək olduqda Dövlət borcu azalır və əksinə. İqtisadi artımın sürəti yüksək olduqca, iqtisadiyyatın çəkə biləcəyi büdcə kəsirinin səviyyəsi yüksək olur.

Digər tərəfdən, dövlət borcunun qiymətləndirilməsində bir sıra texniki və institutsional xarakterli problemlər mövcuddur. Məsələn iqtisadi subyektlərin maliyyə imkanlarının qiymətləndirilməsi onun büdcə məhdudiyyətləri ilə birbaşa bağlıdır. Ancaq büdcə məhdudiyyətləri o zaman korrekt hesab edilə bilər ki, o yanlız cari xərclərin artıb-azalmasının yox, həm də iqtisadi subyektin əmlakının dəyişməsini xarakterizə etsin. Ona görədə dövlət borcunun həcmini qiymətləndirərkən, onu yalnız ÜDM-in dinamikası yox, həm də inflyasiya amili nəzərə alınmaqla, borclardan təmizlənmiş dövlət aktivlərinin dəyişməsi ilə müqayisə etmək zəruridir. Lakin burada ciddi iki problem mümkündür: dövlət aktivləri əslində hansılardır və onları hansı qiymətlə nəzərə almaq lazımdır.

Beləliklə, qeyd olunanları ümumiləşdirərək, belə nəticəyə gəlmək olar ki, müasir inkişaf mərhələsində, dövlətin büdcə siyasətinə "texnokratik" idarəetmə aləti kimi yox, milli maraqları təmin edən dayanıqlı və davamlı iqtisadi inkişaf vasitəsi kimi baxılması məqsədəuyğundur. Belə olduqda milli maraqların təmin edilməsi ilə marjinal faydalılığın potensial ziddiyyətlərinin aradan qaldırılması mümkünləşir.

**Ədəbiyyat**

1. Deborah Bräutigam, Michael Woolcock. Small States in a Global Economy. The Role of Institutions in Managing Vulnerability and Opportunity in Small Developing Countries. UNU/WIDER, Discussion Paper No. 2001/37
2. Ludovico Alcorta, Frederick Nixson. The Global Financial Crisis and the Developing World: Impact on and Implications for the Manufacturing Sector. United Nations Industrial Development Organization. Vienna, 2011.
3. Global economic crisis: implications for trade and development. Report by the UNCTAD secretariat, Geneva, 7 May 2009
4. Financial Stress, Downturns and Recoveries. World Economic OutlookUpdate, , IMF, Washington D.C., October, 2008.
5. Azərbaycan Respublikasının Mərkəzi Bankı. İllik hesabat 2009. Bakı: 2010.

# SƏUDİYYƏ ƏRƏBİSTANININ GEOİQTİSADİ VƏZİYYƏTİ HAQQINDA

***Emil QASIMZADƏ***

*Azərbaycan Dövlət İqtisad Universiteti, emil_kasimzade@mail.ru*

## Xülasə

Məqalədə Səduiyyə Ərəbistanın iqtisadi inkişaf səviyyəsinin geoiqtisadi imkanları qiymətləndirilir. Qiymətləndimədə riyazi üsullardan istifadə etməklə ölkənin rəqabəqabiliyyətliliyi və digər parametrlə tədqiq olunur.Müəllif qeyd edir ki, Yaxın Şərq ölkələri regionu şimaldan cənuba və şərqdən qərbə gedən beynəlxalq nəqliyyat yollarının üzərində yerləşdiyindən çox vacib strateji mövqeyə malikdir. İndi Avropa dövlətləri öz milli maraqları baxımından Yaxın Şərq ölkələrinə strateji əhəmiyyətli region kimi baxırlar. Fars Körfəzi ölkələrinin ticarət tərkibi monoəmtəəli olmaqla bərabər, həm də asimmetrikdir, çünki ixrac əsasən neft və neft məhsullarına yönəldiyindən beynəlxalq əmtəə bazarında qiymətlərin dəyişməsi qarşısında acizqalma halına tez-tez rast gəlinir. Uzunmüddətli sabitliyi təmin etmək prosesində OPEK və Səudiyyə Ərəbistanı qiymətə nəzarətdə müəyyən məhdudiyyətlərlə üzləşir.

Tədqiqat nəticəsində müəyyən olunub ki, dünya ixracı ilə Səudiyyə Ərəbistanı ixracının yaxınlıq ölçüsü 2005-ci ildə 9471,7 və 2010-cu ildə isə 7215,3-ə bərabər olub. Göstəricinin 2256,4 qədər yaxşılaşması ixracının keyfiyyətinin aşaği dərəcədə olmamasından xəbər verir.

Seçim prosesində reytinqi Səudiyyə Ərəbistanının reytinqindən yuxarı olan sənayecə inkişaf etmiş, Norveç, Hollandiya, Avstraliya, Kanada, Çili kimi natural ölçüdə çox böyük mineral resurslar ixrac edən ölkələr istisna olmaqla, Avropa Şurasına və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına daxil ölkələr kənarlaşdırılıb.

Tədqiqat nəticəsində yaxınlıq (oxşarlıq) ölçüsü 683,26-dan aşağı olan 17 ölkə seçilib. Səudiyyə Ərəbistanı 17 ölkə arasında ixracın rəqabət qabliyyətlik səviyyəsinə görə 8-ci yeri tutur. İPİİ görə özündən yuxarıda yerləşən Oman (0,846; 2007-ci ilin göstəricisi), Bəhreyn (0,801), və Liviyanı (0,765) xeyli qabaqlayır. Qeyd etmək lazımdır ki, 17 ölkə arasında 8-ci yer orta göstəricidir. Əgər ixracın rəqabət qabliyyətlik səviyyəsi ən yüksək olan ölkənin göstəricisini 100% qəbul etsək, onda krallığın ixracının rəqabət qabliyyətlik səviyyəsi Rusira Federasiyasının ixracında 74,5% (1,1211/1,5039) təşkil edəcək. Beləliklə aparılan tədqiqatlar göstərir ki, Səduiyyə Ərəbistanın geoiqtisadi maraqları onun xarici iqtisadi siyasətinən əhəmiyyətli asılıqlara malikdir və bu asılılıqların düzgün dəyərləndirilməsi ölkənin milli maraqlarının daha dolğun təmin olunmasını şərtləndirə bilər.

**Açar sözlər:** milli maraqlar; beynəlxalq əmtəə bazarı; ixrac; neft və neft məhsulları; yaxınlıq (oxşarlıq) ölçüsü; rəqabət qabliyyətlik səviyyəsi; xammal resursları; diversifikasiya.

Yaxın Şərq ölkələri regionu şimaldan cənuba və şərqdən qərbə gedən beynəlxalq nəqliyyat yollarının üzərində yerləşdiyindən çox vacib strateji mövqeyə malikdir. Əlverişli coğrafi mövqe və xeyli dünya enerji resurslari ehtiyaına sahib olmaq region ölkələrinin dünya iqtisadiyyatının maraq mərkəzində olmasına imkan yaradır. Lakin bir tərəfdən xarici ticarət strukturunun əsasən monoəmtəəli olması və digət tərəfdən potensial imkanlara nisbətən yüksər səviyyədə olmaması ortaya problemlər çıxardır. Bu deyilənlərə rəğmən Yaxın Şərq ölkələrinin ixrac əməliyyatlarını ətraflı öyrənməyə ehtiyac vardır. İndi də əksər Avropa dövlətləri öz milli maraqları baxımından Yaxın Şərq ölkələrinə strateji əhəmiyyətli region kimi baxırlar. Fars Körfəzi ölkələrinin ticarət tərkibi monoəmtəəli olmaqla bərabər, həm də asimmetrikdir, çünki ixrac əsasən neft və neft məhsullarına yönəldiyindən beynəlxalq əmtəə bazarında qiymətlərin dəyişməsi qarşısında acizqalma halına tez-tez rast gəlinir. Uzunmüddətli sabitliyi təmin etmək prosesində Neft İxrac edən Ölkələr Təşkilatı və Səudiyyə Ərəbistanı qiymətə nəzarətdə müəyyən məhdudiyytlərlə üzləşirlər. Fars Körfəzi Ərəb

Dövlətləri Əməkdaşlıq Şurasının ixrac etdiyi əmtəənin yarısı Səudiyyə Ərəbistanın payına düşür. Bu ölkə ən böyük bazara malikdir. İndiki gündə ixracını diversifikasiya etməklə dunya əmtəə bazarinda rəqabət qabliyyətlnə, stabıllıyə və dayanıqlığa malk olmaq və həm də geoiqtisadi maraqlarını genişləndirmək istiqamətində qısa müddətdə bir sıra iri layihələri həyata keçirməkdə iddialıdır.

Geoiqtisadiyyat dedikdə iqtisadi resurslar üzərində nəzarətə nisbətdə müxtəlif miqyaslı və xüsusiyyətli cəmiyyətlərin (imperiya, milli dövlət, şəhər və ya əyalət elitası, beynəlxalq təşkilatlar, hakimiyyət, silk, istehsalat, ticarət, maliyyə qrupları, institut, mərkəz, ittifaqlar və s. ) aralarindakı qarşılıqlı əlaqə sferası başa düşülür.Geoiqtisadiyyat həm də məkan faktorlarının istehsal sferasına və malların paylanmasına təsirini və iqtisadi fəaliyyətin inkişafı üçün məkanın istifadəsinə təsirini öyrənir. XX əsrin sonunda Edqar Lyuttvakın iqtisadiyyat elminə daxil etdiyi “geoiqtisadiyyat” termini coğrafiya, tarix və iqtisadiyyatın birləşməsini və dövlətin rəqabət qabliyyətliyini qaldırmaq üçün siyasi vasitələrin istifadəsini nəzərdə tutur.

Dövlətin geoiqtisadi maraqları müzakirə olunduqda “geoiqtisadi maraqlar” anlayışının əsasını təşkil edən “geosiyasət” və “geosiyasi maraqlar” kateqoriyalarının izahından başlamaq lazımdır.İqtisadiyyat və siyasət müxtəlif məkan (fəza) görünüşünə malikdirlər. Siyasi məkan nisbi sabitlikdə təzahür tapırsa, iqtisadı məkan fasiləsiz hərəkətdə olur və mal və xidmətlərin tələb və təklif dinamikasından asılıdır. Dövlət, siyasi kateqoriya kimi daim nəzarətdən azad olmağa can atan iqtisadi axın üzərində nəzarəti həyata keçirdir. Lakin bu iki kateqoriyanın vahid ümumi mürəkkəbəsi olan resurslar vardır. Siyasi mübarizə həmişə resurslara sahib olmaq uğrunda mübarizə ilə sıx əlaqədədır. Yeni resurslara sahib olmağa can atmaq geosiyasəti doğurdu və dövlətin maraqları sferasının qlobal səviyyəyə qədər genişləndirdi.

Dünya arenasında dövlıtin geoiqtisadi obrazı-elə rəqabət qabliyyətliyin praktik tərənnümü deməkdir. Dövlətin geoiqtisadi obrazı butun ölkələr tərəfindən qəbul Beynəlxalq İqtisadi Formun ölkələrin rəqabət qabliyətlik reytinqi haqqinda məruzəsində əks olunub. Ümumdünya İqtisadi Formun “Global Competitiveness Report” illik məruzəsində Growth Competitiveness Index (GCI- Artımın rəqabət qabliyyətlik indeksi) və Business Competitiveness Index (BCI- Biznesin rəqabət qabliyyətlik indeksi) kimi iki əsas göstəricilər toplusundan istifadə olunur. Bunlardan birincisi ölkənin qlobal rəqabət qabliyyətliyini qiymətləndirir və iqtisadi artım üçün ən vacib sayılan makroiqtisadi göstəricilərinə əsaslanir. Bu indeksin göstəriciləri ölkənin iqtisadi artımının imkanları haqqında ancaq ortamüddətli perspektivdə məlumat verə bilir. GCI inkişafın müxtəlif səviyyəsində qərarlaşan dünya ölkələrinin rəqabət qabliyyətliyi 12 toplananla səciyyələnir. Onlar “İnstitutların keyfiyyəti”, “İnfrastruktura”, Makroiqtisadi sabitlik”, “Səhiyyə və ibtidai təhsil”, “Ali təhsil və peşə hazırlığı”, “Mal və xidmət bazarının effektivliyi”, “Əmək bazarının effektivliyi”, “İnkişaf etmiş maliyyə bazarı”, ”Texnoloji səviyyə”, “Daxili bazarın ölçüsü”, “Şirkətlərin rəqabət qabliyətliyi” və “İnnovasiya potensialı”. İkinci indeks Harvard universitetinin professoru M. Porterin rəqabət üstünlüyü nəzəriyyəsinə əsaslanır və ölkənin rəqabət qabliyyətliyini mikrosəviyyədə qiymətləndirir. Hər iki indeksin hesablanmasında informasiya bazasını form tərəfindən Menecerlərin Sorğu proqramı (Excentivic Opnion Survey) çərçivəsində şirkətlərin top-menecerlərinin sorğularının nəticələri və statistik məlumatları təşkil edir.

Müasir şəraitdə ölkənin rəqabət qabliyyətliyi təsərrüfat sisteminin vəziyyəti və inkişaf perspektivinin göstəricisidir. O ölkənin beynəlxalq əmək bölgüsündə iştirakının xarakterini müəyyənləşdirir, iqtisadi təhlükəsizliyin qarantı kımı çıxış edir və ümumi şəkildə ölkənin

azad rəqabət şəraitində dünya bazarının tələblərinə uyğun və satışının əhalinin rifahını yüksəldən mal və xidmət istehsal etməsi qabliyyətini səciyyələndirir.Rəqabətə dünya təsərrüfat sistemində yer uğrunda mübarizə aləti və milli iqtisdiyyatın effektivliyinin yüksəldilməsi mexanizmi kimi baxılır. Təsədüfi deyildir ki, son dövrün ümumi ideyası bir çox ölkələrin açıqlıq strategiyasına, dünya bazarında dərinləşmə otiyentasiyasına keçməsidir.

Maliyyə-iqtisadi əlaqələrin dərinləşməsi, milli iqtisadiyyatın açıqlığı, onların bir-birini qarşılıqlı tamamlaması və yaxınlaşması Səudiyyə Ərəbistanının inkişafının oriyentirini müəyyənləşdirir. Ölkə dünya təsərrüfatına xammal dövləti kimi yox, texnoloji inkişafın yüksək səviyyəsi, güclü maliyyə institutları, inkişaf etmiş infrastrukturlar və informasiya sektoruna malik iqtisadi inkişaf etmiş ölkə səlahiyyətində daxil olmalıdır. Söhbət krallığın rəqabət qabliyyətliyini yüksəltmək probleminin həllindən gedir. Bundan əlavə Səudiyyə Ərəbistanının dünya iqtisadiyyatı cəmiyyətinə rəqabət qabliyyətli iqtisadiyyat keyfiyyətində inteqrasiyası dayanıqlı iqtisadiyyatın əldə etmək kimi uzunmüddətli proqramın həyata keçirilməsinə təkan verəcək.

Beynəlxalq İqtisadi Form (WEF) və Beynəlxalq idarəçiliyin inkişafı institutu (International Institute for Management Development, İDM) tərəfindən işlənmiş ölkələrarası rəqabət qabliyyətlik reytinqi işgüzar və siyasi dairələrdə populyarlıq əldə edib. Beynəlxalq təcrübədə rəqabət qabliyyətliyin göstəricisi və reytinqlərinin hesablanması üsulları daim təkmilləşir və yenidən işlənir. Bu metodikalar, adətən, müxtəlif göstəricilərin köməyilə qiymətləndirilmiş sonlu sayda rəqabət qabliyyətlik faktorlarının seçilməsi və sistemləşdirilməsinə istiqamətlənib.

Beynəlxalq menecementin inkişafı institutu (İMD) “Dünya rəqabət qabliyyətliyi haqqında hesabat” (The World Competitiveness Yearbook) dərc edir. Bu təşkilat öz yanaşmasında rəqabət qabliyyətliyə “ölkələrin elə mühit yaratmaq və dəstəkləmək qabliyyətidir ki, şirkətlər tərəfindən dəyərin meydana gəlməsinin dayanıqlığı təmin olunması və vətəndaşların rifahı artması” kimi baxır. Ölkələr, beləliklə, biznesin aparılması və yaşyış üçün daha yaxşi şəraitin əldə olunması uğrunda öz aralarında raqabət aparırlar.

Beynəlxalq ticarətin və beynəlxalq ixtisaslaşmanın ənənəvi nəzəriyyəsi müqayisəli üstünlük anlayışına söykənib. Hekşer-Olin nəzəriyyəsinə uyğun olaraq müqayisəli üstünlük nəzəriyyəsi təsdiq edir ki, ölkələr öz istehsalını istehsalat faktorlarının qoyuluşunu daha çox tələb edən sektorlarda təmərtüzləşməklə daha artıq qazanc əldə edirlər. Müqayisəli üstünlük nəzəriyyəsinin ərəb ölkələrinə tətbiqi nəticəsində müəyyən olunur ki, körfəzyanı ölkələr daha çox aşağıdakı sektorlarda təmərküzləiməlidirlər: xammal hasilatında (neft, qaz, mineral resurslar); əlverişli təbii şəraitdən istifadə etməklə (buğda, pambıq əkini, pambıq emalı) kənd təsərrüfatı sahəsində; ucuz, ixtisaslı və ya ixtisassız işçi qüvvəsinin istifadəsinə əsaslanmış sənayenin ənənəvi sahələrində (toxuculuq sənayesi); ixtisaslı işçi qüvvəsinin istifadəsinə, tədqiqat və tətbiqə əsaslanmış kapitaltutumlu sektorlarda (maşınqayırma). Bazarı formalaşmaqda olan ölkələrdə iqtisadi artımın sürətinin aşağı düşməsinə baxmayaraq, gözləmək olar ki, bu ölkələr öz iqtisadi siyasətlərinin əsasını möhkəmlətməklə və məhsuldarlığı sürətlə artımaqla dayanıqlıq faktoruna çevriləcəklər. Böhran nə qədər çox davam edərsə, onun bu ölkələrə toxunması ehtimalı böyüyür. İşin belə gedişi müəssisələri öz istehsalını artırmağın və məhsuldarlığin yüksəldilməsinin yeni yollarını və imkanların axtarıb tapmağa stimullaşdırmalıdır.

Tədqiqat nəticəsində birinci müəyyən olunub ki, məhsulların istehsalının artın perspektivlərini məhsulun rəqabət qabliyyətliyini yüksəltmək imkanlarının əlavə meyarıdır. Məhsulun rəqabət qabliyyətliyinin artırılmasının aşağıdakı göstəriciləri vardır: təmərküzləşmə səviyyəsi; sahənin orta illik tempi; istehsalın artımının dövlət tənzimlənməsi; daxili satış bazarının genişləndirilməsinin orta illik tempi; elmi-tədqiqat və təcrübə-konstrutor işlrinin innovasiyalı xərcləri; həyatın dövriliyinin davamiyyəti.

İkincisi, həm daxili və həm də dünya bazarında bütövlükdə qlobl rəqabət şəraitində dövlətin rolunun yeni anlamına ehtiyac var. Bunun həm hökumət, həm firmas və həm də vətəndaşların rəqabət qabliyyətliyin necə yaranma və necə mühafizə olunmasını başa düşməsində böyük əhəmiyyətə malikdir. Dövlətin planına uyğun olaraq 50 ən rəqabət qabliyyətli ölkənin sırasına daxil olmaq məsələsi o həyata keçir ki, dövlətin elmi, təhsili, mədəniyyətinin inkişaf səviyyəsi ölkə iqtisadiyytının keyfiyyətli inkişafı ilə sıx əlaqədə olsun.

Biz hesab edirik ki, rəqabət qabliyyətliyə ÜDM, ixrac, investisiya kimi makroiqtisadi göstəricilərin keyfiyyəti kimi baxmaq lazımdır. Bununla bağlı adı çəkilən bu göstəricilərin inkişaf səviyyəsini müəyyən edən metodik baza lazımdır. Məsələn, ixracın keyfiyyətini qiymətləndirmək üçün klaster nəzəriyyəsində istifadə olunan yaxinlıq (oxşarlıq) ölçüsündən istifadə edəcəyik. İxracın yaxinlıq (oxşarlıq) ölçüsü nə ölkənin ticarət göstəricilərini, nə də onun müqayisəli üstünlüyünü qiymətləndirmir, əksinə müxtəlif əmtəə növlərinin ixracında ölkənin ixtisaslaşma səviyyəsini göstərir.

Aparılmış hesablamalar nəticəsində müəyyən olunub ki, dünya ixracı ilə Səudiyyə Ərəbistanı ixracının yaxınlıq ölçüsü 2005-ci ildə 9471,7 və 2010-cu ildə isə 7215,3-ə bərabər olub. Göstəricinin 2256,4 qədər yaxşılaşması ixracının keyfiyyətinin aşaği dərəcədə olmamasından xəbər verir. Belə bir ümidverici göstərici onunla bağlıdır ki, ölkə iqtisadiyyatında aparılmış diversifikasiya nəticəsində ölkənin ixracı ilə dünya ixracının strukturundakı nəzərəçarpacaq fərq emal sənayesinin məhsulları üzrə müşahidə olunur.

Bununla belə, hesab edirik ki, ixracın keyfiyyət və ya rəqabət qabliyyətliyin qiymətləndirilməsinə bu cür yanaşma yalnız o zaman münasib hesab olunur ki, bu göstəricilərin operativ şəkildə ümumiləşmiş hesablanması aparılsın. Bu omumla bağlıdır ki, artıq xammal resurslarının ixracı inkişaf etməkdə olan ölkələrin rəqabət qabliyyətliyinin keyfiyyət artımının meyarı deyildır. Xammal mallarının ixracı, məsələn, Avstraliya, Kanada, Hollandiya və Norveç kimi inkişaf etmiş ölkələrin iqtisadiyyatında vacib rol oynayır.

İxracının rəqabət qabliyyətliyik səviyyəsinin müəyyənləşdirmək üçün ölkənin inkişafının əsas göstıriciləri Beynəlxalq İqtisadi Form, Ümumdünya Ticarət Təşkilatının və digər beynəlxalq təşkilatların ölkələr üçün müəyyən etdikləri göstəricilərlə üzləşdirilib və müqayisə olunub. Bu məqsədlə 85 ölkə seçilib. Müəyyən ölkələr qrupu ona görə lazım olubdur ki, seçilmiş ölkələrlə müqayisədə Səudiyyə Ərəbistanının ixracının yaxşılaşması üçün prioritetləri göstərmək mümkün olunsun. Aydındır ki, bu ölkələr böyük inkişaf səviyyəsinə malik dövlətlər olmalıdır. Seçim meyarı kimi Birləşmiş Millətlər Təşkilatı tərəfindən 2010-cu il üçün işlənmiş dünya ölkələrinin insan potensialnin inkişaf indeksi götürülmüşdür. Tədqiqat prosesində İnsan Potensialının İnkişaf İndeksi çox yüksək olan 42, İnsan Potensialının İnkişaf İndeksi yüksək olan 43 ölkənin və cari ilin hesabatina düşməyən Oman (0,846) ilə Livan (0,803) kimi Ərəb liqası Dövlətlərinin 2007-ci il üçün göstəriciləri statistik analizdən keçirilmişdir. Səudiyyə Ərəbistanı bu siyahıda 0,752 göstərici ilə müqayisə olunan 87 ölkə arasında 55-ci mövqedə yerləşir.

Rəqabət qabliyyətlik səviyyəsini qiymətləndirmək alqoritminin gedişində ölkə üzrə ÜMM-in həcmi, adam başına düçən ÜMM və ixracların yaxınlıq (oxşarlıq) ölçüsünün Səudiyyə Ərəbistanının ixracına yaxın olması meyarı əsas götürülüb. Kəmiyyət və keyfiyyət analizinin aparılması üçün ixracın həcmi, adam başına düşən ixrac, emal məhsullarının, kənd təsərrüfatı xammal və məhsullarının ixrac payları və dünya ixracına yaxınlıq (oxşarlıq) ölçüsü kimi göstəricilərdən istifadə olunub.

Səudiyyə Ərəbistanının ixrac strukturunun sənayecə inkişaf etmiş ölkənin ixrac strukturunun bərabər tutulması şərəfli olmaqla bərabər, qisa müddətli perspektivdə praktik olaraq həyata keçirilməsi çox müşkül olan bir məsələdir. Ona görə də reallığa nail olmaq üçün bizim tərəfimizdən həm ixrac və həm də iqtisadiyyatının strukturu baxımından müqayisə oluna biləcək ölkələr seçilib.Təbii ki, bu ölkələr qrupu əsasən ixracı və sənayesi xammal yönümlü ölkələrdən ibarətdir.

Seçim prosesində reytinqi Səudiyyə Ərəbistanının reytinqindən yuxarı olan sənayecə inkişaf etmiş, Norveç, Hollandiya, Avstraliya, Kanada, Çili kimi natural ölçüdə çox böyük mineral resurslar ixrac edən ölkələr istisna olmaqla, Avropa Şurasına və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına daxil ölkələr kənarlaşdırılıb. Qeyd etmək lazımdır ki, yerdə qalan ölkələrin arasinda Səudiyyə Ərəbistanına yaxınlıq (oxşarlıq) ölçüsü ən aşağı olanı 3419,81 göstərici ilə İslandiyadır. 2010-cu ildə ixracı 1 mln. ABŞ dollarından az olan Avropa ölkəsi olan Çernoqoriya analizə məruz qalmayıb. Neft İxrac edən Ölkələr Təşkilatının üzvü Ekvador tədiyə balansının saldosunun mənfiliyinə və bu təşkilatın üzvü olmaqla bərabər həm Ərəb Dövlətləri Liqası və həm də Fars Körfəzi Ərəb Dövlətləri Əməkdaşlıq Şurasına daxil olan Birləşmiş Ərəb Əmirliklərinin Ümumdünya Ticarət Təşkilatının 2010-cu il üçün hesabatindaki ixraca aid gəstəricilərinin çox böyuk xətaya malik olması səbəbindən müqayisəyə cəlb olunmayıblar. Tədqiqat nəticəsində yaxınlıq (oxşarlıq) ölçüsü 683,26-dan aşağı olan 17 ölkə seçilib.

Ən yüksək rəqabət qabliyyətlik reytinqinə Rusiya Federasiyası sonra isə Norveç və Qətər malikdir. Baxmayaraq ki, İPİİ və ÜMM-ə görə Avstraliya 2-ci yerdədir, ölkələr qrupunda reytinqinə görə 7-ci qərarlaşib. Bu onunla izah olunur ki, Avstraliyanın ixracı az diversifikasiya olunub və strukturunda dağ mədən sənayesi məhsulları nəzərə çarpacaq dərəcədə paya malikdir.Rusiya isə öz növbəsində ixrac rəqabət qabliyyətlik reytinqində 1,5039 göstərici ilə 1-cü yeri tutur. Keçid iqtisadiyyatına malik dövlət üçün bu yaxşı göstəricidir. Bu çox böyük ehtimalla dünya bazarinda mineral məhsulların qiymətlərinin artması ilə əlaqədardır. Bu fakt Rusiyanın ümumi ixracında emal sənayesi məhsullarının və kənd təsərrüfatı xammal və məhsullarının payının çox olmasıdır. Səudiyyə Ərəbistanı 18 ölkə arasında ixracın rəqabət qabliyyətlik səviyyəsinə görə 8-ci yeri tutur. İPİİ görə özündən yuxarıda yerləşən Oman (0,846; 2007-ci ilin göstəricisi), Bəhreyn (0,801), və Liviyanı (0,765) xeyli qabaqlayır. Qeyd etmək lazımdır ki, 17 ölkə arasında 8-ci yer orta göstəricidir. Əgər ixracın rəqabət qabliyyətlik səviyyəsi ən yüksək olan ölkənin göstəricisini 100% qəbul etsək, onda krallığın ixracının rəqabət qabliyyətlik səviyyəsi Rusira Federasiyasının ixracında 74,5% (1,1211/1,5039) təşkil edəcək.

Müqayisəli cədvəlin köməkliyi ilə ixracın rəqabət qabliyyətliyinin inkişaf keyfiyyəti üzrə müəyyən planka qəbul etmək olar. Məsələn, ortamüddətli perspektivdə krallığin ixrac rəqabət qabliyyətlik reytinqinə daha çox yaxın olan ölkələr (Avstraliya, Küveyt, Bruney) üçün, ilk növbədə daha rəqabət qabliyyətli məhsulların (mineral məhsullar, materiallar)

hesabına ixracın həcmi artırılmalıdır. Bunula yanaşı ixracda emal sənayesinin və kənd təsərrüfatı məhsullarının payını artırmaq lazımdır.

İnkişaf etmiş ölkələr arasında Səudiyyə Ərəbistanı ilə ixracı yaxın olan ölkə 276,49 göstərici ilə Norveçdir. Ona görə də qeyri-xammal ixracının payının artırılması üzrə oriyentir müəyyənləşdirmək olar. Ümumi ixracda kənd təsərrüfatı xammal və məhsulları 7,7%, emal sənayesi məhsullarının payı 18% olmalıdır.Uzun müddətli planda adı çəkilən göstəriciləri maksimal həddə çatdırmaq lazımdır. Kənd təsərrqfatı xammal və məhsullarının ixracda payını 20,20%-ə (Rusiya), emal sənayesı məhsullarının ixracda payını 21,80%-ə (Çili) çatdırmaq lazımdır.

**Ədəbiyyat**


1. Белякова, А.А. Геоэкономическое измерение политического положения государства на мировой арене, Вестник ЧитГУ № 3(44). – Чита, 2007.
2. Кылбаев Е.С. Интеграция Республики Казахстан в мировую систему торговли как фактор повышения его конкурентоспособности. Автореферат.
3. Розов Н.С. Геоэкономические перспективы России, Научный эксперт, Научный электронный журнал, вып.3, 2010.
4. Воронцов К.В. Алгоритмы класреризации и многомерного шкалирования. Курс лекции. МГУ, 2007.
5. www.wto.org/statistics.
6. www.informasiya/ru/tab.
7. www.unido.org.
8. www.opec.org.
9. www.unctad.org

# POLİTİK KRİZ ÜLKELERİNDE EKONOMİ VE POLİTİKA UYUMSUZLUĞU: VENEZUELA VE İRAN MUHASEBE SİSTEMLERİNİN ULUSLARARASILAŞMA DÜZEYLERİ

***Öğr. Gör. Ömer YAZAN***
*Giresun Üniversitesi, omer_yazan@hotmail.com*

## Özet

İktisadi sistemleri ve politikaları yoluyla serbest piyasa ekonomilerinden ayrılan ve/veya gelişmiş batı blokuna karşı olan Venezuela ve İran gibi ülkelerin politik eylem ve söylemleri ile ekonomik uygulamaları arasında bir çelişki bulunmakta mıdır? Yapıları ve yöntemleriyle reddedilen gelişmiş batı blokuna muhasebe sistemlerinin değişimi yoluyla yakınlaşmak politik söylemlerin ekonomik tabanda desteklenmediğini mi göstermektedir? Bu sorulara yanıt aranması amacıyla çalışmada ilgili ülkelerin muhasebe sistemleri incelenmiş, yakınsama ve uyum kavramları yoluyla bu sistemlerin uluslararasılaşma düzeyleri belirlenmeye çalışılmıştır. Bu amaçla ilgili ülkelerde Uluslararası Muhasebe-Finansal Raporlama Standartları ile ilgili düzenlemeler ve düzeyleri incelenmiştir.

**Anahtar sözcükler:** Uluslararasılaşma, yakınsama, muhasebe sistemleri, UMS-UFRS
**Jel Kodları:** M41,M48

# ECONOMY AND POLICY DISHARMONY IN POLITIC CRISIS COUNTRIES:INTERNATIONALISATION LEVELS OF VENEZUELAN AND IRANIAN ACCOUNTING SYSTEMS

## Abstract

Is there a conflict between politic discourses and economic implementations of countries as Venezuela and Iran which are against to free market economies and/or developed western block by their economic systems and policies? Is it shown that politic discourses are not supported on economic based by nearing developed western block that is refused with their structures and practices, with changing accounting systems? For the aim of searching answer of these questions,in study, it has examined these countries' accounting systems and has studied to determine this systems' internationalisation levels by concepts of convergence and harmonization. To this end, regulations and levels related with International Accounting- Financial Reporting Standarts have studied.

**Key words:** Internationalisation, convergence, accounting systems, IAS-UFRS
**Jel Codes:** M41, M48

## Giriş

Finansal raporlarda "Yakınsama" kavramı özellikle çokuluslu şirketlerin finansal tablolarının farklı ülkelerde farklı muhasebe ilke ve uygulamalarının esas alınarak hazırlanması sonucu oluşan farklı finansal sonuçların bu şirketlerin performans değerlendirmelerinin göreceli olarak zor yapılabilmesine neden olması sonucunda gündeme gelmiştir. Bahsedilen bu sorunun ortadan kaldırılabilmesi uluslararası ortak mali raporlamaların doğuşunu zorunlu kılmış böylece ulusal farklılıkların minimize edildiği, benzer finansal sonuçlara ulaştıran finansal tabloların hazırlanması ile bu raporların bir diğer farklı ulusal rapora"yakınsanması" sağlanmış olacaktır (Das vd. 2009:81).

1990'larda hemen tüm ulusları etkileyen finansal krizler, ekonomik aktivitelerin ait olduğu uluslar kadar bağlantılı oldukları diğer ulusları da etkilediği gerçeğinden yola çıkarak bu aktiviteleri ifade eden finansal bilgilerin küresel geçerliliği olan finansal raporlama standartlarından oluşan bir set ile sunularak kalitesinin yükseltilebileceği konusunu gündeme getirmiştir (Irvine,2008:126).Bu süreç 1904 yılında St. Louis'te Uluslar arası Muhasebeciler Kongresi'yle başlamış, 1973 yılında A.B.D, Kanada ,Birleşik Krallık ,Almanya, Hollanda, Fransa,Avustralya,Japonya ve Meksika'nın katılımıyla oluşturulmuş ve bugünkü ismi Uluslar arası Muhasebe Standartları Kurulu olan Uluslar arası Muhasebe Standartları Komitesi'nin çalışmaları ile ortak muhasebe ilke ve uygulamaları geliştirilmeye başlanmıştır. Uluslar arası Finansal Raporlama Standartları (Finansal raporlama çalışmaların Babil Kulesi şeklinde nitelendirilir) olarak hazırlanmış muhasebe uygulamalarına yönelik standardizasyon kuralları ise 2000'li yıllardan itibaren hayata geçirilmeye başlanmış olup 2005 yılını takiben pek çok ülkede uygulanmaya başlanmıştır. (Das vd. 2009:80-81)

UFRS, finansal tabloların uluslararası karşılaştırılabilirliğini sağlamak amacıyla geliştirilmiş olup ortak ilkeler tabanında benzer muhasebe uygulamalarının ülkeler arasında ortaklaştırılabilmesini amaçlamaktadır. Bu bakımdan UFRS, ülkeler arası entegrasyonun araçlarından biri olarak değerlendirilebilmekte, bu entegrasyonun UFRS gibi dünya genelinde "değişim" yönünde kullanılan baskı araçlarıyla sağlanacağı beklenmektedir. Bu açıdan ekonomik ve politik faktörlerin etkisiyle UFRS'nin küreselleşmenin ekonomik anlamda gücünün ve geçerliliğinin bir kanıtı olduğu söylenebilir (Irvine,2008:125-126). Bu düşünce ile, ekonomik/politik söylemleri sebebiyle A.B.D. ve Batı Avrupa ülkeleriyle kriz yaşayan Venezuela ve İran'da UFRS'ye uyum çalışmalarının, küresel ekonomik sisteme de uyum çalışmaları olarak değerlendirilebileceği ve bu doğrultuda ekonomik/politik söylemlerin UFRS gibi reel ekonomik göstergeler yoluyla desteklenmediği yaklaşımı ele alınmıştır.

## 1.Venezuela'da Politik / Ekonomik Uygulamalardaki Uyumsuzluğun Göstergesi Olarak Muhasebe Uygulamalarının Uluslararasılaşması/UFRS'ye Uyum Çalışmaları

Venezuela toplam nüfusunun %89'u Avrupa kökenli/Latin olarak nitelendirilmekte, bu nüfusun %99'u bir Avrupa dili konuşmakta ve %98'i benzer dini inanışlara sahip bulunmaktadır(Cole vd.2005:74). Bu göstergeler diğer Latin Amerika ülkeleri gibi Venezuela'da da Avrupa ve A.B.D. etkisinin sosyal gerekçelerini göstermektedir. Bu etkinin ekonomik politik uygulamalardaki düzeyi ile muhasebe uygulamalarına yönelik düzeyi hakkında bir fikir verebilmek amacıyla aşağıdaki unsurlar belirtilmiştir.

II.Dünya Savaşı öncesinde petrol endüstrisinin önemli bir kısmı yabancı yatırımlardan oluşan Venezuela 1945'te Demokratik Eylem Partisi'nin (Accion Democratica/AD) iktidara

gelmesiyle politika değişikliğine gitmiş, petrol endüstrisinin ulusallaştırılması sürecine girilerek 1 Ocak 1976 tarihinde bu süreç tamamlanmıştır. (Cole vd.2005:94).

Venezuela ekonomisinde etkili yabancı yatırımlar ile Venezuela'nın dış ülkelerdeki yatırımlarının artan oranlarının ülke sermaye piyasasını değişim ittiği ve ekonomik aktiviteleri açısından önemi düşüldüğünde (1947 yılında kurulan Caracas Menkul Kıymetler Borsası bu tür bu tarihten günümüze kadar yabancı yatırımcıların da faaliyet göstermesi açısından konuya örnek teşkil edebilir (Gonzalez ve Garay,2006:4)) dünya genelinde geçerli muhasebe standartları vasıtasıyla uluslararası anlaşılabilirliği olan bir finansal dil kullanımı söz konusu ülke için bir zorunluluk oluşturmaktadır (Krygier,1999:53).

Muhasebe uygulamalarındaki değişim süreci ile sermaye piyasalarında gözlenen değişimin eşgüdümlü olduğu düşünülebilir. Zira sermaye piyasalarının ulusal bir nitelik taşıdığı,ulusal belirleyicilerin bu piyasalarda etken olduğu dönemlerde muhasebe sistemi ülkeler arasında farklılık arz eden ve yerel ilkeler tabanında geliştirilmiş uygulamalara dayanmaktadır. Ulusal sermaye piyasalarının küresel etkilere maruz kalarak yabancı yatırımlara açılması, muhasebe uygulamalarının uluslar arası anlaşılabilirliğinin sağlanması amacıyla ortak bir finansal dil kullanımını gündeme getirmiştir. (Krygier,1999:53)

Venezuela'da politik söylemlerin aksine ekonomik çevrenin A.B.D., yasal düzenlemeler ve geleneksel kültür açısından ise Avrupa etkisi altında olduğu söylenebilir.Finansal piyasalarda gözlenen A.B.D. ağırlığı, 1940'lı yılların ortalarında kurulan ülkenin ilk muhasebe firmasının uluslar arası petrol şirketlerin işlemleri doğrultusunda faaliyet göstermesi, bu firmanın gerek denetim hizmetleri gerekse finansal tabloların hazırlanması ve sunumu işlemlerini A.B.D. modelinde gerçekleştirmesi örneğinde olduğu gibi muhasebe uygulamalarında da etkisini göstermiştir. (Krygier,1999:54)

1950'li yıllarda sanayi sektörü ve yer altı kaynakları endüstrilerinde yerli yatırımcılar ve devletin yanı sıra yabancı yatırımcılarında faaliyette bulunması, bu faaliyetlerin çoğunluğu A.B.D. kökenli uluslar arası bankalar tarafından finanse edilmesi muhasebe uygulamalarında A.B.D. etkisini artırmış, Amerikan Sertifikalı Kamu Muhasebecileri Kurumu/American Instıtuted of Certified Public Accountants (AICPA) tarafından belirlenmiş olan muhasebe ilkeleri ve denetim standartları Venezuela'da da kabul edilmiş ve uygulanmaya başlanmıştır. (Krygier,1999:54).

İzleyen yıllarda uluslar arası muhasebe kuruluşları ile etkileşimi devam eden Venezuela'da muhasebe uygulamalarının bugünkü durumun özgün bir muhasebe sistemi olduğu asla söylenemez. Zira Nisan 2004 yılında Venezuela Sertifikalı Kamu Muhasebecileri Federasyonu/Federation of Certified Public Accountants of Venezuela (FCCPV) UFRS'ye tamamen uyumlu finansal raporlamada bulunmayı ve bu doğrultuda hazırlanacak Venezuela Finansal Raporlama Standartları'nın Venezuela Genel Kabul Görmüş Muhasebe İlkeleri'nin yerini alacağını deklare etmiştir. FCCPV kamu işletmeleri ve Küçük ve Orta Büyüklükteki İşletmeler (KOBİ) hariç diğer tüm işletmelerin 31 Aralık 2008 tarihine kadar UFRS ile uyumlu finansal raporlama yapmalarını bildirmiştir. KOBİ'lerin ise 31 Aralık 2010 tarihine kadar söz konusu standartlarla uyumlu raporlama gerçekleştirmeleri istenmiştir (http://www.adoptUFRS.org). 2011 yılı ortalarında Venezuela'nın bahsedilen bu uyum sürecini tamamlayamadığı bildirilmiş olup (Nobes,2011:17), bu yavaş davranışın politik bir gerekçeyle olduğu veya isteksizlik belirtisi olduğu yönünde bir bilgiye ulaşılamamıştır.

"21.yy Sosyalizmi" ve "Bolivarcılık" söylemlerini politik ideoloji olarak sunan Hugo Chavez'in 1998 yılından bu yana devlet başkanı olduğu dönemde, A.B.D. karşıtlığı ve Küba, Kuzey Kore, İran, Belarus ve Suriye gibi Washington yönetimiyle sorun yaşayan ülkelerle kurulan sıkı ilişkiler politik yaklaşımları, komünal konseyler, toprak reformları, işçilerce yönetilen kooperatifler, ulusallaştırılan sanayi kolları ise ekonomik yaklaşımları gösterebilecek örneklerdendir. (www.bbc.co.uk/news/ world-latin-america). Bununla birlikte Latin Amerika ülkeleri arasında yükselen ekonomisiyle dikkatleri çeken Venezuela'nın "Sosyalizm" söylemleri, kapitalist ekonomik unsurların sistem içerisinde mevcut olması sebebiyle (pazar ekonomisi ve fiyat mekanizmasının işleyişi gibi) söylemden öteye gidememekte olup A.B.D. ve Batı karşıtı politik çıkışların da söylemden ibaret olduğu (gerek ihracat gerek ithalat tutarlarında A.B.D. %50'lere varan oranlara sahip bulunmaktadır(www.bbc.co.uk/news/ world-latin-america)) belirtilebilir. Bu doğrultuda Venezuela'da politik söylemlerin ekonomik tabanda desteklenmemesinin bir diğer göstergesi de muhasebe uygulamalarındaki yabancı etkisi (UFRS'ye geçiş çabaları), harmonizasyon ve yakınsama çalışmaları olarak belirtilebilir.

1940'lı yıllardan itibaren muhasebe uygulamalarında A.B.D. etkisi çok açık bir şekilde hissedilen Venezuela'da siyasal değişimin yaşandığı II.Dünya Savaşı sonrası dönemde de muhasebe uygulamalarında bu etki sürmüştür. 1998 yılından itibaren radikalleşen politik ve ekonomik söylemlere( Sosyalizm ve A.B.D. karşıtı söylemler) karşın 2000'li yılları takiben gelişmiş batı bloku (Batı Avrupa ve A.B.D.) menşeli UFRS ile uyumlu muhasebe uygulamalarına geçiş çabaları devam etmiştir. Yetkili 2 kurumun IFAC üyesi olduğu ülkede (http://www.ifac.org) politik söylemlerin en aşırı noktalarda seyrettiği zamanlarda dahi muhasebe uygulamalarında gözlenen söz konusu uyumluluk yüksek düzeydedir

**2. Iran'da Politik / Ekonomik Uygulamalardaki Uyumsuzluğun Göstergesi Olarak Muhasebe Uygulamalarının Uluslararasılaşması/UFRS'ye Uyum Çalışmaları**

İran'ın, Asya ve Yakındoğu arasında transit geçiş bölgesi olması, oldukça eski bir tarihi geçmişe sahip olması gibi nedenlerle etnik çeşitliliğin yüksek olduğu bir ülke olması İran İslam Devrimi'nin farklı bir İran panoraması oluşturabilmek için kullanması gereken bazı bütünleştirici argümanlara ihtiyaç duyması gerekliliğini düşündürmektedir. Devrimin bu konudaki seçimi dini birlik (İslam Birliği),mezhep birliği (Şiilik), Amerikan karşıtlığı ve Büyük Şeytan olarak tanımlanan A.B.D. özelinde İsrail ve gelişmiş batı blokuna karşı takınılan radikal tavır yönünde olmuştur (Karimifard,2012:241-244).

Radikalleşme ülke özelinde ele alınırsa İran, 1979 İslam Devrimi'ni takip eden dönemde politik ilişkilerin sık sık gerginleştiği bir ülke olmuştur.1980-88 İran-Irak Savaşı ve bu yıllarda konulan askeri ambargo, İran'ı ülkesini ve rejimini korumak gerekçesiyle kimyasal ve/veya nükleer silahlanma çabalarına itmiş, bu durum ise askeri ambargoları takiben ekonomik ambargoları da beraberinde getirmiştir (Yurttançıkmaz vd.,2012:188). Birbirini takip eden bir zincir örüntüsüne benzeyen söz konusu durum İran devletinin ulusal bağımsızlık ve rejiminin tehdit altında olduğu savını destekleyen gerekçelerin en önemli göstergelerinden biri olarak öne sürülmektedir.

İran tarafından deklare edilen dış politika yaklaşımları inkar, hegemonizm ve boyun eğdirme (subjugation) şeklindedir. Tam bağımsızlığın kabul ettirilmesi ve korunması ile

tehdit içermeyen ülkelerle dostane ilişkiler temel dış politika argümanları olarak sunulmaktadır. (Karimifard,2012:241-244).

İran 1979 yılından önceki dönemde muhasebe uygulamalarında Anglo-Amerikan etkisinin ağır biçimde hissedildiği bir ülkedir. İslam Devrimi'nin ardından 1980 yılında Resmi Muhasebeciler Kurumu dağıtılmış ve devlet 1980-1982 yılları arasında denetim firmaları ile Bütçe Planlama ve Ulusal Sanayi Organizasyonu kurarak bugün dahi bir çoğu özel denetim firmalarında çalışan muhasebeciler yetiştirmiştir. 1987 yılında Denetim Organizasyonu kurularak ulusal muhasebe ve denetim standartları geliştirmesi istenmiştir. Söz konusu organizasyon İran'da muhasebe ve denetime yönelik ilke ve kuralların belirlenmesinden sorumlu tutulmuştur. Hazırlanan 25 adet standart 2000-2001 dönemini takiben uygulanması zorunlu hale getirilmiş olup halihazırda bu standartların sayısı 29'a yükselmiştir (Khodadadi vd. ,2012:396)

Orta Doğu'da Bahreyn,Katar,Lübnan ve Umman gibi pek çok ülke UFRS ile ulusal standartlarını uyumlaştırma çabaları sürerken İran bu konuda daha yavaş bir değişim gösterdikleri görülmektedir. İran Menkul Kıymetler Borsası'nda listelenen firmaların İran muhasebe ilkelerine uymaları zorunlu kılınmıştır. (Das vd. 2009:81)Bununla birlikte Iran Denetim Organizasyonu tarafından hazırlanmış İran Muhasebe Standartları ile UFRS'nin uyumlaştırılabilmesi için çalışmalar sürmekle birlikte bir kısım teknik sorunlar bulunmaktadır. İran Muhasebe Standartları ile UFRS'nin yaklaşım farklılıklarının çokluğu iki standardın uyumlaştırılabilirliğini zorlaştırmaktadır. (Khodadadi vd. ,2012:396). Bununla birlikte İran Uluslar arası Finansal Muhasebe Komitesi (IFAC)'nin bir üyesi olup UFRS'yi henüz uygulamaya geçirmemiş olmakla birlikte bu standartların hazırlanmasına esas teşkil eden muhasebe ilkelerini kabul etmiştir (Razik,2009).

İran'da UFRS ile uyumlu finansal raporlamaların hazırlanabilmesi sürecinin bir politik gerekçeyle yavaşlatıldığı gösteren herhangi bir veriye ulaşılamamış olmakla birlikte 2000-2001 yılları arasında hazırlanmış ve günümüze kadar eklentilerle genişletilmiş İran Muhasebe Standartları'nın dahi tam anlamıyla yerleştirilemediği ülkede UFRS'lere geçiş işlemlerinin zaman alacağı ve çatışan ve çelişen muhasebe uygulamalarının uyumlaştırılabilmesi için çalışmaların sürdüğü ise bilinmektedir.

Ülkesine yönelik tehdit algısının müsebbibi olarak gösterilen A.B.D. ve Batı Avrupa ülkeleri önderliğinde geliştirilen ve küresel ekonomik hegemonyanın bir göstergesi olarak ele alınabilecek olan UFRS'ye uyum çabaları ve uzun vadede geçiş çalışmaları, hegemonik ekonomi uygulamalarına politik söylemlerde karşı olunduğu halde reel planda uygulamaların farklı olduğunun dolayısıyla politik söylemler ekonomik uygulamaların örtüşmediğinin bir göstergesi olarak ele alınabilir

**Sonuç**

UFRS'nin küreselleşmenin gücünün ve geçerliliğinin bir göstergesi olarak ele alındığı bir yaklaşım aynı zamanda UFRS'nin küresel ekonomik uygulamalar için hem bir "baskı aracı" hem de bu uygulamaların bir sonucu ve dolayısıyla bir göstergesi olduğu yaklaşımını düşündürmüş ve bu düşünceden yola çıkılarak siyasal ve/veya ekonomik yaklaşımları,söylemleri ile A.B.D. ve/veya Batı Avrupa ile sık sık kriz yaşayan Venezuela ve İran'da muhasebe uygulamalarının uluslararasılaşma düzeyleri UFRS özelinde incelenmiş,

küresel ekonomik bir araç olarak UFRS'ye uyum çalışmaları söz konusu ülkelerde politik/ekonomik söylem ve eylem uyumsuzluğunun bir göstergesi olarak ele alınmıştır.

Venezuela ve Iran, muhasebe uygulamalarının uluslararasılaşması sürecinde benzer finansal raporlamaların yapılabilmesine imkan tanınması amacıyla gerekli hazırlıkları yapmakta olup böylece finansal tabloların yakınsanması ve uyumunun sağlanmasını amaçladıkları ve bu amaçla UFRS'ye uyum çalışmaları yürüttükleri anlayışı, radikal politik ve ekonomik söylemlerin reel ekonomik göstergelerle desteklenmemesine UFRS'nin bir araç olarak gösterilebileceğini düşündürmüş olup söz konusu ülkeler için tespit edilen bu ekonomik/politik uyumsuzluğa dikkat çekilmeye çalışılmıştır.

**KAYNAKÇA**


Irvine,Helen: "The global institutionalization of financial reporting: "The Case of The United Arab Emirates",Accounting Forum 32 (2008) 125-142

Cole, Harold L., Ohanian,Lee E., Riasco, Alvaro,Schmitz Jr, James A.: "Latin America in The Rearview Mirror" Journal of Monetary Economics 52 (2005) 69–107

Das,Bhagaban, Shil, Nikhil Chandra, Pramanik, Alok Kumar: "Convergence of Accounting Standards:Internationalization of Accounting" International Journal of Business and Management Vol:4 No:1 2009 78-84

Krygier,Alberto (1999): "Accounting Principles in Venezuela:How International Will They Be?-Chapter 4-" "Financial Disclosure,A First Step to Financial Market Development" Editors:Kim B. Staking ve Alison Schulz, Inter-American Development Bank,IDB Booktstore NewYork

González,Maximiliano , Garay, Urbi (2006): "CEO and Director Turnover in Venezuela" IDB Working Paper No. 212.

Nobes,Christopher (2011): "International Variations inUFRS Adoption and Practice", Certified Accountants Educational Trust,London

Karimifard. Hossein (2012): "Constructivism, National Identity and Foreign Policy of the Islamic Republic of Iran" Asian Social Science Vol. 8, No. 2,239-246

Yurttançıkmaz,Ziya Çağlar, Aalı,Amin , Emsen,Ömer Selçuk (2012): "Askeri Harcamalar ve Ambargonun EkonomikBüyümeye Etkileri:İran Üzerine Bir Uygulama", Atatürk Üniversitesi İktisadi ve İdari Bilimler Dergisi, Cilt: 26, Sayı: 2, 171-190

Khodadadi,Vali , Nikbakht,Zahra, Nikbakht,Nader (2012): "Comparıng The Informatıon Content of Iranıan vs.IAS Based Operatıng Cash Flows" http://www.saycocorporativo.com/saycoUK/BIJ/journal/Vol5No2/Article_22.pdf (27.08.2012)

Abd El Razik, A. (2009) "Challenges of International Financial Reporting Standards (Ifrs) in the Islamic Accounting world, case of Middle Eastern Countries", Scientific Bulletin – Economic Sciences, vol. 8, no. 14

http://www.adoptifrs.org/uploads/Venezuela/eStandardsForumVenezuela%20Standard%20Report.pdf (06.09.2010)

http://www.ifac.org/about-ifac/organization-overview/history/founding-members (08.09.2012)

http://www.bbc.co.uk/news/world-latin-america (10.10.2012)

# REGİONLARDA MALİYYƏ İNVESTİSİYA POTENSİALİNA TƏSİR EDƏN AMİLLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

***Doktorant Elnurə QOCAYEVA***
*Azərbaycan Dövlət İqtisad Universiteti, elnura_q@mail.ru*

***Prof. Dr. Mirələm HƏSƏNLİ***
*Azərbaycan Dövlət İqtisad Universiteti*

Hazırda ölkənin uzunmüddətli iqtisadi və sosial inkişafını təmin etmək üçün investisiya siyasəti uğurla həyata keçirilir. Burada əsas vəzifə iqtisadiyyatın bütün sahələrinə investisiya qoyuluşu imkanlarının genişləndirilməsindən və investorlar üçün azad rəqabət mühitinin yaradılmasından, habelə müvafiq normativ hüquqi bazanın təkmilləşdirilməsindən ibarətdir.

Bildiyimiz kimi, Azərbaycanın əmək ehtiyatlarının çoxu və hələ istismara cəlb olunmamış təbii iqtisadi resurs potensialı, yeraltı və yerüstü böyük faydalı qazıntı ehtiyatları məhz regionlardadır. Bu ehtiyatları dəyərləndirmək baxımından gələcəkdə daxili və xarici investisiyaların cəlb edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirməklə regionların inkişafına nail olunması daha zəruridir.

Hər bir ölkənin istər beynəlxalq aləmə səmərəli inteqrasiya etməsində, istərsə də müvafiq milli iqtisadiyyatın formalaşdırılmasında maliyyə-investisiya potensialı və bu potensialdan səmərəli istifadəyə imkan verən maliyyə-investisiya siyasəti xüsusi əhəmiyyət kəsb edir.

Milli iqtisadiyyatın dünya iqtisadiyyatına qovuşmasına və hər hansı bir ölkənin vahid dünya təsərrüfatının bir subyekti kimi fəaliyyət göstərməsinə nail olmaq üçün, bir çox istiqamətlərdə, xüsusən də, regionlarda kompleks tədbirlər sisteminin həyata keçirilməsini şərtləndirir.

Maliyyə-investisiya imkanları və onların aşkar edilməsi, ictimai formasiyadan asılı olmayaraq, hər bir iqtisadi tərəqqinin əsas amillərindən biridir. Bu baxımdan da, ölkənin maliyyə-investisiya potensialının maksimum dəqiqliklə qiymətləndirilməsi, iqtisadi inkişaf modelinin və proqramının məhz bu potensiala uyğun qurulması xüsusi əhəmiyyət kəsb edir. Təbii ki, burada digər amillərin də təsiri böyükdür. Belə ki, müasir dünya, qloballaşma və inteqrasiya proseslərinin təsiri ilə formalaşır ki, bu da regionlarda istehsal və əmək alətlərinin, eləcə də maliyyə resurslarının hərəkətini daha da artırır. Ona görə də planlı - “qapalı iqtisadiyyat” şəraitində uzun müddət iqtisadiyyatı səmərəli şəkildə təşkil və idarə etmək qeyri-mümkündür. Bu baxımdan da, müasir dünya dövlətləri “açıq iqtisadiyyat” a daha sıx üstünlük verirlər.[51]

İnteqrasiya proseslərinin sürətləndiyi müasir dövrdə müstəqil inkişaf yolunu seçən hər bir ölkə qarşısına özünün milli iqtisadiyyatını formalaşdırmaq kimi çətin və məsuliyyətli bir vəzifə qoyur. Belə bir vəzifəni yerinə yetirməzdən əvvəl, təbii ki, milli iqtisadiyyatın ictimai təşkili forması, onun xarakteri və qarşısında duran əsas məqsədlərin müəyyən edilməsi çox vacibdir. Bu, həm də iqtisadi modelin seçilməsi və inkişafı üçün bu modelə daxil olan struktur

---

[51] Glen Arnold “Guide to İnvesting” England 2010

həlqələrin, onun komponentlərinin, eləcə də modelin qurulmasını, bilavasitə təsir edən amillərin elmi cəhətdən əsaslandırılmasını tələb edir.

Regionlarda maliyyə-investisiya sahəsində investisiyaların cəlb edilməsi üçün xüsusi əlverişli mühitin yaradılması mühüm əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, ölkəmizdə əlverişli investisiya iqliminin yaranmasına bir çox amillər təsir edir ki, bunlardan da ən mühümü regionlarda güzəştli vergi və rüsum ödənişləri sisteminin tətbiqi ilə bağlıdır. Digər tərəfdən isə, istər yerli, istərsə də xarici investisiyaların cəlb edilməsi və düzgün yerləşdirilməsində investisiya mühiti xüsusi rola malikdir. Müşahidələr göstərir ki, bu mühit məqsədyönlü investisiya fəaliyyətinin dövlət tənzimlənməsi üzrə tədbirlər kompleksinin təsiri altında formalaşır.

Məlumdur ki, ölkənin maliyyə-investisiya potensialının bir hissəsini də xarici mənbələr hesabına maliyyələşən investisiyalar təşkil edir. Eyni zamanda, xarici investisiyaların cəlb edilməsinin mümkün həcmi investisiya mühitinin vəziyyətindən asılıdır. Təcrübə göstərir ki, bütün bunlar müasir texnika və texnologiyaların tətbiqini stimullaşdırır ki, bu da öz növbəsində kəmiyyət və keyfiyyət irəliləyişlərinə imkan verir. İnvestisiyaların maddi və ya intellektual formada qoyulması səmərəli investisiya siyasətinin həyata keçirilməsini tələb edir.

Əlverişli investisiya iqlimi yaradılması məqsədi ilə regional layihələrdən maksimum istifadə olunmalıdır. Bu istiqamətdə tədbirlərin həyata keçirilməsi üçün, yüksək həcmdə investisiya qoyuluşları tələb edən bütün yol-nəqliyyat komplekslərinin yenidən qurulmasına, genişləndirilməsinə, bir sözlə, müasir nəqliyyat sisteminə ciddi ehtiyac vardır. Aydındır ki, bu qlobal problemi həll etmək üçün xarici investorların da cəlb olunmasını təmin etmək, bunun üçün də, xarici investorlara daha da əlverişli şərait yaratmaq çox vacibdir.

Araşdırmalar göstərir ki, ölkənin maliyyə-investisiya potensialının formalaşmasında mühüm rol oynayan investisiya iqliminə aşağıdakı amillər təsir edir.

Adətən ölkənin investisiya potensialının bir neçə əsas tərkib hissələri olur ki, bu potensial da onların təsiri ilə formalaşır. Bu tərkibə istehsal və istehlakın səviyyəsi, kadr və xammal-resurs ehtiyatları, istehlak, infrastruktur təminat, institusional baza, təhsil səviyyəsi, innovativ fəaliyyət, iqtisadi-coğrafi vəziyyət, kommunikasiya vasitələrinin vəziyyəti daxildir. Qeyd edilən parametrlər üzrə regionun investisiya potensialını təhlil edərkən aydın olur ki, əksər parametrlər investisiya cəlbediciliyi baxımından müasir tələblərə tam cavab verir. Bu istiqamətdə, bəzi çatışmazlıqların, xüsusilə sığorta sisteminin tam formalaşmaması və lazımi şəkildə inkişaf etməməsi müəyyən problemlər də yaradır. Ona görə də, sığorta sisteminin sürətli inkişaf etdirilməsi, sığorta bazarının daha da genişləndirilməsi qarşıda duran başlıca vəzifələrdən biri kimi qəbul edilməlidir.

İnvestisiya fəaliyyətini tənzimləmək məqsədi ilə qəbul edilən xüsusi normativ aktlar və ölkədə müəyyən hüquqi bazasının yaradılmasına baxmayaraq, bəzi normativ sənədlərin normal fəaliyyəti hələ də tam təmin olunmamışdır. Bu isə, öz növbəsində investisiya iqliminə mənfi təsir göstərə bilər.

Xarici investisiyaların cəlb edilməsi ilə bağlı müvafiq normativ-hüquqi bazanın formalaşdırılması, xüsusilə investorların hüquqlarının qorunması istiqamətində müəyyən addımlar atılması bu sahədə olan çətinliklərin aradan götürülməsində çox mühüm rol oynadı.

Qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrdə xarici investisiyanı müxtəlif qanunlar vasitəsilə himayə etmək müəyyən dövr üçün əlverişli olsa da, dünya miqyasında belə üsul, heç də, optimal hesab olunmur və uzunmüddətli olmur.

Aydındır ki, bu problemlərin həll edilməsində ən yaxşı qəbul edilən yol, ölkədə xarici və daxili investisiya üçün eyni, stabil şərait yaradılması hesab olunur.

İqtisadi artımın dinamikliyi, xarici iqtisadi sferanın liberallaşması dərəcəsi, inkişaf etmiş sənaye infrastrukturu, bank və telekommunikasiya sistemi, nisbətən ucuz ixtisaslı işçi qüvvəsi bazarlarının olması və s. kimi kriteriyalardan istifadə etməklə ümumilikdə investisiya iqlimini beynəlxalq standartlar üzrə qiymətləndirmək mümkün olar. Bütün istiqamətlərdə müəyyən inkişaf tendensiyası əldə edilsə də, bu parametrlər üzrə dünyanın inkişaf etmiş ölkələrdə davamlı tədbirlərin həyata keçirilməsi çox vacibdir. İqtisadiyyatın hər hansı sahəsinə investisiyaların cəlb edilməsinin səmərəliliyi bir sıra amillərlə yanaşı, eyni zamanda makroiqtisadi göstəricilərlə müəyyən olunur ki, bunlara da aşağıdakılar aiddir:

- Ölkəyə investisiya qoyuluşlarının ümumi həcmdə sahə üzrə investisiyaların xüsusi çəkisi;
- İstehsalın ümumi həcmində yeni qoyulmuş investisiyaların iştirakı ilə yaradılan müəssisələrdə buraxılan məhsulların həcmi və payı;
- İqtisadi fəal insanların ümumi sayında yeni yaradılan müəssisələrdə məşğul olanların sayı;
- İnvestisiya qoyuluşlarının təsiri ilə yaradılan yeni müəssisələrdə əmək məhsuldarlığı;
- Ölkənin ümumi ixrac və idxalında xarici investisiyalı müəssisələrdə istehsal edilən məhsulların payı;
- Yeni yaradılan müəssisələrdə istehsal edilən məhsulların ÜDM-də xüsusi çəkisi.

Qeyd olunduğu kimi, istər milli iqtisadiyyatın dinamik inkişafı, istərsə də iqtisadi təhlükəsizlik baxımından cəlb edilən investisiyaların həcmi ilə yanaşı, vəsaitlərin səmərəli yerləşdirilməsi və düzgün bölüşdürülməsi də xüsusi əhəmiyyət kəsb edir.

Əlbəttə, iqtisadiyyatın bütün istiqamətlərinin inkişaf etdirilməsi zəruridir və ayrı-ayrı sahələrin əhəmiyyətlilik dərəcəsini bir-birindən fərqləndirmək qeyri-mümkündür. Lakin, bir reallıqda mövcuddur ki, istənilən sahədə irəliləyişə nail olmaq və beləliklə də ölkənin iqtisadi təhlükəsizliyini təmin etmək üçün lazımi maliyyə-investisiya təminatı olmalıdır.

Yuxarıda qeyd olunan strateji vəzifələrin müvəffəqiyyətlə həll olunması regional idarəetmə sisteminin səmərəliliyindən xeyli asılıdır. Əvvəllər xarici investisiyaların cəlb olunması, vəsaitlərin istiqamətləndirilməsi və digər təşkilati məsələlərlə bir neçə mərkəzi icra orqanları məşğul olurdu. Bu isə potensial xarici investorlar üçün müəyyən bürokrativ əngəllər yaradırdı. Təcrübə göstərir ki, xarici investorların ölkəyə cəlb olunmasında proqressiv forma olan lizinqdən istifadənin böyük potensial imkanları vardır. Son on ildə lizinqdən istifadə geniş təşəkkül tapmış və investisiya fəaliyyətinin əsas mexanizmlərindən birinə çevrilmişdir.

İnvestisiyanın ölkə üçün səmərəliliyini artırmaq və iqtisadi təhlükəsizliyi təmin etmək üçün investisiya həlqəsi və müvafiq qaydalar sistemi yaradılmalı və elan olunmalıdır. Bütün hallarda, regionun maliyyə potensialını müəyyənləşdirməsi məqsədə uyğun olardı. Bu, həm regionun özünün maliyyə imkanlarını, həm də zəruri olan investisiya ehtiyaclarını müəyyən etməyə imkan verir. Müşahidələr göstərir ki, regionun inkişafında aparıcı olan maliyyə potensialını həm də ərazinin iqtisadi və sosial inkişafı üçün istifadə olunan pul vəsaitlərinin məcmusu kimi xarakterizə etmək olar. Region maliyyəsinin əsas inkişaf istiqaməti sosial və qismən də istehsal infrastrukturunun maliyyələşməsindən ibarətdir ki, burada da əsas mənbələri yerli büdcə vəsaitləri və yerli təsərrüfat subyektlərinin sərbəst vəsaitləri təşkil edir. Regionun maliyyə potensialının əsas tərkib hissələrindən biri də təsərrüfat subyektlərinin

vəsaitləridir ki, bu da daha çox iki mənbənin hesabına - əsas kommunal müəssisələri əhatə edən bələdiyyə mülkiyyətində olan müəssisələrin maliyyə resursları və müəssisə təşkilatların, sosial-mədəni və mənzil telekommunal obyektlərinin maliyyələşdirilməsinə yönəldilən maliyyə resursları ilə formalaşır. Eyni zamanda, regionların maliyyə potensialının formalaşmasında mühüm rol oynayan digər bir vacib istiqamət regional büdcədənkənar fondlardır ki, bunlar da region əhalisinin və müəssisələrin könüllü ayırmaları, payları, xüsusi yığmalar və s. kimi mənbələr hesabına formalaşır və bir çox hallarda məqsədli xarakter daşıyır. Regionun maliyyə potensialını əks etdirən başqa bir göstərici – ümumdaxili məhsulun region üzrə analoqu olan ümumi regional məhsuldur.

İnvestisiya qabağı mərhələlərdən hər biri öz növbəsində etaplara bölünür: xammal və köməkçi materiallar; olduğu yer, yerləşmə və avadanlıqlar; layihə sənədləri, texnologiya, istehsal proqramı, istehsal gücü, istehsal prosesinin və layihə-konstruktor həllərinin seçilməsi; idarəetmə struktur xərcləri: ümumzavod, idarəetmə və marketinq xərcləri; əmək resursları, idarəetmə heyəti,işçi qüvvəsi üçün məsrəflər, təlim xərcləri; layihənin yerinə yetirilmə qrafiki; maliyyə təhlili:investisiya, istehsal və marketinq məsrəfləri, nəğd pul axınlarının hərəkətinin hesabı və kommersiya rentabelliyinin təhlili, layihənin maliyyələşdirilməsi, risklərin qiymətləndirilməsi və iqtisadi təhlili: iqtisadi nəticələrin təyin edilməsi layihənin çərçivəsi hədlərinə uyğun olaraq.[52]

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, hər hansı bir ölkənin uzunmüddətli dövrdə dayanıqlı və tarazlı inkişafının təmin edilməsində investisiyaların cəlb edilməsi xüsusi rol oynayır.

Fikrimizcə, dövlət investisiya cəlbediciliyi sahəsində siyasətin əsas istiqamətləri aşağıdakı prioritetlərin təşkil edilməsi məqsədə uyğundur:

- investisiya axınının regionların inkişafına yönəldilməsinin stimullaşdırılması;
- regionlar arasında investisiyaların bölüşdürülməsinin optimallaşdırılması;
- investisiya fəaliyyətinin sosial istiqamətinin gücləndirilməsi,insan kapitalına, infrastruktura qoyulan investisiyaların prioritetliyi;
- daxili investisiyalarla yanaşı birbaşa xarici investisiyaların ixracyönümlü və əlavə dəyərin xüsusi çəkisi yüksək olan sahələrə yönəldilməsi;
- xidmət sahələrində birbaşa xarici investisiyaların tənzimləmə rejiminin təkmilləşdirilməsi.

Azərbaycanın investisiya cəlbediciliyinin göstəricisi, MDB ölkələri arasında ən yaxşı göstəricilərdən biridir. Belə yüksək investisiya cəlbediciliyinin bir çox səbəbləri mövcuddur, onlardan biri siyasi sabitliyin bərqərar olmasıdır. Hazırda dünya maliyyə böhranına baxmayaraq, Azərbaycanda iqtisadi artımın davam etməsi, neft gəlirlərindən məqsədəuyğun istifadə, regionların və qeyri-neft sektorunun inkişafını təmin edə bilər.

Böhrana davamlılıq özəl sektorun inkişafından da asılıdır. Ölkədə ÜDM-un 85%-i özəl sektorun hesabına formalaşır. Operativ antiböhran tədbirləri həyata keçirilib, kiçik və orta sahibkarlığın dəstəklənməsi üzrə işlər görülüb güzəştli kreditlər ayrılıb.

Qeyri-neft sektorunda müəssisələrin investisiya fəaliyyətinin dəstəklənməsi, müasir istehsal avadanlıqlarının idxalının təmin olunması zəruri hesab edilir. Bu baxımdan,

---

[52] Юджин Ф., Бригхэм, Майкл С. Эдхардт « Финансовый менеджмент »

regionlarda yeni iş yerlərinin açılması, infrastruktur obyektlərinin etibarlı istismarının təmin edilməsi, insan kapitalının inkişafı və vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi kimi prioritetlərin həyata keçirilməsi də məqsədə uyğundur.

Qeyri-neft sektorunun dinamik və tarazlı inkişafına, əhalinin iqtisadi və sosial tələbatının daha yüksək səviyyədə təmin olunmasına, regionlararası inkişaf fərqinin azaldılmasına, ixrac potensialının yüksəldilməsinə, ətraf mühitin qorunmasına yönəlmiş dövlət əhəmiyyətli investisiya layihələrinin ardıcıl və əlaqəli şəkildə reallaşdırılması məqsədi ilə hazırda "Azərbaycan Respublikasının Dövlət İnvestisiya Proqramı" həyata keçirilir.

İnsan kapitalının davamlı inkişaf etdirilməsi dövlətin qarşıya qoyduğu prioritet vəzifələrdən biridir. Ona görə də ölkə üzrə, xüsusən regionlarda təhsil, səhiyyə və sosial təminat obyektlərinin tikilməsi, bərpası, habelə, genişləndirilməsi, onların maddi-texniki təchizatının gücləndirilməsi orta müddətdə başlıca məqsəd kimi qəbul olunmuşdur və bu iş uğurla davam etdirilir.

Fikrimizcə, ixrac yönümlü iqtisadiyyatın qurulması üçün qeyri-neft sənayesinin inkişaf etdirilməsi əsas şərtdir. Bu məqsədlə sənaye infrastrukturunun səviyyəsi qeyri-neft sənayesinin ehtiyaclarını tam ödəməli və investisiyalar bu sektora istehsalın artım tempi və infrastruktur xidmətlərinə artan tələbat nəzərə alınmaqla yönəldilməlidir.

Sənaye sektorunda hökümətin əsas məqsədi respublikada rəqabətə davamlı və ixrac yönümlü, dünya standartlarına cavab verən sənaye məhsullarının istehsal olunması, sənaye kompleksində dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi, təbii sərvətlərin və əmək resurslarının səfərbər edilməsi tədbirlərini həyata keçirməklə sənayenin dayanıqlı və davamlı inkişafına nail olmaqdır.

Ölkə üzrə kənd təsərrüfatının inkişafına da xüsusi önəm vermək, bu sahəyə investisiya yönəldilməsini sürətləndirmək və səmərəliliyini artırmaq mühüm əhəmiyyət kəsb edir. Çünki, əhalisinin təxminən yarısının yaşadığı kəndlərdə istehsal texnologiyaları hələ də müasir tələblərə tam cavab vermir, suvarma və meliorasiya təminatı nisbətən zəifdir, kəndlərdə sosial xidmət, xüsusən səhiyyə sahəsində və yol, enerji kimi infrastruktur təminatı nisbətən aşağı səviyyədədir. Ona görə də regionlarda əhalinin iqtisadi və sosial problemlərinin qısa müddətdə həllini əsas vəzifə kimi qarşıya qoymaqla müvafiq sahələrə investisiya yönəldilməsini təmin etməsi vacibdir.

Qeyri-neft sektorunda özəl bölmənin inkişafına lazımi stimul yaradılması və ölkənin beynəlxalq bazarlarda rəqabət imkanlarının möhkəmləndirilməsi istiqamətində ticarət və investisiya mühitini davamlı inkişaf etdirməsi nəticəsində qeyri-neft sektoru son illərdə xeyli artmışdır.

Ölkədə geniş miqyaslı sosial-iqtisadi tədbirlərin icrası Azərbaycanın sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoymuş, iqtisadiyyata investisiya qoyuluşlarının artmasında mühüm rol oynamışdır. Bu, regionlara daxili və xarici investisiyaların sürətli axınına da öz müsbət təsirini göstərməkdə davam edir.[53]

Yuxarıda deyilənlərdən belə bir qənaətə gəlmək olar ki, cari dövr üçün regionun iqtisadi ehtiyatlarının (torpaq, əmək, kapital) istifadəsi ilə istehsal edilən mal, iş və xidmətlərin cəmi dəyəri ÜDM kimi müəyyənləşdirilir. Maliyyə - investisiya potensialının iqtisadi inkişaf

[53] H.B.Allahverdiyev, Z.T.Məmmədov "İnvestisiya proseslərinin tənzimlənməsi" Bakı-2003

baxımından araşdırılmasında bu nəticəyə gəlirik ki, iqtisadi artımın təmin edilməsi mövcud potensialdan və onun istifadə səviyyəsindən çox asılıdır. Ona görə də mövcud potensialın əvvəlcədən dəqiqliklə qiymətləndirilməsi, eləcə də bu potensialdan səmərəli istifadənin təmin olunması olduqca mühüm əhəmiyyət kəsb edir. Bütün bunlar, həm də region və ya sahə üzrə investisiya ehtiyaclarını da üzə çıxarmağa imkan verir ki, nəticədə perspektiv investisiya layihələrini daha dəqiq planlaşdırmaq mümkün olur. Bu isə, öz növbəsində uzunmüddətli dayanıqlı iqtisadi inkişafa dəstək verir və iqtisadi təhlükəsizlik baxımından da mühüm əhəmiyyət kəsb edir və mərhələlərə bölünür.

# FİZİKİ ŞƏXSLƏRİN VERGİYƏ CƏLB OLUNMASININ HÜQUQİ ƏSASLARI VƏ VERGİTUTMA PROSESİNİN İDARƏ OLUNMASI

***Diss. Ramil AĞAZADƏ***
*Azərbaycan Dövlət İqtisad Universiteti, ramilaghazada@yahoo.com*

Hal-hazırda vergilər cəmiyyətin və eləcə də iqtisadiyyatın dinamik inkişafında həlledici rol oynayır.Bazar münasibətləri şəraitində vergilər tənzimləyici bir alət kimi demək olar ki, bütün bazar subyektlərinə, o cümlədən istehsalçılara, istehlakçılara və dövlət büdcəsinə birbaşa təsir göstərir. Azərbaycanda dövlət vergi orqanlarının hüquqi vəziyyəti Vergi Məcəlləsinin III fəslində təsbit edilmişdir.

Hüquq anlayışı cəmiyyətin idarə edilməsinin bütün sahələrinə aiddir. Dövlətin vergi inzibatçılığından danışarkən vergi hüququndan danışmamaq mümkün deyil. Vergi hüququ vergi inzibatçılığının əsas obyektlərindən biri olmaqla bərabər, vergi münasibətlərini tənzimləyən qanunların məcmusu kimi də başa düşülür. Onun predmetini vergilərin müəyyən edilməsi və tutulması zamanı dövlətlə vergi ödəyiciləri arasında yaranan münasibətlər təşkil edir.Vergilərin növlərini, onların tutulması qaydasını, vergi ödəyicilərinin və vergi orqanlarının hüquq və vəzifələrini müəyyən edən qanunlar və normativ sənədlər vergi hüququnun mənbələri kimi çıxış edir. Vergi hüquq münasibətlərinin subyektləri dövlət vergi orqanları və vergi ödəyiciləri hesab edilir.

Bazar iqtisadiyyatına keçidin ən vacib şərtlərindən olan vergi münasibətlərinin tənzimlənməsi, beynəlxalq standartlara uyğun vergi sisteminin formalaşması, çevik vergi siyasətinin aparılması müasir iqtisadi strategiyanının tərkib hissəsidir. Ölkədə iqtisadi islahatlar dərinləşdikcə vergitutmanın qanunvericilik və metodoloji bazasının təkmilləşdirilməsi zərurəti də meydana çıxır. Bəzən vergi qanunvericiliyində mövcud olan bir sıra boşluqlar istər vergi ödəyicilərində, istərsə də vergi xidməti orqanlarında haqlı narazılıq doğurmaya bilməz. Adətən, normativ aktlar vergi sistemini tam şəkildə deyil, onun müxtəlif sahələrini əhatə etdiyi üçün vergi sisteminin mərkəzləşmiş formada idarə olunmasında bir sıra obyektiv çətinliklər yaranır. Həmin problemlərin aradan qaldırılması isə, ilk növbədə, bütün vergi sisteminin vahid qanunvericilik bazası əsasında tənzimlənməsi və idarə olunması zərurətini ortaya çıxarır.

"Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə Azərbaycan Respublikası Vergi Məcəlləsi təsdiq edildi və 2001-ci ilin yanvar ayının 1-dən qüvvəyə mindi. Vergi Məcəlləsinin tətbiqi böyük sayda normativ sənədlərin hazırlanmasını, habelə müvafiq təbliğat və maarifləndirmə işlərinin aparılmasını tələb edirdi. Normativ sənədlərin siyahısı "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununun və bu Qanunla təsdiq edilmiş "Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Fərmanı ilə müəyyənləşdirildi. Vergi Məcəlləsinin tətbiqi ilə əlaqədar hazırlanması zəruri olan normativ sənədlərin icrası üç mərhələdə həyata keçirildi. Birinci mərhələ normativ sənədlərin Vergilər Nazirliyinin müvafiq idarə və

şöbələrində hazırlanaraq Qanunvericilik və Metodologiya İdarəsində fəaliyyət göstərən işçi qrupuna təqdim edilməsini, ikinci mərhələ bu sənədlərin işçi qrupunda müzakirə olunmasını və ekspertizadan keçirilərək ƏlaqələndirməKomissiyasına təqdim edilməsini, üçüncü mərhələ isə onların Əlaqələndirmə Komissiyasında müzakirə edilməsini nəzərdə tuturdu.

Son vaxtlar Respublikada vergi qanunvericiliyinin bazasının təkmilləşdirilməsi sahəsində xeyli iş görüldü, vergi qanunvericiliyinin bütün aspektlərini özündə birləşdirən, dünya standartlarına cavab verən, elmi cəhətdən əsaslandırılmış və təkmil bir sənəd olan Vergi Məcəlləsi və onun tətbiqi ilə bağlı zəruri normativ-hüquqi sənədlər hazırlanmış və təsdiq edilmişdir.

Respublikamızda Vergi Məcəlləsinin qəbul edilməsi ölkədə vergitutma prosesini tənzimləyən norma və qaydaları sistemləşdirməyə imkan verdi. Vergi Məcəlləsi vergi sisteminin, vergitutmanın ümumi əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən şikayət edilməsi qaydalarını dəqiqləşdirdi.

Ölkəmizdə qəbul edilən Vergi Məcəlləsinin əsas məqsədi ədalətli, sabit vergi sisteminin bərqərar olunması, vahid vergi məkanında onun bütün elementlərinin qarşılıqlı əlaqəsinin hüquqi mexanizmlərinin yaradılması, sahibkarların və dövlətin balanslaşdırılmış maraqlarının nəzərə alınması və vahid vergi hüququ bazasının formalaşdırılması, vergi hüquq pozuntularına görə məsuliyyət sisteminin formalaşdırılmasıdır.

Vergi Məcəlləsi vergi orqanları ilə vergi ödəyiciləri arasındakı qarşılıqlı vergi münasibətlərini keyfiyyətcə yeni səviyyəyə çıxaran bütün qaydaları nəzərdə tutur.

Vergi Məcəlləsinə əsasən fiziki şəxslər fiziki şəxslərin gəlir vergisi, əlavə dəyər vergisi, aksiz, fiziki şəxslərin əmlak vergisi, fiziki şəxslərin torpaq vergisi, mədən vergisi, yol vergisi və sadələşdirilmiş verginin ödəyicisi ola bilərlər. Vergi Məcəlləsi qəbul olunub qüvvəyə mindiyi günədək bu vergi növlərinin hər biri, ayrıca bir qanunla tənzimlənirdi.

Vergi Məcəlləsi qəbul edilməmişdən əvvəlki dövrlərdə qüvvədə olan vergi münasibətlərini tənzimləyən qanunvericilik aktlarından biri kimi 24 iyun 1992-ci il 181 nömrəli "Azərbaycan Respublikasında fiziki şəxslərdən gəlir vergisi haqqında" Azərbaycan Respublikasının Qanununu göstərmək olar. Bu Qanunda ilkin olaraq gəlir vergisi üzrə vergi ödəyiciləri, vergitutma obyekti, vergi dərəcələri müəyyən edilmişdir. Qeyd olunan Qanunda rezidentlik anlayışı ayrıca göstərilməsə də rezidentliyi müəyyən edən bəzi amillər diqqət mərkəzinə çəkilmişdir.

"Azərbaycan Respublikasında fiziki şəxslərdən gəlir vergisi haqqında" Azərbaycan Respublikasının Qanununda ilk dəfə olaraq fiziki şəxslərin gəlir vergisinin dərəcələri müəyyən edilmişdir. Belə ki, bir neçə pozisiya üzrə- o cümlədən, vergitutma obyekti təqvim ili ərzindəki məcmu gəliri olan fiziki şəxslər, vergitutma obyekti mülki-hüquqi müqavilələrə əsasən iş görməkdən əldə etdikləri gəlir olan fiziki şəxslər, vergitutma obyekti aylıq gəliri olan şəxslər, müəlliflərin vərəsələrinə təkrarən ödənilən müəlliflik haqlarını alan şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan və orta aylıq gəliri minimum əmək haqqının 12 mislindən çox olmayan şəxslər üzrə müxtəlif vergi dərəcələri müəyyənləşdirilmişdir.

Əlavə dəyər vergisi üzrə vergitutma prosesi 31 dekabr 1991-ci il tarixli 42 nömrəli “Əlavə Dəyər Vergisi haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənirdi. Bu Qanunun 1-ci maddəsində ƏDV-yə aşağıdakı kimi tərif verilmişdi: Əlavə dəyər vergisi malların, işlərin, xidmətlərin istehsalı prosesində yaranan və onlar satıldıqca büdcəyə keçirilən dəyər artımının bir hissəsinin büdcəyə alınmasıformasıdır.Qanundavergininəvəzləşdirilməsi, vergidənyayınma hallarının qarşısının alınması və digər bu kimi bir çox əhəmiyyətli məsələlər tam əhatə olunmamışdır ki, bu da nəticədə külli miqdarda vergi daxilolmalarının dövlət büdcəsinə ödənilməsindən yayınmalara gətirib çıxarmışdı. Əmtəə və xidmətlərin alqı-satqısının vergi hesab-fakturaları ilə rəsmiləşdirilməsi sahəsində çox zəif nəzarətin olması həm ƏDV üzrə daxilolmaların azalmasına, həm də bir çox müəssisələrin, o cümlədən hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin gəlilərinin gizlədilməsinə, bununla da xeyli miqdarda vergidənyayınma hallarına səbəb olmuşdur. Vergi hesab-fakturaları sahəsində qanunvericilikdə mövcud olan boşluqlar “saxta vergi hesab-fakturası” probleminin yaranmasına, o cümlədən ƏDV fırıldaqçılığına yol açmış oldu.

Vergitutma sahəsində vergi nəzarəti dövlət maliyyə nəzarətinin tərkib hissəsi kimi digər nəzarət formalarından fərqlənir. Belə ki, vergi nəzarətinin obyektini müxtəlif növ vergilər və bütövlükdə vergi hüquq münasibətləri təşkil edir.

Burada vergi inzibatçılığı və onun təşkili mühüm əhəmiyyət kəsb edir. Adətən, vergi inzibatçılığı vergitutma sahəsində səlahiyyətli dövlət orqanlarının həyata keçirdiyi idarəçilik fəaliyyəti kimi başa düşülür. Vergi inzibatçılığı iqtisadiyyatı idarəetmənin bir növü olub, idarəetmə prosesinin bir mərhələsidir. Vergitutmanın idarə edilməsi vergiləri idarəetmə obyekti olmaqla yanaşı, həm də sosial-iqtisadi proseslərin tənzimlənməsi aləti kimi çıxış edir. Bu idarəetmə bir tərəfdən dövlət büdcəsinin gəlirlərinin formalaşdırılması prosesinin idarə edilməsi üzrə vergi aparatı işçilərinin məqsədyönlü fəaliyyəti, digər tərəfdən isə vergi münasibətlərinin iştirakçısı olan orqanların idarə edilməsidir. Yəni, vergi inzibatçılığı ölkədəki vergi münasibətlərinin idarə edilməsini və maliyyə-vergi aparatının idarə edilməsini özündə əks etdirir.

Vergi inzibatçılığı idarəetmə orqanları sistemi olmaqla bərabər, növbəti il üçün vergi konsepsiyasına baxılması, onun müzakirəsi və qanunvericilik qaydasında tətbiqi onun əsas vəzifəsidir. Eyni zamanda, bu orqanlar vergi proqnozlarının yerinə yetirilməsinə dair hesabat tərtib etməli, vergi fəaliyyətini və konkret vergi texnikasını reqlamentləşdirən, həmçinin vergi qanunverciliyinin pozulmasına görə məsuliyyət tədbirlərini müəyyən edən norma və qaydalarını formalaşdırmalıdır.

Vergitutma səlahiyyəti ölkə hüdudları daxilində dövlətin öz siyasi baxışlarına uyğun olaraq vergitutma sahəsində malik olduğu hüquqların məcmuu kimi səciyyələndirilir. Bu səlahiyyət dövlətin maliyyə sahəsində malik olduğu səlahiyyətlərin ən əhəmiyyətlisidir.

Bildiyimiz kimi, vergitutma səlahiyyəti dövlətin yalnız öz gəlirləri ilə əlaqədardır. Çünki, dövlətin səlahiyyəti ictimai məsrəfləri təmin etmək üçün fiziki və hüquqi şəxslər üzərinə qoyduğu bütün növ maliyyə mükəlləfiyyətləri ilə əlaqədar səlahiyyətləri əhatə edir. Eyni zamanda, buraya dövlətin vergi tutmaq səlahiyyəti ilə yanaşı rüsum və yığımlar, sosial fondlar və s. qoyulması ilə əlaqədar səlahiyyətləri də aid edilir. Vergitutma səlahiyyəti dövlətin bilavasitə özü tərəfindən istifadə edilir. Bu sahədəki səlahiyyətlər vergitutma prosesinə uyğun olaraq da qruplaşdırıla bilər. İlk növbədə vergi tutma, vergi güzəşt və

imtiyazlarını müəyyən etmək, dəyişdirmək və ləğv etmək səlahiyyəti adətən qanunverici orqanın səlahiyyətinə aiddir. Lakin, konstitusiyada nəzərdə tutulmuşdursa həmin səlahiyyətləri icra orqanı da yerinə yetirə bilər.Çünki,vergilərin tutulması və idarə olunması səlahiyyətləri də konstitusiya ilə müəyyən edilir.

Bütün vergi orqanları səviyyələrinin vahid vəzifəsi və məqsədi vergi qanunvericiliyinə əməl olunması üzərində nəzarət olduğu üçün onların hamısı üçün ümumi funksiyalar müəyyən edilir. Buraya vergi ödəyicilərinin uçotu, vergi hüquq münasibətlərinin iştirakçıları tərəfindən qanunvericiliyə əməl olunması üzərində nəzarət, vergi ödəyicisi tərəfindən büdcəyə ödənilməli olan vergilərin məbləğinin müəyyən edilməsi, vergi məbləğinin mühasibat uçotunu aparmaq, vergi qanunvericiliyinin tətbiqi qaydaları haqqında vergi ödəyicilərini məlumatlandırmaq, vergi qanunvericiliyini pozan şəxslərə qarşı məsuliyyət tədbirləri həyata keçirmək aiddir.

Təcrübə göstərir ki, vergitutmanın bütün prinspilərinin lazımi səviyyədə təmin olunmasında Vergi Məcəlləsinin rolu böyükdür. İnkişaf etmiş ölkələrdə vergi siyasətiində əsas vəzifələrin reallaşdırılma aləti kimi Vergi Məcəlləsinə xüsusi əhəmiyyət verilir. Vergitutmaya aid olan bütün qanunların vahid bir qanunlar toplusunda - Vergi Məcəlləsində cəmlənməsi Birləşmiş Millətlər Təşkilatı və onun ixtisaslaşdırılmış müxtəlif qurumları tərəfindən də tövsiyyə olunur.

Vergi sistemini təkmilləşdirmək, vergilərin legitimliyinin əsas məsələlərini tənzimləmək, vergi hüququnun başlıca problemlərinin həllinə kompleks yanaşmanı təmin etmək üçün sistemləşdirilmiş qanunvericilik aktının olması vacibdir.

Vergi Məcəlləsində qanunvericilik toplusu kimi hüquqi normalarla kompleks yanaşmanı təmin etməklə yanaşı, xərclərin, amortizasiya ayırmalarının hesablanmasında gələcək dövrün xərclərinin uçotunun, kreditə görə faizin hesablanmasının yeni qaydaları müəyyən edilmişdir. Vergi yükünün müxtəlif variantlarını qiymətləndirmək üçün Vergi Məcəlləsi ilə yanaşı xərclərin tərkibi haqqında qanunun qəbul edilməsi zəruridir.

Adətən, dövlət quruculuğunun inkişafı və formalaşmasının dəyişməsi həmişə vergi sisteminin yeniləşməsi ilə eyni bir vaxda baş verir.

Vergi sistemi ilə Vergi Məcəlləsi arasında əlaqə mövcuddur. Vergi Məcəlləsi vergi sistemini təkmilləşdirmək, vergilərin legitimliyinin əsas məsələlərini tənzimləmək və vergi hüququnun ən başlıca məsələlərinin həllinə kompleks yanaşmanı təmin etmək üçün sistemləşdirilmiş qanunvericilik aktıdır. Başqa sözlə, vergi sistemi ümumilikdə qüvvədə olan vergi məcəlləsi ilə müəyyən edilir və vergilərin növlərini, prinsiplərini, onların tətbiq edilmə üsullarını, dərəcələrini, vergi nəzarətinin həyata keçirilməsini və eləcə də vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti müəyyən edir. Müasir vergi sisteminin mahiyyətini və məzmununu daha dərindən öyrənmək məqsədi ilə vergi sisteminin təşkili prisiplərini, vəzifələrini, formalaşmasının xarakterik xüsusiyyətlərini və sistemi təşkil edən ayrı-ayrı vergi növlərinin təsnifləşdirilməsini tədqiq etmək mühüm əhəmiyyət kəsb edir.

Vergi sistemi sosial-iqtisadi inkişaf perspektivləri nəzərə alınmaqla iqtisadiyyatın idarə olunmasının bazar metodunun tələblərinə əsaslanmalıdır. Vergi sistemi fiskal funksiya vasitəsilə dövlətin büdcə gəlirlərinin yığılmasını təmin etməklə yanaşı, vətəndaşların gəlirlərinin formalaşması və yenidən bölgüsü xüsusiyyətləri nəzərə alınmaqla bütövlükdə və ayrı-ayrı təsərrüfat sahələrində ictimai istehsalın və məcmu istehlakın tənzimlənməsi üçün imkan yaradır.

Müasir şəraitdə Respublikamızın vergi sisteminin təşkilinin əsas prinsiplərinə uyğun olaraq hər bir hüquqi və fiziki şəxs mövcud qanunvericiliyə əsasən əldə etdiyi gəlirdən vergi ödəməlidir.

Müasir vergi sistemi həm klassik fikirlərə və həm də beynəlxalq təcrübəyə əcaslanmalıdır. Vergi sisteminin təşkilinin prinsipləri isə heç bir dini və milli ayrı seçkiliyə yol vermədən vahid iqtisadi siyasətə əsaslanır. Bəzi inkişaf etmiş ölkələrdə vergitutma prosesinə və əmək haqqının hesablanmasında milli və etnik-dini baxımdan ayrı-seçkiliyə yol verilir (Almaniya və Avstriya).

Vergi sistemində cəmiyyətin iqtisadi və siyasi inkişafının spesifik xüsusiyyətləri əks olunmalıdır. Bu xüsusiyyətləri real vergi mexanizmi özündə əks etdirə bilər. Müasir vergiqoyma mexanizmi formalaşdırılarkən aşağıdakı məsələləri nəzərə almaq lazımdır:

- vergiləri hansı nisbətdə tutulmalıdır;
- vergitutmanın, vergi öhdəliklərinin yaranması üçün əsas hesab edilən istehsal və qeyri-istehsalın bazis göstəriciləri necə olmalıdır;
- hər bir bazis göstəricisindən hansı məbləğdə vergi tutulmalıdır.

Ayrı-ayrı vergi növlərinin üstünlük təşkil etməsindən asılı olaraq vergiyə cəlb olunmanın xüsusiyyətləri müəyyənləşdirilir. Vergi növünün elmi cəhətdən əsaslandırılması və ictimai həyata daxil edilməsi, vergilərin toplanmasının şərtlərinin müəyyənləşdirilməsi, vergi qanunvericiliyinin pozulması zamanı vergi məsuliyyətinin təyin edilməsi vergi sisteminin səmərəliliyini qiymətləndirməyə imkan yaradır.

**Ədəbiyyat siyahısı**


1. AzərbaycanRespublikasınınVergi Məcəlləsi. Bakı, 2011
2. AzərbaycanRespublikasınınVergilər Nazirliyi haqqında Əsasnamə. 2001.
3. Musayev A.F., Kəlbiyev Y.A., Hüseynov A.A. Azərbaycan Respublikasının vergi xidməti: islahatlarvənəticələr. Bakı, 2002.
4. Məmmədov F.Ə., Musayev A.F., Sadıqov M.M., Rzayev Z.H., Kəlbiyev Y.A. Vergitutmanın nəzəri və metodoloji əsasları (dərslik). Bakı, 2001.
5. Məmmədov F.Ə., Musayev A.F., Sadıqov M.M., Rzayev Z.H. Vergilər və vergitutma. Bakı, 2010.
6. Заяц Н.Е. Теория налогов. Минск , 2003.
7. Соколов А.А. Теория налогов. Москва, 2003.
8. Юткина Т.Ф. Налоги и налогообложение – Москва, «Инфра-М», 2002.
9. www. taxes. gov.az.

# MÜASİR QLOBALLAŞMADA MODERNLƏŞMƏ FAKTORU: TARİX VƏ REALLIQLAR

***Tanrıverdi PAŞA***
*AMEA İqtisadiyyat İnstitutu, tpasha_50@mail.ru*

**Xülasə**

Məruzədə müasir qloballaşma şəraitində modernləşmənin məqsədi kimi iqtisadi sistemin təkmilləşdirilməsi zərurəti əsaslandırılır, modernləşdirmə qarşısında duran vəzifələrin həllinə nail olunması, yeni iqtisadi inkişaf modelinin formalaşması üçün ölkənin bütün resurslarının səfərbər olunması şərtləri göstərilir. Tarixi rakursda sovet iqtisadi sisteminin modernləşməsi cəhdləri və onun uğursuzluqlarının səbəbləri açıqlanır, Azərbaycanın müstəqillikdən sonrakı modernləşmə mərhələləri şərh olunur, ölkədə həyata keçirilən yeni modernləşmə xəttinin konturları müəyyən edilir.

**Açar sözlər:** qloballaşma, modernləşmə, iqtisadi sistem, iqtisadi inkişaf modeli, yeni modernləşmə xətti

**The modernization factor of modern globalization: history and reality**

In the report it is showed necessity of improvement of economic system in the globalization constitutions, the ones of achievement of modernization and mobilization of all resources of country to form new economic model of development. It is described stages of modernization of Azerbaijan after achievement of independence.

**Keywords:** globalization, modernization, economic system, new economic model, described stages of modernization

## 1. Modernləşmə iqtisadi sistemin təkmilləşdirilmə üsulu kimi

İqtisadi və sosial tərəqqi tarixin istənilən dövrü və ya şəraitində bütün ölkələr və xalqlar üçün avtomatik olaraq baş verməli bir hadisə deyildir. Tarix daima inkişafda durğunluq və tənəzzüllə müşayiət olunur. Dünyanın hətta qabaqcıl və dinamik inkişaf etmiş ölkələri də vaxtaşırı olaraq özünün gələcək inkişafını keçmiş iqtisadi, sosial və siyasi mexanizmlər əsasında həyata keçirməyin mümkünsüzlüyü problemi ilə üzləşirlər. Məhz belə şəraitdə modernləşmə zərurəti meydana çıxır.[*Альтернативы модернизации российской экономики. – М., 1997:448-5*]

*Modern* sözü yunanca (moderne) ən yeni deməkdir və müasir iqtisadi ədəbiyyatda müəyyən obyektin müasir, yeni tələblərə və normalara, mexaniki şərtlərə, keyfiyyət göstəricilərinə uyğun təkmilləşdirilməsi, yaxşılaşdırılması, yeniləşdirilməsi kimi şərh olunur.[ *Большой экономический словарь. Автор и составитель А.Б.Борисов. Изд. 2-е. М., «Книжный мир», 2007: 895-403*] *Modernləşmə –* geniş mənada, müxtəlif təkmilləşdirmələr tətbiq etmək yolu ilə müasir tələblərə uyğun mütərəqqi irəliləyişlərə, dəyişikliklərə nail olmaqdır. Əsasən, makrosəviyyədə baş verən (məsələn, iqtisadiyyatın modernləşdirilməsi, iqtisadiyyatın strukturunun modernləşdirilməsi) hadisə və proseslərin xarakteristikasında

tətbiq olunur.[*Румянцева Е.Е. Новая экономическая энциклопедия. Второе издание. Москва, ИНФРА-М, 2006: 810-366*]

Modernləşmə təkcə məqsəd deyil, həmçinin yeni iqtisadi inkişaf modelinin formalaşmasında əsas vasitədir. Modernləşmə uzunmüddətli iqtisadi inkişaf yaradılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsində, iqtisadiyyatda səmərəlilik və rəqabətqabiliyyətliliyin təmin edilməsində və ölkənin iqtisadi və siyasi təhlükəsizliyinin qorunması problemlərinin həllinə kömək edəcək bir prosesdir. Bütün sivilzasiyalarda olduğu kimi Azərbaycanın da milli maraqları ölkənin bütün vətəndaşlarına layiqli həyat şəraitinin təmin olunması və gələcək nəsillərin həyat şəraitinin yaxşılaşdırılması üçün indidən zəmin yaradılmasını əhatə etməlidir.

İqtisadiyyatda səmərəlilik və modernləşmənin məqsədi eyni olsa da, modernləşmə daha geniş aspekti əhatə edir. Dünyada onlarla ölkə mövcuddur ki, yüksək ənənəvi ixrac sahələrinin inkişafı hesabına yüksək mənfəətlilik təmin edilir. Ancaq iqtisadiyyatın strukturunda 10 illərlə bir dəyişiklik edilmir, investisiya qoyuluşu artmır, mənfəətliyin həcmi daxili və xarici proseslərin təsiri ilə tez bir zamanda dəyişə bilir, əldə olunan vəsaitlər əhəmiyyətsiz layihələrə sərf edilir. Ona görə də səmərəli iqtisadiyyatı formalaşdırmaq vacib olsa da, ancaq modernləşmə olmadan cəmiyyətdə stabil inkişafa nail olmaq mümkün deyildir. Modernləşmə bütün sahələrdə kompleks həyata keçirilməlidir. O, nəinki iqtisadiyyatın ayrı-ayrı sahələrində, hətta ayrıca iqtisadiyyatda aparıla bilməz, o cəmiyyətin bütün sahələrini – iqtisadiyyat, siyasət və sosial sferada eyni vaxtda aparılmalıdır.

Dünya tarixində qərb sivilizasiyasının, xüsusən onların ən aparıcı, lider ölkələrinin bugünkü vəziyyəti və əldə etdiyi nailiyyətlər – sosial-iqtisadi tərəqqinin də inkişaf istiqamətlərini və oriyentirlərini müəyyən etməkdədir. Təbii ki, inkişaf etmiş ölkələrin özləri üçün də modernləşmə kriterisi kimi bazar iqtisadi sisteminin potensialından maksimal istifadə imkanları çıxış edir. Buna görə də modernləşmə dedikdə, sənaye inqilabı və industrial inkişaf mərhələsinə keçid üçün iqtisadi zəminlərin hazırlanması və ya yetişməsi başa düşülür. Bu halda, modernləşmə – həmin tarixi dövr üçün ən qabaqcıl sənaye texnologiyalarının, iqtisadi forma və mexanizmlərin mənimsənilməsi, həmçinin onlara uyğun sosial-siyasi və mədəni institutların formalaşması və s. proseslərdə təzahür edir.

Lakin sözün geniş mənasında modernləşməni cəmiyyətin sürətlə özünütəkmilləşdirmə qabiliyyəti kimi də qəbul etmək olar və bu zaman belə təkmilləşmənin qərb sivilizasiyası meyarlarına uyğun olub-olmaması o qədər də əhəmiyyətli deyildir. Məsələnin belə abstrakt qoyuluşu ehtimal müstəvisindən gerçəkliyə də çevrilə bilər, belə ki, qərb-burjua sivilizasiyasının mütərəqqi imkanları yaxın gələcəkdə, hətta indinin özündə də tükənə bilər və bunu 2008-ci ilin aprelindən dünyanın əksər ölkələrini, o cümlədən aparıcı, nəhəng ölkələrini sarsıdan maliyyə böhranı da əyani göstərir.

Onu da qeyd etmək lazımdır ki, iqtisadi sistemin yetkinlik səviyyəsinə, iqtisadi və texnoloji potensialına görə xeyli qabaqda olan ölkələrlə bütün kriterilərinə görə geridə qalan ölkələr üçün modernləşmə problemi müxtəlif dərəcədə qarşıya çıxır. Modernləşmə bir qayda olaraq, ölkə qeyri-adi, fövqəladə bir şəraitə düşdükdə, öncül ölkələrin inkişaf səviyyəsindən gerilik böyük fərqlə ortaya çıxdıqda, təcili tədbirlər həyata keçirilməsini tələb edən ekstraordinar siyasət kimi ortaya çıxır.

Bəs bu və ya digər ölkədə tənəzzül və ya durğunluqdan qurtulmaq, inkişafın ətalətli xarakterini aradan qaldırmaq və modernləşmə sıçrayışına nail olmaq üçün nədən başlamaq

lazımdır? Əvvəlcədən qeyd etmək lazımdır ki, belə sıçrayış üçün iqtisadi sistemin dəyişilməsi, bir istehsal üsulundan daha mütərəqqi istehsal üsuluna keçid daha əhəmiyyətlidir. Lakin belə keçid, cəmiyyətin iqtisadi və sosial tərəqqisinə kifayət qədər əhəmiyyətli stimullaşdırıcı təsir göstərsə də, nəticə etibarilə daha inkişaf etmiş ölkələrin səviyyəsinə yaxınlaşmağa gətirib çıxarmır. Eyni zamanda, modernləşmə sıçrayışı istehsal üsulu əvəz edilmədən də baş verə bilər.

Modernləşməyə dair dünya təcrübəsi nümunələri istənilən halda, az və ya çox dərəcədə mövcud iqtisadi sistemdə dərin dəyişikliklər edilməsi zərurətini göstərir. Buna görə də bu amili qiymətləndirməmək olmaz. Azərbaycan reallığında həmin amil nəzərə alınsa da, göründüyü kimi bu, hələlik kifayət deyildir.

Bu gün dünya ölkələrinin, xüsusən, MDB-nin timsalında modernləşdirmə xətti üzrə təcrübə və nəticələr göz qabağındadır. Həmin təcrübə bir daha göstərir ki, modernləşdirmə qarşısında duran vəzifələrin həllinə ancaq ölkənin bütün resurslarının səfərbər olunması şərti ilə nail olmaq olar. Bundan ötrü ölkədə aşağıdakı şərtlərin mövcudluğu zəruridir:

1) modernləşmə strategiyasını uzun müddət ərzində şüurlu surətdə özünün başlıca marağına çevirməyə hazır olan, cəmiyyətin fəal hissəsinin birliyi;

2) strateji düşünən və sosial cəhətdən məsuliyyət daşıyan elitanın mövcudluğu.

Bu şərtlərin reallaşması üçün istər geniş əhali kütləsi, istərsə də elita üçün ona müvafiq sosial, siyasi, ideoloji və mədəni səfərbərlik mexanizmləri təşəkkül tapmalıdır.

Hazırda hamı tərəfindən qəbul edilən belə bir fikir var ki, guya Sovet planlı iqtisadiyyatı ancaq hərbi sahədə uğurlara malik idi. Bu iqtisadi sistem bazar sistemi ilə müqayisədə texniki tərəqqini mənimsəmək qabiliyyətinə malik deyildi. Lakin sovet dövrünün iqtisadi inkişaf tarixinə diqqət yetirdikdə sintetik kauçuk, radiolokasiya, penisillin, televizor, reaktiv aviasiya, atom elektrik stansiyası, atom mühərrikli mülki gəmilər, kompüter, lazer qurğuları və s. istehsalı müstəqil surətdə mənimsənilmiş, onların bəziləri inkişaf etmiş kapitalist ölkələrindən əvvəl baş vermişdi.

Bu gün də çətin izah olunur ki, Sovet ittifaqı 1920-ci illərin əvvəllərində tam iflasa uğramış, dağıdılmış iqtisadi bazanın əsasında (1913-cü ilə nisbətən sənaye istehsalı 5 dəfə aşağı düşmüşdü) iqtisadiyyatın və cəmiyyətin moderinləşmə sıçrayışına necə nail ola bilmişdi. Çar Rusiyası isə iqtisadiyyatın bəzi sahələrində (məsələn, dəmir yolu nəqliyyatında) çox əhəmiyyətli inkişafına baxmayaraq, belə bir şansdan məhrum olmuşdu. Bunun özünü də təkcə bolşevik rejiminin günahlarına və cinayətlərinə yazmaq düzgün deyildir.

Yəqin ki, bu gün az iqtisadçı tapılar ki, sovet iqtisadi sistemini kapitalist bazar sistemindən mükəmməl və səmərəli hesab etsin. Lakin burada söhbət iqtisadi sistemin özünün ümumiyyətlə səmərəliliyindən yox, onun modernləşmə vəzifələrini həll etmək üçün mövcud resursları nə dərəcədə səmərəli səfərbəretmə qabiliyyətindən gedir. Tarixi inkişafın müəyyən dövrlərində, məsələn, ilkin sənayeləşmə mərhələsində (keçən əsrin 20-30-cu illərində SSRİ-də və sonralar digər sosialist düşərgəsi ölkələrində) planlı sosialist iqtisadiyyatı resursları səfərbəretmə qabiliyyətinə görə özünü bazar sistemindən üstün göstərə bilər. Bunun əsas səbəbini həmin ölkələrdə iqtisadiyyata dövlət müdaxiləsinin çox yüksək həddə olmasında görmək lazımdır. Həmin dövrdə dövlət müdaxiləsinin köməyi ilə modernləşmə istiqamətində əhəmiyyətli işlər görülsə də, modernləşmənin bütün kriteriləri baxımından yarımçıq və ya başa çatdırılmamış işlər hələ çox idi.

Doğrudan da, Rusiyada 1917-ci il inqilabından sonra formalaşan sovet elitası ölkədə başlamış olan sənayeləşməni həyata keçirmək və SSRİ-ni ən inkişaf etmiş kapitalist ölkələrinin səviyyəsinə çatdırmaq üçün dəqiq strategiyaya malik idi. Bundan başqa, sovet elitası (bürokratik elita) cəmiyyətdə tutduğu aparıcı mövqeyinə görə də sənayeləşməni başa çatdırmaqda kifayət qədər maraqlı idi. Bu elitanın bütün nümayəndələri – «qırmızı direktorlar»dan başlamış hakim partiyanın və hökumətin rəhbərlərinə qədər, ölkənin modernləşməsi üzrə hər hansı uğurlu addımı onların cəmiyyətdəki xüsusi statuslarının və nüfuzlarının da yüksəlməsi və möhkəmlənməsinə xidmət edirdi. Bütün bunlar, eyni dərəcədə təsərrüfat, hərbi partiya və inzibati elitaya aid idi. Sovet elitası işdə özünün çox yüksək sosial məsuliyyətini nümayiş etdirirdi.

Modernləşmənin kütləvi subyekti olan – əhalinin böyük əksəriyyətinin qoşulmadığı və ya müdafiə etmədiyi, onların sosial səfərbərlik mexanizmlərinin işə salınmadığı bir şəraitdə modernləşmə layihəsi uğurlu nəticələr verə bilməzdi. Bolşevizm tənqidçiləri bir qayda olaraq, iqtisadi siyasəti əsasən zorakı metodlarla aparan Stalin rejiminin repressiv mahiyyətinə diqqəti yönəldirlər və modernləşmənin uğurlu nəticələrini də daha çox bununla bağlayırlar. Lakin əslində, repressiv Stalin rejimi modernləşmənin daha geniş spektrlərinin həyata keçirilməsinə, həmçinin SSRİ-nin daha yüksək templərlə inkişafına mane olmuşdu.[*Колганов А.И. Путь к социализму: трагедия и подвиг. – М., 1990: 162 -80-89, 97-99, 108-126*]

Qeyd etmək lazımdır ki, repressiyalar avantürist zorakı metodlar iqtisadi siyasətdə ancaq müvəqqəti və keçici effekt verə bilərdi. Qısa müddətdə modernləşmə strategiyası sovet sistemində hakim olan *eqalitarizm* ideologiyası və siyasəti və sosial yaradıcılığın inkişafı ilə sıx surətdə bağlı idi.

Sosial yaradıcılıq fenomeni – iqtisadi və ictimai həyatın təşkilini yeni formalarının bilavasitə zəhmətkeşlərin özləri tərəfindən yaradılması demək olmasa da, onların birbaşa iştirakını nəzərdə tutur. O, işçilərin müəssisədə uçot və nəzarətdə idarəetmədə, yarışmada iştirakından tutmuş Stalin kollektivləşməsinin məhvinə qədər uğurla fəaliyyət göstərən kooperativ və icmaların yaradılmasınadək bir sıra sosial prosesləri və münasibətləri özündə birləşdirən «entuziazm» anlayışında ifadə olunur.

Eqalitarizm - cəmiyyətə bəyan edilən və praktikada əksərən həyata keçirilən elə bir ideya idi ki, guya, SSRİ-də modernləşmə uğrunda mübarizə hər bir vətəndaşa öz qabiliyyətini ifadə etmək və reallaşdırmaq üçün bərabər imkanlar açır. Burada, eyni zamanda fərdi səylərin uğurla nəticələnməsi üçün həmrəylik, kollektivizm, qarşılıqlı yardım kimi dəyərlər ön plana çıxırdı. Bu dəyərlər təkcə təbliğat ünsürü deyil, Sovet cəmiyyətinin müxtəlif ictimai biliklərin və digər sosial institutların fəaliyyətində təzahür edirdi. Təəssüf ki, azad kollektivçilik prinsipi ən ümdə deyildi, bürokratik diktat tədricən tam hakim kəsilirdi və artıq 30-cu illərin ortalarına insanların azad könüllü əməkdaşlığı sırf dekorasiyaya çevrilmişdi, arxada hər şeyi bürokratik aparat həll edirdi.

Belə ziddiyyətli vəziyyət - sovet cəmiyyətində zəhmətkeşlərin öz mənafeləri üçün birgə mübarizə aparma ənənələrinin (həmkarlar ittifaqlarının və s.) yoxluğu, əhalinin böyük əksəriyyətinin sosial-mədəni səviyyəsinin çox aşağı səviyyəsi, bürokratiyanın tam hakim mövqeyi, hər cür sosial sərbəstliyin qəddarcasına boğulması və s. irəli gəlirdi.

Bütün bu çatışmazlıqlara baxmayaraq, «çatma sənayeləşməsi» SSRİ-də əhalinin sosial mobilliyinin kifayət qədər yüksək səviyyəsini, o cümlədən onların yeni sosial elitaya daxilolma imkanlarının genişlənməsini təmin edirdi. Kəndlilərin kütləvi surətdə sənaye

fəhlələrinə çevrilməsi və ölkədə urbanizasiya prosesinin inkişafı ilə yanaşı, fəhlə və kəndlilərin ali təhsil almalarına hər cür şərait yaratmaqla, onlardan mütəxəssis-kadrların hazırlanması da baş tuturdu. Ali təhsil almaqla yanaşı, onlara siyasi karyera imkanları da yaradılması, sovet cəmiyyətində şaquli *sosial mobilliyin* əsas kanallarından biri idi.

Sosial mobillik mexanizmlərinin sosial-mədəni və ideoloji aspektlərinə nəzər yetirdikdə, sosial mənafeləri səfərbər edən əsas motiv kimi nə istehlak səviyyəsi, nə də karyera çıxış edirdi. «Vətən naminə nümunəvi və vicdanlı çalışmaq» kimi dəyərlər və şərəf-ləyaqət haqqında ilk baxışda bayağı görünən şüar, real həyatda - istər istehsalatda, istər elm və incəsənətdə, səhiyyədə və ya böyüyən nəslin tərbiyə olunmasında yeni texniki və sosial nəticələrə, istənilən yaradıcılıqda əldə olunan nailiyyətlərə ən yüksək sosial qiymət verilməsində təzahür edirdi.

İnsanların ən müxtəlif yaradıcılıq qabiliyyətlərinin reallaşması və genişlənməsi üçün asudə vaxtdan istifadə imkanlarının artırılmasına xüsusi diqqət verilirdi. Ali təhsilin nüfuzu və inkişaf tempi kifayət qədər yüksək idi. Qeyd etmək lazımdır ki, bütün bu ünsürlər təkcə industrial cəmiyyətlər üçün deyil, postindustrial cəmiyyətlərə üçün də xarakterikdir.

Əslində, istehlak səviyyəsinin artımı da yaddan çıxmamışdı, ona birinci dərəcəli əhəmiyyət verilməsə də, sosialist eqalitar ideologiyası əhalinin fərdi və kollektiv sosial təminatları sistemində istehlak ehtiyaclarının təmin olunmasına kifayət qədər yüksək diqqət ayırırdı. Hətta keçən əsrin 20-ci illərində SSRİ-də təşəkkül tapan sosial təminat sistemi bəzi parametrlərinə görə Qərbin inkişaf etmiş ölkələrini də qabaqlayırdı. Burada, ilk növbədə, əhalinin bütün təbəqələri üçün tibbi sığorta, işsizliyə görə sığorta, pulsuz ali təhsili və s. qeyd etmək lazımdır. 20-ci ilin sonuna əhalinin demək olar ki, əksəriyyətinin iştirak etdiyi istehlak kooperasiyası vasitəsilə yaradılan bölgü sistemi, geniş yayılan kredit, mənzil-tikinti və mənzil-icarə və digər kooperasiya formaları da az əhəmiyyətli rol oynamamışdı.

Eqalitarizmin digər nümunəsi kimi sovet elitasının öz gəlirlərini məhdudlaşdırmasını göstərmək olar. Məsələn, 20-ci ilin sonlarına qədər partiya üzvlərinin gəlirlərinin yuxarı həddi kimi «partmaksimum» prinsipi fəaliyyət göstərirdi. Daima artmaqda olan bürokratik imtiyazların mövcudluğuna baxmayaraq, uzun müddət ərzində əhalinin əsas kütləsinin istehlak səviyyəsi ilə aşağı və orta bürokratik təbəqənin istehlak səviyyəsi arasında çox da böyük fərqlər yox idi. Bundan başqa, SSRİ-də intensiv şaquli sosial mobilliyin mövcudluğu təkcə sosial pillələrdə sürətlə yüksəltmək imkanı ilə deyil, həm də belə templə aşağı yuvarlanmaq imkanı ilə şərtlənirdi. Bürokratiyanın qapalı irsi kastaya çevrilməsi, əslində sovet tarixinin sonrakı tarixində baş vermişdi.

Lakin inkişafın istər industrial, istərsə də postindustrial cəmiyyət üçün xarakterik olan yeni istiqamətlərinin və dəyərlərin formalaşmasının uzunmüddətli strategiyası kifayət qədər möhkəmlənə bilməzdi. Bu strategiya 50-60-cı illərdə də müəyyən rol oynasa da, mövcud dəyərlərin eroziyası labüd idi. Əsasən, ilkin industrial tipli əməklə məşğul olan əhaliyə, daha yüksək dəyərlər sistemi qəbul etdirmək çətin məsələ idi. Bu, həm də onunla mürəkkəbləşirdi ki, artıq SSRİ əhalinin istehlak səviyyəsinə görə dünyanın inkişaf etmiş ölkələrindən xeyli geridə qalırdı, digər sahələrdə fərqlər müəyyən qədər azalsa da, məhz istehlak səviyyəsindəki fərqlər açıq-aşkar görünürdü.

*İndustrial cəmiyyət* üçün *«çatma modernləşməsi»nin* uğurlarını təmin edən amirlik iqtisadi münasibətlər sistemi sonralar labüd olaraq «defisit iqtisadiyyatını» yaratdı. Burada, istehlak nə qədər yüksəlirdisə, yüksək keyfiyyətli istehlak mallarının qıtlığı bir o qədər hiss

olunurdu. İndustrial cəmiyyətin doğurduğu, əhalinin tələbatlarının ödənilməsində sovet sisteminin azsəmərəliliyi, məhz bu tələbatın ödənilmə arzusunu ən mühüm sosial mənafeyə çevirirdi.

20-ci illərdə, xüsusən Stalinin mütləq hakimiyyəti dövrlərində qabaqcıl kapitalist dövlətlərinin industrial səviyyəsinə yaxın, hər cürə sosial ziddiyyətlərdən uzaq, lakin kapitalizm cəmiyyəti olmayan başqa bir yeni cəmiyyət qurmaq, əslində, real bir şey deyildi. Yaradıcı, elmi və ümumiyyətlə ixtisaslaşmış əməyin yüksək səviyyəsinə baxmayaraq, ölkədə işləyənlərin yarıya qədəri aşağı ixtisaslı əməklə məşğul idi. Belə insanlardan öz yaradıcılıq potensiallını reallaşdırmağı gözləmək sadəlövhlük olardı.

Bundan başqa, bürokratik sistemin özü də getdikcə daha sərtləşirdi və istər iş yerlərində, istərsə də işdən kənarda hər cür sərbəst yaradıcılıq ruhuna düşmən kəsilirdi. Bürokratiyanın öz hökmranlığını əbədiləşdirmək, aşağıdan hər cür tənqidi boğmaq cəhdləri, özlərinin səriştəsizliyini, bacarıqsızlığını aşkara çıxarmağa yönəlmiş istənilən səylərə qarşı dözümsüzlük nümayiş etdirmələrində büruzə verirdi. Sovet insanlarında uşaq yaşlarından tərbiyə olunan, özünü reallaşdırmağa ehtiyac hissi bürokratik əngəllərlə üzləşirdi. Əhalinin daha savadlı, təhsil görmüş və mədəni təbəqələrində tədricən bürokratiyaya və onun daşıyıcılarına qarşı nifrət hissi, demokratiya və insan azadlıqlarına daxili ehtiyac yaranırdı. Bürokratik elitanın özü isə tədricən onların cəmiyyətdə hökmranlığını və sosial sabitliyini təmin edən sosial mexanizmlərdən və ideologiyadan imtina edirdi. Elitanın sosial məsuliyyəti «aşağıdan nəzarətin» sosial-siyasi mexanizmləri ilə möhkəmləndirilmirdi və ancaq ideoloji özünənəzarətə əsaslanırdı. İlkin ideoloji impulsun zəifləməsi həm də bürokratiyanın özünün sosial məsuliyyətinin aşağı düşməsinə gətirib çıxarırdı.

Təşəkkül tapmış iqtisadi və sosial mexanizmlərin təsirinin tükənməsi xüsusən 60-cı illərin ortalarına daha açıq-aşkar görünməyə başladı. Modernləşmə sıçrayışı ətalətlə sönməkdə olan inkişafa çevrildi, bununla yanaşı elitanın hərtərəfli modernləşmə ilə bağlı nəticələrin əldə edilməsinə marağının da sönməsinə gətirib çıxardı. Çünki modernləşmənin davam etməsi yolunda əhəmiyyətli bir uğur görünmədiyi üçün onların cəmiyyətdəki sosial statuslarının və imtiyazlarının yüksəlməsinə və ya möhkəmlənməsinə inanmaq mənasız idi. Belə bürokratik elita öz mənafelərini reallaşdırmaq üçün başqa yollar axtarmağa başladı. Bu yol – *«korrupsiya və gizli iqtisadiyyat»a əsaslanan* inkişafı yolu idi.

Sovet sisteminin modernləşmə potensialı baxımından ən böyük naqisliyi, onun modernləşmənin iqtisadi və sosial mexanizmlərinin mövcud imkanlarını tükətməsində, yeni tarixi şəraitə uyğun modernləşmə mexanizmlərinin fəaliyyəti üçün şərait yaratmamağında idi. SSRİ məhz bu sahədə dünyanın inkişaf etmiş ölkələrinə uduzdu. Halbuki, həmin ölkələr məhz 70-80-ci illərdə iqtisadiyyatın strukturunda və texnoloji yeniləşmədə əhəmiyyətli uğurlar qazanmışdı.

Bundan başqa, SSRİ-də 70-80-ci illərdə inkişafın ləngiməsi və durğunluq yeni bir səmərəli modernləşmə layihəsinin də meydana çıxmasına səbəb olmadı, Qorbaçov dövründə ortaya atılan «yenidənqurma» siyasəti mahiyyətcə modernləşməyə «antimodernləşmə reaksiyası» idi.

### 2. Sovet iqtisadi sisteminin modernləşməsinə son cəhdlər

Qeyd etmək lazımdır ki, modernləşmə siyasətinin bütün yuxarıda sadalanan komponentləri SSRİ-nin dağılması ərəfəsində tam ziddiyyət zolağına daxil oldu. Ölkə kifayət

qədər texniki-iqtisadi resurslara, modernləşmənin yeni mərhələsinin qarşısında duran vəzifələri həll etməyə müəyyən dərəcədə qadir olmasına baxmayaraq, iqtisadi tənəzzül, durğunluqdan yan keçə bilmədi. Planlı sovet sistemi istər texniki-tərəqqi, istərsə də əhalinin yaşayış standartlarına görə dünyanın inkişaf etmiş ölkələrindən daha da geriləməyə başladı. İslahat ideoloqlarının heç birinin çıxışlarında cəmiyyətdəki mövcud naqislikləri və qüsurları aradan qaldırmaq üçün hər hansı konkret təkliflərə rast gəlmək mümkün deyildi. Çoxları kapitalist iqtisadiyyatının daha səmərəli olduğunu qəbul etsə də, gələcək modernləşməni bazar sisteminə keçməkdə görmürdülər. Sovet partiya elitası problemi bütöv bir modernləşmə strategiyasının həyata keçirilməsində deyil, yuxarıda göstərilən bəsit islahat dəstində – *liberallaşma + özəlləşdirmə + stabilləşmədə* görürdülər.

Lakin 1985-ci il «yenidənqurma dövründən» sonra ortaya çıxan «demokratik müxalifət» düşərgəsi daha çox bürokratik elitanın nisbətən intellektual təbəqəsini əhatə etməsinə baxmayaraq, onlar məxsus olduqları elitanın əksər naqisliklərinin daşıyıcıları idilər. Onların ideoloji, oriyentasiyası, irad və narazılıqlarının xarakteri daha çox cəmiyyətdə yeni sosial rollarının güclənməsinə hesablandığından, bu da öz növbəsində neqativ təsirini göstərdi.

Əslində, ölkənin inkişafına strateji yanaşma xoş məramla edilmişdi. Sovet dövrü üçün məşhur olan *«işıqlı gələcək naminə işləyək»* şüarı, *«biz indi yaxşı yaşamaq istəyirik»* şüarı ilə əvəz olunmuşdu. Sovet elitası köhnə sosialist ideologiyasından da əl çəkərək, sosial məsuliyyətin son dayağından da imtina etdi. Fərdi surətdə varlanma mənəvi cəhətdən daha məqbul hesab edildi, halbuki əhalinin əksər təbəqələrinin eyni vaxtda varlanması mümkün də deyildi. Təbii ki, varlanma uğrunda mübarizədə az bir qisim işgüzar təbəqə, çox vaxt hakim elitanın himayəsi altında olanlar qalib gəlirdi, lakin böyük əksəriyyətin bu uğursuzluğunu yeni ideoloqlar uduzanların öz günahı kimi qələmə verirdilər və sosializm dövründən qalma ənənələrə sadiq qalaraq, «işıqlı sabaha» (bu dəfə kapitalizm) daha tez yetişmək naminə «müvəqqəti çətinliklərə» dözməyi tövsiyə edirdilər. Burada yeganə fərq onda idi ki, yeni elita nə bu «işıqlı sabaha» tez yetişmək üçün əhəmiyyətli bir addım atmır, nə də həmin «müvəqqəti çətinliklərin» məhrumiyyətlərini çəkmirdilər, özləri isə daha sürətlə varlanırdılar.

Məhz belə yanaşmanın nəticəsi idi ki, sovet iqtisadi sisteminin son dövrü modernləşmə üçün resursların səfərbərliyə alınmasının təmin edilməsi üçün zəruri komponentlərdən məhrum idi. Əksinə, yeni sistem resurslara yanaşmada daha məsuliyyətsiz mövqe tutdu, ancaq yüksək likvidliyə malik resurslar dəyərli hesab olundu. Təbii resurslar iqtisadiyyatın ən zəruri investisiya mənbəyindən elitanın sürətlə varlanma vasitəsinə və sosial gərginliyin yumşaldılması məqsədi ilə neft və qaz ixracı hesabına əhali üçün ərzaq idxalına sərf olunurdu. Strateji yanaşmadan imtina burada da özünü büruzə verirdi. Neft və qaz ixracından gəlirlər əsasən, nəinki cari istehlaka yönəldilirdi, həm də neft-qaz hasilatı texnologiyasının, geoloji kəşfiyyatın modernləşməsinə xərclərin kəskin surətdə azaldılması ilə müşayiət olunurdu.

Ölkənin ərzaq təhlükəsizliyi məsələsinə tam etinasız yanaşılır, milli ərzaq məhsulları istehsalı idxal məhsulları vasitəsilə bazardan sıxışdırılıb çıxarılır, kənd təsərrüfatına təxsisatlar kəskin surətdə azaldılırdı. Faktiki olaraq, ölkənin strateji xarakterli resursları tar-mar edilir, dəyər-dəyməzinə satılırdı. Hətta yüksək texnoloji hərbi istehsalın konversiyası belə, müdafiə kompleksi müəssisələrini maliyyə cəhətdən sıxmaqla həyata keçirildiyinə görə, istər hərbi, istərsə də mülki məhsulların istehsalı kəskin surətdə azalırdı. Elm və təhsilin maliyyələşdirilməsi kəskin ixtisar olunduğundan, bu, xeyli talantlı və gənc alimlərin və mütəxəssislərin elmdən uzaqlaşmasına, ölkədən kütləvi surətdə «beyin axınına» səbəb oldu.

Dövlət büdcəsinin özü də iqtisadiyyatın modernləşməsinin maliyyələşdirilməsi məqsədilə resursların səfərbər olunmasına sərf olunmurdu. Hökumət proqramlarında bəyan edilən prioritetlər iqtisadi cəhətdən əsaslandırılmır, struktur islahatlar çox bəsit, primitiv istiqamətlərdə həyata keçirilirdi. Modernləşmə layihələrini uğurla həyata keçirən SSRİ və digər postsosialist ölkələrinin, həmçinin inkişaf etmiş ölkələrin təcrübəsi inkar edilir və ya nəzərə alınmırdı. Müasir şərait nəzərə alınmaqla, modernləşməni həyata keçirmək üçün hökumətin proqramları yarımçıq, bu sahədə səyləri isə Beynəlxalq Valyuta Fondunun tövsiyələrindən o yana getmirdi.

### 3. Azərbaycanın müstəqillikdən sonrakı modernləşmə mərhələləri və keyfiyyətcə yeni modernləşmə xəttinin konturları

Müstəqilliyin ilk illərində eqalitar sosialist ideologiyasından imtina edilsə də, müasir Azərbaycan elitası tərəfindən ölkədə sosial mobilizasiya rolunu oynaya biləcək hər hansı dünya görüşü irəli sürülməmişdi. Eqalitarizmdən imtina, tədricən sovet dövründə kifayət qədər uğurla təşəkkül tapmış sosial təminat sisteminin eroziyasına gətirib çıxarmışdı. İqtisadiyyatın imkanları, əsasən işləyənlərin əmək haqqı fondu hesabına formalaşan sosial ayrımlar (sosial müdafiə fondu) əhalinin əksəriyyəti üçün pensiya və müavinətləri, yaşayış minimumu səviyyəsində belə ödəməyə kifayət etmirdi. Belə şəraitdə, ölkə vətəndaşları ümidlərini ümummilli vəzifələrin həllinə deyil, ayrı-ayrılıqda xilas olmağa bağlayırdılar.

Azərbaycanın müstəqillik əldə etdikdən sonra modernləşmə cəhdlərini 3 mərhələyə ayırmaq olar.

1992-1996-cı illəri əhatə edən müstəqilliyimizin ilk mərhələsinə planlı, iyerarxik idarə olunan inzibati amirlik sisteminin dağıldığı, yeni institutların yaranmadığı, Qorbaçovun «yenidənqurma» strategiyasının tam iflasa uğradığı, şəxsən Qorbaçov tərəfindən himayə olunan «erməni seperatizmi»nin artıq müharibəyə çevrildiyi, hələ sovet dövründə (1988) Ermənistandan deportasiya edilən 250 minə yaxın qaçqın soydaşlarımızın sıralarına Qarabağ və onun ətraf rayonlarından 700 mindən arıq məcburi köçkünün də (1992-1993-cü illər) əlavə olunduğu bir vaxtda daxil oldu.

İslahatın I mərhələsi planlı inzibati-amirlik iqtisadi iyerarxiyasının sökülüb-ləğv olunması, bazar iqtisadiyyatının özəyi olan – sərbəst qiymətqoyma, özəl mülkiyyət, açıq iqtisadiyyat, milli valyutanın bazar məzənnəsi və s. institutların tətbiq olunması ilə xarakterizə olunurdu. Eyni zamanda, ölkənin qanunvericilik sistemi də faktiki olaraq tam yenidən yaradılmağa başladı. Bu mərhələdəki islahatlar qeyri-ahəngdar olmaqla, həm də əlaqələndirilməmiş şəkildə aparılır, iqtisadiyyatdakı böhran əlamətləri daha da güclənirdi. Ölkədə hasil edilən ÜDM əvvəlki illə müqayisədə 1992-ci ildə 77,4%, 1993-cü ildə 76,9%, 1994-cü ildə 80,3%, 1995-ci ildə isə 88,2% azalmışdı. Bütövlükdə, 1995-ci ildəki ÜDM 1992-ci ildəkinin 42,1%-ni təşkil edirdi. Həmin müddət ərzində sənaye məhsulları 66,9%, kənd təsərrüfatı məhsulları 47,7 %, nəqliyyat sektorunun yük daşıması 81,0%, satışın bütün kanallarından pərakəndə mal dövriyyəsi 61,9%, əhaliyə göstərilən pulu xidmətlər 29,0%, ixrac əməliyyatları 61,0%, idxal əməliyyatları 64,5%, əhalinin real pul gəlirləri 81,7% aşağı düşmüşdü.[*Azərbaycanın statistik göstəriciləri 2000, Bakı «Səda» 2000: 756- 34-35.*]

Bazar münasibətlərinin formalaşmasının ilkin mərhələsi sayılan bu dövrün ən təəssüfdoğurucu nəticələrindən biri virtual iqtisadiyyatın və kriminal-oliqarx kapitalizmin önə

çıxması idi. Bu mərhələdə gizli iqtisadiyyatın əksər hissəsi kiçik biznes sahəsində fəaliyyət göstərirdi.

İslahatların I mərhələsində göstərilən xoşagəlməz mənzərənin səbəblərini aşağıdakı kimi sıralamaq olar:

- Sovet İttifaqının dağılması ərəfəsində struktur deformasiyaların mövcudluğu;
- Sovet sistemi dəyərlərində, əhalinin dünya görüşündə, yaşayış və mədəniyyət tərzindəki qüsurlar və digər instusional amillər;
- İqtisadi siyasətdəki səhvlər, xüsusən dövlətin iqtisadiyyatdan vaxtından əvvəl getməsi.

Azərbaycanda iqtisadi transformasiyanın II mərhələsi kimi 1996-2003-cü ili saymaq olar. 1994-cü ildə illik inflyasiya tempi 17,6%-dən 1995-ci ildə 511,8%-ə, 1996-cı ildə isə 119,9%-ə endirilmişdi. Məhz 1995-ci ilin sonu, 1996-cı ilin əvvəlinə ölkədə maliyyə sabitliyinin əsası qoyulmuş, iqtisadi islahatların ən vaciblərinə – torpaq islahatlarına, dövlət mülkiyyətinin özəlləşməsinə başlanmasına start verilmişdi. Qısa müddət ərzində islahatların qanunvericilik bazası formalaşdırılmış, artıq 1998-ci ilin əvvəlinə torpaqların, kiçik müəssisələrin özəlləşdirilməsi başa çatmış, növbəti mərhələdə orta və iri müəssisələrin özəlləşdirilməsinə başlanması üçün xüsusi Dövlət proqramı qəbul olunmuşdu. Ölkədə bazar strukturlarının və ona müvafiq infrastrukturun yaradılması uğurla davam etdirilmişdi . 1996-cı ildən başlayaraq ÜDM artımı həmişə müsbət rəqəmlə getmiş, 1996-cı ildə bu artım 101,3%, 1998-ci ildə 110,0%, 2000-ci ildə 111,1%, 2002-ci ildə 110,6% etmişdi. Başqa sözlə, 1996-2002-ci illər ərzində ÜDM 2,2 dəfə artmışdı. Bu müddət ərzində iqtisadiyyatın bütün sahələrində, o cümlədən, sənayedə artım 1,7 dəfə, kənd təsərrüfatında 1,4 dəfə, nəqliyyat sektorunda yük daşınmasında 2,4 dəfə, satışın bütün kanallarında pərakəndə mal dövriyyəsində 1,8 dəfə, xarici ticarət dövriyyəsində 2,4 dəfə, əhaliyə göstərilən pulu xidmətlərdə 1,9 dəfə təşkil etmişdi. 1996-2002-ci illər ərzində dövlət büdcəsinin gəlirləri 2,3 dəfə, iqtisadiyyatdan əldə edilən mənfəət 1,8 dəfə, əsas fondların istifadəyə verilməsi 4,1 dəfə, əsaslı kapitala yönəldilən investisiyalar 3,3 dəfə, istifadəyə verilən yaşayış sahələri 1,5 dəfə artmışdı. Əhalinin sosial vəziyyəti də xeyli yaxşılaşmışdı. Əhalinin adambaşına gəlirləri 2,5 dəfə, işləyənlərin orta aylıq əmək haqqı 3,5 dəfə, təyin olunmuş pensiyaların orta aylıq məbləği 3,5 dəfə artmışdı.[*Azərbaycanın statistik göstəriciləri 2008, Bakı «Səda»2008: 768-36-39*]. Göründüyü kimi əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üzrə göstəricilər, iqtisadiyyatın əsas inkişaf göstəricilərini xeyli qabaqlayırdı.

Beləliklə islahatların bu mərhələsinin əsas xüsusiyyətlərini belə şərh etmək olar:

Birincisi, bazar islahatlarının təsiri altında Azərbaycan iqtisadiyyatının neft və neft məhsulları ixracından asılı olan strukturu formalaşdı, ərzaq məhsullarına və digər məhsullara ehtiyacının 60% qədəri idxal hesabına təmin olundu. Daxili bazarda əsasən kənd təsərrüfatı məhsulları və az miqdarda yeyinti sənayesi məhsulları rəqabət qabiliyyətli idi, sənayenin müasir sənayeləri, yeni yaxud innovasion məhsullar istehsalı yox dərəcəsində idi;

İkincisi, xarici valyuta axınının güclənməsi əsasında iqtisadiyyatın monetizasiyası və müvafiq olaraq pul təklifinin artması şəraitində, ödəmə intizamının və vergi inzibatçılığının az da olsa möhkəmlənməsi nəticəsində, artıq 1998-ci ilin əvvəlinə ödəmələr problemi xeyli dərəcədə həll olunmuş, barter əməliyyatları isə demək olar ki, aradan qalxmışdı. Mənfəət vergisi, əlavə dəyər vergisi, aksizlər və s. üzrə dərəcələrin tədricən aşağı salınmasına baxmayaraq, məşhur Lafferin hipotezinə uyğun olaraq, büdcəyə vergi daxilolmaları istər mütləq həcmdə, istərsə də ÜDM – də müqayisədə artmağa başlamışdı. Məsələn, 1998-ci ildə

büdcəyə vergi daxilolmaları ÜDM-in 11,9% təşkil etdiyi halda, bu nisbət, 2000-ci ildə 12,0%, 2002-ci ildə isə 11,7% olmuşdu.[*Azərbaycanın statistik göstəriciləri 2000, Bakı «Səda» 2000: 756- 36-37, 375*] Bu dövrdə ölkədən xarici kapital axını da xeyli azalmışdı;

Üçüncüsü, bu müsbət dəyişikliklərlə yanaşı o da məlum oldu ki, ölkə iqtisadiyyatında ciddi instusional dəyişikliklər aparılmadan, islahatların əsas məqsədlərini reallaşdırmaq mümkün deyildir. Belə ki, ölkənin iqtisadi inkişafı daha çox neft amilindən, neftin dünya bazarında qiymətindən asılı idi. Ölkəyə investisiya axınları bu illərdə xeyli artsa da, onların böyük əksəriyyəti yanacaq-energetika kompleksinə qoyulurdu. Sahələrarası kapital axını çox zəif idi, bu funksiyanı yerinə yetirəcək fond bazarının fəaliyyəti demək olar ki, yox dərəcəsində idi. Ölkə iqtisadiyyatına dair kifayət qədər çoxsaylı qanunvericilik aktları qəbul edilsə də, bu qanunlarda kifayət qədər boşluqlar və bürokratik əngəllərə, korrupsiyaya yol açan kifayət qədər mürtəce müddəalar qalmaqda idi. Sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və onların fəaliyyətinə müdaxilələrin aradan qaldırılması üzrə Respublika Prezidentinin müvafiq Fərmanları və bunun qanunvericilikdə də təsbit olunmasına baxmayaraq, istər icra, hüquq-mühafizə, istərsə də vergi orqanlarının sahibkarlıq subyektlərinin fəaliyyətinə müdaxilələri azalmamışdı.

Dördüncüsü, məhz islahatların ikinci mərhələsində cinayətkarlığa və xəlvəti iqtisadiyyata qarşı mübarizənin güclənməsinə, mülkiyyətin əksəriyyətinin legitimləşməsinə baxmayaraq, korrupsiya hələ də ciddi problem kimi qalmaqda idi. Kütləvi korrupsiya halları aradan qaldırılmadın, istər cəmiyyətdə, istərsə də iqtisadiyyatda modernləşmə sahəsində hər hansı təsirli uğur əldə etmək mümkün deyildir. Onu da qeyd etmək lazımdır ki, belə bir ciddi problem təkcə hökumətin deyil, bütün cəmiyyətin müqəddəs vəzifəsinə çevrilməlidir. Bundan ötrü, təkcə inzibati-iqtisadi vasitələr yetərli deyildir. Son illərdə elmi ədəbiyyatda geniş yayılmış bəzi fikirlərə görə-səmərəli iqtisadi artım, modernləşmə üçün millətin üstünlük verdiyi mədəni-mənəvi dəyərlər də kifayət qədər əhəmiyyətlidir.[*Бобнева М. И. , Дорофеев Е. Д. Изменение ценностных систем личности в период преобразования общества// Ценностное сознание личности в период преобразования общества. М.: Изд-во ИП РАН, 1997: 436-120-122; Бызов Л.Г. Социокультурная трансформация российского общества и формирование неоконсервативной идентичности // Мир России. 2002. №1: 220 -126- 127; Инглхарт Р. Культура и демократия. Культура имеет значение. Московская школа политич.2004 :167-94-97*]

Azərbaycanda 2003-cü ildə İlham Əliyevin Respublika Prezidenti seçilməsi ilə cəmiyyətdə, eləcə də iqtisadiyyatda islahatların üçüncü mərhələsinə qədəm qoyulmuşdur. Yeni mərhələnin əsas hədəfi, milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına nail olmaqla, uzunmüddətli perspektivə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir. Azərbaycan Respublikasının Prezidentinin imzaladığı fərmanlarda, təsdiq etdiyi iqtisadi siyasət sənədlərində bu hədəfin reallaşması üçün yerinə yetirilməsi zəruri olan vəzifələr müəyyənləşdirilmişdir. Bunlara ölkənin malik olduğu iqtisadi potensialın gücləndirilməsi və bu potensialın kompleks şəkildə səmərəli reallaşdırılması, o cümlədən qeyri-neft sektorunun inkişaf etdirilməsi (neftdən asılı olmayan güclü Azərbaycan iqtisadiyyatının formalaşdırılması), hər bir regionun malik olduğu potensialdan tam və səmərəli istifadə olunması və onların inkişafının tarazlaşdırılması, çoxlu sayda yeni iş yerlərinin açılmasına şərait yaradılması, sahibkarlığın inkişaf etdirilməsi, sosial xidmətlərin həcminin, keyfiyyətinin

və ünvanlılığının əhəmiyyətli dərəcədə artırılması, yoxsulluğun azaldılması kimi vəzifələri aid etmək olar.

Bu gün Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyini təmin edilməsi mövcud rəqabət üstünlüklərinin saxlanmasının önəmli olduğunu, həm də yeni, yüksək texnologiyalara və «biliklərin iqtisadiyyatı»na əsaslanan innovasiyalı iqtisadiyyatın tətbiqi yolu ilə daha yüksək üstünlüklərə keçmək üçün mümkün olan hər şeyi etməyi tələb edir. Araşdırmalar göstərir ki, bunu təkcə uğurlu makroiqtisadi göstəricilər hesabına etmək mümkün deyildir. Azərbaycanın müasir iqtisadiyyatının keyfiyyətli artımı modernləşmə tələblərinə cavab verməsi kompleks iqtisadi strategiya tələb edir və burada, ümumi rəqabətqabiliyyətliliyə təsir edən bütün amillərin yalnız tarazlı və kompleks yaxşılaşdırılması belə uğurun zəmini ola bilər. Azərbaycanın uzunmüddətli perspektivdə optimal sosial-iqtisadi inkişaf strategiyasının seçilməsi və burada qlobal çağırışlar əsas götürülərək xarici və daxili amillərin rolunun qiymətləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Ölkə iqtisadiyyatında strateji iqtisadi siyasət dinamik iqtisadi artımın davam etməsi ilə deyil, həmçinin ciddi struktur dəyişikliklərinin aparılması, institusional inkişaf və əhalinin həyat səviyyəsinin yüksəlməsi ilə müşayiət olunmalıdır.

Qeyd edək ki, iqtisadi inkişafın yaradılması mənbələri arasında müəyyən oxşarlıqlar olsa da köklü fərqlər mövcuddur. Bərpa dövründə kəmiyyət amilləri ön planda olsa da, sonrakı dövrdə iqtisadi artımın keyfiyyət amilləri əsas rol oynayır. Bu baxımdan, ölkəmiz üçün ən əsas məsələ iqtisadiyyatın modernləşdirilməsidir. Modernləşmə siyasətinin səciyyəvi xüsusiyyətini ölkənin uzunmüddətli dayanıqlı iqtisadi inkişafının təmin edilməsi, bilik iqtisadiyyatının formalaşdırılması, innovasiya fəallığının yüksəldilməsi yolu ilə rəqabət qabiliyyətli məhsulların istehsalının stimullaşdırılması təşkil edir.

İndi ən vacib məsələlərdən biri - Azərbaycanın qloballaşma sisteminə real daxil olması ilə yanaşı həm də bu sistemə uyğunlaşmasının təmin edilməsidir. Bundan ötrü ilk növbədə, Azərbaycan iqtisadiyyatının ixracyönümlüyü meyllərini artırmaq, heç olmasa, bir neçə hazır məhsul üzrə dünya bazarında öncüllüyə nail olmaq lazımdır. Əks təqdirdə, respublikamız gələcəkdə də yalnız xammal ixrac edən bir ölkə kimi qala bilər. Əlbəttə, dünyanın aparıcı ölkələrinin qloballaşma sahəsində inhisarçı mövqeyə malik olduğu bir şəraitdə Azərbaycanın və ya digər postsovet ölkələrinin qloballaşma lideri olması mümkün deyildir. Lakin istənilən halda, azad rəqabətə cəhd etmək çərçivəsində beynəlxalq və milli kapital arasında, idxal-ixrac və maliyyə axınları arasında müəyyən optimal əlaqə yaratmaq olar. Ona görə də hazırda ən başlıca məsələ - ayrı-ayrı müəssisələrin dünyanın ən yeni texnologiyaları əsasında yenidən qurulması və yaxud tamamilə yeni müəssisələrin yaradılmasıdır.

Azərbaycanın sənaye müəssisələri istehsalda modernləşdirmə və investisiyalardan başqa, ölkənin gələcəkdə ÜTT-yə daxil olacağı dövr üçün makroiqtisadi siyasətin əsas inkişaf konturlarını müəyyən etməli, o cümlədən prioritet sahələri indidən seçməlidir. Bu strategiya çərçivəsində daxili istehsalın milli ixracın və idxalın imkanlarına uyğun olaraq tənzimlənməsi istiqamətləri müəyyən edilməlidir.

Azərbaycan iqtisadiyyatın sahə strukturunun təhlili göstərir ki, prioritet inkişaf istiqamətləri kimi - birincisi, ixrac strukturunda texnoloji malların payının artırılması istiqamətində dəyişilməsini götürmək lazımdır. İkincisi, ÜTT-yə daxil olduqdan sonra iqtisadiyyatın açıqlığının artacağı şəraitdə buraxılan malları standartlaşdırmaq və onu dünya keyfiyyət səviyyəsinə uyğunlaşdırmaq lazımdır. Üçüncüsü, strateji sahələrə mükəmməl

dövlət dəstəyi təmin edilməlidir. Dördüncüsü, kapitalın sürətlə dövran etdiyi sahələrə maksimal daxili investisiyaların cəlb olunması və həmin bazarın milli istehsalçılarla doldurulması məqsədi ilə biznes aparmaq üçün güzəştli şərait yaratmaq lazımdır. Beşincisi, sahələr daxilində məhsulun rəqabətqabiliyyətliliyini artırmağa səbəb ola biləcək nəqliyyat və istehsal dövrlərini müasir texnologiyalara və idarə etmə üsullarına uyğun optimallaşdırmaq lazımdır.

Prioritet sahəni seçərkən aşağıdakı amilləri nəzərə almaq lazımdır: a) ölkənin amillər üstünlüklərindən istifadə etmək; b) ölkə daxilində hazır məhsul istehsal edən və xammalı ölkə daxilində emal edən sahələrin inkişaf etdirmək; c) prioritet sahənin inkişaf etdirilməsi vasitəsi ilə ölkənin müqayisəli üstünlüklərindən istifadə etmək; d) prioritet sahəni iqtisadiyyatın digər sahələri ilə əlaqələndirmək. Bu baxımdan, malları dünya bazarına ixrac edən milli müəssisələr yaxud beynəlxalq bazarda öz yeri olan sahələrin prioritet inkişafı təmin edilməli, deməli, həm də investisiyalarla təminatı buna müvafiq olmalıdır. Respublikamızda prioritet sahələr kimi neft-kimya məhsullarının emalı kompleksləri, kənd təsərrüfatı xammalı və hazır məhsul alan müəssisələr seçilə bilər. Təkcə elə ixrac xammalı mənbəyinə yaxınlığına görə bu müəssisələr dünya bazarında rəqabət üstünlüklərinə malik olacaqlar. Bundan başqa işçi qüvvəsi ucuz olduğundan, bu sahələrdə istehsalın əməktutumlu olması həmin müəssisələrin sabit rəqabət üstünlüyünü təmin edəcəkdir.

Hazırda respublikamızın xariclə əlverişli inteqrasiya əlaqələrinin saxlanması ilə yanaşı, daxili bazarın xarici diktatdan, haqsız rəqabətdən qorunması əsas vəzifələrdən biri olmalıdır. Bundan ötrü idxal və ixrac proseslərində milli mənafelərə xidmət edən, ilk növbədə daxili bazarın müdafiə olunmasını təmin edən gömrük, vergi və kredit siyasəti həyata keçirilməlidir. Daxili bazarın xarici müdaxilədən qorunmasını təmin etmək üçün bir sıra məhsulların idxalını tənzimləmək lazımdır. Azərbaycanın istehlak bazarı hələ ki, böyük həcmdə idxalın hesabına formalaşır. Belə olan halda, bütövlükdə, dünyada gedən bahalaşma istər-istəməz Azərbaycan bazarına da mənfi təsir göstərir. Proses bu cür davam edərsə, milli iqtisadiyyatın sabitliyi pozular, yerli sahibkarlığın inkişafı ləngiyər, qiymətlər daha sürətlə artar və milli valyuta tədricən qiymətdən düşər. Bunlara yol verməmək üçün neft gəlirlərinin xeyli hissəsi qeyri-neft sektoruna aid olan yerli istehsal sahələrinin inkişafına yönəldilməlidir.

Daxili bazarın formalaşması variantlarından biri yüksək texnologiyaların reallaşması üzrə layihələr, eləcə də təhsil, mədəniyyət və ekologiya sahəsindəki beynəlxalq proqramlar çərçivəsində qarşılıqlı səmərəli əməkdaşlıqdır. Fikrimizcə, ölkəmizdə müasir avadanlıqların idxalı hesabına bazarın tələblərinə uyğun texnoloji komplekslərin yaradılması respublikamızın elmi və təbii potensialından daha dolğun istifadə etməyə imkan verəcəkdir. Azərbaycan iqtisadiyyatının modernləşməsi ölkəyə müasir maşın və texnikanın gətirilməsini tələb edir.

Modernləşmiş iqtisadiyyatın formalaşması və ümumilikdə onun stabil inkişafının təmin etmək, dünyanın iqtisadi və texnoloji tərəqqisinin iştirakçısı olmaq üçün rəqabətqabiliyyətli məhsul istehsal etməyi öyrənmək çox vacibdir. Rəqabətqabiliyyətli məhsul – əslində, modernləşmənin məqsədidir. Belə məhsulun mənimsənilməsi və xarici bazarlarda reallaşması ölkənin gələcəyini, əhalinin yaşayış səviyyəsini müəyyən edən ümumdövlət, ümummilli məsələ olmalıdır. Belə məhsullar Azərbaycanın ixrac etdiyi məhsullar içərisində çox cüzidir və çox məhdud bazarlar üçün nəzərdə tutulmuşdur. Bu baxımdan, ölkənin ixrac potensialını son istehlak olan rəqabətqabiliyyətli malların istehsalı ilə yüksəltmək lazımdır.

Hazırda yerli kənd təsərrüfatı istehsalına və onun emalına əsaslanan rəqabətqabiliyyətli və ekoloji cəhətdən təmiz qida məhsulları ixrac etmək üçün böyük imkanlar vardır. Ölkəmizin mövcud büdcə imkanları neft maşınqayırması, kənd təsərrüfatı maşın və mexanizmləri istehsalını təşkil etməyə imkan verir. İnformasiya texnologiyalarının inkişafı, onun həm ölkədə geniş yayılması, həm də ixraca yönəldilməsi üçün də ölkəmizin böyük intellektual və kadr potensialı vardır.

Xarici ölkələrin təcrübəsi göstərir ki, əlverişli investisiya mühiti, institusional əsaslar, əməyin və infrastrukturun keyfiyyəti, siyasi sabitlik və dəqiq stimullaşdırıcı iqtisadi artım siyasəti kimi rəqabət üstünlüklərinə malik olan bütün ölkələr investisiyalar cəlb edilməsi üzrə rəqabət apara bilər. Bunlarla yanaşı, fikrimizcə, indiki dövrdə cəlb olunan xarici investisiyaların rolunu qəbul edərkən onların mənfi nəticələrini də nəzərə almaq və daxili yığım mənbələrinə böyük diqqət yetirmək lazımdır və bu məsələdə birmənalı qiymət ola bilməz. Xarici kapitalın iri axınları, əgər bu axınlar müəyyən edilmiş valyuta kursunun saxlanması ilə stimullaşdırılarsa, bu zaman ciddi problemlər doğura bilər. Xarici borcların, xüsusilə də qısamüddətli kreditlər üzrə artması makroiqtisadi sabitlik məsələsinin həllini çətinləşdirir, inflyasiya təzyiqini və ixracın rəqabətqabiliyyətinin aşağı düşməsini gücləndirir. Qısamüddətli likvid aktivlərin iri yığımları maliyyə resurslarının qəfil axını riskini yaradır.

Xarici investisiyaların cəlb olunmasını stimullaşdırarkən Azərbaycan iqtisadiyyatının inkişafının təxirəsalınmaz vəzifələri - müasir istehsal texnologiyaların, innovasiya qərarları, yeni idarəetmə sistemləri, istehsal obyektlərinin yeniləşdirilməsi  nəzərə alınmalıdır. Lakin təcrübənin göstərdiyi kimi, xarici kapitalın qoyulması sahəsini seçdikdə, Azərbaycan iqtisadiyyatının və xarici investorların maraqları çox vaxt antaqonist xarakter daşıyır. Xarici investorlar yüksək gəlirli, ən əvvəl ixraca yönəlmiş xammal sahələrində möhkəmlənməyə çalışırlar, bununla isə Azərbaycan iqtisadiyyatının xammal yönümlü olmasını və texniki-texnoloji geri qalmasını konservasiya olunmasını təsdiq edirlər.

Azərbaycanın hazırkı modernizasiya səyləri iqtisadiyyatın daha çox diversifikasiyası və davamlılığının əsaslarını yaratmağa doğru hərəkətə gətirilməlidir. Hökumət hazırda ehtiyatlı davranmalı və hər şeydən əvvəl, iqtisadiyyatı diversifikasiya etməklə, maliyyə ehtiyatlarını daha davamlı şəkildə istifadə etməlidir. Bu, çox vacibdir, çünki hasilat sektoru kütləvi iş yerlərinin açılmasına şərait yaratmır və beləliklə, əhalinin əksər hissəsinin iqtisadi rifahı diversifikasiyaya əsaslanan inkişafdan asılıdır. Bu, uzunmüddətli  dövrdəki rəqabətlilik və ixracyönümlülük əsasında qeyri-neft sektorunun inkişafının canlanması vasitəsilə bas verə bilər. Fermerlərə və KOS-lara dövlət dəstəyinin artırılması vacib ola bilər. Böhranın təsirini nəzərə alaraq, Sahibkarlığa Kömək Milli Fondunun verdiyi güzəştli kreditlər üzrə illik faiz dərəcələrinin azaldılması yerli istehsalçılara dəstək verə bilər.

Azərbaycanda sərbəst iqtisadi zonaların inkişaf etdirilməsi sahəsindəki işlər sürətləndirilməlidir. Onlar yaxşı baza üzərində yaradılarsa,  xarici investisiyaların və yeni bilik, texnika və texnologiyaların ölkəyə gəlməsini təmin edəcək, qeyri-neft sektorunda rəqabətliliyin inkişafı və genişlənməsinə şərait yaradacaqdır.

Modernləşmiş iqtisadiyyatın formalaşdırılması üçün insan kapitalının inkişafı zəruri məsələlərdən biridir. Azərbaycanın ən böyük strateji məqsədi neft gəlirlərindən cəmiyyətin tərəqqisi və qeyri neft sektorunun inkişafı üçün istifadə edilməsidir. Qara qızılın insan kapitalına çevrilməsi Azərbaycan hökumətinin və cəmiyyətinin ən ümdə vəzifəsi olmalıdır. İnsan kapitalına uzunmüddətli investisiya qoyulması: təhsilin və səhiyyənin inkişafı, əhalinin

sosial təminatının yaxşılaşdırılması və həyat səviyyəsinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi qaçılmazdır. Əgər işçinin və ümumilikdə əhalinin həyat səviyyəsi yüksək olmasa onlardan hansısa məhsuldarlıq gözləmək yanlışdır və ÜDM-in kəmiyyət artımının elə də əhəmiyyəti yoxdur. Ancaq burada təkcə dövlət büdcəsindən elm və təhsilə ayrılan xərclərin artırılması ilə kifayətlənmək olmaz. Əsas məsələ ayrılmış vəsaitlərin effektiv istifadə edilməsindən gedir. Ona görə də, istehsalın artırılması, kapital qoyuluşunun genişlənməsi və makroiqtisadi göstəricilərin dünya səviyyəsinə çatdırılması ilə yanaşı insan kapitalının inkişaf etdirilməsi yerinə yetirilməsi zəruri olan prioritet istiqamətlərdən biridir. İstehsalla elm arasında əlaqənin genişləndirilməsi üçün texnoparkların yaradılması da vacibdir. Yüksək texnika və texnologiyanın olması, madd-texniki təchizatın dünya standartlarına uyğunluğu iqtisadi inkişafı təmin edən əsas şərtlərdən biridir, ancaq onları idarə edəcək yüksək intellektuallı işçilər olmadıqda bu amillərin nə qədər səmərəli olacağını gözləmək çətindir. Bəzən Azərbaycanda ucuz işçi qüvvəsinin olmasını ölkə iqtisadiyyatına xarici investisiya qoyuluşu üçün əlverişli şərt kimi qiymətləndirirlər. Ancaq nəzərə almaq lazımdır ki, müasir dövrdə ucuz işçi qüvvəsinin olması xarici şirkətlərin iqtisadiyyata yeni texnika və texnologiya cəlb etməsinə, innovasiyanın inkişafına və insan kapitalına sərmayə yönəltməsinə mane olan əsas amillərdən biridir.

Digər bir əhəmiyyətli məsələ əhalinin sosial təminatının yaxşılaşdırılması və həyat səviyyəsinin orta dünya göstəricilərinə yaxınlaşdırılmasıdır. Əgər işçinin və ümumilikdə əhalinin həyat səviyyəsi yüksək olmasa onlardan hansısa məhsuldarlıq gözləmək yanlışdır və ÜDM-in kəmiyyət artımının elə də əhəmiyyəti yoxdur. Əgər Azərbaycan alimi və ya mühəndisinin yaşayışı dünya ölkələrindəki həmkarlarından dəfələrlə geri qalırsa, onda Azərbaycanın dünya iqtisadiyyatına səmərəli inteqrasiyasından söhbət gedə bilməz. Ona görə də, istehsalın artırılması, kapital qoyuluşunun genişlənməsi və makroiqtisadi göstəricilərin dünya səviyyəsinə çatdırılması ilə yanaşı insan kapitalının inkişaf etdirilməsi yerinə yetirilməsi zəruri olan prioritet istiqamətlərdən biridir.

Regionların iqtisadi inkişafına nail olmaq da prioritet vəzifələrdən biridir. Son illər Azərbaycanın regionlarında "Regionların sosial-iqtisadi inkişafı" proqramları çərçivəsində xeyli iş görülür, yerlərdə yeni müəssisələr qurulur və infrastruktur yeniləşir. Ancaq ölkə ərazisinin cəmi 3.9%-ni əhatə etsə də, hələ ki, sənayedə yaranan əlavə dəyərin 80%-i Abşeron iqtisadi rayonun payına düşür.

Qeyd edək ki, innovasiya fəaliyyətinin genişləndirilməsi modernləşmə üçün ən əsas məsələdir. Bu proses əsasən sənayedə özünü daha çox göstərməlidir. Çünki Azərbaycan sənayesinin hazırda ən böyük problemi onun texniki səviyyəsinin aşağı olması, istehsal edilmiş malların dünya standartlarına uyğun gəlməməsi, istehsal xərclərinin yüksək olması və bununla da istər daxili bazarda, istərsə də dünya bazarında analoq məhsullara qiymət-keyfiyyət cəhətdən uduzması, beynəlxalq səviyyədə marketinq və menecment üzrə kadr çatışmazlığı və.s-dir. Bu problemlərin nəticəsi olaraq həm sənaye məhsulların ixracı kifayət deyil, həm də daxili bazarda həmin müəssisələrin istehsal etdikləri və edə biləcəkləri malların analoqu olan idxal malları satılır. Bunların qarşısını almaq üçün hələ də sovet vaxtından qalan əsas istehsal fondları ilə işləməyə çalışan zavod və fabriklərdə əsas fondların yeniləşməsi üçün tədbirlər həyata keçirilməlidir. Dövlət, innovasiya fəaliyyətini gücləndirmək üçün güzəştli kreditlərin verilməsi və lizinq fəaliyyətinin genişləndirilməsini təmin etməlidir. Bu isə sonda ölkədə sənaye mallarının ixracının artmasına və idxal edilən malların daha ucuz

yerli istehsal malları ilə əvəz olunmasına gətirib çıxaracaq. Qeyd edək ki, Informasiya texnologiyaları və innovasiyanın sürətlə dəyişdiyi indiki dövrdə avadanlıqların xidmət müddəti əvvəlki illərdə olduğu kimi 18-20 il deyil, maksimum 8-10 ildir. Bu baxımdan mühüm məsələ maşın və avadanlıqların modernləşdirilməsidir.

**4. Modernləşmə və sivilizasiyalararası fərqlərin azaldılması**

Son dördyüzillik ərzində cəmiyyətin dayanmadan ənənəvi iyerarxik strukturundan – şəbəkə strukturuna, natural iqtisadiyyatdan – bazara, feodalizmdən – kapitalizmə keçid prosesi baş verir. Feodalizmi xalis Avropaya məxsus, X əsrdə meydana gələn bir hadisə kimi qəbul edən, əksinə Asiya despotik cəmiyyətlərini və digər analoji cəmiyyətləri ona qarşı qoyan nəzəriyyələr mövcud olsa da, feodalizmin əsas resursu torpaq, əsas məşğuliyyət sahəsi – natural əsasda fəaliyyət göstərən, sosial strukturu silk iyerarxiyası əsasında formalaşan kənd təsərrüfatıdır.

Ənənəvi feodal cəmiyyətlərinin hamısında ticarət mövcud olsa da, o yardımçı, ikinci dərəcəli bir fəaliyyət sahəsi idi. Finikiya, Qədim Yunanıstan və Roma ticarətin daha yüksək inkişaf səviyyəsinə nail olsalar da, burada da tabeçilik münasibətləri ilə silk iyerarxiyası hansı silkə mənsub olmaqdan asılı idi. İyerarxiyanı sıxışdırıb aradan qaldırmaq gücündə olan sosial struktur şəbəkələrinə, bazara və ticarətə əsaslanan iqtisadiyyat və cəmiyyət, ancaq orta əsr Avropa şəhərlərində inkişaf etməyə başladı. Bu inkişaf bu gün də davam etməkdədir.

Ənənəvi iyerarxik cəmiyyətlər adətən durğunluq içində idi, onlar texnika və yaşayış tərzində əhəmiyyətli bir dəyişiklik etmədən minilliklər ərzində mövcud olmuşdu. Mədəniyyətli hamı tərəfindən qəbul edilən dəyərlər bu stabilliyi saxlayırdı. Hökmdarlar, sülalələr dəyişsə də, tabeçilik və hakimliyə əsaslanan idarəetmə sistemi dəyişməz qalırdı.

Kapitalizmin özünün cücərdiyi ticarət, bazar cəmiyyət müqayisə olunmaz dərəcədə çevik və dinamik olduğunu göstərdi. Məhz sərvət və nüfuzun əsasında torpaq yox, kapital durduğunu sübut etdi. Kapital isə daha dəyişkən və dinamikdir, rəqabət onun miqyaslarını da əsaslı surətdə cilaladı, həmişə hərəkətdə olmağa, axtarmağa, böyüməyə və artmağa sövq etdi. Avropadakı orta əsr islahatlarını dəyərlərin və mədəniyyətin dəyişməsinin bir fazası idi və dövrü Avropa ölkələrinin bir qismi üçün «intibah dövrü» də adlandırırlar. İngiltərə və Fransada XVII-XVIII əsrlərdə baş verən inqilablar da bu qəbildən idi və cəmiyyətdə modernləşmə üçün mühüm rol oynamışdı.

Lakin 1917-ci ildə Rusiyada baş verən «sosialist inqilabı» da ola bilsin, Rusiya imperiyası və orada yaşayan xalqların iqtisadi və mədəni tərəqqisində belə bir rol oynaya bilərdi. Ancaq o, ilk gündən timsalında rus feodalizminin sovetlərin timsalında ömrünü uzatmağa xidmət edən sosializm qurmaq ideyasını bəyan etdi. Stalin fransız inqilabından fərqli olaraq, Napoleonun, Burbonun rolunu oynadı. 74 il ərzində Sovet ittifaqı super gücə malik nəhəng dövlətə çevrilsə də, bütün resursları tükənərək 1991-ci ilin sonunda dağılmağa məhkum oldu. Bu müddət ərzində digər ölkələr iqtisadiyyatda, sosial münasibətlərdə və mədəniyyətdə ciddi inkişaf yoluna qədəm qoydular. Həmin dövr ərzində dəyərlər müəyyən dərəcədə dəyişsə də, sovet-feodal varlığını əks etdirən mahiyyətini itirmədi. Demokratik inqilab faktiki olaraq sıfırdan başladı və bu, nəhayət ki, baş verdi. Ölkə islahatlardan ən vacib dəyərləri: qiymətlərin, ticarətin, sahibkarlığın və xüsusi mülkiyyətin iqtisadi azadlığı qazanaraq, gələcək inkişaf üçün bir impuls əldə etdi. Prinsipcə bu yeni institutlar bir-birini tamamlayaraq, tədricən dəyərlər sistemini dəyişməyə başladı.

Bütün bu dəyişikliklər o demək deyildir ki, biz bütün dəyərlərimizi universal Qərb dəyərlərinə dəyişməliyik. Bütün mədəniyyətlərin üstün və zəif cəhətləri vardır, lakin onların hamısı eyni dərəcədə inkişafa təkan vermək, rəqabət aparmaq qabiliyyətinə malik deyil. Hər bir ölkə tərəfindən, iqlimindən, nəhayət, tarixi ənənələrindən asılı olaraq, müəyyən rəqabət üstünlüklərinə malikdir. Azərbaycan Qərb və Şərq sivilizasiyasının qovşağında, geostrateji bir mövqedə yerləşməsi, malik olduğu təbii iqlim şəraiti və zəngin netf-qaz ehtiyatları xalqımızın milli-dini dəyərlərə sadiqliyi, əməksevərliyi və işgüzarlığı, təhsilə həvəsi və s. kimi keyfiyyətlərinin müasir dövrdə şəxsiyyət azadlığı və digər liberal dəyərlərlə birgə, modernləşmə dəyərlərlə birgə, modernləşmə cəhdlərinə böyük təkan verə bilər.

Sivilizasiyalar arasında fərqlərin əhəmiyyətini və onun inkişafda göstərdiyi maneələrin miqyasını qiymətləndirmək üçün islam mədəniyyəti və dəyərlərinə də toxunmaq yerinə düşərdi. Bu gün dünyada müsəlmanların əksəriyyət təşkil etdiyi 57 islam ölkəsi mövcuddur və onların demək olar ki, hamısı İslam Konfransı təşkilatında təmsil olunmuşdur. Bu ölkələrin içərisində çox varlı ölkələr vardır, onların əksəriyyətində institut və dəyərlər daha mühafizəkardır, həm də əsasən təbii ehtiyatlar hesabına zəngindirlər. Məsələn, Səudiyyə Ərəbistanı adambaşına ÜDM-in həcminə görə inkişaf etmiş ölkələrdəkinə yaxın bir vəziyyətdədir. Bu ölkənin valyuta ehtiyatları 1,3 trln. ABŞ dollarına yaxındır. Ölkənin malik olduqları neft ehtiyatları əhalinin əksər hissəsinə yüksək yaşayış səviyyəsi təmin etməklə yanaşı, bu ölkənin adət-ənənələrini, xüsusən dini dəyərləri orta əsrlər səviyyəsində saxlamağa imkan verir. Son 20 ildə ölkə əhalisinin 2 dəfə artaraq 23 mln. nəfərə çatmasına baxmayaraq, ancaq indi cəmiyyətdə müəyyən islahatlar aparmaq söhbəti gedir və hələlik real bir addım atılmamışdır.

Neft hesabına yaşayan İran da ən çoxsaylı (73 mln. nəfər) İslam ölkəsi kimi 1970-ci il inqilabında ölkədə dərin siyasi-iqtisadi islahatlar aparmaq, demokratik liberal dəyərləri inkişaf etdirmək əvəzinə, Qərbyönümlü şah rejimini devirərək, əhalinin də dəstəyi ilə orta əsr dəyərlərinə əsaslanan ondan da mürtəce molla rejimi qurdular.

Türkiyə, Misir və Malayziya islam ölkələri arasında dünyəvi və daha mədəni inkişaf səviyyəsi ilə xarakterizə olunur. Türkiyə son 20 il ərzində iqtisadiyyat, elm və təhsil, texnologiya, turizm və xidmət sahələri sahəsində xeyli uğurlar əldə etmişdir və NATO üzvü olan yeganə müsəlman ölkəsidir. Ölkədə dünyəvi dəyərlər üstün olmaqla yanaşı demokratik təsisatlar da güclüdür. Parlamentli respublika olmaqla, hakimiyyət bölgüsünə ciddi əməl olunur, müstəqil ədliyyə-məhkəmə orqanları fəaliyyət göstərir. Ölkənin Konstitusiyası quruluşunu dəyişdirməyə və ərazi bütövlüyünü pozmağa vaxtaşırı cəhdlər qaldığına görə Atatürkün vaxtından Konstitusiya ilə qoyulan ənənələrə uyğun olaraq, bu gündə ordunun cəmiyyət həyatında, taleyüklü məsələlərin həllində rolu və nüfuzu böyükdür. Məhz son illərdə Türkiyədə «Ergenekon» əməliyyatı adı altında baş verən olaylar, cəmiyyətdə ordunun rolunun zəiflədilməsinə yönəldilmişdir. Təsadüfi deyildir ki, Türkiyənin Avropa Birliyinə daxil edilməsi üçün hərbçilərin rolunun azaldılmasına yönəldilən islahatlar aparılması tələbi, son vaxtlar ölkədə baş verən olaylarla əlaqədar daha da güclənir. Əlbəttə, İspaniyanın yuxarıda qeyd etdiyimiz kimi demokratikləşməsində vacib şərt olan – hərbçilərin ölkənin ictimai-siyasi həyatında rolunun azalmasını Türkiyə ilə eyniləşdirmək olmaz. İspaniyanın demokratikləşməsinə hər cür iqtisadi, mənəvi, siyasi və hətta hərbi dəstəyini göstərən Qərb ölkələri bunu nəinki Türkiyə üçün məqbul saymır, əksinə son illərdə Türkiyəyə hər il 10 il

mlrd. dollarla ziyan vuran (təkcə hərbi əməliyyatlara ən azı 8-9 mlrd. dollar) kürd separatçılarına hər cür yardım edirlər.

Misirdə son vaxtlara qədər qərbyönümlü olsa da, tam avtoritar Mübarək rejimi hökm sürürdü. Ərəb dünyasının ən mədəni və qədim tarixə malik ölkəsi olsa da, ancaq başqa ölkələrin nailiyyətlərini mənimsəməkdən o yana gedə bilmirdi, özü isə belə nailiyyətləri əldə etmək üçün heç cəhd də göstərmirdi. Misirin talantlı, qabiliyyətli kadrları, ziyalıları, əsasən kənar ölkələrdə, ən çox da Qərb ölkələrində özlərinə karyera üçün yer tapırdılar. Bütün bunlar Misir inqilabını şərtləndirən amillər idi.

Malayziya – «çatan inkişaf» modeli əsasında böyük nailiyyətlər əldə edən yeganə müsəlman ölkəsidir. Lakin bu nailiyyətləri təkcə islam dəyərlərinə yazmaq mümkün deyildir. Ölkə əhalisinin cəmi 20%-i çin icmasından (konfusiliyə etiqad edən) ibarət olmasına baxmayaraq, ölkə biznesinin əksəriyyəti bu icmaya məxsusdur, eyni zamanda ixracyönlü istehsal sahələrinə çox böyük həcmdə xarici investisiyalar qoyulmuşdur.

İslam ölkələrinin son onilliklərində təcrübəsi göstərir ki, onların modernləşmə, siyasi-iqtisadi islahatlar yolunda inkişafı daha çox problemlərlə üzləşir. Keçmiş sovet islam respublikalarından ancaq Qazaxıstanın və Azərbaycanın, qismən də Qırğızıstanın bu sahədə problemləri daha az olacaqdır.

Azərbaycanda Konstitusiyaya görə prezident idarə üsulunun mövcudluğu ölkədə icra orqanlarının rolunu əhəmiyyətli dərəcədə artırmışdır. Bu gün yalnız ölkə prezidentinin xalq arasında yüksək reytinqi vardır. İstənilən ranqda dövlət məmurunun, Milli Məclis deputatlarının, müxalifət liderlərinin, elm, təhsil, mədəniyyət nümayəndələrinin reytinqləri, nüfuzları müqayisə olunmaz dərəcədə aşağıdır. Bu gün Azərbaycanda təşəkkül tapan ənənələrin real bazar iqtisadi münasibətlərinə söykənmədiyini və bazar iqtisadiyyatının sovet iqtisadiyyatından fərqli olaraq, iyerarxiyasız yaşamağa qabil olduğunu qəbul etsək, onda, hakimiyyətdən istifadə mexanizmlərinin təkmilləşdirilməsini önə çəkməliyik. Bununla, xalqın inam radiusunu da xeyli genişləndirmək olar.

Azərbaycan hakimiyyəti qarşısında real olaraq, tabeçilik və avtoritarizm iyerarxiyasının həllində çox çətin problemlər durur. Bu – ilk növbədə, vətəndaşların passivliyi, onların paternalizmə meylliyi, öz hüquq və azadlıqlarını müdafiə etmək əvəzinə itaətkar olmaqla daha çox oğurlamağa üstünlük vermələri ilə bağlıdır. Bu zaman, praktikada vətəndaşları özfəaliyyət əvəzinə – güclə, qorxu və əmrlə istədikləri hərəkətə məcbur etmək daha asandır. Lakin hamıya aydın olmalıdır ki, sovet dövründən qalma, bəlkə də, milli mentalitetimizin özəyində duran bir sıra mənfi ənənələrin aradan qaldırılması üçün təkcə məlum idarəetmə vasitələri kifayət deyildir. Bu, ancaq ölkəmizin iqtisadi inkişafına, onun sosial-mədəni tərəqqisinə mane olan və ya ləngidən institutların güclənməsinə, yaxud yenidən bərpasına xidmət edər.

Bu gün ölkəmizdə sovet dövrü ilə müqayisədə cinayətkarlığın artması faktı arxasında bir sıra amillər durur. *Korrupsiya* – daha ağır və çətin həll olunan problemdir. Bu fenomen inkişafın səviyyəsindən asılı olmayaraq, bütün ölkələr üçün xasdır və bütün dünyada həmin bəlaya qarşı ciddi mübarizə aparılır. Burada əsas problem – əhalinin korrupsiyaya laqeyd, etinasız münasibətidir, onların əksəriyyəti belə düşünür ki, rüşvətsiz onlar heç nəyi həll edə bilməzlər, yaxud rüşvət verməsələr işləri tamam dolaşa bilər. Bəzən vətəndaşlar qanunazidd hərəkətlərini (cinayət və s.), yaxud qanunla qadağan olan müəyyən işlərini də (torpaq sahələri, mənzil tikintisi və ya alqı-satqısı, işədüzəlmə, ali məktəblərə qəbul və ya sessiya imtahanları

və s.) rüşvətlə həll etməyə üstünlük verirlər. Buna görə də, korrupsiyanın aradan qaldırılmasında, bütün cəmiyyət iştirak etməli, hər bir vətəndaş korrupsiyaya qarşı dözümsüzlük göstərməlidir. Bu isə ancaq bütün cəmiyyət üzvlərinin hakimiyyətə inamının güclənməsi əsasında mümkündür.

*Gizli iqtisadiyyat* da vətəndaşların və biznesin keçid dövrünə uyğunlaşması mülkiyyətin qanunsuz ələ keçirilməsinin və vergidən yayınmasının bir üsulu kimi mövcuddur. Lakin son dövrlərdə ölkədə gedən proseslər gizli iqtisadiyyatın leqallaşmasına imkan verdiyindən, onun miqyası bir qədər azalmışdır.

Azərbaycanın XXI əsrə uyğun rifahı üçün iqtisadiyyatımız postindustrial cəmiyyətin tələblərinə cavab verən, yəni innovasiya və yüksəkixtisaslı əməyi özündə əks etdirən mal və xidmətlər istehsal etməyi və onu dünya bazarında satmağı öyrənməlidir. Əlbəttə, bu gün dünya bazarına çıxardığımız, mahiyyətcə rəqabətqabiliyyətli sayılan neft-qaz sərvətlərimizin əhəmiyyəti az deyildir. Allahın bizə verdiyi bu nemətlərin ehtiyatı çox olsa da, əbədi deyildir, uzağı 30 ildən sonra bu ehtiyatlar da tükənəcəkdir. Həm də bu ehtiyatlardan istifadə üçün xüsusi mədəniyyət və dəyərlər sistemi yaratmağa da ehtiyac yoxdur. Lakin neft-qaz məhsullarından əldə edilən gəlirlər sabit deyildir və onun həcmi dünya bazarlarındakı qiymətlərdən, həmin məhsullar tələbdən asılı olaraq daima dəyişir. 2008-ci ilin mayında başlayan maliyyə böhranı nəticəsində, qısa müddətdə dünya bazarında neftin qiyməti – 1 barrel üçün 147 dollardan 70 dollara, ilin sonuna – 40 dollara qədər aşağı düşmüşdü. Bunun nəticəsində, Azərbaycanın dövlət büdcəsi 2008-ci il üçün 3 mlrd. dollara qədər vəsaitdən məhrum olmuşdur və bu proses indi də davam etməkdədir. Dünyanın inkişaf etmiş ölkələrində inkişaf tempinin azaldığı, yaxın vaxtlarda dünya üzrə orta illik artım tempinin 2-3%-dən yuxarı olmayacağı bir şəraitdə neft xammalına tələb də təxminən o səviyyədə qalacağı bir şəraitdə, neft gəlirlərinə ümid etmək mənasızdır. Düzdür, hələlik dünya böhranının ən azı toxunduğu və bu böhranın nəticələrinin ən tez aradan qaldırılacağı ölkələrdən biri Azərbaycan sayılır.

Buna görə də, ölkəmizin digər ölkələrlə müqayisədə stabil inkişafını təmin etmək, dünyanın iqtisadi və texnoloji tərəqqisinin iştirakçısı olmaq üçün rəqabətqabiliyyətli məhsul istehsal etməyi öyrənmək lazımdır. Belə məhsullar Azərbaycanın ixrac etdiyi məhsullar içərisində çox cüzidir və çox məhdud bazalar üçün nəzərdə tutulmuşdur. Hazırda yerli kənd təsərrüfatı istehsalına və onun emalına əsaslanan rəqabətqabiliyyətli və ekoloji cəhətdən təmiz qida məhsulları ixrac etmək üçün böyük imkanlar vardır. Ölkəmizin mövcud büdcə imkanları neft maşınqayırması, kənd təsərrüfatı maşın və mexanizmləri istehsalını təşkil etməyə imkan verir. İnformasiya texnologiyalarının inkişafı, onun həm ölkədə geniş yayılması, həm də ixraca yönəldilməsi üçün də ölkəmizin böyük intellektual və kadr potensialı vardır.

Təbii ki, xalqımızın dəyərlər sisteminin dəyişmə yolunda da ciddi addımlar atılmalıdır. Bunu hər hansı sərəncam, qanun və ya proqramla həyata keçirmək mümkün deyildir. Hər şeydən əvvəl, instusional islahatlar müəyyən ardıcıllıqla, qətiyyətlə davam etdirilməlidir. Bu islahatların ardıcıllığı da məlumdur: 1) bürokratik əngəllərin və müdaxilələrin, hər cür süni inzibati tənzimləmə metodlarının aradan qaldırılması; 2) inzibati idarəetmə dövlət sektoru, hərbi, hüquq-mühafizə, məhkəmə, təhsil, səhiyyə islahatlarının aparılması;) təbii inhisarlarda, mənzil-kommunal təsərrüfatında qeyri-bazar sektoru ixtisar olunmalı, natural güzəştlər ləğv edilməklə əhalinin pul gəlirləri artırılmalıdır, ən başlıcası, məhsuldar dəyərlərin formalaşması üçün rəqabətin gücləndirilməsi və ona bərabər şəraitin yaradılması təmin olunmalıdır; 4)

demokratikləşmə prosesi ardıcıl olaraq, heç bir istisnalar olmadan, yəni «hələ xalq o səviyyəyə çatmayıb», «rəhbərimiz bilən yaxşıdır» və s. demokratik qayda və prosedurlara əməl etməklə davam etdirilməlidir.

Demokratiya bərqərar olmadan xalqın inamını qazanmaq mümkün deyildir, bunsuz, azadlıq hərki-hərkiliyi, hər cür özbaşınalığı əvəz edə bilməz. Bunsuz, hakimiyyətdən *«vizantiya ənənələri»* ilə istifadədən də imtina etmək müyəssər olmayacaqdır. Bunun sayəsində, yerli özünüidarəetmənin səviyyəsi, təbii ki, burada yerli əhalinin təmsil edənlərin də orta mədəniyyəti yüksələcəkdir. Bununla, hakimiyyətin kütləvi informasiya vasitələri üzərində daimi təzyiqlərinə də yer və ehtiyac qalmayacaqdır; 5) hakimiyyətin, siyasətin və ictimai həyatın humanizasiyasına diqqət artırılmalıdır. Hakimiyyətin vətəndaşlarla sərt davranışlarına son qoyulmalıdır. Hazırda ölkədə əhalinin gəlirləri və maddi təminatında böyük fərqlər vardır. Belə vəziyyətdə cinayətkarlıq, korrupsiya və gizli iqtisadiyyatla mübarizədən heç bir şey gözləməyə dəyməz. Əlbəttə, əmək haqqı və sosial təminatların artımı iqtisadiyyatın artma imkanlarını qabaqlaya bilməz, lakin vətəndaşların aldığı maaş və müavinətlər onların ləyaqətli, ən azı yaşayış minimumunu təmin etməlidir. Humanizasiya – vətəndaş cəmiyyətinin ən başlıca şərti, cəmiyyətdə həmrəyliyin, ümumiliyin, inamın artmasının əsasıdır. Vətəndaşlara qarşı tələbkarlıq onların sosial məsuliyyəti və insani yaşantıları ilə əlaqələndirilməlidir.

Bütün bu deyilənlər, dünyada baş verən hadisələr, Qarabağ probleminin getdikcə daha möhkəm düyünə düşməsi, Azərbaycanın «Əsrin müqaviləsi»ndə çox güzəştlərə getdiyi «böyük və kiçik» ölkələrin dönüklüyü, cəmiyyətimizdə hələ də normal vətəndaş həmrəyliyinin təşəkkül tapmaması fonunda modernləşmə vəzifələrinin təxirə salınmadan həll edilməsini daha da aktuallaşdırır. İqtisadiyyatda modernləşmənin növbəti vəzifələri – Azərbaycan cəmiyyətinin gələcək inkişafını və tərəqqisini təmin etməyə qadir müvafiq sosial strukturlarının yaradılmasını tələb edir ki, bunu da mədən-mənəvi dəyərlər sistemini dəyişdirmədən, cəmiyyətin humanizasiyasını reallaşdırmadan mümkün deyildir.

**Ədəbiyyat siyahısı**


1. Альтернативы модернизации российской экономики / Под ред. Бузгалина А. и др. М., 1997. - 448 с.
2. Azərbaycanın statistik göstəriciləri 2000, Bakı 2000, «Səda».-756 s.
3. Azərbaycanın statistik göstəriciləri 2008, Bakı 2008 «Səda».- 768 s.
4. Бобнева М. И. , Дорофеев Е. Д. Изменение ценностных систем личности в период преобразования общества// Ценностное сознание личности в период преобразования общества. М.: Изд-во ИП РАН, 1997.- 436 с.
5. Большой экономический словарь. Автор и составитель А.Б.Борисов. Изд. 2-е. М., «Книжный мир», 2007.- 895 с.
6. Бызов Л.Г. Социокультурная трансформация российского общества и формирование неоконсервативной идентичности // Мир России. 2002. №1.-
7. Инглхарт Р. Культура и демократия. Культура имеет значение. Московская школа политич.2004,167 с.
8. Колганов А.И. Путь к социализму: трагедия и подвиг. – М., 1990, 162 с.
9. Румянцева Е.Е. Новая экономическая энциклопедия. Второе издание. Москва, ИНФРА-М, 2006, 810с.

# XXI ƏSRİN QLOBAL ÇAĞIRIŞLARI VƏ AZƏRBAYCAN RESPUBLİKASININ SOSİAL İNKİŞAFI MƏSƏLƏLƏRİ

***Dr. Rəşad HÜSEYNOV***
*Azərbaycan Dövlət İqtisad Universiteti, rashadhuseynov@rambler.ru*

## Xülasə

Bu gün müasir dünya özünün mərəkkəbliyi, daha çox açıqlığı, qeyri-sabitliyi, burada baş verən proseslərin xaotikliyi ilə xarakterizə olunur və sürətli dəyişikliklər, çoxsaylı sosial, iqtisadi, siyasi, ekoloji, texniki-texnoloji xarakterli böhranlarla «zənginləşir». Baş verən bu proseslər müxtəlif ölkələrin institusional, elmi-texniki, sosial-iqtisadi inkişaf səviyyəsindən asılı olaraq fərqli tərzdə özünü büruzə verməklə, müasir dünyanı, cəmiyyəti bir çox risqlərlə üz-üzə qoyur və onun inkişafı istiqamətində yeni təhlükələr, təhdidlər yaradır. Ona görə də bu günki müasir şəraitdə cəmiyyət həyatının bütün sferalarınada, münasibətlərdə özünü əks etdirən, cəmiyyət üçün təhlükəli olan qlobal miqyaslı problemlərin səbəb olduqları təhlükələrin, yaratdıqları təhdidlərin inkişaf proseslərinə təsirlərinin araşdırılması və onların aradan qaldırılması imkanlarının öyrənilməsi olduqca vacibdir. Tədqiqatın əsas məqsədi XX əsrin sonu XXI əsrdə bəşəriyyəti, insan cəmiyyətini narahat edən qlobal xarakterli əsas problemləri, onların səbəb olduqları sosial təhlükələri, eləcə də, sosial inkişafa təsirlərini araşdırmaq, XXI əsrin sosial çağırışları fonunda Azərbaycan reallıqlarını öyrənmək, mövcud vəziyyəti təhlil etmək və bu istiqamətdə təklif və tövsiyələr verməkdən ibarətdir.

**Açar sözlər:** sosial çağırış; qlobal problemlər; sosial inkişaf; sosial-iqtisadi təhlükəsizlik; Minilliyin İnkişafı Məqsədləri.

## CHALLENGES OF THE XXI CENTURY AND THE SOCIAL DEVELOPMENT OF THE AZERBAIJAN REPUBLIC

Today, the modern world is characterized by its complexity, greater openness, instability and chaotic processes occurring here, rapid changes in "enriched" crisis of social, economic, political, environmental, technical and technological nature. These processes are variously manifesting itself depending on the level of institutional, scientific, technical and socio-economic development, put the modern world and society face to face with a multitude of risks and create new risks and threats to development. Therefore, under present conditions it is extremely important to identify reflected in all spheres of social life and relationships, and dangerous for the society problems on a global scale, creating a threat affecting the development process and explore the possibilities of overcoming them. The main objective of the study. It consists in the analysis of the major global issues of concern to humanity and human society is the end XX - early XXI century, the study of the social dangers posed by them, as well as their impact on social development, the study of the realities of Azerbaijan on the background of the social challenges of the XXI century.The research work done on the basis of scientific abstraction and system analysis, as well as methods of logical generalization.The practical significance of the study - can play a positive role in enriching the academic and practical knowledge of experts, conducting research and working in the social sphere.

**Key words:** social challenge, global issues, social development, socio-economic security, the Millennium Development Goals.

**JEL Classification Codes:H 55; I15; P36:**

Bu gün müasir dünya özünün mərəkkəbliyi, daha çox açıqlığı, qeyri-sabitliyi, burada baş verən proseslərin xaotikliyi ilə xarakterizə olunur və sürətli dəyişikliklər, çoxsaylı müxtəlif xarakterli sosial, iqtisadi, siyasi, ekoloji, texniki-texnoloji böhranlarla «zənginləşir». Baş verən bütün bu proseslər müasir dünyanın inkişafına, onun xarakterinə, məzmununa, tem-

pinə əhəmiyyətli dərəcədə təsir göstərməkdədir və cəmiyyət həyatının bütün sahələrində, sferalarında, bütün münasibətlərdə özünü əks etdirir. Bu gün müasir inkişafın real nəticəsi, sivilizasiyanın tərəqqisinin yeni mərhələsi olan qloballaşma prosesinin özü də ziddiyyətlər, böhranlar fonunda inkişaf etməkdə, dərinləşməkdədir. Belə bir inkişaf kontekstində cəmiyyətin üzləşdiyi problemlər qlobal məzmun kəsb edir və onlar sivilizasiyanın təhlükəsizliyi baxımından qlobal xarakterli təhdidlərə çevrilir. Təəssüflər olsun ki, insan cəmiyyəti hələ də qarşılaşdığı iqtisadi, sosial, ekoloji, hərbi-siyasi sə digər məzmunlu qlobal təhlükələrdən tam sığortalana bilməmiş və onların qarşısını almaq üçün etibarlı vasitələr axtarışındadır. Bu kontekstdə cəmiyyətdə sosial-iqtisadi və ictimai-siyasi inkişafın yeni paradiqmalarının müəyyən olunması, yeni oriyentirlərin tapılması zərurəti getdikcə aktuallaşır.

Bu gün qloballaşma prosesinin inkişafı fonunda təzahür edən ziddiyyətlər institusional, elmi-texniki, sosial-iqtisadi inkişaf səviyyəsindən asılı olaraq fərqli tərzdə özünü büruzə verir. Qloballaşma proselərinin doğurduğu çoxsaylı ziddiyyətlər ictimai həyatın bir çox sahələrində cəmiyyətin inkişafı üçün yeni təhlükələr, təhdidlər yaradır. Ona görə bəzən bugünki cəmiyyət «risqlər cəmiyyəti» yaxud da «risqli cəmiyyət» (8) kimi qiymətləndirilir və əvvəldə də qeyd etdiyimiz kimi, xaotik, qabaqcadan nəzərdə tutlmayan vəziyyətlər, situasiyalarla qarşılaşır. Bu isə yeni inkişaf strategiyasının işlənməsi baxımından aletrnativlərin müəyyənləşdirilməsinin aktuallığını, əhəmiyyətini getdicə artırmaqdadır.

İctima həyatın bir çox sahələrində baş verən dəyişikliklər, yaranan ziddiyyətlər istər-istəməz ətraf aləmdə, cəmiyyətdə baş verən proseslərə, onun həyat fəaliyyətinə, öz təsirlərini göstərərək, müxtəlif problemlərin yaranmasına səbəb olur. Bir çox hallarda cəmiyyətdəki proseslərin tənzimlənməsi də çətinləşir, hətta tədqiqatçıların qeyd etdiyi kimi, digərləri ilə yanaşı sosial proseslərə nəzarət imkanları da məhdudlaşır (7, 70-71). Ona görə də bu günki müasir inkişaf mərhələsində insan cəmiyyəti üçün problem xarakterli proseslərin, onun inkişafı üçün yaranan təhdidlərin araşdırılması, onların həlli imkanlarının müəyyənləşdirilməsi olduqca vacibdir.

**Dünya demoqrafik böhran qarşısında.** Bu gün dünya iqtisadiyyatının inkişafında, insan cəmiyyətinin gələcəyi üçün kifayət qədər ciddi əhəmiyyət kəsb edən problemlər içərisində demoqrafik problemlər xüsusilə seçilir və baş verən demoqrafik meyllərin təsirinin araşdırılması, onun bir növ idarə edilməsi məsələləri xüsusi aktuallıq kəsb edir. Hazırda dünya əhalisinin sayı sürətlə artmaqdadır. Hər il yer planetinin əhalisi orta hesabla 90 mln.nəfər artır. BMT ekspertlərinin hesablamalarına görə 2050-ci ilədək dünyanın əhalisi 9,4 mlrd., 2100-cü ildə 10,4 mlrd., 2150-ci ildə isə 10,8 mlrd. nəfər olacaq. Onu da qeyd edək ki, əhalinin artımı bu gün daha çox yoxsul və inkişaf etməkdə olan ölkələrdə müşahidə olunur və hər il dünya əhalisinin artımının 95%-i məhz bu ölkələrin payına düşür. İnkişaf etmiş ölkələrdə isə əksinə, əhalinin sayının azalması müşahidə olunur. Bu da əhalinin demoqrafik qocalması probleminin yaranmasına gətirib çıxarır. Məhz bunun nəticəsidir ki, hər il dünya əhalisinin strukturunda ahıl yaşlı insanların sayı 2% artır. Əsrin ortalarınadək bu göstəricinin 2,8%-ə çatması gözlənilir. Deməli, bu əhali kateqoriyasının artım tempi ümumilikdə dünya əhalisinin artım tempini üstələyir. Hətta, 2050-ci ilədək dünya əhalisinin strukturunda ahıl yaşlı insanların sayının gənclərin ümumi sayını ötməsi proqnozlaşdırılır. 1950-ci ildə bu kateqoriya əhalinin dünya əhalisinin ümumi sayında xüsusi çəkisi 8%, 2000-ci ildə 10% təşkil edirdisə, 2025-ci ildə bu rəqəmin 15%, 2050-ci ildə isə 21% olacağı proqnozlaşdırılır. 2050-ci

ilədək uşaqların sayının isə dünya əhalisinin strukturunda 30%-dən 21%-ədək azalacaq. Artıq inkişaf etmiş ölkələrdə ahıl yaşlı əhalinin sayı uşaqların sayını ötmüş, əhalinin geniş təkrar istehsalı üçün doğumun səviyyəsi aşağı düşmüşdür (15). Deməli, ahıl yaşlı insanların sayının artması gənc yaşda olanların (15 yaşadək) azalması fonunda daha da sürətlənir və bütövlükdə insan cəmiyyətinin, dünyanın inkişafı üçün kifayət qədər ciddi xarakter almaqdadır və artıq dünya əhalisi bunun mənfi təsirlərini hiss etməkdədir.

**Miqrasiya axınlarının güclənməsi və insan alveri.** Bu gün dünya ölkələrinin üzləşdirləri demoqrafik problemlər, eləcə də ölkələr arasında inteqrasiya proseslərinin dərinləşməsi miqrasiya axınlarının sürətlənməsi, beynəlxalq miqrasiya meyllərinin dəyişməsinə səbəb olmuşdur. Son on illiklər ərzində inkişaf etmiş ölkələrdə yaranan demoqrafik problemlər, xüsusilə də əhalinin sayının azalması və demoqrafik qocalmanın səbəb olduğu işçi qüvvəsinə artan tələbat, iqtisadi və siyasi sistemlərdə baş verən qlobal dəyişikliklər fonunda ölkələr arasında qarşılıqlı əlaqələr və asılılığın güclənməsi miqrasiya axınlarını daha da sürətləndirmiş və bu prosesin yeni bir keyfiyyətdə inkişafına səbəb olmuşdur. 1960-ci illərdə dünyanın 27 ölkəsində əhalinin 10%-ni miqrantlar təşkil edirdisə, 2005-ci ildə bu nisbət 50%-ə yüksəlmişdir. Məhz bu mənada intensivləşən miqrasiya prosesləri yeni fərqləndirici xüsusiyyətlər kəsb etməkdədir: miqrasiya proseslərinin miqayası və coğrafiyasının misli görünməmiş səviyyədə inkişafı; beynəlxalq miqrasiya axınlarının strukturunun transformasiyası; iqtisadi səbəblərlə əlaqədar olaraq əmək miqrasiyasının genişlənməsi; qeyri-leqal miqrasiyanın sürətlə, durmadan artması və struktur baxımından «qeyri-müəyyən» xarakter alması; məcburi miqrasiyanın miqyası və və coğrafiyasının genişlənməsi; müasir dünyanın demoqrafik inkişafında əhalinin beynəlxalq miqrasiyasının əhəmiyyətinin artması; müasir miqrasiya proseslərinin ikili xarakter alması (5).

Məhz bu xarakterik əlamətlər onu deməyə əsas verir ki, bu gün miqrasiya prosesi həm miqyası, həm də təsir dairəsi baxımından qlobal xarakter almaqla, öz növbəsində digər qlobal proseslərə də yol açır. Demək olar ki, bu gün bütün dünya ölkələri bu və ya digər dərəcədə miqrasiya proseslərinə qoşulmaqdadırlar. Onların bu proseslərdə iştirakı müxtəlif səbəblərlə, o cümlədən, əvvəldə qeyd etdiyimiz kimi müxtəlif ölkələrdə baş verən demoqrafik proseslərlə əlaqədardır. Əhali ilə bağlı yaranan problemlər digər sferaların, o cümlədən müxtəlif iqtisadi fəaliyyət sferalarına ciddi mənfi təsirlər göstərir.

Deməli, qloballaşan dünyada əhalinin milli, regional və beynəlxalq səviyyədə mobilliyinin artması dünya ölkələri üçün həm sosial problemlərin həlli üçün kifayət qədər təsirli bir amil kimi çıxış edir, həm də əlavə sosial problemlər yaradır. Belə ki, bu gün milli işçi qüvvəsinin qocalması və əhalisinin sayının azalması problemi ilə üzləşə inkişaf etmiş ölkələr üçün bu problemin həllində miqrasiya işçi çatışmazlığını aradan qaldıran real alternativ potensial kimi qiymətləndirilir (19, 67-68). Elə bu baxımdan da miqrasiya dünya miqyasında işçi qüvvəsinin mobilliyini artıran qlobal təsirə malik bir mexanizm rolunu oynamaqla, son illər əmək miqrantlarını qəbul edən ölkələrdə iqtisadi fəal əhalinin strukturunda ciddi nisbət dəyişikliklərinə səbəb olmaqdadır.

Digər tərəfdən, bu gün qlobal miqyasda ölkələr arasında ciddi inkişaf fərqlərinin meydana gəlməsi, beynəlxalq səviyyədə cinayətkar şəbəkələrin fəaliyyətinin genişlənməsi və digər çoxsaylı sosial, iqtisadi, siyasi səbəblərlə əlaqədar olaraq qeyri-leqal miqrasiya da genişləməkdədir. İnsanların təkcə əmək miqrasiyası məqsədilə deyil, həm də qanunsuz şəkildə ölkələr arasında belə demək mümkünsə, daşınması və bu proseslər fonunda insan alverinin daha geniş vüsət alması XXI əsrin çox qorxulu, dəhşətli sosial, iqtisadi, hüquqi,

siyasi, mənəvi, etik xarakterli probleminə çevrilmişdir. Beynəlxalq təşkilatların hesablamalarına görə cinayətkar qruplaşmaların qeyri-qanuni miqrasiyadan əldə etdikləri gəlirlərin həcmi ildə 10-12 mlrd. ABŞ dollarına çatır ki, bu da silah və narkotik ticarətindən sonra, əldə edilən gəlirlərin həcminə görə dünyada üçüncü yerdə durur. Beynəlxalq miqrasiya təşkilatının məlumatlarına görə təkcə Avropada hər il 200 milyondan çox insan insan alverinin qurbanına çevrilirlər. Təssüflər olsun ki, bu qurbanların əksəriyyəti qadınlar və uşaqlardır. Bu proses nəticəsində XX əsrin sonu XXI əsrin əvvəllərində insan əməyinin xüsusi, ağlasığmaz istismarı formalarının yaranması və yayılması insan cəmmiyyəti, sivilizasiya üçün ciddi sosial təhlükələr yaradır.

**Dünya yoxsulluq problemi qarşısında.** XXI əsrin çox ciddi, bəlalı problemlərindən biri də yoxsulluq problemidir. Bu gün dünya təsərrüfatı sisteminin inkişafına, sürətli elmi-texniki tərəqqinin yaratdığı imkanlara baxmayaraq, dünya ölkələri yoxsulluq problemini tam şəkildə həll edə bilmirlər və bu problemin həllində acizdirlər. Təsadüfi deyil ki, BMT-nin 2000-ci ildə qəbul etdiyi «Minilliyin inkişafı məqsədləri» proqramında irəli sürülən səkkiz məqsəddən birincisi məhz dünyada yoxsulluğun, kasıbçılığın və ona səbəb olan qeyri-bərabərliyin aradan qaldırılması olmuşdur.

Yüksək inkişaf etmiş ölkələr bu gün öz üstünlüklərindən və hərbi güclərindən, imkanlarından istifadə edərək zəif inkişaf etmiş ölkələrin resurslarını mənimsəyərək, öz potensiallarını daha da artırırlar. Onu demək kifayətdir ki, dünya gəlirlərinin 80%-i dünya əhalisinin 20%-nin əlində cəmləşmişdir. Belə qeyri-bərabər bölüşdürmənin nəticəsidir ki, bu gün 1 mlrd. insan xroniki aclıq içərisindədir, hər 10 dəqiqədən bir 300 insan bu bəlanın qurbanı olur. Son onilliklər ərzində yoxsulluğun səviyyəsinin azaldılması istiqamətində genişmiqyaslı fəaliyyətin həyata keçirilməsinə baxmayaraq, bu, dünya üçün, xüsusilə də aşağı gəlirli ölkələr üçün hələ də əsas problemlərdən biri olaraq qalmaqdadır. Ona görə də bu problemin həlli və onun təsirlərinin aradan qaldırılması istiqamətində bir çox dövlətlər və beynəlxalq təşkilatlar səylərini birləşdirir, genişmiqyaslı proqramlar həyata keçirirlər. Məhz bu baxımdan analitiklər bu problemin həlli yollarını həm ölkələrin özlərinin daxilində, həm də bu istiqamətdə xaricdən yardımların rolunu müsbət qiymətləndirirlər. Ona görə də burada iki məsələyə xüsusi diqqət yetirilir. Birincisi, yoxsulluğun azaldılması istiqamətində effektiv strategiyanın işlənməsi. İkincisi, xarici əməkdaşlığın daha mükəmməl formasının seçilməsi və birgə fəaliyyətə üstünlük verilməsi (13). Bunula yanaşı, bugünki şəraitdə yoxsulluğun azaldılması strategiyasının səmərəliliyinin artırılmasında özəl sektorla vətəndaş cəmiyyətinin birgə fəaliyyətinin təmin edilməsi də mühüm əhəmiyyət kəsb edir.

**Dünyanın içməli su ehtiyatlarının tükənməsi.** İçməli su ehtiyatlarının çatışmazlığı və normal sanitar şəraitlə təminatın aşağı səviyyədə olması XXI əsrin çox ciddi problemlərindən birinə çevrilmişdir. Hazırda 1,1 mlrd. insan təmiz sudan istifadə imkanlarından, minimum səviyyədə gigiyenik ehtiyaclarını ödəmək üçün isə 2,6 mlrd. insan məhrumdur. 2015-ci ilədək dünya əhalisinin 1,8 mlrd. nəfərinin mütləq su çatışmazlığı olan ölkələrdə və regionlarda yaşayacağı, üçdə iki hissəsinin isə su təchizatı məhdud olan şəraitdə yaşayacağı proqnozlaşdırılır. BMT-nin məlumatlarına görə 2000-ci ildə dünyada su çatışmazlığı ildə 230 mlrd.$m^3$ təşkil edirdisə, 2025-ci ildə bu 1,3-2,0 trln.$m^3$ –ə çatacaq və dünya əhalisinin 47%-i şirin su çatışmazlığı probleminin təsirinə məruz qalacaq. Deməli, getdikcə su çatışmazlığı problemi yer planeti və onun əhalisi üçün çox ciddi xarakter alır. XXI əsrdə içməli su istehlakının tempi də yer kürəsi əhalisinin artım tempini 2 dəfədən çox üstələmişdir. Bunun

nəticəsidir ki, bu gün inkişaf etməkdə olan ölkələrdə xəstəliklərin 80%-ə qədəri suyun keyfiyyəti ilə bağlıdır ki, bu səbəbdən də həmin ölkələrdə müxtəlif yoluxucu, infeksion xəstəliklərin yayılması nəticəsində hər il 3 mln. çox insan ölür, hər gün isə diareyadan 5000 uşaq ölür, yəni hər 17 saniyəyə 1 uşaq həyatını itirir. Təmizlənməmiş su və pis kanalizasiya şəraiti digər səbəblərlə müqayisədə daha çox insan itkisinə səbəb ola bilər. Məhz əhalinin su təchizatının yaxşılaşdırılması, suyun təmizlənməsi, su resurslarının səmərəli idarə edilməsi, sanitar-gigiyenik şəratin yaxşılaşdırılması dünyada xəstəliklərin 10%-nin qarşısının alınmasına imkan verər (26).

Əhalinin şəhərlərə axını, urbanlaşma prosesinin sürətlənməsi və bunun nəticəsində sənayedə və məişətdə şirin su istehlakının artması, eləcə də inkişaf etmiş ölkələrdə həyat səviyyəsinin yüksəlməsi, baş verən sürətli iqlim dəyişiklikləri, digər tərəfdən də içməli su mənbələrinin ehtiyatlarından kənd təsərrüfatı məqsədləri üçün istifadə olunması bu problemi daha da dərinləşdirir. Statistik məlumatlara görə dünyanın şirin su ehtiyatlarının 70%-ə qədəri aqrar sektorda istehlak olunur, inkişaf etməkdə olan ölkələrdə isə bu rəqəm 95%-ə çatır. Lakin fikrimizcə, bu amillərlə yanaşı, insanın təbiətə təsirləri, sudan istifadə metodlarının günün tələblərinə cavab verməməsi kimi məsələlər də bu problemin təhlükəlilik dərəcəsiəni artırır.

Işməli su problemi ərzaq istehsalının azalması, ərzaq təhlükəsizliyi üçün təhdidlərın yaranması və digər mənfi nəticələrə gətirib çıxarır. Hətta bu, problem yoxsulluğun əsas səbəblərindən biri kimi də qiymətləndirilir. BMT analitiklərinin fikrincə, sudan istifadə imkanlarının getdikcə məhdudlaşması ölkələr, şəhərlər, kəndlər və qəsəbələr arasında belə demək mümkünsə, su uğrunda mübarizənin güclənməsi və problemin sürətlə dərinləşərək, siyasi xarakter almasına gətirib çıxaracaq (12, 21-22). Ona görə də müasir texniki-texnoloji inkişaf imkanlarından istifadə edərək, planetin su ehtiyatlarından səmərəli istifadə yollarının tapılması, ölkələr səviyyəsində bu sahədə təkmil, çevik idarəetmə mexanizmlərinin tətbiqi olduqca vacib bir məsələdir.

**Dünya ərzaq problemi və ərzaq təhlükəsizliyi.** İnsanın həyat fəaliyyətinin genişlənməsi şəraitində onun özünün inkişafı, eləcə də müasir texniki-texnoloxi inkişaf səviyyəsindən irəli gələn ziddiyyətlər XX əsrin ikinci yarısından başlayaraq ərzaq probleminin qlobal problemə çevrilməsinə səbəb olmuşdur. Bu gün də dünyanın bir çox ölkələrində, xüsusilə, inkişaf etməkdə olan, zəif inkişaf etmiş ölkələrdə ac-yalavac, yarıac-yarıtox şəraitdə yaşayan, aclıqdan ölən, doyunca yeməyə ehtiyacı olan milyonlarla insan vardır. Beynəlxalq səhiyyə təşkilatı və BMT-nin ərzaq təhlükəsizliyi təşkilatının ekspertlərinin qiymətləndirmələrinə görə insanın normal həyat fəaliyyəti üçün sutkada 2400-2800 kkal enerji tələb olunur. Lakin bü gun dünyada qeyd olunan norma daxilində 1000 kkal və ondan da az enerji qəbul edən 800 mln. çox və 1000-1800 kkal enerji qəbul edən 1,5 mlrd.insan yaşayır. Deməli, yer planetinin 40%-ə qədəri aclıq və kifayət qədər qidalana bilmir, yarıac-yarıtoxluqdan əziyyət çəkir (18).

Ərzaq təhlükəsizliyi problemi ərzaq istehsalı və kənd təsərrüfatı sektorundakı, bütövlükdə, iqtisadi sistemin fəaliyyətindəki çatışmazlıqlardan irəli gəlsə də (6), digər amillər, o cümlədən, dünya əhalisinin sayının sürətlə artması, inkişaf səviyyələri baxımından ölkələr arasında kəskin fərqlərin yaranması, bir çox dünya ölkələrinin geriliyi, dünyanın təbii ehtiyatlarının azalması və onların, eləcə də, ərzaq ehtiyatlarının və məhsullarının dünya ölkələri, onların əhalisi arasında qeyri-bərabər bölüşdürülməsi, ekoloji problemlərin dərinləşməsi, iqlim dəyişikliklərinin kəskin xarakter alması, Yer kürəsində əkinəyararlı torpaq

sahələrinin sürətlə azalması, içməli su çatışmazlığı problemi, sənayeləşmə və şəhərləşmə proseslərinin sürətlənməsi, yeni ərzaq istehlakı standartlarının formalaşması, yüksək texniki-texnoloji inkişaf şəraitində gen modifikasiyalı məhsulların istehsalının geniş vüsət alması, iqtisadi böhranlar nəticəsində dünya ərzaq bazarında qiymələrin bahalaşması və s. amillər də əhəmiyyətli dərəcədə təsir göstərir. Xüsusi olaraq bir məsələni də qeyd etmək lazımdır ki, bu gün yüksək inkişaf etmiş texnologiyaların tətbiqi şəraitində istehsal olunan ərzaq məhsullarının tərkibində müxtəlif kimyəvi maddələrin, birləşmələrin, hormonal maddələrin çoxalması ərzaq təhlükəsizliyi problemini daha da kəskinləşdirməkdədir. Statistikaya görə bütün xərçəng xəstəliklərinin 60-80%-i havada, ətraf mühitdə və ərzaq məhsullarının tərkibində olan zəhərli və kimyəvi maddəlirdən yaranır. Bu, həm də, ərzaqdan zəhərlənmə hallarının, ərzaq və digər məhsullara qarşı allergik reaksiyaların yaranmasına, insanlar arasında burun-boğaz, tənəffüs yolları xəstəliklərinin yayılmasına səbəb olur. Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına görə insanlarda diareyanın 70%-i məhz keyfiyyətsiz ərzaq məhsullarının istehlakı, qəbulu səbəbindən baş verir. Ona görə də bu gün ərzaq təhlükəsizliyi hər bir ölkənin onun vətəndaşları üçün həlli vacib bir nömrəli problemlər sırasındadır. Fikrimizcə, ərzaq təhlükəsizliyi o zaman təmin oluna bilər ki, insanlar kifayət dərəcədə, onların tələbatlarına uyğun olaraq, sağlam və fəal həyat fəaliyyəti şəraitinə imkan yaradan həcmdə təhlükəsiz və yararlı ərzaq məhsulları ilə həm fiziki, həm də iqtisadi cəhətdən təmin olunsunlar.

**Ekoloji problemlər.** İnsan fəaliyyətinin ətraf mühitə mənfi təsirləri nəticəsində planetimizdə baş verən qlobal istiləşmə bu gün XXI əsrin ən mürəkkəb problemlərindən birinə çevrilmişdir. Ətraf mühitdə, havada karbon, metan və digər qazların və atmosferə atılan tullantıların miqdarının getdikcə çoxalması yer planetində illik orta temperaturun yüksəlməsini intensivləşdirir. Bunun nəticəsində yaranan parnik effektinin insanın həyat fəaliyyətinin bütün sahələri ilə yanaşı, eyni zamanda qlobal iqlim dəyişikliklərinə səbəb olması təbii-iqlim zonalarının yerləşməsi və lokallaşması (14), atmosferin qızması nəticəsində buzlaqların əriməsi, dünya okeanının səviyyəsinin qalxması və digər kataklizmlərlə müşahidə edilməkdədir.

Bu proseslər insanın müxtəlif fəaliyyət sferalarında problemlər yaratmaqla yanaşı, insanın sağlamlığı, yer planetinin gələciyini təhlükə altına alır. Bu təsirlər artıq dönməz xarakter almaqla, onların təhlükəlilik dərəcəsi artmaqdadır. Son zamanlar iqlim dəyişikliklərinin insanların sağlmalığına mənfi təsirləri industrial və postindustrial inkişaf mərhələsinə xas olan çox ciddi risq faktorları sırasında öndə durur. Bu təsirlər həm birbaşa, həm də dolayısı ilə özünü göstərir (11, 3). Sağlamlığa birbaşa təsirləri çox yüksək yaxud çox aşağı temperaturlarda ölüm halları və xəstəliklərin artması, daşqınlar, sellər və digər qeyri-əlverişli meteoroloji şərait səbəbindən baş verən insan itkiləri ilə müşahidə olunur. Dolayı təsirlər isə baş verən dağıntılar nəticəsində yaşayış məntəqələrinin, infrastrukturun dağılması, əhalinin həyat şəraitinin pisləşməsi, əhali arasında infeksion və yoluxucu xəstəliklərin yayılması, yoxsulluğun artması, ərzaq, içməli su təminatının pisləşməsi, baş verən sel və daşqınlar nəticəsində torpaqların üst münbit qatının yuyulması və quraqlıqlar nəticəsində, istilərlə əlaqədar olaraq torpaqların səhralaşması proseslərinin sürətlənməsi və ərzaq çatışmazlığı və digər problemlərlə müşahidə olunur.

Dünyada baş verən təbii fəlakətlərin sayı 1970-ci illərlə müqayisədə 4 dəfədən çox, onların vurduqların itkilərin dəyəri isə 7 dəfədən çox artmışdır. Bu fəlakətlər nəticəsində ölənləri sayı inkişaf etməkdə olan ölkələrdə inkişaf etmiş ölkələrdən 20-30 dəfə çoxdur və onların 95 faizi məhz inkişaf etməkdə olan aşağı gəlirli və orta gəlirdən aşağı gəlirli ölkələrin əhalisidir (17).

Deməli, baş verən iqlim dəyişikliklərindən daha çox yoxsul, inkişaf etməkdə olan ölkələrin əhalisi əziyyət çəkirlər. Digər tərəfdən də iqlim dəyişiklikləri dünya birliyinin yoxsulluğa qarşı apardığı mübarizənin təsir effektlərin də azaldır, demək olar ki, heçə endirir və bu ölkələrdə yoxsulluq probleminin dərinləşməsinə, onun təsir dairəsinin genişlənməsinə səbəb olur.

Təəssüf ki, bu belə olsa da, atmosferin çirklənməsində bu gün inkişafı etmiş ölkələrin «xidmətləri» daha böyükdür. Onu görə də beynəlxalq təşkilatların hesabatlarında bu məsələ xüsusilə vurğulanır və 2020-ci ilədək bu ölkələr tərəfindən atmosferə atılan parnik qazlarının həcminin 30%, 2050-ci ilədək isə 80%-dək azaldıması vacib hesab olunur. Çünki artıq yer planetinin parnik, karbon və digər qazları udma qabiliyyəti demək olar ki, son həddə yaxınlaşır (10, 22, 111). Onu görə də gələcək inkişaf atmosferə ciddi mənfi təsirlər göstərən tullantıların maksimum azaldılmasına imkan verən texnologiyalara əsaslanmaqla həyata keçirilməlidir.

**Dünya terrorizm təhlükəsilə üz-üzə.** Qloballaşma proseslərinin iqtisadi münasibətlər sferasına sürətlə sirayət etməsi kölgə iqtisadiyyatının miqyasının genişlənməsi, iqtisadi cinayətkarlığın ayrı-ayrı ölkələrin sərhədlərini aşaraq transmilliləşməsi ilə müşahidə edilməkdədir. Dünya iqtisadiyyatında transmilli şirkətlərin təsirinin güclənməsi, onların əsas gəlirli sahələri öz inhisarlarına almaları, eləcə də texniki-maliyyə, resurs baxımından geniş imkanlara malik olmaları iqtisadi sferada cinayətkar meyllərin güclənməsinə də şərait yaradır. Beynəlxalq miqyasda cinayətkar qruplaşmaların fəaliyyətinin genişlənməsi nəticəsində formalaşan qlobal şəbəkənin təsir dairəsinin genişlənməsi ayrı-ayrı dövlətlər, insanlar, millətlər üçün yeni, daha ciddi təhlükələr yaradır. Artıq planetar miqyaslı təhlükəyə çevrilən terrorizm bu gün insan cəmiyyəti, bütövlükdə dünyanın təhlükəsizliyi üçün ciddi təhdidlər yaradır. Təəssüf ki, dünyada inkişaf prosesləri sürətləndikcə, terrorçuluğun da inkişaf meylləri dəyişir, təsir imkanları və vasitələri genişlənir və onun ictimai təhlükəlilik dərəcəsi artır. Bu gün dünyada terrorun inkişafı fərqli xarakter almaqdadır. Bu, terrorçuluğun miqyasının genişlənməsi və terror hadislərinin, onların qurbanlarının sayının artması, terrorçu qruplaşmaların fəaliyyətinin təşkilati səviyyəsinin, mütəşəkkilliyinin yüksəlməsi, onların maddi-texniki və maliyyə təminatının güclənməsi, terrorçuluğun motivasion spektrinin genişlənməsi, maliyyələşmə sisteminin xarakterinin və məqsədlərinin dəyişməsi, sosial bazasının güclənməsi və durmadan inkişaf etməsi fonunda özünü daha çox büruzə verir (9).

Cinayətkar qruplaşmaların fəaliyyətinin transmilliləşməsi, onların beynəlxalq miqyasda şəbəkə fəaliyyətinin həyata keçirilməsi insan cəmiyyəti üçün çox qorxulu və təhlükəli proseslərinin baş verməsi, hətta deyərdik ki, insan cəmiyyəti üçün ciddi və təhlükəli sosial, iqtisadi, mənəvi sonluqlarla nəticələnən insan alveri, insan orqanları ilə ticarət kimi iyrənc fəaliyyətin miqyasının genişlənməsi, narkotik maddələrin dövriyyəsinin sürətlənməsi, ölkələrdən kapital axınının intensivləşməsi və s. kimi proseslərə yol açmaqda və onları daha da inkişaf etdirməkdədir.

**Narkomaniya və ya "Ağ ölüm" təhlükəsi.** Dünya miqyaslı problemlərdən biri olan narkomaniya problemi bu gün bəşəriyyət üçün real təhlükə mənbəyinə çevrilməkdədir. Ayrı-ayrı dövlətlər səviyyəsində fərdi şəkildə və ya beynəlxalq əməkdaşlıq çərçivəsində bu problemə qarşı birgə mübarizə aparılsa da, hələlik görülən işlər öz effektini istənilən səviyyədə göstərmir. Əksinə ildən-ilə dünya üzrə narkomaniyaya düçar olanların sayı artır. Bu gün dünyada narkotik maddələrin dövriyyəsi onun istehsalında elmi-texniki tərəqqinin ən son nailiyyətlərinin tətbiqi ilə daha da sürətlənmişdir. XXI əsrin ən ciddi sosial

problemlərindən birinə çevrilən və özü də bir çox sosial problemlərin yaranmasına gətirib çıxaran narkomaniyanın dünyada belə sürətlə inkişafına təkan verən müxtəlif çoxsaylı amillər sırasında aşağıdakıları qeyd etmək olar:

- ölkədə siyasi və iqtisadi qeyri-sabitliyin olması;
- dövlət idarəetməsi strukturlarında korrupsioner məmurların olması və onların narkobiznesin inkişafına şərait yaratmaları;
- dövlətin sosial-iqtisadi institutlarının fəaliyyətinin zəifləməsi və tənəzzülə uğraması;
- iqtisadi sistemdə keçid proseslərinin dərinləşməsi və böhran hallarının əhalinin rifahına təsirlərinin uzunmüddətli və artan olması;
- ayrı-ayrı dövlətlərin bu sahənin əhaliyə gəlir gətirməsi faktını əsas götürərək, narkotik bitkilərin becərilməsi, bu maddələrin istehsalı və dövriyyəsinə şərait yaratmaları;
- müxtəlif xarakterli münaqişələrin yaranması nəticəsində ayrı-ayrı dövlətlərin ərazisinin işğal olunması və bunun nəticəsində nəzarətdənkənar ərazilərdən narkotik bitkilərin becərilməsi, narkotik maddələrin istehsalı, daşınması və dövriyyəsi məqsədilə istifadə olunması və s.

XXI əsrdə dünya əhalisi üçün ciddi sosial-iqtisadi təhlükələrə səbəb olan problemlərin həlli 2000-ci ildə BMT-nin ABŞ-ın Nyu-York şəhərindəki qərargahında 189 ölkənin iştirakı ilə keçirilmiş Minillyin Sammitində 147 ölkə tərəfindən qəbul olunmuş Minilliyin İnkişaf Məqsədlərində nəzərdə tutulmuşdur. 2015-ci ilədək həyata keçirilməsi nəzərdə utulan 8 məqsəd və onlara nail olmaq üçün müəyyən edilmiş 21 vəzifədən ibarət olan bu Bəyannamədə dünya ölkələri, xüsusilə də inkişaf etmiş ölkələr qarşısında dünyada yoxsulluğun, kasıbçılığın ləğvi, birgə inkişaf istiqamətində ümumi dəyər və prinsiplərin müəyyən edilməsi və onların həyata keçirilməsi ilə bağlı mühüm vəzifələr, öhdəliklər irəli sürülürdü.

Minilliyin Bəyannaməsinə qoşulan bir olkə kimi, Azərbaycan Respublikasında da bu öhdəliklərin ölkə şəraitinə uyğun şəkildə həyata kecirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2003-cu il 20 fevral tarixli 854 nomrəli Fərmanı ilə “2003-2005-ci illər ucun Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf uzrə Dovlət Proqramı” təsdiq edilmişdir. Bu proqramın icrası nəticəsində əldə edilən uğurların davamı olaraq və ölkə əhalisinin rifah halının yaxşılaşdırılması istiqamətində əldə olunan musbət meylləri davam etdirmək məqsədilə “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dovlət Proqramı” (YADİDP) hazırlanmışdır. Bu proqramlarda ölkəmiz üçün səciyyəvi olan və Minillyin Bəyənnaməsində nəzərdə tutulan məqsəd və vəzifələrə şəkil 1-də ümumiləşdirilmişdir.




**Şəkil 1. Minilliyin İnkişaf Məqsədləri və Azərbaycan Respublikasının inkişaf hədəfləri.**

Bu məqsəd və vəzifələrə uyğun olaraq onların həyata kekçirilməsi istiqamətində respublikamızda əhəmiyyətli işlər görülmüş və bir sıra nailiyyətlər əldə edilmişdir. Minilliyin İnkişaf Məqsədlərinə uyğun oaraq ifrat yoxsüllüğün və aclığın aradan qaldırılması və respublikamızda yoxsüllüğün azaldılması istiqamətində hər iki proqramın qəbulu və həyata keçirilməsi ölkədə movcud olan sosial problemlərin, o cumlədən yoxsulluq probleminin həlli ilə bağlı təsirli tədbirlərin həyata kecirilməsinə imkan yaratmışdır.

Bunların nəticəsi olaraq, respublikamızda yoxsulluq səviyyəsi 2001-ci ildə 49%-dən 2011-cu ildə 7,6 %-ə düşmüşdür, beləliklə, son 10 ildə yoxsulluğun səviyyəsi 6,4 dəfə azalmışdır.

**Cədvəl 1.**

**Azərbaycan Respublikası uzrə yoxsulluq göstəriciləri**

| | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Yoxsulluq həddi, manat | 24,0 | 35 | 35,8 | 38,8 | 42,6 | 58 | 64,0 | 78,6 | 89,5 | 98,7 | 106,9 |
| Yoxsulluq səviyyəsi, faiz | 49 | 46,7 | 44,7 | 40,2 | 29,3 | 20,8 | 15,8 | 13,2 | 10,9 | 9,1 | 7,6 |

Mənbə: Azərbaycanın statistik göstəricilər 2011. Bakı. 2011.

Ölkədə yoxsulluğun səviyyəsinin azaldılmasında fəal sosial müdafi tədbirləri sırasında əhalinin məşğulluğunun təmin edilməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Bu mənada son illər respublikamızda milli əmək bazarının formalaşması, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi istiqamətində ardıcıl və sistemli fəaliyyət həyata keçirilir. Bu, ölkəmizin əmək ehtiyatlarının strukturunda məşğul əhalinin payının dəyişməsinə də təsir göstərmişdir.




**Şəkil 2. Məşğul əhalinin əmək qabiliyyətli yaşda əhaliyə nisbəti, %.**

Şəkildən göründüyü kimi, məşğul əhalinin sayında son illər müəyyən artım müşahidə edilsə də, bu göstərici 1991-ci ildə daha yüksək səviyyədə olmuşdur. Lakin müstəqilliyin ilk dövrlərində məşğul əhalinin sayı sürətlə azalmağa doğru meylli olmuşdur ki, bu da əsasən keçimiş ittifaq respublikaları ilə iqtisadi əlaqələrin qırılması, bir çox müəssisələrin bağlanması, fəaliyyətinin dayandırılması ilə əlaqəldardır. Bir müqayisəli cəhəti də qeyd etmək lazımdır ki, əvvəlki ilə nisbətdə iqtisadi məşğul əhalinin sayında da bu proses müşahidə edilmişdir. Belə ki, 1995-ci ilə nisbətən 1991-ci ildə iqtisadi məşğul əhalinin sayı təxminən 3,2% azalmışdır. Bu dövrdə əmək qabiliyyətli yaşda əhalinin sayı 5,6%, əmək qabiliyyətli yaşda əmək qabiliyyətli əhalinin sayı isə 3,9% artmışdır.




**Şəkil 3. Əmək ehtiyatlarının artım tempi, %.**

Lakin şəkildən də göründüyü kimi son illər iqtisadi məşğul əhalinin sayında davamlı artım müşahidə edilmişdir. 2010-cu ildə bu artım əmək qabiliyyətli yaşda və əmək qabiliyyətli yaşda əmək qabiliyyətli əhalinin artım tempini üstələmişdir. Bunun əsas səbəblərindən biri son 8 ildə ölkəmizin sosial-iqtisadi inkişafında yeni bir mərhələ kimi yeni iş yerlərinin açılmasını qeyd etmək olar. Bu müddətdə respublikamızda 900 mindən artıq yeni iş yerləri açılmış və onların 70%-dən

çoxunu daimi iş yerləri təşkil etmişdir.

**Yeni açılmış iş yerlərinin sayı**

**Cədvəl 2.**

| Göstəricilər | 2003 IV rüb - 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|---|
| Azərbaycan Respublikası üzrə-cəmi | 177444 | 169013 | 173886 | 146870 | 122924 | 73 613 | 73009 |
| Yeni açılmış iş yerlərinin strukturunda daimi iş yerləri, % | 71,5 | 72,9 | 65,0 | 73,5 | 71,9 | 72,9 | 74,1 |

Mənbə: Azərbaycanın statistik göstəriciləri 2011.

MİM sırasında əhalinin umumi ibtidai təsil imkanlarının təmin edilməsi məqsədinə uyğun olaraq 15-24 yaşlı əhalinin savadlılıq səviyyəsi 100% olmuşdur.

Minilliyin İnkişaf məqsədləri sırasında əsas məqsədlərdən biri də uşaq ölümünün səviyyəsinin azaldılmasıdır. Bu sahədə respublikamızda da müəyyən irəliləyişlər əldə eldə edilmiş körpə ölümü əmsalı 2,5 dəfədən çox, 5 yaşadək olan uşaq ölümü əmsalı isə 3,4 dəfəyədək azalmışdır.




**Şəkil 4. Azərbaycan Respublikasında uşaq şlümünün səviyyəsi.**

“2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dovlət Proqramı”nda da respublkamızın sosial-iqtisadi inkişafının əsas hədəflərindən biri kimi 2015-ci ilin sonunadək 1 yaşınadək uşaqlar arasında olum hallarının səviyyəsinə gorə Avropa ölkələri uzrə orta gostəriciyə catmaq qarşıyı məqsəd olaraq qoyulmuşdur. Lakin hazırda bir sıra ölkələrlə müqayisədə bu göstəricinin səviyyəsi respublikamızda nisbətən yüksəkdir. Aparılan araşdırmalar da göstərir ki, əhalisinin həyat səviyyəsi yüksək olan, zəngin, inkişaf etmiş ölkələrdə uşaq ölümünün səviyyəsi aşağıdır, əksinə, yoxsul ölkələrdə isə bu göstərici yüksək olur. Belə ki, aşağı gəlirli ölkələrdə 1000 nəfər diri doğulana hesabı ilə 1 yaşa qədər uşaq ölümü əmsalı 1990-cı ildə 101, 2000-ci ildə 88, 2008-ci ildə isə 76 olmuşdur. Orta səviyyədən aşağı gəlirli ölkələrdə müvafiq illər üzrə bu göstərici uyğun olaraq 64, 55, 44, orta səviyyədən yüksək səviyyədə gəlirli ölkələrdə 37, 26, 19, yüksək gəlirli ölkələrdə isə 10, 7, 6 olmuşdur. Dünyanın digər regionları ilə müqayisədə Avropa regionu üzrə də bu göstərici ən aşağı səviyyədə, yəni, uyğun olaraq 27, 18, 12 olmuşdur. Bu fərq,

həm də uşaq ölümü əmsalının səviyysinin azalması tempində də özünü göstərir, orta və yüksək gəlirli ölkələrdə bu sürətlə gedir.

Ümumiyyətlə, uşaq ölümünün, ana sağlamlığının səviyyəsi ölkənin səhiyyə sisteminin inkişaf səviyyəsini və səhiyyə xidmətlərinə əlyetərlilik imkanlarını göstərir. Beynəlxalq təşkiltların da hesablamalarına görə dünyada bütün ölüm hallarının 20%-ə qədəri 5 yaşadək olan uşaqlar arasında baş verir. Fikrimizcə, bu, kifayət qədər yüksək və demoqrafik dayanıqlığa, imkişafa təsir göstərən bir rəqəmdir.

Respublikamızda da 5 yaşadək uşaqlar arasında ölüm hallarının sayı son 20 ildə təxminən 3,4 dəfəyədək azalmışdır. 5 yaşadək uşaq ölümü əmsalı isə davamlı şəkildə azalaraq 40,5-dən 14,4-dək düşmüşdür. Onu da qeyd edək ki, bu əmsalın səviyyəsi respublikamızda 1990-2008-ci illər ərzində şəhər yerlərinə nisbətən kənd yerlərində bir qədər yüksək olmuşdur. Şəhər yerlərində 5 yaşadək uşaq ölümü əmsalı 26,5-dən 1995-ci ildə 31,4-ə yüksəlmişdir, kənd yerlərində isə 51-57,8 arasında dəyişmişdir. 1995-ci ildən başlayaraq kənd yerlərində bu əmsal davamlı şəkildə azalaraq 2008-ci ildə 13,4-ə düşmüşdür. Lakin 2008-2010-cu illər ərzində isə kənd yerlərinə nisbətən şəhər yerlərində bu əmsal şəhərə nisbətən aşağı olmuşdur. 2006-2010-cu illər ərzində şəhər üzrə bu rəqəm 11,5-dən 16,9-a yüksəldiyi halda, kənd yerlərində 20,2-dən 11,6-ya düşmüşdür. Onu da qeyd edək ki, 1995-ci ildən etibarən kənd yerlərində 5 yaşadək uşaq ölümü əmsalı davamlı şəkildə azalmağa doğru meylli olmuşdur. Bunun əsas səbəblərindən biri məhz bu yaş qrupu uşaqlarda ölümə səbəb olan halların aradan qaldırılması istiqamətində kənd yerlərində də tədbirlərin həyata keçirilməsidir. Bununla yanaşı, urbanlaşma meyllərinin də bu sahədə respublikamızdakı vəziyyətə olan özünəməxsus təsirləri də müəyyən dərəcədə rol oynayır.

Lakin əvvəlki illə müqayisədə respublikamızda 5 yaşadək uşaqlar arasında ölüm hallarının sayının azalması heç də bütün illər üzrə müşahidə edilməmişdir. Belə ki, 1990-cı illə müqayisədə 1995-ci ildə bu göstəricinin səviyyəsi 19,5%, 1995-ci illə müqayisədə 2000-ci ildə 81,3%, 2000-ci illə müqayisədə 2005-ci ildə isə 55,3% azalma müşahidə edilmişdir. Son 5 il ərzində respublikamızda 5 yaşadək uşaqlar arasında ölüm hallarının sayı artıb-azalmalarla müşahidə edilmişdir və baxmayaraq ki, son illər ölkəmizdə bu yaş qrupu uşaqlarda müşahidə edilən xəstəliklərə qarşı mübarizə tədbirləri güclənmişdir, lakin əvvəlki illərlə müqayisədə elə də ciddi dəyişikliklər baş verməmişdir. Digər ölkələrlə müqayisədə də burada bir qədər gerilik müşahidə edilmişdir, bəzi dünya ölkələrində 5 yaşa qədər uşaqlar arasında ölüm əmsalı aşağıdakı kimi olmuşdur (21): San-Marino-2, Finlandiya, Norveç, İsveç, Yaponiya-3, Almaniya, Fransa, İtaliya, Danimarka-4, İsveçrə, Avstraliya-5, Yeni-Zelandiya və Kanada-6, Litva, Polşa, Slovakiya, Macarstan-7 və s.

Uşaqlar arasında bütün ölüm halları altı səbəbdən baş verə bilir. Bu səbələr sırasında neonatal səbəblər, pnevmoniya, diareya, malyariya, qızılca və İİÇV/QİÇS xəstəlikləri üstünlük təşkil edir. Hələ də dünyada hər gün bu yaş qupuna daxil olan 12 minə yaxın uşaq dünyasını dəyişir. Bu mənada uşaqlar arasında ölüm hallarının azaldılması ilə bağlı peyvəndləmə işlərinin düzgün təşkili əhəmiyyətli rol oynyır.

Son illər respublikamızda uşaqlar arasında bir sıra xəstəliklərin, o cümlədən, vərəm, difteriya, göyöskürək, tetanus, poliomielit, qızılca, məxmərək, epidemik parotit və s. xəstəliklərə qarşı peyvəndləmə işləri gücləndirilmişdir və peyvəndlə əhatə olunan uşaqların xüsusi çəkisi artmışdır. Məhz MİM-də də nəzərədə tutulan ən vacib məsələlərdən biri bununla əlaqədardır. Bu məqsədlər sırasında mühüm vəzifələrdən biri də 1 yaşa qədər uşaqlar arasında peyvənbləmə işlərinin aparılmasıdır. Statistik rəqəmlərə görə bu tip peyvəndləməyə cəlb olunan uşaqların xüsusi çəkisi 1990-2010-cu illər ərzində dəyişmişdir. Hətta 1991-ci ildə onların payı bu yaş qrupu uşaqların

sayında 70% olmuşdur. 1996-cı ildə isə 99%- yüksəlmişdir. Lakin son illərdə bu göstəricinin səviyyəsində artıb-azalmalar bir-birini əvəz edərək, 2009-cu ildə 95,5%, 2010-cu ildə isə 93,1% olmuşdur (1). Dünya üzrə isə qızılcaya qarşı peyvənd olunan uşaqların xüsusi çəkisi 2000-ci ildə 69%-dən 2009-cu ildə 80%-ə çatmışdır və bunun nəticəsində 1 yaşadək uşaqlar arasında qızılcadan ölüm hallarının sayı 78%-dək azalmışdır (20, 27).

**Azərbaycan respublikasında ana ölümünün səviyyəsi.** Hər il dünyada 358 minədək qadın hamiləlik və doğuş zamanı ixtisaslaşmış, təcili tibbi yardımın olmaması səbəbindən dünyasını dəyişir. 1990-2008-ci illər ərzində dünyada ana ölümünün səviyyəsi 34% azalaraq, 546000 nəfərdən 358000 nəfərədək düşmüşdür. Lakin 2015-ci ilədək ana ölümünün səviyyəsini dörddə üçədək azalmasına nail olmaq üçün bu göstəricinin orta illik azalma tempi 5,5% təşkil etməlidir (21).

Respublikamızda bu sahədə son illər irəliləyişlər müşahidə edilməkdədir. Doğrudur, müstəqilliyimizn ilk illərindən, 1994-cü ildə respublikamızda ana ölümü ildə 70 nəfər, hər 100000 nəfər diri doğulana isə 43,8 nəfər təşkil edirdi. 2010-cu ildə isə 27 nəfər və hər 100000 nəfər diri doğulana 15,5 nəfər olsa da, bu 1990-cı ilin göstəricisindən geri qalır (şəkil 5).




**Şəkil 5. Azərbaycan Respublikasında ana ölümü əmsalı**

Dünyanın bir çox ölkələri, o cümlədən, inkişaf etmiş, keçid iqtisadiyyatı və inkişaf etməkdə olan ölkələrdə bu göstərici daha azdır: İrlandiya -1, Danimarka, İtaliya, İsveçrə-3, Almaniya, İslandiya, İspaniya-4, İsvçrə-5, Yaponiya, Niderland, Slovakiya, Sloveniya-6, Kanada, Norveç, Finlandiya-7, Birləşmiş Krallıq, Belçika, Fransa-8, ABŞ-11 və s. (21). Bu müqayisə hələ respublikamızda ana sağlamlığı sahəsində görülməli çox işlərin olduğunu göstərir.

Bu gün elmi-texniki tərəqqinin misli görünməmiş bir səviyyəyə çatmasına baxmayaraq, hələ də hamiləlik dövrü, bu proseslə bağlı yaranan xəstəliklər, eyni zamanda yeniyetməlik yaşında hamiləlik, təhlükəsiz, keyfiyyətli kontrasepsiya vasitələrinə, ailə planlaması vasitələrinə, tibbi xidmətlərə və məsləhətlərə əlyetərlik imkanlarının aşağı səviyyədə olması dünyada ana ölümü, qadın sağlamlığı üçün ciddi risq amil olaraq qalmaqdadır.

Respublikamızda bu sahədə daha çox rast gəlinən xəstəliklər sırasında anemiya, proteinuriya, ödemlər və hipertenziv hallar və digər xəstəliklərdir. Ana sağlamlığının təhlükəsizliyi baxımından hamiləliyin ağırlaşması hallarının 17-20%-ə qədəri anemiya xəstəliyi ilə lağlıdır. Bu hal hətta hamiləliyi başa çatdırmış qadınların 21%-ə qədərinin arasında da ən çox müşahidə edilir. Bundan əlavə, son illər respublikamızda arzuolunmaz hamiləlyin qarşısının alınması halları, yəni abortların sayı da davamlı olaraq artmaqdadır, həm də abort etdirən qadınlar arasında yeniyetmələrin xüsusi çəkisi və sayı da artmışdır ki, məhz bu hallar da beynəlxalq təşkilatlar tərəfindən dünyada ana sağlamlığı üçün ciddi təhülkə yaradan amillər olaraq qəbul edilmişdir.




**Şəkil 6. Ana sağlamlığına təhlükə yaradan amillərin respublikamızda mövcud vəziyyəti.**

Ciddi risq amillərindən biri də doğuş zamanı operativ müdaxilə hallarının artmasıdır. Belə ki, respublikamızda son on il ərzində kesar əməliyyatlarının sayı 6,4 dəfə artaraq, onların 2000-ci ildə doğuşların ümumi sayında payı 3,2%-dən 2009-cu ildə 13,2%-dək artmışdır və bu artım davamlı tempdə olmuşdur.

**HİV/QİÇS problemi.** Bu gün dünya üçün ciddi təhlükə yaradan ən böyük bəlalardan biri insanlar arasında immunçatışmamazlığı virusunun (HİV) geniş yayılmasıdır. Beynəlxalq təşkilatların məlumatlarına görə 1990-cı ildə dünyada bu virusun daşıyıcısı olan insanların sayı 8 mln. nəfər təşkil edirdisə, 2009-cu ilin sonuna bu rəqəm 4,1 dəfə artaraq 33 milyonu çatmışdır və ona yoluxanların sayı 2,6 mln. nəfər, ölənlərin sayı isə 1,8 mln. nəfər olmuşdur ki, bunların da 260 min nəfərini uşaqlar təşkil etmişdir. Rəqəmlərdən də göründüyü kimi, bu, yayılma tempinə görə kifayət qədər ciddi təsirə və əhatə dairəsinə malik xəstəlikdir və bütün insanlılıq üçün təhlükədir.

Bu gün respublikamızda da HİV/QİÇS problemi ən aktual problemlərdən biridir. Doğrudur, Azərbaycan İİV-ə yoluxma səviyyəsi aşağı olan ölkələr sırasında olsa da, Azərbaycanda bu xəstəlik hallarının sayı artır və burada epidemiya əsasən yüksək riskli qrupa aid olan inyeksion narkotik istifadəçiləri arasında yayılmışdır (62,6%).

Respublika QİÇS-lə Mübarizə Mərkəzinin məlumatına görə 1987-ci ildən 01.05.2010-ci illədək olan dövrdə respublikamızda cəmi 2427 nəfər İİV-ə yoluxmuş şəxs rəsmi qeydiyyata alınmışdır. Onlardan 2335 nəfəri Azərbaycan vətəndaşı, 92-i isə əcnəbidir. Həmin dövr ərzində 305 Azərbaycan vətəndaşı (268 kişi və 37 qadın) QİÇS-dən dünyasını dəyişmişdir (23). Təkcə 2000-2009-cu illər ərzində respublikamızda QİÇS-lə qeydə alınmış xəstələrin sayı davamlı şəkildə artaraq, 99-a çatmışdır.

**Cədvəl 3.**

**Azərbaycan Respublikasında HİV/QİÇS-ə yoluxma ilə bağlıl vəziyyətin göstəriciləri**

| Göstəricilər | 2000 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|---|
| HİV gəzdiriciləri ilə ilk dəfə qeydə alınmış xəstələrin sayı, cəmi | 59 | 155 | 226 | 400 | 377 | 356 | 459 |
| Müalicə müəssisələrində qeydiyyatda duran HİV xəstələrinin ümumi sayı | - | 704 | 762 | 1026 | 1395 | 1727 | 2621 |
| QİÇS ilə ilk dəfə qeydə alınmış xəstələrin sayı, cəmi | 4 | 55 | 17 | 41 | 59 | 99 | 250 |
| Müalicə müəssisələrində qeydiyyatda duran QİÇS xəstələrinin ümumi sayı | - | 166 | 193 | 294 | 349 | 447 | 554 |

Mənbə: Azərbaycanın statistik göstəricilər 2011. Bakı. 2011.

Beynəlxalq təşkilatların statistikasına nəzər saldıqda dünyanın digər ölkələrilə müqayisədə Azərbaycanın bu günki vəziyyəti o qədər də qorxulu görünmür, lakin nəzərə alsaq ki, 1987-ci ildə respublikamızda QİÇS-ə yoluxan 2 nəfər var idisə, bu gün belə insanların sayı yüzlərlədir. Ona görə də bu vəziyyət kifayət qədər ciddi addımların atılmasını tələb edir. Digər tərəfdən də bu xəstəliyə tutulanlar arasında ölüm halları da artmaqdadır. Belə ki, 1987-2007-ci illər ərzində respublkamızda QİÇS-ə yoluxanlar arasında ölənlərin sayı 110 nəfər olmuşdursa, hazırda ümumilikdə onların sayı 305 nəfər təşkil edir. 2008-ci ildə onların sayı 43 nəfər olmuşdursa, 2009-cu ildə 23, 2010-cu ildə isə 52 nəfər olmuşdur. Deməli, son illər respublikamızda bu xəstəlik səbəbindən ölənlərin sayı sürətlə artmaqdadır.

**Malyariya xəsiəliyinin yayılması.** Bu problem MİM-də də kifayət qədər diqqət mərkəzində saxlanılır. ÜST-nin məlumatına görə, dünyanın 106 ölkəsində 3,3 milyard insan malyariya ilə yoluxma riski altında yaşayır. Hər il dümnyada təxminən 250-300 milyon malyariya hadisəsi qeydə alınır və il ərzində 1 milyona yaxın insan malyariya səbəbindən dünyasını dəyişir (24). Bu əsas etibarilə Afrika qitəsi ölkələrinin payına düşür. Əgər 2000-ci ildə dünyada maliyariyadan ölənlərin sayı 985 min nəfəridisə, 2009-cu ildə bu rəqəm 781 minə düşmüşdür, yəni 20% azalmışdır. Demək, bu istiqamətdə ÜST-nin səyləri öz müsbət nəticələrini göstərməkdədir.

Son illər respublikamızda da malyariya xəstəliyinin yayılması miqaysı xeyli məhdudlaşmışdır. 1990-cı ildə hər 100000 nəfərə 0,3 olmuşdur, lakin sonrakı illərdə, xüsusilə 1995-1998-ci illərdə bu rəqəm sürətlə artaraq, hər 100000 nəfərə 171,8 nəfər olmuşdur. Bu, daha çox respublikamızın Dağlıq Qarabağ və ətraf rayonlarının ermənistan ordusu tərəfindən işğalı nəticəsində məcburi köçkün vəziyyətinə düşmüş əhalinin böyük bir hissəsinin Mərkəzi Aran rayonlarında qeyri-əlverişli ərazilərdə məskunlaşması ilə əlaqədar olmuşdur. Hazırda respublikamızda maliyariya xəstəliyinin yayılması 2011-ci ildə hər 100000 nəfərə 0,1 səviyyaəsində olmuş, maliyariya ilə başlı ölüm əmsalı isə sıfır olmuşdur.

**Vərəmin yayılması.** Bu gün sosial, iqtisadi, eləcə də ekoloji xarakterli bir xəstəlik olan vərəm dünyada sürətlə yayılan ən ciddi xəstəliklərdən birinə çevrilmişdir. Hər il dünyada 10 milyona yaxın insan vərəm xəstəliyinə yoluxur, 3 milyona yaxın insan isə bu xəstəlikdən dünyasını dəyişir. Bu gün dünyada hər 10 saniyə ərzində 1 nəfər vərəm xəstəliyindən dünyasını dəyişir. Vərəmə yeni yoluxma hallarının sayı da hər il davamlı şəkildə artır, xəstəliyin yayılması tempi isə dünya əhalisinin sayının artması fonunda zəif gedir. 2009-cu ildə dünyada vərəm xəstələrinin sayı 12-16 milyon, yeni yoluxanların sayı isə 9,4 mln. nəfər olmuşdur və 1,3 mln. insan bu xəstəlikdən dünyasını dəyişmişdir (21). Mütəxəssislərin fikrincə, normal qidalanmamaq, havası təmiz olmayan, gün düşməyən evlərdə yaşamaq, işləmək, eləcə də havanın ekoloji cəhətdən çirkli, toz-torpaqlı olması insanda vərəm xəstəliyinin yaranmasına səbəb olur. İnsanlar arasında daha çox ağciyər vərəmi yayılıb. ÜST dünyada vərəmlə mübarizə məqsədilə dəyəri 5 milyard dollar olan proqram hazırlamışdır.

Son illər respublikamızda da vərəm xəstələrinin sayı artmışdır. Hazırda respublikamızda 10775 nəfər qeydiyyatda olan vərəm xəstəsi vardır. 2005-ci illə müqayisədə bu 2 dəfə çoxdur. ÜST-nın son hesabatında da Azərbaycan vərəm xəstəliyinin yayıldığı ölkələr sırasında qeyd edilmişdir, xüsusilə də, burada vərəmin dərman və müalicəyə müqavimət göstərən, tabe olmayan yeni növlərinin yayılması qeyd edilmişdir (16). «DOTS» proqramı əsasında respublikamızda vərəmin aşkar edilməsi hallarının nisbəti 2007-2011-ci ililərdə 36,6%-dən 55,0%-ə, vərəm xəstəliyindən müalicə edilmənin nisbəti isə 59,6%-dən 76,6%-ə yüksəlmişdir.

Respublikamızda vərəm xəstəliyi ilə bağlı mövcud vəziyyət aşağıdakı şəkildə əksini tapmışdır.




**Şəkil 7. Azərbaycan Respublikasında vərəm xəstəliyinin yayılması, hər 100000 nəfərə.**

Mütəxəssislərin fikrincə, yüngül formula vərəmin müalicəsi dövlətə 6-7 min dollara başa gəlirsə, vərəm preparatlarına davamlı vərəmin müalicəsi 60-70 min avro vəsait tələb edir. Bu da vərəmlə mübarizədə çətinliklər yaradır. Doğrudur, ölkəmizdə vərəmli xəstələr ümumi mərkəzləşmiş qaydada pulsuz ərzaq məhsulları ilə təmin olunur, stasionarlarda pulsuz şəkildə müalicə edilir, onlara dərmanlar pulsuz verilir. Lakin son illərin statistikası onu göstərir ki, sosial vəziyyəti aşağı olan ailələrdə, cəzaçəkmə müəssisələrindən azadlığa buraxılan məhbuslarda vərəmə yoluxma faizi daha yüksəkdir və bu fakt ətrafdakıların da xəstəliyə yoluxma riskini artırır. Problemin bu səviyyədə inkişafı sözsüz ki, vərəmlə mübarizənin daha da aktiv mərhələyə keçirilməsini zəruriləşdirir. Bu işdə vətəndaş cəmiyyəti institutları da fəaliyyətlərini genişləndirirlər. Bu məqsədlə, son 4 ildə Azərbaycan Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə respublikamızın bir çox rayonlarında, regionlarında vərəm əleyhinə tədbirlər həyata keçirilir.

**Azərbaycanda narkomaniya problemi.** Aparılan tədqiqatların nəticələinə ğörə bu gün dünyada təxminən 208 milyondan artıq şəxs narkotik maddələrdən bu və ya digər formada istifadə etməkdədir. Bu isə dünya əhalisinin təxminən 4,8 faizi deməkdir. Onlardan 26 milyonu sırf narkoman xəstələrdir. Marixuana, nəşə kimi nisbətən yüngül narkotik maddalərdən istifadə edən şəxslər isə daha çoxluq təşkil edir və onların sayı 165 milyon nəfərdən artıqdır (25).

Bu gün respublikamızda tibb müəssisələrində qeydiyyatda olan narkoloji və toksikoloji xəstələrin sayı 26 mindən çoxdur və onların sayı ilbəil artır.

**Cədvəl 4.**

**Azərbaycan Respublikasında əhalinin narkomaniya və toksikomaniya ilə xəstələnməsi**

| Göstəricilər | 2000 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|---|---|---|
| İlk dəfə diaqnozu müəyyən edilmiş xəstələrin sayı, nəfər | 1494 | 1300 | 2705 | 2264 | 2234 | 2190 | 2353 | 2007 |
| Tibb müəssisələrində qeydiyyatda olan xəstələrin sayı, nəfər | 14114 | 17838 | 18841 | 20374 | 21611 | 23361 | 25005 | 26596 |

Mənbə: Azərbaycanın statistik göstəricilər 2011-2012.

Hər bir ölkədə olduğu kimi Azərbaycanda da narkomaniya probleminə qarşı mübarizə həyata keçirilir və bu mübarizənin effektivliyi hər ötən il daha da artırılmaqdadır. Bu, bir sıra səbəblərlə əlaqədardır. Əsas səbəblərdən biri narkotiklərin daşınmasında Azərbaycan ərazisindən tranzimt kimi istifadə edilməsi cəhdlərinin güclənməsidir. Bu gün işğal altında olan Azərbaycan ərazilərində ermənilər tərəfindən narkotik maddələrin becərilməsi və onların daşınması ilə bağlı da kifayət qədər faktlar da vardır. Bu narkotik maddələr İran vasitəsilə, eləcə də İran-Azərbaycan marşurutu ilə Avrora ölkələrinə daşınır. Rəsmi Bakı dəfələrlə müvafiq beynəlxalq təşkilatlar, eləcə də BMT qarşısında bununla bağlı məsələ qaldırsa da, dünya ictimaiyyəti tərəfindən bu istiqamətdə hər hansı bir addım atılmayıb.

**Azərbaycanda İKT-dən istifadə.** Son illər respublikamızda informasiya-kommunikasiya texnologiyalarından istifadə səviyyəsi inkişaf etmiş, yeni texnologiyaların respublikamızda tətbiqi miqyası genişlənmişdir. Bu, da çox müasir kompüter texnologiyalarından, mobil rabitədən, inteqrnetdən istifadə sahəsində özünü daha qabarıq şəkildə büruzə vermişdir.




**Şəkil 8. Azərbaycanda İKT-dən istifadə səviyyəsi, hər 100 nəfərə.**

**Əraf mühitin davamlılığı.** Bu gün respublikamızda ətraf mühitin davamlılığının təmin edilməsi istiqamətində də bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Bu məqsədlə bir sıra dövlət proqramları, o cümlədən, «Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair» Milli Proqramm (2003-1010), Azərbaycan Respublikasında təhlükəli tullantıların idarə olunmasının Dövlət Strutegiyası (2005-2010), «Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı», «Azərbaycan Respublikasında hidrometeorologiyanın inkişafı Proqramı» (2004-2010-cu illər) və digər dövlət proqramları qəbul edilmişdir. Bu tədbirlər nəticəsində respublikmızda həm qorunan ərazilərn miqyası genişlənmiş, müxtəlif qoruqlar yaradılmışdır. Belə ki, həm qorunan ərazilərin ümumi əraziyə olan nisbəti son illər artmış, həm də biomüxtəlifliyin saxlanması, qorunması məqsədilə mühafizə olunan torpaq sahələrinin miqyası genişlənmişdir.

**Cədvəl 5.**

**Azərbaycan Respublikasında ətraf mühitin davamlılığının təmin edilməsinin bəzi göstəriciləri**

| Göstəricilər | 2000 | 2003 | 2004 | 2005 | 2006 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|---|---|
| Qorunan ərazilərin ümumi əraziyə olan nisbəti, % | 5 | 6,5 | 6,8 | 7 | 8,1 | 8,5 | 10,1 | 10,2 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Bioloji müxtəlifliyin saxlanması üçün mühafizə olunan torpaq sahəsi, kv.km | 4298,6 | 5659,6 | 5923,7 | 6038,2 | 6987 | 7343,9 | 8746,6 | 8809,8 |

Mənbə: Azərbaycanın statistik göstəricilər 2011. Bakı. 2011.

Ümumiyyətlə, bu gün dünyada gedən proseslər, eləcə də qlobal xarakterli problemlər institusional, elmi-texniki, sosial-iqtisadi inkişaf səviyyəsindən asılı olaraq dünya ölkələrinə fərqli şəkildə təsir göstərməklə, onlar üçün ciddi sosial təhlükələr yaratmaqdadır. Dünya birliyinin bir hissəsi olan respublikamız da bu təhlükələrdən kənarda deyildir. Bu problemlərin mənfi təsirlərindən maksimum müdafiə olunmaq isə daha da genişmiqyasıl fəaliyyətin, kompleks tədbirlərin həyata keçirilməsini, cəmiyyətin bu proseslərdə fəal iştirakını, daha doğrusu, onlarla mübarizəyə hazır olan təkmil, yetkin bir cəmiyyətin formalaşdırlması zərurətini getdikcə artırır.

**Ədəbiyyat siyahısı**


1. Azərbaycanın statistik göstəriciləri 2011. Bakı. 2011.
2. Azərbaycanın demoqrafik göstəriciləri. Statistik məcmuə. Azəbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı, 2011.
3. Azərbaycanda səhiyyə və sosial təminat. Statistik məcmuə. Azəbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı, 2010, 2011.
4. «2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı», Bakı, 2008.
5. Алешковкий И.А., Ионйев В.А. Тенденции международной миграции в глобализирующемся мире // Век глобализации. 2008, №2, с.77-87.
6. Амартья С.. Экономическая взаимозависимость и мировая продовольственная проблема // Проблемы теории и практики управления:. http://vasilievaa.narod.ru/ptpu/1_2_99.htm
7. Бауман З. Индивидуальные общество / Пер. с англ. Под.ред. В.Л.Иноземцева. М., Логос, 2002, с.70-71.
8. Бек У. Трансформация политики и государства в эпоху глобализации // Свободный мысль, 2004, №7.
9. Беспалый В.О. Вызовы современности в условиях глобализации: социальный аспект/.
10. Борьба с изменениями климата: человеческая солидарность в разделённом мире. Доклад развивитии человека 2007/2008. 400с. с. 22, 111.
11. Влияние глобальных климатических изменений на здоровье населения российской Арктики. Рук. Автор. Коллектива. Ревич Б.А. Москва, 2008, 32 с. с.3
12. Доклад о развитии человека ООН. 2006, с.21-22.
13. Клюгман Дж. «Сборник материалов по созданию стратегий сокращения бедности». http://eco.ria.ru/documents/20100322/215718166.html
14. Ковалев Е. Глобальная продовольственная проблема // Мировая экономика и международные отношения" 2004, №10, с. 26-34.
15. Мадридский международный план действии по проблемам старения. 2002.
16. На пути к миру, свободному от туберкулеза. Доклад ВОЗ. 2011. с.13., 24 с.
17. Преодоление экономической Незащищенности. Обзор мирового экономического и социального положения, 2008 год. Организация Объединенных

Наций Нью-Йорк, 2009. 284с. Общий обзор. с.xiv-xv, 93.

18. Сущность, причины и масштабы продоволбственный проблемы. (http://konspekts.ru/ekonomika-2/ekonomika-apk/sushhnost-prichiny-i-masshtaby-prodovolstvennoj-problemy/).

19. Таран П. Глобалтзация и трудовая миграция: нобходимость политики, основанной на правах человека // Век глобализации. 2010, №1, с.66-88. с.67-68.

20. Цели развития тысячелетия: доклад за 2011 год. с. 27.

21. Цель тысячелетия в области развития, связанные со здаровьем. Доклад Секретариата. Всемирная организация здравоохранения. EB128/7. 30 декабрь. 2010 г. (Электронный ресурс: http://apps.who.int/gb/ebwha/pdf_files/EB128/B128_7-ru.pdf)

22. http://deyerler.org/69607-narkomaniya-reqemlerle-v-arasdirma-2-ci-yazi.html (23 oktyabr 2010 - 2 декабр 2011)

23. http://www.aids.az/new/index.php?type=content&subid=38&cid=38

24. http://sia.az/index.php?action=static_detail&static_id=80811 (14.12.2011)

25. http://faktxeber.com/17593_narkomaniya-problemi-t601hl252k601li-h601dd-al305r.html

26. http://eco.ria.ru/documents/20100322/215718166.html

# İSLAM BANKÇILIĞI SİSTEMİNDƏ SOSİAL ƏDALƏT VƏ SOSİAL RİFAHIN ƏKSİ MƏSƏLƏLƏRİ

***Oqtay İSMAYILZADƏ***
*"Halliburton Euroasia Limited", ogtayismayilzada@gmail.com*

**Xülasə**

Bank-kredit münasibətləri cəmiyyətdə mövcud olan iqtisadi münasibətlərin ayrılmaz bir hissədir.İqtisadi inkişaf artıqca bü münasibətlərdən faydalanan insanların sayıda artır**.** Bu münasibətlərin düzgün səmərəli qurulması həm iqtisadiyyatın inkişafına, həmdə insanların yaşayış səviyyəsinə, onların gələcəyə inamına böyük təsir göstərir. Post sovet məkanında və XX əsrin 90-cı illərində bank –kredit münasibətləri insanların yaddaşında bir çox mənfi misallarla, məsələn, dövlət banklarında dondurulmuş əmanətlər, bankrot olmuş bank-piramidaları ilə yadda qalmışdılar. Hal hazırda respublikada fəaliyyətdə olan banklar əsasən qərb prinsipləri əsasında qurulub və burada əsas məqsəd gəlirin maksimal alınmasıdır.

İslam bankçılığının müasir bankçılıqla bir çox oxşar və fərqli xüsusiyyətlərinin olmasına baxmayaraq, bu növ bankçlığın kifayət qədər uğurlu ola bilməsi artıq bir sıra qərb ölkələri tərəfindən dərk olunub. İslam bank-kredit münasibətlərinin quruluşunda daha çox sosial ədalət, düzgünlik, risklərin qarşılıqlı bölünməsinə yer verilir. İslam bankçılığının ölkədə tətbiqi üçün geniş imkanlar vardır.

**Açar sözlər:** bank sistemi, islam iqtisadi model, islam iqtisadyyatın prinsipləri,islam bankçılığı,sosial ədalət, sosial rifah

# REFLECTION OF SOCIAL JUSTICE AND SOCIAL WELFARE ISSUES IN THE ISLAMIC BANKING

Bank and credit relations in the society is an important part of the economic relations. Increasing number of people benefiting from this relationship is the fact of economic growth. The effective establishment of these relations and the development of living standards of people have a great impact on their future with confidence. There are several negative memories about bank system in the Post-Soviet Union countries, for example, frozen deposits in state banks, bank-defaults and etc. Currently most of the banks works as per western bank principles and the main aim here is the maximum revenue.

Islamic banking has a lot of similar and different features of with modern banking. Number of western countries have already realized benefits and positive features of islamic banking. The structure of Islamic are social justice, division of the risks and income etc. Azerbaijan has great opportunities to implement Islamic banking.

**Key words:** banking system, Islamic economic model, Islam Banking, social justice, social welfare.

**1. Banklar cəmiyyətdə sosial-iqtisadi münasibətlərin bir elementi kimi**

İqtisadi münasibətlər sosial münasibətlərin tərkib hissəsi kimi çıxır edir. Hələm XIX əsrdə K.Marks bu münasibətlərin əhəmiyyətindən danışırdı. Pul-kredit münasibətləri bu fonda vacib elementlərdən biridir. Bu münasibətlərin reallaşması bank instrumntləri vasitəsi ilə həyata keçirilir. Müasir cəmiyyətdə bank-kredit münasibətləri daha da çox insanı əhatə edir. Aydındır ki, bu kimi iqtisadi münasibətlərin sosial ədalətə, məsuliyyətə söykənməsi, eyni zamanda ön plana müştərilə yüksək xidmət səviyyəsinin təklif olunması, ölkədə iqtisadi durumun yaxşılaşmasına və kasıbçılığın səviyyəsinin aşağı salınmasına xidmət göstərir.

Avropa və Amerikanın inkişaf etmiş ölkələrində daha qabarıq şəkildə əksini tapan 2008-2009-cu illərin qlobal maliyyə böhranı və onun 2011-2012 ci illərdə nisbətən səngiməsi bank sistemində yığılan təcrübədən və bu təcrübənin təkmilləşməyə ehtiyacının olduğundan xəbər verir. Post sovet məkanı ölkələrində dövlət banklarında dondurulmuş pulların, bank piramidalarının xatirəsi hələ də qaldığından bu ölkələrdə vətəndaşların banklara olan inamı tam formalaşmayıb.

Beləliklə insanların maddi rifahının yaxşılaşmasında, cəmiyyətdə sosial ədalət prinsipinin bərqərar olmasında, istehsal sahələrinin genişlənməsində bankların rolu getdikcə artır.

Müasir bankların təklif etdiyi bank məhsullarını ədalətlilik, düzgünlük, məsuliyyət və dəqiqlik kimi prinsiplərə uyğynluğunun obyektiv qiymətləndirilməsi üçün bu məhsulların müqayisəli analizinə ehtiyac var.

**2. Bankların yaranmasında və inkişafında sosial-iqtisadi tələbat**

Muasir bank sistemi Qərbi Avropada XVI-XVII əsirlərdə yaranmış və onun 300 il inkişaf tarixi vardır. Bank – italyan sözü olub mənası "stol" deməkdir. İndiki bankların əcdadları orta əsr pul xirdalayanları olub ki, onlar tacirlerden pul əmanətlərinin qəbulu, müxtəlif ölkə və şəhərlərin pul vahidlərinin dəyişdirilməsi üzrə ixtisaslaşmışdılar. Zaman keçdikcə onlar bu əmanətlərdən və öz şəxsi vəsaitlərində istifadə edərək ssudaların verilməsi və faizlərin alınmasına başladılar ki, bu da pul xırdalayanların bankirlərə çevrilməsinə gətirib çıxardı.

Banklar –sahibkarlıq fəaliyyətinin xüsusi növü olub ssuda kapitalının hərəkəti və bölüşdürülməsi ilə bağlıdır. Ssuda kapitalistindən fərqli olaraq, ***bankir***kapitalist-sahibkarın bir növüdür. Sənaye kapitalistləri öz vəsaitlərini sənayeyə, ticarət kapitalistləri ticarətə, bankirlər isə öz vəsaitlərini bank işininə yatırırlar. Ssuda kapitəlistləri ssuda kimi əsasən şəxsi kapitalını, bankirlər isə özgələrin kapitallarını verirlər. Ssuda kapitalistinin gəlirini ssuda faizi, bankirin gəlirini isə bank gəliri (faiz, qiymətli kağızlardan gələn gəlir, komissiya və.s.) təşkil edir.

**Banklar bazar iqtisadiyyatı şəraitində aşağıdakı funksiyaları yerinə yetirirlər:**

- sərbəst vəsaitlərə ehtiyacı olanlarla, sərbəst vəsaitin sahibləri arasında vasitəçilik funksiyası
- ödənişlərdə üzrə vasitəçilik
- gəlirin və əmanətlərin kapitala çevrilməsi
- kredit alətlərinin yaradılması.

Yuxarıda qeyd olunan funksiyaları nəzərə alaraqbanklar, istehsalın genişlənməsinə aşağıdakı yollarla köməklik edirlər:

- Müəssisələrin genişləndirilməsi üçün ssuda kapitallarının sahibkarların sərəncamına verilməsi;
- nəğdsiz dövriyyənin artırılması və bununla da kağız və dəmir pulların dövriyyəsinin azaldılması;
- Sərbəst vəsaitlərin toplanması və kapitala çevrilməsi;

Bazar iqtisadiyyatı şəraitində istehsalın əsas məqsədi mənfəət əldə etməkdir.Nəzərə alsaq ki, yuxarıda göstərilən funksiyalarda olduğu kimi, bankir həm özünün həm müştərilərinin vəsaitlərini idarəedən spesifik bir sahibkar kimi fəaliyyət göstərir ki, bu zaman şəxsi maraqların müştərilərin maraqlarından üstun tutulmaq təhlükəsi yaranır. Bunun nəticəsi olaraq bankir, depozit sahibləri və şəriklər (aksionerlər) arasında mənfəətin bölüşdürülməsi zamanı ***sosialədalət*** prinsipinin pozulması riski yaranır. Digər tərəfdən isə qərb tipli banklarda, kreditlərin verilməsi faktiki olaraq sərbəst pul vəsaitlərinin "satışı" şəklində həyata keçirilir ki, bu zaman borc alanın qarşılaşa biləcəyi real rikslər nəzərə alınmır. Sosial məsuliyyətin bu şəkildə pozulması tərəflərin gəlirinin və risklərin bərabər şəkildə bölünməməsindən irəli gəlir. Nəticə olaraq bu qərb tipli iqtisadiyyatlarda müflisləşmənin geniş yayılmasına və cəmiyyətin müxtəlif qrupları arasında daimi sosial gərginliyə gətirib çıxarır. Bu kimi gərginlik iqtisadi böhran və resessiya zamanı müşahidə olunur hansı ki, ödənilməyən kreditlərin girovunun kütləvi şəkildə satışı ilə müşayiət olunur.

Qərb bankçılığının və bankçılıq prinsiplərinin əksi olaraq ***islam bankçılığı*** çıxış edir.

Bu konteksdə islam bankçılığının, nisbətən qənc olmasına baxmayaraq, islam dininin üstünlük təşkil etdiyi ölkələrdə daha(və sürrətli) geniş yayılması (iqtisadi aləmdə iqtisadi bir fenomen kimi qəbul edilir) (və "Şəriət" qanunlarına uyğun olaraq fəaliyyət göstərməsi qanunauyğundur). Müasir dövrdə islam bankçılığının artan nüfuzu eyni zamanda islam iqtisadiyyatına olan marağı da artırıb. İslam bankçılığı məhz islam iqtisadiyyatının və ya islam iqtisadi modelinin bariz nümunəsidir. Bank sisteminin islam dinin qanunlarına uyğun olaraq formalaşması və bu qanunlara riayət etməsi dünyada mövcud olan bank sistemi anlayışında bir yenilikdir. Bu yeniliyin özünü tam şəkildə doğrultmasını islam bankçılığının dünya üzrə inkişaf templərində görmək olar.

İslam bankçılığının müasir bankçılıqla bir çox oxşar və fərqli xüsusiyyətlərinin olmasına baxmayaraq, bu növ bankçlığın kifayət qədər uğurlu ola bilməsi artıq bir sıra qərb ölkələri tərəfindən dərk olunub. Bu ölkələrin aparıcı banklarında "islam pəncərələri"nin açılması və islam qanunlarına uyğun şəkildə bank xidmətlərinin göstərilməsi buna misal ola bilər. Clifford Chans şirkətinin Bankinq və layihələr departamentinin aparıcı mütəxəssisi Məhəmməd Həmrə-Krouhun sözlərinə görə, ildən–ilə islam maliyyə institutları tərəfindən həyata keçirilən əməliyyatların artımı orta hesabla 20% təşkil edir. Səudiyyə Ərəbistanı 2020-ci ilə qədər 100%-li islam bazarına çevrilməyi planlaşdırır.**[3].**

Bankçılığın bu növü eyni zamanda Azərbaycan Respublikası üçün də bir çox faydalar verə bilər. Ölkə əhalisinin 96%-nin islam dininə sitayiş etməsi, islam bankçılığının təqdim edəcəyi xidmətlərə marağın böyük olacağına zəmin yaradır. Bu yöndə yerli kommersiya bankları tərəfindən başlanılan işlər və Azərbaycan Respublikasının Mərkəzi Bankı**[4]**tərəfindən islam bankçılığının öyrənilməsi istiqamətində aparılan araşdırmalar ölkəmizdə islam dininin qanunlarına tabe olan bir bankçlılıq sahəsinin yaradılması potensialından xəbər verir.

**3. İslam bankçılığında sosial ədalət və rifah prinsipləri**

İslam bankçılığı deyərkən, ilk öncə İslam iqtisadiyyatı anlamına nəzər salmaq lazımdır. Bu termin XX əsrin ikinci yarısında, islam dünyasındakı siyasi və iqtisadi inkişafın məntiqi nəticəsi olaraq yaranmışdır. Bunun nəticəsi olaraq dünya ictimaiyyəti son 20-30 illik zaman kəsiyində "İslam iqtisadiyyatı" anlayışı və bu iqtisadi sistemin təməl prinsipləri ilə tanış olmuşdur.

İslam iqtisadiyyatı – Qurani-Kərimdən irəli gələn prinsiplərə və Şəriət qanunlarına əsaslanan bir iqtisadi modeldir. Bu iqtisadi sistem aşağıdakı prinsiplər üzərində qurulmuşdur:

1. Ölkənin sərvət və nemətlərindən istifadə olunmasında bütün əhali üçün bərabər şəraitin yaradılması.
2. Ümumi rifahın təmin olunması.
3. Yoxsulluğu aradan qaldırılması.
4. Gəlirlərin bölgüsündə və sərvətlərin mənimsənilməsində ədalətlilik.
5. İsrafın qarşısını almaq.

Qeyd olunan prinsiplərə riayət olunması üçün insanlar iqtisadi fəaliyyət zamanı ədalətlilik, bərabərlik, fəaliyyət birliyi kimi dəyərləri rəhbər tutmalı, oğurluq, qarət, paxıllıq kimi mənfi xüsusiyyətlərdən uzaq olmalıdırlar. İslam iqtisadi modeli bu kimi prinsiplərə söykənərək sərvətlərin bir qrup insanların əlində cəmlənməsinə və bununlada inhisarlaşmaya yol vermir. İslam iqtisadiyyatı "haram" və "halal" kimi mühakimələrə əsaslanır. Şəriət qanunlarına əsasən qadağan olumuş əməlləri belə qruplaşdırmaq olar:

- Fırıldaq və yalan yolu ilə qazanc əldə etmək
- Sələmçilik ilə məşğul olmaq
- Rüşvət vermək və almaq
- Narkotik maddələr, spirtli içkilər, donuz və ondan hazırlanmış məhsullar istehsal etmək və satmaq
- Alıcıları çaşdırmaq
- Süni şəkildə artırılmış qiymətlərlə məhsulları satmaq.

İslam iqtisadi modelinin kamilliyi burada mövcud iqtisadi instrumentlərin cəmiyyətin bütün üzvlərinin rifah halının yaxşılaşdırılmasına yönəlməsidir. Bu qismdə olan iqtisadi alətlərə misal olaraq aşağıdakıları misal göstərmək olar;

1. Sədəqə
2. Zəkat
3. Xüms

Yuxarıda göstərilən alətlərin hər üçü sosial ədalətin bərpası və yoxsulluğun aradan qaldırılması ilə əlaqədardır. Məsələn, varlılar kasıblara öz mallarından könüllü şəkildə ***sədəqə*** verməsi buna nümunədir. Bu qismdə İslam İqtisad Modelinin (İİM) daha bir vacib aləti ***zəkat*** vergisidir. Zəkat – mal-dövlətin hesabı bəlli olduqda müəyyən olunmuş məhsul növlərinə tətbiq edilir. Bu məhsullara: Qızıl, Gümüş, Buğda, Arpa, Xurma, Üzüm, Dəvə, Qaramal, Qoyun-keçi aiddir. Bu vergi ayda bir dəfə qırxda bir dəfə prinsipi ilə hesablanır və bu zaman çəki ölçülərindən istifadə edilir.

İslam dünyasında iqtisadiyyatın tənzimlənməsində tətbiq olunan ***xüms*** vergi növünüdə misal göstərmək olar. Xüms - əmlakdan və işgüzarlıqdan alınan vergidir. Bu vergi əldə olunan qazancın və ona bərabər tutulan gəlirin beşdə bir hissəsidir. Umumilikdə bu kimi vergi növlərinin mövcudluğu islam iqtisadiyyatının təməlində ədalətlilik prinsipinin və bütün

insanların Allah qarşısında əmlak və mülkiyyətindən asılı olmayaraq **bərabər mövqedə** durmalarını göstəricisidir.

## 4. İslam bankçılığının Azərbaycanda tətbiqi imkanları və onunla bağlı sosial prinsiplər

18 Oktyabr 1991-ci ildə yenidən qazanılmış müstəqillik Azərbaycan Respublikasında bankçılıq sistemi üçün yeni imkanlar açdı. Azərbaycanın dünya iqtisadiyyatına başlanılan inteqrasiyası ölkə iqtisadiyyatının bütün sahələrində özünü göstərməyə başlamışdır.Yeni əsrə qədəm qoyan bankçılıq sistemi XXI əsrdə daha da sürətli inkişafa təkan verdi. Belə ki, xarici kommersiya bankları ilə bağlanılan müqavilələr, xarici əməkdaşlığın genişlənməsi, qərb standartlarının tətbiqi tez bir zamanda öz ilkin bəhrələrini verməyə başladı. Belə ki, iqtisadiyyatın sahələri üzrə artan kredit qoyuluşları, əhali tərəfindən yerli banklara olan etibarın yüksəlməsi, bankların depozit portfellərinin artması ölkədə güclənən bank sistemindən xəbər verir. Hazırda ölkədə iki pilləli bank sistemi fəaliyyət göstərir. Birinci pillədə Mərkəzi Bank, ikinci pillədə isə kommersiya bankları durur. Mərkəzi Bank "bankların bankı" olaraq digər banklar üzərində nəzarət edici və tənzimləyici funksiyaya malikdir. Bununla bərabər Mərkəzi bank pul banknotlarının emissiyası, dövriyyədəki pul kütləsinə nəzarət, manatın kursunun və inflyasiyanın stabil saxlanılması siyasətini həyata keçirir. Aşağıda verilmiş cədvəldə 2003-2009 cu illər ərzində yerli kommersiya banklarında depozit portfelinin dinamikasini müşahidə etmək olar.

**Cədvəl № 1**

***Kommersiyabanklarınındepozitportfeli (milyon AZN)***




Mənbə: Mərkəzi Bank – statistik bülleten[5]

Verilən cədvəldən bəlli olur ki, göstərilən müddət ərzində yerli **kommersiya banklarına əhali tərəfindən yatırılan depozitlərin həcmi durmadan artmışdır.** Bu vətəndaşlar tərəfindən artan inamın və etibarın bir təcəssümüdür. Yalnız 2009-cu ildə maliyyə böhranı ilə əlaqədar yaranan çaşqınlıq depozit portfelinin bir qədər azalmasıma səbəb olmuşdur. Umumilikdə, bu kimi pozitiv göstəricilər bank sisteminin düzgün inkişaf yolunda olduğunu göstəricisidir. İqtisadiyyatın sahələri üzrə kredit qoyuluşlarını faiz nisbətində aşağıdakı qrafikdən aydın görmək olar.

Qrafik №2

***İqtisadiyyatın sahələri üzrə kredit qoyuluşları(2009-cu il)***




Mənbə: Mərkəzi Bank – statistik bülleten[5]

Verilən qrafik 2009-cu ilə qədər verilmiş məcmu kreditlərin iqtisadiyyatın sahələri üzrə bölüşdürülməsini faiz nisbətində göstərir. Bəlli olur ki, ticarət və xidmət, kimyaçılıq və təbii resurslar, ev təsərrüfatına verilən kreditlər üstünlük təşkil edir. Hazırda Azərbaycanda qərb ölkələrinin təcrübəsinə əsaslanan bank sistemi qurulur. Qərbdə fəaliyyət göstərən bankların təcrübəsi öyrənilir və tətbiq olunur. Bununla yanaşı Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Asiya İnkişaf Bankı, Dünya Bankı kimi iri maliyyə qurumları Azərbaycanda bank sisteminin inkişaf etdirilməsi üçün öz təcrübələri ilə bölüşür və bundan əlavə yerli kommersiya banklarının səhmdarları sırasına daxil olurlar.

Qeyd olunan banklardan savayı Azərbaycana böyük maraq göstərən daha bir nüfuzlu maliyyə qurumu İslam İnkişaf Bankıdır**.** Bu qurum Azərbaycanda keçirilən konfranslarda, ölkəmizdə islam bankçılığı ənənlərinin yaranmasını və ölkədə Şəriət qanunları əsasında fəaliyyət göstərən bankların inkişaf etməsinin tərəfdarı olduğunu bildirmişdir. Bunun üçün Azərbaycanda potensialın olduğu dəfələrlə vurğulanmışdır. Ölkədə islam bankçılığının müştəri seqmenti var və buna tələbatda böyükdür. İlk öncə Azərbaycanda müsəlman dininə sitayiş edənlərin sayı çoxluq təşkil edir. İkincisi, böhran başlanandan sonra həm qərbin iş adamları həm də adi müştərilər gördülər ki, islam bankçılığının bu böhrana qarşı bir immuniteti var. Ümumiyyətlə Azərbaycan bazarının beynəlxalq maliyyə investisiyalarına həm ehtiyacı var, həm də Azərbaycan özü bir bazar kimi onlara çox maraqlı bir bazardır. Ona görə də İslam bankçılığının inkişafının imkanları da Azərbaycanda çox böyükdür: əvvəla, investisiyalar axını, ikincisi də müştəri bazası hazırdır. Biz həm cəlb edə bilərik, həm də bəhrələnə bilərik. Qazaxıstan artıq öz daxili imkanlarından bəhrələnərək ölkədə islam bankçılığının tətbiqinə başlayıb. Belə ki, bu ölkədə islam qanunları əsasında "Əl-Hilal Bankı" fəaliyyət göstərir və daha iki bank bu bazara daxil olmağa hazırlaşır.

Azərbaycanda da islam bankçılığına meyillər özünü göstərməkdədir. Artıq bəzi banklarda bu istiqamətdə işlər aparılır. Misal kimi Azərbaycan Beynəlxalq Bankını TuranBankı, Əmrahbankı və Nikoilbankı göstərmək olar. Ümumilikdə bu sistemin effektli işləməsi üçün lazım olan bəzi amillər var. Bunlardan ən əsası Mərkəzi Bankda bu sahədə işlərin aparılması, müvafiq qanunvericiliyin və standartların formalaşdırılmasıdır. Lazımlı şərtlərdən biri də bu sahəyə uyğun kadrların hazırlanması və ən əsası **potensial müştərilər arasında** düzgün və effektli maarifləndirmənin aparılmasıdır. Qeyd olunan faktlar göstərilən nümunələr islam bankçılığının dünyada artan nüfuzunun göstəricisidir. Artıq bir sıra ölklər bu növ bankçılıq sisteminin öyrənilməsinə və tətbiqinə başlayıblar. Azərbaycanda da islam bankçılığı üçün münbit şərait mövcuddur ki, onun tətbiqi ölkəyə əlavə kapital axınına və bütövlükdə ölkə iqtisadiyyatına müsbət təsir göstərə bilər. Bir sıra islam təmayüllü beynəlxalq

qurumların Azərbaycana olan marağı, ölkədə tez bir zamanda islam bankçılığı ənənələrinin yaranmasına yardımcı ola bilər. Azərbaycan İslam İnkişaf Bankı və digər nüfuzlu qurumların təcrübəsində istifadə edə bilər.

2007-2010 cu illəri əhatə edən son maliyyə böhranı zamanı islam banklarının yüksək likvidlik və dözümlülük nümayiş etdirməsi bu banklara olan etibarı bir qədər də artırdı. Artıq bir çox qərb iqtisadçılarıda bu növ bankçılığı üstünlüklərini anlayaraq yerli banklarda islam pəncərələri yaradaraq Şəriət qanunlarına uyğun bank məhsulları təqdim etməyə başlayıblar. Bundan əlavə, bir çox mütəxəssislər tətəfindən islam bankçılığı mövcud müasir bank sisteminin alternativi kimi də qiymətləndirlir. İslam bankçılığındakı müsbət tendesiyanı nəzərə alan yerli kommersiya bankları artıq bu növ bank məhsullarının təqdim olunması üçün xarici qurumlarla məsləhətləşmələr aparırlar. Eyni zamanda Mərkəzi Bankın da bü yöndə apardığı tətqiqatlar Azərbaycanda islam qanunlarına əsaslanan bankçılığa tələbatın olduğundan xəbər verir.

***Ədəbiyyat.***


1.*К. Маркс* Капитал. — Т. 1. — С. 198-206.,М,1990г

2. Банковское дело: под ред. Е.Ф. Жукова, Н.Д. Эриашвили. — М.: ЮНИТИ-ДАНА, 2008.

3.http://az.trend.az/capital/business/836102.html#popupInfo

4.http://azeri.irib.ir/xeberler/azerbaycan/item/

5.http://azeri.irib.ir/xeberler/azerbaycan/item/

6.http://www.cbar.az/pages/publications-researches/statistic-bulletin/(diagram)

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ KİÇİK ÖLKƏLƏRİN İQTİSADİ TƏHLÜKƏSİZLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

**_Dissertant Aliyə ALXASOVA_**

*Azərbaycan Dövlət İqtisad Universiteti*

Qloballaşma prosesi təkcə iqtisadiyyatları deyil, həm də siyasəti, sosial sferanı, informasiya sahəsini, təhsili, mədəniyyəti və ideologiyanı, təhlükəsizliyi və ətraf mühiti əhatə edir. Son illərdə bu proses mürəkkəbləşmiş və ona müxtəlif yanaşmaların yaranmasına səbəb olmuşdur. Məsələn, amerika alimi A.Teyt qeyd edir ki, qloballaşma, təkcə əmtəələrin deyil, həm də xidmət və kapitalın da mübadiləsini əhatə edən beynəlxalq ticarətin miqyaslarının və onun sferalarının genişlənməsi nəticəsində ölkələrin qarşılıqlı əlaqələrinin artmasıdır.[54] M.İntriliqeytor da bu mövqedən çıxış edərək, qloballaşmanı, daha açıq, inteqrə olunmuş, sərhədləri tanımayan dünya iqtisadiyyatı şəraitində dünya ticarətinin və beynəlxalq mübadilənin digər proseslərinin miqyaslarının geniş şəkildə artması kimi izah etmişdir.[55]

Qloballaşma ölkələrə daha böyük həcmdə iqtisadi resurslar, xüsusilə də maliyyə resurslarını cəlb etməyə imkan yaradır. Çünki, qloballaşma hesabına ölkələr daha çox sayda bazarlara çıxa bilirlər. Amerika iqtisadçısı M.Porter qeyd edir ki, sənaye sahələrinin qloballaşması müəyyən ölkənin firmasının bu ölkədə mövcud olan resursların mövcudluğundan və kəmiyyətindən asılılığını aradan qaldırır.[56] Bundan başqa, ticarətin və mübadilənin genişlənməsi ixtisaslaşma üçün əlverişli şərait yaradır və bu da istehsalın səmərəliliyinin yüksəldilməsinə səbəb olur.

Qeyd edilənlərlə yanaşı, qloballaşma ölkələr üçün bir sıra təhlükələrin yaranmasına da səbəb olur. Amerika iqtisadçısı M. İntriliqeytor qeyd edir ki, «qloballaşma prosesindən yaranan üstünlüyün əsas hissəsini faktiki olaraq varlı ölkələr və fərdlər əldə edirlər. Qloballaşma nəticəsində nemətlərin ədalətsiz bölgüsü regional, milli və beynəlmiləl səviyyələrdə münaqişələrin yaranması təhlükələrini yaradır»[57]. Belə təhlükələrin yaranması üçün az inkişaf etmiş ölkələrin iqtisadiyyatlarının açıq xarakter alması əlverişli şərait yaradır.

Beləliklə, qloballaşma prosesinin ölkələrin iqtisadi təhlükəsizliyinə təsiri çoxtərəfli olur.

Ölkənin iqtisadi təhlükəsizliyinin vəziyyətinin qiymətləndirilməsi parametrlər, meyarlar və indikatorlar sistemi vasitəsilə həyata keçirilir ki, bunlar da iqtisadi sistemin fəaliyyətinin son hədd qiymətlərini müəyyən edir. Bu hədd qiymətlərindən kənarda sistem, özünün dinamik inkişaf qabiliyyətini, xarici və daxili bazarlarda rəqabətqabiliyyətini itirir, transmilli şirkətlərin ekspansiyasının obyektinə çevrilir və digər neqativ hallarla qarşılaşır. Dövlət

---

[54] Тейт Алан А. Глобализация угроза или новые возможности для Европы // Проблемы теории и практики управления. - 1998. - № 5.

[55] Интрилигейтор М. Глобализация как источник международных конфликтов и обострения конкуренции // http://www.ptpu.ru/Issues/6-98/pu6-1.htm

[56] М.Портер. Международная конкуренция. , с.33

[57] М Интрилигейтор Глобализация как источник международных конфликтов и обострения конкуренции http://www.PTPU.ru/Issues/6_98/pu6_1.htm

siyasətinin hazırlanması üçün iqtisadiyyatın keyfiyyət təsvirindən başqa təhlükəsiz inkişafın kəmiyyət baxımından sərhədlərinin müəyyən edilməsi tələb olunur. Buna görə də, iqtisadi təhlükəsizliyin qiymətləndirilməsi üçün göstəricilər sistemindən istifadə edilir.

Rus iqtisadçısı V.M.Zaxarov qeyd edir ki, iqtisadi təhlükəsizlik səviyyəsini müəyyən etmək üçün aşağıdakıları qiymətləndirmək lazımdır:[58]

- ölkənin resurs potensialı və onun inkişaf imkanları;
- resurslardan, kapitaldan və əməkdən istifadənin səmərəlilik səviyyəsini və onun inkişaf etmiş və qabaqcıl ölkələrin səviyyələrinə, həmçinin xarici və daxili xarakterli təhdidləri minimuma edirən səviyyəyə uyğunluğu;
- iqtisadiyyatın rəqabət qabiliyyətini;
- ərazinin və iqtisadi məkanın tamlığını;
- suverenliyi, müstəqilliyi və xarici təhdidlərə qarşı müqavimək göstərmək imkanlarını;
- sosial sabitliyi və sosial konfliktlərin qarşısının alınması və həll edilməsi şərtlərini.

Qeyd etmək lazımdır ki, yuxarıda qeyd edilən meyarlar iqtisadi təhlükəsizliyi qiymətləndirməyə imkan versə də, bəzi meyarlar bir-birin təkrar edir. Belə ki, iqtisadi resurslardan istifadə səviyyəsi ölkənin rəqabət qabiliyyətini müəyyən edir. Buna görə də, qeyd edilən meyarlar  aşağıdakı kimi müəyyən edilsə düzgün olardı:

- ölkənin resurs potensialı və onun inkişaf imkanları;
- resurslardan, kapitaldan və əməkdən istifadənin səmərəlilik səviyyəsini və onun inkişaf etmiş və qabaqcıl ölkələrin səviyyələrinə, həmçinin xarici və daxili xarakterli təhdidləri minimuma edirən səviyyəyə uyğunluğu;
- suverenliyi, müstəqilliyi və xarici təhdidlərə qarşı müqavimək göstərmək imkanlarını;
- sosial sabitliyi və sosial konfliktlərin qarşısının alınması və həll edilməsi şərtlərini.

Burada ilk iki bənd milli iqtisadiyyatın rəqabət qabiliyyətini, üçüncü bənd suverenliyi, dövrdüncü bənd isə iqtisadi inkişafın nəticələrini əks etdirir.

İqtisadiyyat mürəkkəb sistem olduğundan, onun vəziyyətini qiymətləndirmək üçün yüzlərlə göstəricidən istifadə edirlər. Buna görə də, iqtisadi təhlükəsiziyin qiymətləndirilməsi göstəricilərini müəyən edərkən onların aşağıdakı üç xarakterik xüsusiyyətə malik olduğunu nəzərə almaq lazımdır:[59]

- bu göstəricilər iqtisadi təhlükəsizliyi kəmiyyət baxımından əks etdirməlidir;
- bu göstəricilər cəmiyyəti, dövləti və subyektləri münkün təhlükələrdən xəbərdar etmələri üçün yüksək həssaslığa və dəyişikliyə malik olmalıdır;
- kifayət qədər güclü dərəcədə öz aralarında qarşılıqlı təsirə malik olmalıdırlar.

Milli iqtisadiyyatın mövcud vəziyyətini əks etdirən bütün göstəricilər iqtisadi təhlükəsizliklə əlaqədar ola bilər. Bununla belə, bu göstəricilərin iqtisadi təhlükəsizliyi qiymətləndirmək baxımından əhəmiyyətliyi fərqlidir. Əhəmiyyətsiz göstəricilərin nəzərə alınması iqtisadi təhlükəsizliyin qiymətləndirilməsini həddən artıq müərəkkəbləşdirir və bu sahədə siyasət tədbirlərinin hazırlanmasını çətinləşdirir. Buna görə də, bilavasitə iqtisadi təhlükəsizliyi kəmiyyət baxımından əks etdirən göstəricilərin müəyyən edilməsi vacibdir.

---

[58] Экономическая и национальная безопасность: Учебник / Под ред.Е.А Олейникова. М.: Экзамен, 2004. 768 с. с.414-415.

[59] Экономическая безопасность России: Общий курс: Учебник / Под ред.В.К. Сенчагова. 2-е изд. М.: Дело, 2005.  896 с. с.24.

İqtisadi təhlükəsizliyin qiymətləndirilməsi göstəricilərinin müəyyən olunması əsasən mövcud təhlükələri vaxtında müəyyən edilməsi məqsədini daşıyır. Buna görə də, seçilmiş göstəricilər yaranmış təhlükələrə həssas olmalı və onların təsiri nəticəsində dəyişməlidir. Belə əlamətə malik olmayan göstəricilərdən istifadə iqtisadi təhlükəsizlik sahəsində tədbirlərin vaxtında hazırlanmasına imkan vermir.

İqtisadi təhlükəsizliyin qiymətləndirilməsi göstəricilərinin əsas əlamətlərindən biri onların qarşılıqlı asıllıqda olmalarıdır. Çünkü belə halda təhlükənin artması şəraitində göstəricilərin qiymətləri də əhəmiyyətli şəkildə dəyişməyə başlayır. Bunun əsasında da həyata keçirilən tədbirlərin təsir səviyyəsini müəyyən etməyə, yaranan təhlüklərin miqyasını vaxtında qiymətləndirməyə imkan verir.

İqtisadi təhlükəsizlik səviyyəsini qiymətləndirərkən mühüm məsələlərdən biri yuxarıda qeyd edilən göstəricilərin qiymətlərinin təhlükəli hədlərini müəyyən etməkdir. Son hədd qiymətləri iqtisadiyyatın normal inkişafı, istehsal və istehlakda, əhalinin həyat səviyyəsinin təmin edilməsində neqativ halların baş verə biləcəyi şəraiti xarakterizə edir. Məsələn, dövlət büdcəsinin kəsrinin, işsizlik səviyyəsinin və s. belə göstəricilərin qiymətləri müəyyən həddi keçdikdə, digər göstəricilərin qiymətlərinə mənfi təsir göstərməklə iqtisadi inkişafın təmin olunmasına ciddi təhlükələr yaradır. Buna görə də, neqativ proseslərin sərhədlərini müəyyən etməyə imkan verən indikatorların seçilməsi və onların kritik hədlərinin müəyyənləşdirilməsi zəruridir.

İqtisadi təhlükəsizliyin qiymətləndirilməsi göstəricilərinin öyrənilməsinə iqtisadi ədəbiyyatda geniş tədqiq olunmamışdır. Belə yanaşmalardan biri V.A.Boqomolov, N.D.Erişvili, Y.N.Barikaev, Y.A.Pavlov və M.A.Yelçaninov tərəfindən verilmişdir.[60] Onlar iqtisadi təhlükəsizliyin göstəriciləri sisteminə aşağıdakıları daxil etmişlər.

- həyat səviyyəsi və keyfiyyəti;
- inflyasiyanın tempi;
- işsizlik səviyyəsi;
- iqtisadi artım;
- büdcə kəsri;
- dövlət borcunun həcmi;
- qızıl-valyuta ehtiyatlarının həcmi;
- kölgə iqtisadiyyatının fəaliyyəti;
- ekologiyanın vəziyyəti.

Fikrimizcə, bu göstəricilər ölkənin iqtisadi təhlükəsizliyini qiymətləndirmək üçün kifayət deyildir. Rus iqtisadçısı V.M.Zaxarov tərəfindən iqtisadi təhlükəsizliyin qiymətləndirilməsi üçün daha geniş göstəricilər sistemi təklif edilmişdir.[61] Bu göstəricilər sistemi mili iqtisadiyyatın vəziyyətini tam şəkildə qiymətləndirməyə imkan verir. Bu göstəricilərə aşağadakılar aiddir:

Ümumi makroiqtisadi göstəricilər:

1. Həyat səviyyəsi və göstəriciləri (adambaşına):

---

[60] Экономическая безопасность / под ред. В.А. Богомолова, М.; ЮНИТИ-ДАНА, 2009, с. 14.

[61] Экономическая и национальная безопасность: Учебник / Под ред.Е.А Олейникова. М.: Экзамен, 2004. 768 с. с.417-422.

- nominal ÜDM;
- real ÜDM;
- sərəncamda qalan şəxsi gəlirlər;
- orta aylıq əmək haqqı;
- əmək haqqının ÜDM-də payı;
- ölkədə bir saatlıq əmək haqqının inkişaf etməkdə olan ölkələrdəki əmək haqqına nisbəti;
- istehlak xərcləri;
- qənaət norması;
- gəlirlərin differensasiyası indeksi (desil əmsalı);
- gəlirlərin təmərküzləşməsi indeksi (Cini əmsalı);
- sosial yaşayış minimumu (yöxsulluğun yuxarı həddi);
- əhalinin yoxsulluq səviyyəsi;
- xalis rifah göstəricisi (Nordhaus-Tobin göstəricisi).

2. İnflyasiya səviyyəsi, o cümlədən

- sənaye məhsullarının topdansatış qiymətləri;
- kənd təsərrüfatının tədarük qiymətləri.

3. İşsizliyin səviyyəsi;

4. İqtisadi artım:

- ÜDM-in illik artım tempi;
- UDM-in defelyatoru.

5. Sənaye istehsalının, o cümlədən ayrı-ayrı sahələrdə istehsalın artım tempi və onların ÜDM-də payı;

6. ASK-də istehsalın, o cümlədən ayrı-ayrı aqrar sahələrdə istehsalın artım tempi və onların ÜDM-də payı;

7. Ölkədə qiymət səviyyəsinin inkişaf etmiş ölkələrdəki qiymət səviyyəsinə nisbəti;

8. İstehlak qiymətləri indeksi;

9. Sənaye məhsulunun qiymət indeksi;

10. Kənd təsərrüfatı məhsullarının qiymət indeksi;

11. Əmtəələrin dəyər ifadəsində kütləsi ilə onların pul təminatı arasındakı nisbət;

12. Büdcə kəsri;

13. Dövlət borcunun ÜDM-ə nisbəti;

14. Dünya iqtisadiyatına inteqrasiya səviyyəsi:

- idxal, ixrac, saldo;
- ixracın strukğturu, hazır məmulatların və yüksək texnoloci əmtəələrin ixracda payı;
- idxaldan asılılıq: daxili istehlakda idxalın payı;
- valyutanın mübadilə məzənnəsi və paritet alıcılıq qabiliyyəti.

15. «Kölgə» iqtisadiyatının fəaliyyəti:

- dövlət qeydiyyatınıa alınmamış və qadağan edilmiş fəaliyyətlə əlaqədar məhsul və xidmətlərin və gəlirlərin göstəriciləri;
- onun ÜDM-də, mili gəlirdə payı;
- əmlakın qeyri-qanuni mənimsənilməsi.

Bu göstəricilər sisteminin araşdırılması göstərir ki, müəllif mili iqtisadiyyatı xarakterizə edən göstəricələri sadalamış və burada təkrarçılığa yol vermişdir. Həmçinin bu göstəricilər dəstinə sistemllik xarakterik deyildir.

Rus iqtisadi ədəbiyyatı istisna olmaqla digər xarici mənbələrdə iqtisadi təhlükəsizlik göstəriciləri demək olar ki, araşdırılmamışdır. Bununla belə, iqtisad elminin ən mühüm tədqiqat istiqamətlərindən biri xarici şokların mili iqtisadiyyata təsiridir. Belə şokların təsir kanalları iqtisadi ədəbiyyatda geniş şəkildə araşdırılmışdır. Buna görə də, ölkənin iqtisadi təhlükəsizliyinin qiymətləndirilməsi göstəricilərini müəyyən edərkən stabil iqtisadi inkişafa və əhalinin həyat səviyyəsini təhdid edən amilləri qiymətləndirməyə imkan verən göstəricilər sisteminə üstünlük veriləcəkdir.

Kiçik dövlətlər dünya iqtisadiyyatında həmişə daha çox həssaslığa malik olmuşlar. Bu təkcə, iri dövlətlərə nisbətən kiçik dövlətlərin iqtisadi fəaliyyətlərində ticarətin böyük paya malik olması ilə bağı deyil, həm də onların qloballaşmaını idarə edən istənilən şərti və ya qaydanı müəyyən etmək gücünə malik olmaaması ilə əlaqədardır.[62]

Ölkənin kiçik olmasının mənfi effektlərini dörd qrupda birləşdirmək olar:[63]

1) daxili bazarın həcminin məhdud olması;

2) daxili maddi-xammal bazasının məhdudluğu;

3) həssaslığı;

4) dövlət siyasəti üçün məhdud sahənin olması.

Bütün bu amillər kiçik ölkənin iqtisadi təhlükəsizliyinin qiymətləndirilməsində dünya iqtisadiyyatına və ayrı-ayrı xarici ölkələrdə baş verən neqativ meyillərin ölkədə iqtisadi fəallığa və milli iqtisadiyyatın səmərəlilik göstəricilərinə mənfi təsirini qiymətləndirməyə imkan verməlidir. Bu baxımdan, kiçik ölkəldə milli iqtisadi təhlükəsizliyin qiymətləndirilməsi göstəricilərinin hazırlanması və hesablanması milli iqtisadiyyatın xarici təhdidlərin monitorinqi sisteminin yaradılması baxımından mühüm əhəmiyyətə malikdir.

---

[62] Deborah Bräutigam, Michael Woolcock. Small States in a Global Economy. The Role of Institutions in Managing Vulnerability and Opportunity in Small Developing Countries. UNU/WIDER, Discussion Paper No. 2001/37

[63] Armstrong, H. W. and R. Read, (2003), "The Determinants of Economic Growth in Small States,"*The Round Table: The Commonwealth Journal of International Affairs* (92): 99-124.

# XARİCİ İQTİSADİ SİYASƏT VƏ STRUKTUR-İNVESTİSİYA-İNNOVASİYA FƏALİYYƏT ƏLAQƏSİ MİLLİ İQTİSADİYYATIN FORMALAŞDIRILMASI PRİORİTETİ KİMİ

***Dissertant Etibar MİRZƏYEV***
*Azərbaycan Dövlət İqtisad Universiteti*

Xarici iqtisadi siyasət dövlətin öz siyasi, iqtisadi, hərbi, sosial, ekoloji və digər potensiallarını yaratmaq, istifadə etmək və möhkəmləndirmək üçün həyata keçirdiyi məqsədyöndü fəaliyyəti olmaqla dünya iqtisadi sistemində iştirakının səmərəliliyni artırmağa şərait yaradan bir siyasətdir. Bu baxımdan müasir dövrdə xarici iqtisadi siyasətin aşağıdakı prinsiplər üzərində qurulması onun milli iqtisadi sistemdə rolunu artırmış olur:

- təsərrüfat subyeklərinin bir dəfəlik xarici iqtisadi sazişlərdən daimi əməkdaşlığa keçməsinə üstünlüyün verilməsi və xarici iqtisadi fəaliyyətin uzunmüddətli dövrə istiqamətlənməsi;
- milli bazarın qorunması və milli iqtisadiyyatın stimulluşdırılması məqsədini üstün məqsəd kimi götürməklə qloballaşma şəraitində xarici iqtisadi fəaliyyətdə təhlükəsizlik məsələlərinə diqqətin artırılması və bu zəmində xarici iqtisadi siyasətə milli iqtisadi siyasətin əsas və ayrılmaz bir hissəsi kimi diqqətin artırlması;
- xarici iqtisadi siyasətin həyata keçirilməsi üzrə funksiyaların ümumi və fərdiyə bölünməklə formalaşması və bu əsasda idarəetmə subyektlərinin vəzifələrinin, səlahiyyətlərinin və qarşılıqlı əlaqələrinin dəqiq təyin edilməsi;
- xarici iqtisadi siyasətin zaman və məkan baxımından təhlilinin aparılması ilə məqsədlərin qısa, orta və uzun müddətli hisəsələrə bölünməsi;
- xarici iqtisadi fəaliyyətin genişləndirilməsi üçün struktur-investisiya-innovasiya fəaliyyət əlaqəsi fonunda «məqsədlər ağacının» qurulması və onun reallaşdırılması mexanizmlərinin dəyişən şəraitə uyğunlaşdırılması;
- milli ixracatçılar üçün dünya bazarında əlverişli imkanların açılması yollarının proqnozlaşdırılması və davamlı inkişafın şərtləri ilə uzlaşdırılması üçün dövlətin dəstəyinin artırılması və s.

Zaman baxımından xarici iqtisadi siyasət dövlətin mövcud və perspektivdə yarada biləcəyi xarici iqtisadi əlaqələrinin cari və uzunmüddətli dövrə istiqamətlənən məqsədlərini təyin etməyə imkan verdiyindən əsas məsələ kimi dəyişən zaman müddətində məqsədlərinin prioritetliyinin dəyişməsinin və bu dəyişikliklərin ümumi inkişaf strategiyasına zərər gətirməməsinin nəzərə alınmasıdır. Bu üç səviyyədə, yəni xarici iqtisadi fəaliyyətin iştirakçısı olan təsərrüfat subyektinin (fiziki və hüquqi şəxslərin), dövlətin (konkret ölkənin) özünün milli maraqlarının və nəhayət, dünya iqtisadi sisteminin maraqlarının uzluşdırılması və daim müqayisə olunması tələbini qarşıya qoyur. Amma bir çox hallarda bu üçlüyün məqsədlərinin ziddiyyətliliyi onlar arasında seçimin edilməsini və bu anda mövcud reallıqlar və uzunmüddətli perspektivlər fonunda artıq səbəbin deyil, nəticəninin təhlil edilməsini tələb etmiş olur. Azərbaycanda əlverişli iqtisadi-coğrafi və qeopolitik yerləşmə, ümumilikdə inkişaf etmiş nəqliyyat, kommunal və istehsal sistemləri, əhəmiyyətli faydalı qazıntıların

mövcudluğu, ixtisaslı kadr hazırlığı sistemi, çoxsahəli sənaye kompleksi və daxili bazarların genişlənməsinə səbəb olan çoxvektorlu xarici-iqtisadi əlaqələr kimi amil və şəritlərin olması onun dünya birliyində rolu və yerinə şübhəsiz təsir edir. Aydındır ki, dünyada gedən geosiyasi, iqtisadi və nəhayət, ekoloji dəyişikliklər əsas şərtlərdən biri kimi çıxış etməklə dövlətin xarici iqtisadi siyasətində mütləq nəzərə alınan amil rolunu oynayır. Ümumən, respublikamızda bazar münasibətlərinin qurulduğu ilk illərdə məqsədlərin dövlətin suverenliyi, müstəqilliyi və rəqabətqabiliyyətlilyiyi kimi göstəricilər əsasında qurulması və təhlilinin aparılması bir sıra iqtisadçılar tərəfindən təklif olunsa da müasir dövrdə onların sırasına milli iqtisadiyyatın davamlı inkişaf baxımından innovasiya yönümlü iqtisadi strukturunun qurulması, bəzi hallarda investisiyaların stimullaşıdırılmasına tələbi olan və modernləşən bu strukturun qloballaşmanın təsirini nəzərə alaraq formalaşdırlması kimi məqsədlərini də aid etmək olar. Müasir dövrdə yeni postindustrial inkişaf tipinin seçilməsi səmərəli xarici iqtisadi siyasətin həyata keçirilməsi üçün məhz struktur-investisiya-innovasiya fəaliyyət əlaqəsinin imkanlarının yenidən dəyərləndirilməsi və bu aspektdə perspektiv istiqamətin düzgün seçilməsini gündəmə gətirmiş olur. Azərbaycan Respublikası Prezidentinin 29 noyabr 2011-ci ildə imzaladığı «Azərbaycan 2020: gələcəyə baxış» inkişaf konsepsiyasının hazırlanması haqqında sərəncamının verilməsi dövlət müstəqilliyinin gücləndirilməsi zəminində qeyri-neft sektorunun fəaliyyətinin genişləndirilməsi və davamlı inkişaf baxımından ÜDM tərkibində və dövlət büdcəsinin, tədiyyə balansının formalaşmasında təbii ehtiyat amilinin azaldılması və qeyri-neft sektorunun son məhsulu amilinin üstünlüyünü təmin edilməsi istiqamətinin inkişaf perspektivi kimi seçildiyini bir daha təsdiqləyir.

Milli iqtisadiyyatın proqressiv inkişaf etməsi və modernləşdirilməsi məhz uzun müddətli dövrü əhatə etdiyindən dövlət tərəfindən hər dövr və mərhələ üçün seçilmiş struktur-investisiya-innovasiya siyasətlərinin prioritetlərilə əlaqədar məqsədli proqramların istifadəsini nəzərdə tutur. Dövlət tərəfindən reallaşdırılan milli iqtisadi inkişaf strategiyası dünya iqtisadi böhranının milli iqtisadiyyata təsirinin zəiflədilməsinə və xarici iqtisadi əlaqələrin sabitləşdirilməsinə, müəyyən sahələrin iqtisadi ekspansiyasına, daxili sosial problemlərin həllinə və sosial rifahın artırılmasına, nəhayət, keçidin ilk illərində formalaşmış və indi də bir sıra məhsul və xidmətlər üzrə davam edən idxaldan asılılığın azaldılmasına yönəldilir. Burada əsas məqsəd milli iqtisadiyyatın sonrakı müvəffəqiyyətli inkişafı üçün lazımi milli sruktur potensialının təmin edilməsi və bu potensialın xarici iqtisadi siyasət sayəsində genişləndirilməsidir. Diqqəti cəlb edən cəhət «Azərbaycan 2020: gələcəyə baxış» inkişaf konsepsiyasının uzun müddətli dövrü əhatə etdiyindən xarici iqtisadi siyasət sahəsində ölkənin ixrac imkanlarının dəqiq göstəricilərinin təyin edilməsinin çətinliyindən ibarətdir. Bu baxımdan xarici iqtisadi siyasətlə struktur-investisiya-innovasiya siyasətlərinin və milli iqtisadi inkişaf strategiyanın qarşılıqlı əlaqəsi və onun tənzimlənməsi məsələlərinin, qloballaşma şəraitində milli iqtisadiyyatın makroiqtisadi tarazlığının təmin edilməsi ilə birgə sosial-iqtisadi problemlərinin tədqiq edilməsi böyük elmi və praktiki əhəmiyyətə malikdir. O da məlumdur ki, dövlətin hər bir sahə üzrə funksiyalarının konkretləşdirilməsi onun milli xüsusiyyətlərindən, potensialından, inkişaf mərhələsindən və seçilmiş siyasətin məqsədindən asılı olaraq həyata keçirilir. Bu danılmaz faktdır ki, dünya iqtisadiyyatının tarazsızlığı, bunun nəticəsində yaranan qeyri-müəyyənliklər qlobal tələbin, əmtəə bazarlarının və maliyyə axınlarının qeyri-sabitliyini artırır və yeni yanaşma tərzinin formalaşmasını gündəmə gətirir.

Son illər ölkəmizin sürətlə inkişaf etməsi, ÜDM artması dayanıqlı inkişaf təsəvvürü yaratmışdır. Lakin, nəzərə almaq lazımdır ki, qloballaşma böyük imkanlar yaratmaqla yanaşı eyni zamanda müxtəlif iqtisadi, siyasi, sosial və s. riskləri də artırır. Perspektivdə davamlı inkişaf və milli iqtisadi təhlükəsizlik mövqeyindən bu riskləri izləmək, onlarla işləmək və digər tərəfdən qloballaşma prosesinin genişlənməsi nəticəsində yaranan yeni imkanlardan istifadə etmək bacarığının olması vacibdir. Nəticədə bir sıra ekspertlərin qeyd etdiyi qlobal iqtisadi tarazlaşmanın qısa zamanda baş verməsi üçün əsas vasitə olan proqressiv struktur siyasətinin həyata keçirilməsi zərurəti yaranır. Məlumdur ki, xarici ticarətin liberallaşması zamanı sahələrin ixrac maraqlarının artması və dünya iqtisadi sisteminə istiqamətlənməsi zəminində daxili bazarın maraqlarına cavab vermək istəyinin azalması meyli ola bilir. Yəni bir tərəfdən tərəf müqabillərinin sayının artması və bunun nəticəsi kimi öz işgüzarlıq fəaliyyətində müqayisələrin çoxalması və nəticədə məqsədlərinə və maraqlarına cavab verən (bəzən yerli deyil, xarici) partnyorların seçilməsi, digər tərəfdən milli bazarda daha rəqabəqabiliyyətli xarici istehsalçılar tərəfindən sıxışdırılma ehtimalının artması həm investisiya qoyuluşları sahəsində, həm də innovasiyaya olan tələbatlar sahəsində dəyişkənliyə səbəb olduğundan milli iqtisadiyyatda dərin enmə və böhran hallarının baş verməməsi üçün proqressiv struktur siyasətin xarici bazara istiqamətlənməsi ilə yanaşı daxili tələbin yerli istehsal hesabına ödənilməsinin də proqnozlaşdırılması vacib sayılır. Davamlı inkişaf baxımından səmərəli hesab edilməyən xammal əsaslı ixracın dayandırılması üçün struktur dəyişikliklərin aparılmasında bilavasitə əsas kimi götürülən innovasiya prosesinin istehsal güclərinin maddi amillərinin təkmilləşdirilməsi, qeyri–istehsal sahələrinin texniki vasitələrinin inkişafı və təbiətdən istifadənin yaxşılaşdırılması istiqamətində reallaşdırlması və sənayedə islahatların aparılması ehtiyacı yaranır. Lakin Azərbaycan texnoloji cəhətdən inkişaf etmiş ölkə olmadığından bu islahatları yerli texnologiyalarla həyata keçirmək qeyri-mümkündür. Digər problem isə texnoloji innovasiyaların həyata keçməsi üçün böyük maliyyə vəsaiti tələb olunması və geniş miqyaslı modernləşdirmənin hazırki şəraitdə yalnız xarici texnologiyaların alınması ilə reallaşdırılması hesabına mümkünlüyü ilə bağlıdır. Eyni zamanda innovasiya mühütində əhəmiyyətli nailiyyətlərə çatmaq aşağıdakı səbəblərə görə hələ də problemlidir:

- müəssisələr fəaliyyətlərindən əsasən, qısa müddətli nəticələrə istiqamətlənirlər ki, bunun da nəticəsində istehsalın yenilənməsinə dair planlı hazırlığı aparmaq qeyri-mümkündür;
- marketinq tədqiqatları və əmtəələrin yeniləşməsinə dair işlərin nəticələri arasında dəqiq əlaqənin olmaması səbəbindən müəssisələr bazar tələbatının dəyişməsinə hazır deyillər;
- mövcud resrusların qeyri-səmərəli istifadəsi eləcə də, vəsaitlərin dağılmasına gətirən müəssisələrinin investisiya siyasətinin balanslaşdırılmaması;
- buraxılan məhsulun rəqabətqabiliyyətinin artırılmasının real ehtiyyatlarından istifadə edilməməsi və s[64].

---

[64] G.Z.Yüzbaşiyeva.23 Qloballaşma şəraitində Azərbaycan Respublikası sənayesinin milli iqtisadi inkişaf modelində dayanıqlı inkişafının əsas istiqamətləri. Qloballaşma mühitində milli iqtisadi inkişaf modeli: formalaşması və inkişafı problemləri. Bakı: 2010. сящ.54.

İrimiqyaslı problemləri qısa müddətdə həll etmək üçün dövlət proqressiv struktur siyasəti həyata keçirməklə sənayeni daha çox xarici texnologiyalarla yenidən təchiz olunması hesabına reallaşdıra bilərsə, uzunmuddətli dövrdə sənayenin struktur dəyişikliklərinin daha çox yerli texnologiyalar hesabına aparılmalıdır. Dünyada sənayedə aparıcı innovasiya sahələri kimi kimya və neft kimyası, yeyinti sənayesi, maşınqayırma və texnologiyalar tanınır. Xarici iqtisadi fəaliyyət istiqamətində respublikamızda aparılan təhlil isə göstərir ki, 2010-cu ildə ixracda xam neft 86,53 %, neft məhsulları 6,02 %, bitki və heyvan mənşəli yağlar 0,88%, meyvə və tərəvəz 0,73%, kimya sənayesi məhsulları 0,22% və s., idxalda isə maşın,mexanizm, elektrik aparatları,avadanlıqlar və onların hissələri 28,83%, nəqliyyat vasitələri və onların hissələri 12,07% təşkil etmişdir. Lakin pozitiv məsələlərdən biri odur ki, yenilik səviyyəsinə və iqtisadi fəaliyyət növlərinə görə innovasiya məhsulunun həcmi emal sənaye sahəsi üzrə artmaqdadır.Bunu aşağıdakı cədvəlin məlumatlarından görmək mümkündür.

**Cədvəl № 1**

**Yenilik səviyyəsinə və iqtisadi fəaliyyət növlərinə görə innovasiya məhsulunun həcmi, min manat**

| | Əhəmiyyətli dəyişikliklərə məruz qalmış və ya yeni tətbiq olmuş məhsul | | | | Təkmilləşdirilmiş məhsul | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 2007 | 2008 | 2009 | 2010 | 2007 | 2008 | 2009 | 2010 |
| Sənaye - cəmi | 826.3 | 6 842 | 730.9 | 4 384 | 399.4 | 1 715 | 68.8 | 2 029 |
| Mədənçıxarma sənayesi | 208.5 | 4 566 | - | - | - | - | - | - |
| Emal sənayesi | 617.8 | 2 276 | 730.9 | 4 384 | 399.4 | 1 715 | 68.8 | 2 029 |

Mənbə.www.azstat.ozg- 2012-ci il

Maraqlı olan faktlardan biri də odur ki, innovasiyaların tiplərinə görə sənayedə texnoloji innovasiyalara çəkilən xərclər 2010-cu ildə bütün sənaye üzrə 8, 13 mln manata, mədənçıxarma sənayesi üzrə 4.8 min manata, emal sənayesi üzrə isə 8,12 mln manata qədər artırılıb.

**Cədvəl № 2**

**Fəaliyyət növləri və tətbiqi istiqamətləri üzrə texnoloji innovasiyalara çəkilən xərclər, min manat**

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|
| **Bütün sənaye** | **53 273** | **43 875** | **49 620** | **8 020** | **4 618** | **8 139** |
| yeni məhsulların, xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsi | 853.5 | 786.5 | 3 799 | 2 528 | 855.7 | 2 551 |
| texnoloji innovasiyalar ilə əlaqədar | 1 782 | 363.5 | 40 001 | 4 525 | 2 288 | 5 053 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| maşın və avadanlığın alınması | | | | | | |
| yeni texnologiyaların alınması | 50 630 | 42 714 | 299.0 | 114.9 | 1 115 | - |
| proqram vəsaitlərinin alınması | - | - | 26.3 | 465.9 | 7.0 | - |
| yeni məhsulların buraxılışı üçün istehsal layihələşdirilməsi, digər istehsala hazırlıq növləri və ya onların istehsalı üzrə yeni xidmətlərin və ya metodların tətbiqi | 4.6 | 10.7 | 163.1 | 386.7 | 330.7 | 300.1 |
| innovasiya ilə əlaqədar işçilərin öyrədilməsi və hazırlığı | - | - | 49.1 | - | - | 95.6 |
| marketinq tədqiqatları | 0.82 | - | 0.3 | - | - | |
| texnoloji innovasiyalar | 2.02 | - | 5 283 | - | 21.6 | 140.0 |

Mənbə.www.azstat.ozg- 2012-ci il

Buna görə də xarici iqtisadi fəaliyyətin artırılmasına istiqamətlənən sənayenin struktur yenidənqurmasını təmin etməyə imkan verən dövlətin innovasiya siyasəti dünya bazarında sənaye müəssisələrinə rəqabət üstünlüklərini təmin edən texnologiyaların aşkar edilməsi və ölkəmizə gətirilərək sahə strukturlarının formalaşması istiqamətində aparılmalı, bunun üçün isə regionlarda yeni yüksək texnologiyalı sənaye müəssisələrinin elmi-tədqiqat və innovasiya fəaliyyətini təmin edən kompleks proqramlardan geniş istifadə olunmalıdır.

**İstifadə edilən ədəbiyyat**

1.Müstəqillik illərində Azərbaycanda innovasiyanın inkişafı: 20 il.AMEA Elmi innovasiyalar Mərkəzi, Bakı 2011

2.İ.Alıyev.,Y.Məmmədov .”Azərbaycan 2020: gələcəyə baxış” inkişaf konsepsiyasının nəzəri-metoloji əsasları.Bakı”Avropa” 2012.

3.Qloballaşma mühitində milli iqtisadi inkişaf modeli: formalaşması və inkişafı problemləri. Bakı: 2010

4.“Elm və innovasiya seriyası” jurnalı №3 (7) 2011.Bakı-Elm.2011

5.“Ölkə iqtisadiyyatının inkişafında elmi innovasiyanın rolu” Beynəlxalq elmi-praktiki konfransın materialları, 24-25 sentyabr 2011.Bakı-Elm.2011

# NEFT FONDUNUN VƏSAİTLƏRİNİN İSTİFADƏSİ MƏSƏLƏLƏRİ

***Dissertant Ceyhun OSMANLI***
*Azərbaycan Dövlət İqtisad Universiteti*

**Summary**

Petroleum incomes create great advantages for oil-producing countries, allowing to solve many economic problems, to stimulate economic growth, to arrange structural reorganization of economy, to solve social problems, to create financial funds for future generation etc.

But at the same time, as the worldwide experience shows that these incomes create potential threats for country's economy and their ungrounded use can lead to serious economic consequences. Therefore, rational and reasonable use of petroleum incomes is one of major problems of oil-producing countries.

One of the financial instruments supporting and stimulating the economic activity in these conditions are funds of non-renewable resources which were established in the 70s of last century and the most common of these are oil funds. In todays world there are dozens of such funds, which main purposes are the same. This is a reduction of economic dependence on resource exports, reduced inflation pressure on the economy and saving income.

There are several ways of formation and use of oil funds: stabilization funds which are formed to ensure ongoing balanced budgets in a changing external economic conjuncture; funds of future generations, focused on the accumulation and use of resources for the long term; the funds accumulating and distributing the natural rent among the population.

In practice, most of oil funds are characterized by a combination of all three or two of the above functions. However the fact of their creation doesn't solve the problems associated with oil revenues, which requires their rational use.

The article examines the possible use of the State Oil Fund of Azerbaijan Republic for financing of national projects aimed at improving the competitiveness of national economy, the financing of public investment programs, as well as the improvement of the necessary organizational mechanisms, provision of innovative economic development, the implementation of economic restructuring.

**Keywords:** Oil fund, use of means of oil fund.

Dünya ölkələrinin Azərbaycana maraqlarının formalaşmasında neft müstəsna rol oynayır. Təsadüfi deyildir ki, neft maraqları ölkənin nəinki daxili, eləcə də xarici siyasətinin prioritetlərinin müəyyənləşdirilməsində və eləcə də reallaşdırılmasında həlledici rol oynayır. Bu baxımdan, ümumən neft strategiyası müəyyənləşdirilərkən, transmilli şirkətlərlə konkret neft müqavilələri bağlanarkən ölkənin iqtisadi təhlükəsizliyi, milli iqtisadiyyatın davamlı inkişaf tələbləri nəzərə alınmalıdır. Azərbaycanın dünya iqtisadiyyatına fəal inteqrasiya olduğu müasir şəraitdə neft amili nəinki iqtisadi müstəqilliyimizin, eləcə də siyasi müstəqilliyimizin həlledici şərtinə, ümumən ölkədə sosial-iqtisadi inkişaf lokomotivinə çevrilir.

Ulu öndər H.Əliyev Azərbaycan iqtisadiyyatının gələcək inkişafı üçün neft amilinin milli iqtisadiyyatın formalaşması və inkişafındakı həlledici rolunu uzaqgörənliklə nəzərə alaraq Azərbaycanda neft strategiyasını və neft gəlirlərinin idarə edilməsinin ən effektiv modelini yaratdı. Bu modelin tərkib hissəsi kimi XX əsrin 70-ci illərinin uğurlu şəkildə tətbiq olunmağa başlamış neft hasilatında hasilatin pay bölgüsü sazişləridir (HPBS). HPBS-n layihələrinin başlanması üçün ilkin şərtlər kimi bu investisiya formasını qəbul edən ölkənin neft resurslarına malik olması, lakin həmin ölkənin kifayət qədər milli kapitala, zəruri texniki

səviyyəyə, eləcə də bu resursların sərbəst şəkildə mənimsənilməsi üçün təcrübəyə və kadrlara malik olmaması çıxış edirlər. HPBS dünyada kifayət qədər uzun müddətdir ki, uğurla tətbiq olunur və yalnız iqtisadiyyata investisiyanın cəlb olunması mexanizmi kimi deyil həm də daha geniş məqsədlərlə istifadə olunur. Onların reallaşdırılmasından birbaşa və dolayısı ilə ölkə iqtisadiyyatına göstərilən makroiqtisadi təsirlər nəzərdən qaçırılmamalıdır. HPBS rejimindən istifadə eləcə də, mineral xammalın çətin hasil olunan ehtiyatlarının, o cümlədən kifayət qədər ehtiyata malik olmayan yataqların işlənməsinə, habelə kəşfiyyatın aparılmadığı və şelfdə yerləşən yataqların işlənməsinə imkan verir.

Qeyd etmək lazımdır ki, bu gün uğurla reallaşdırılan neft strategiyası ölkədə rəqabətqabiliyyətli, yüksək səmərəli neft sektorunun yaradılmasını və Azərbaycanın dünya enerji bazarında nəzərə çarpan subyektə çevrilməsini təmin etmişdir[1].

Neft strategiyasının reallaşdırılmasınəticəsində 2000-ci ildən başlayaraq Azərbaycanın neft hasilatı və neft gəlirlərinin kəskin artımı müşahidə olunur.

**Cədvəl 1**

**Neft hasilatı (qaz kondesatı daxil olmaqla), min ton [2,3]**

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Neft hasilatı | 14017 | 14909 | 15334 | 15381 | 15549 | 22214 | 32268 | 42598 | 44514 | 50416 | 50838 | 45626 |

Bu prosesə dünya bazarında xam neftə qiymətlərin sürətli artımı nəzərən qaçırmaq olmaz.

Neft gəlirləri neft hasil edən ölkələrə böyük üstünlüklər verir ki, o da bir sıra iqtisadi problemləri, o cümlədən, iqtisadi artımı stimullaşdırmağa, iqtisadiyyatda müvafiq struktur dəyişiklikləri aparmağa, sosial problemləri həll etməyə, gələcək nəsillər üçün ehtiyat maliyyə fondlar yaratmağa imkan verir.

Bununla yanaşı dünya təcrubəsi göstərirki bu neft gəlirlərindən qeyri- effektiv istifadə və yaxud onların sərfinin prioritet istiqamətlərinin düzgün seçilməməsi son nəticədə ölkənin iqtisadiyyatı üçün potensial təhlükə yaratmaqla aqır iqtisadi nətəcələrə gətirib çıxara bilər.

Ona görədə neft gəlirlərindən səmərəli və optimal istifadə olunması neft hasil edən ölkələrin qarşısında duran ən mühüm vəzifələrdən biridir.

Belə bir şəraitdə milli iqtisadiyyatın inkişafının təmin edilməsi və bərpa olunmayan resurslara görə stimullaşdırılmasının mühüm maliyyə vasitələrindən biri ötən əsrin 70-ci illərində yaradılmağa başlamış və bu gün çox geniş yayılmış neft fondları mövcuddur

Bu gün dünyada onlarla belə fondlar mövcuddur ki, bir qayda olaraq onların əsas məqsədi milli iqtisadiyyatın xammal resurslarından asılılığını və inflyasiyanın milli iqtisadiyyatın səmərəli fəaliyyətinə və gəlirlərin yığımına təzyiqi azaltmaqdan ibarətdir.

Neft fondlarının formalaşması və istifadəsinin bir sıra üsulları vardır.

- xarici iqtisadi konyunkturanın dəyişdiyi şəraitdə büdcənin cari tarazlığını təmin etmək üçün sabitləşmə fondları yaradılır.;
- uzun müddətli perspektivə yığıma istiqamətlənmiş, gələcək nəsillərin fondu;
- əhali arasında təbii rentanın toplanmsı və bölgüsü fondları;

Təcrubədə bütün neft fondları üçün yuxarıda qeyd olunmuş 2 və 3 funksiyanın birgə tətbiqi xarakterikdir. Neft gəlirləri ilə bağlı bu fondların yaradılması özlüyündə problemi həll etmir. Burada əsas problemlər neft fondundan səmərəli istifadə ilə bağlıdı.

Milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəlməsinə, dövlət investisiya proqramlarının maliyyələşdirilməsinə, habelə, iqtisadiyyatın strukturca yenidən qurulmasının həyata keçirmək, iqtisadiyyatın innavasiyon inkişafını təmin etmək üçün zəruri təşkilati mexanizmləri təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Dövlət Neft Fondunun maliyyə vəsaitlərindən istifadənin mümkünlüyü məsələləri böyük əhəmiyyət kəsb edir.

1994-cü il sentyabrın 20-də dünyanın tanınmış neft şirkətləri ilə Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında saziş imzalandı. Sonralar "Əsrin müqaviləsi" adı ilə tanınan bu saziş Azərbaycanda yeni neft sazişlərinin imzalanması üçün geniş yol açdı. Neft strategiyasının reallaşması sayəsində Azərbaycanın enerji təhlükəsizliyi, dünya birliyində etibarlı ölkə və etibarlı tərəfdaş kimi təqdim olunması təmin olundu.

Neft strategiyasının növbəti mərhələsində ölkənin neft yataqlarının xarici şirkətlər ilə birgə işlənməsindən əldə edilən neft gəlirlərinin toplanaraq səmərəli idarə edilməsi, həmin vəsaitlərin öncül sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsi təşkil edirdi. Bu məqsədlə Heydər Əliyevin 29 dekabr 1999-cu il tarixli 240 nömrəli Fərmanı ilə Azərbaycan Respublikası Dövlət Neft Fondu təsis edilmişdir. Neft Fondunun Əsasnaməsi Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2000-ci il tarixli 434 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

Neft Fondunun fəaliyyəti ölkə qarşısındakı aşağıdakı mühüm vəzifələrin həllinə yönəldilmişdir:

1.ölkədə makroiqtisadi sabitliyin qorunması, maliyyə-vergi intizamının təmin edilməsi, neft gəlirlərindən asılılığın azaldılması və qeyri-neft sektorunun inkişafının təmin edilməsi;

2.ölkənin sosial-iqtisadi tərəqqisi naminə mühüm ümummilli layihələrin maliyyələşdirilməsi;

3.neft və qazın bərpa edilməyən təbii ehtiyat olduğunu nəzərə alaraq, onlardan əldə edilən gəlirin nəsillər arasında barəbər bölüşdürülməsi və gələcək nəsillər üçün ehtiyat vəsaitin toplanması.[4]

Neft Fondunun büdcəsinin gəlir maddələrini aşağıdakılar təşkil edir:

- Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər (karbohidrogenlərin nəql edilməsi üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri çıxılmaq şərti ilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla);
- neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə və ya səlahiyyətli dövlət orqanına sərmayəçilər tərəfindən ödənilən bonuslar (mükafatlar);
- karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar sərmayəçilər tərəfindən müqavilə sahəsindən istifadə üçün Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə və ya səlahiyyətli dövlət orqanına ödənilən akrhesabı ödənişlər;

- neft-qaz layihələrinin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının payına düşən dvidendlər və mənfəətin bölüşdürülməsindən əldə edilən gəlirlər (Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla);
- neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum ixrac boru kəmərləri vasitəsi ilə ötürülməsindən əldə edilən gəlirlər;
- neft-qaz sazişləri çərçivəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə və ya səlahiyyətli dövlət orqanına sərmayəçilər tərəfindən verilən aktivlərdən əldə edilən gəlirlər;
- qrantlar və digər təmənnasız yardımlar;
- qanunvericiliyə uyğun olaraq digər gəlirlər və daxilolmalar [5].

2011-ci ildə Dövlət Neft Fondunun gəlirlərinin formalaşma mənbələrini aşağıda cədvəldə verilən daxilomalar təşkil etmişlər.

Cədvəl 2

Azərbaycan Respublikasının Dövlət Neft Fondunun 2011-ci il üzrə gəlirləri [5]

| Gəlir mənbələri | Gəlirləri məbləği, mln manatla |
|---|---|
| Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından xalis gəlirlər | 15257,5 |
| Sahdəniz-1 fazasının icrası şərçivəsində hasil olunmuş qazın satışı üzrə müqavilə qiymətində edilmiş dəyişiklik nəticəsində yaranmış fərqdən daxilolmalar | 101,7 |
| Neft-qaz layihələrinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının BTC layihəsi üzrə payına düşən dividendlər | 66,8 |
| Karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar sərmayəçilər tərəfindən müqavilə sahəsindən istifadə üçün ödənilən akrhesabı ödənişlər | 1,4 |
| Neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər | 7,5 |
| Neft-qaz sazişlərin imzalanması və ya icrası ilə bağlı sərmayəşilər tərəfindən Dövlət Neft Fonduna ödənilən bonuslar | 15,7 |
| Dövlət Neft Fondunun vəsaitlərinin idarə olunmasından əldə edilən gılirlər | 176,4 |
| Digər gəlirlər və daxilolmalar | 1,4 |
| Cəmi gəlirlər | 15628,4 |

Ölkəmizin mövcud neft-qaz ehtiyatlarının nisbətən qısa müddətdə tükənmə ehtimalı [7] və bunula əlaqədar neft gəlirlərinin azalmasını nəzərə almaqla müəllif tərəfindən işlənilən ekonometrik model əsasında Neft Fondunun vəsailərindən istifadə imkanları araşdırılmışdır. Modeldə ÜDM-in proqnoz ssenarilərindən istifadə olunmuş, Azərbayan iqtisadiyyatının struktur xüsusiyyətlərini nəzərə alaraq büdcə gəlirlərinin formalaşmasında sərbəst dəyişənlər qismində neft ÜDM və qeyri-neft ÜDM müəyyən olunmuşdur.

Neft ÜDM-in modelləşdirilməsində əsas determinantlar olaraq neft hasilatı (mln. tonla) və neftin dünya bazarı qiyməti (dollar/barrellə) seçilmiş, qeyri-neft sektorunda ÜDM-in proqnoz ssenariləri isə hipotetik stabil artım ssenariləri şəklində qurulmuşdur.

Neft ÜDM-in proqnoz ssenarilərinin qurulmasında neftin dünya bazarı qiymətinin hipotetik inkişaf ssenarilərindən istifadə olunmuşdur. Pessimist ssenari üçün neft qiyməti 50 dollar/barrel, orta hal ssenarisi üçün 75 dollar/barrel, optimist ssenari üçün isə 90 dollar/barrel müəyyən olunmuşdur.

Qeyri-neft sektorunda buraxılışın həcminin (bazar dəyərilə) proqnozlaşdırılması üçün qurulan ssenarilərdə sektor üzrə artım tempi əsas götürülmüş, pessimist ssenaridə bu artım 5%, orta hal ssenarisində 7%, optimist ssenaridə isə 9% müəyyən olunmuşdur. Beləliklə, neft qiymətləri və qeyri-neft sektorunun artım tempinin müxtəlif kombinasiyalarından 9 proqnoz ssenarisi hazırlanmışdır.

Model hesablamalarından göründüyü kimi proqnoz dövrünün ilk illərində (neft pikinə qədər) büdcə gəlirlərinin formalaşmasında neft qiyməti əhəmiyyətli təsirə malik olduğu halda, sonrakı (neft pikindən sonra) dövrdə qeyri-neft sektorunun artım tempi həlledici rol oynayır. Əslində, bu nəticə məntiqi baxımdan tam gözlənilən haldır. Belə ki, neft sektoru qeyri-neft sektoru ilə müqayisədə daha böük olduğundan və neft pikinə qədər daha sürətlə genişlənəcəyindən büdcə gəlirlərinin formalaşmasında həlledici rol oynayacaq. Pik ilindən sonra isə əksinə, neft sektoru daralacağından büdcənin maliyyələşməsi birbaşa olaraq həmin dövrə qədər və ondan sonra qeyri-neft sektorunun hansı sürətlə böyüyəcəyindən asılı olacaq.

Alınan nəticələr onu deməyə əsas verir ki, neft pikindən sonrakı dövrdə neft sektorunun daralması nəticəsində büdcənin bu sektordan gələn azalan gəlirlərinin yerinin doldurulması və maliyyələşmə probleminin yaranmaması üçün qeyri-neft sektorunun davamlı və yüksək artım tempinin uzunmüddətli dövr üçün təmin olunması vacibdir. Yalnız belə olan halda büdcə maliyyələşmə problemilə üzləşmiş olmaz, eyni zamanda Neft Fondu vəsaitlərinin bir hissəsi büdcənin maliyyələşdirilməsinə yox, iqtisadiyyat üçün vacib əhəmiyyət daşıyan iri layihələrin maliyyələdirilməsinə yönəldilə bilər.

Neft hasilatının aşağı düşməsi ilə əlaqədar ÜDM-də neft sektorundan boşalan yerlərin doldurulması, davamlı iqtisadi artımın təmin olunması, eyni zamanda uzunmüddətli dövrdə büdcənin maliyyələşmə problemilə üzləşməsi ehtimalının minimuma endirilməsi məqsədilə bir sıra iqtisadi, hüquqi və institutsional tədbirlərin həyata keçirilməsi vacibdir:

1.İqtisadiyyatın orta və uzunmüddətli inkişaf strategiyalarının müəyyənləşdirilməsi**.** Hazırlanmalı olan orta müddətli strategiya yaxın 8-10 ili əhatə etməklə neft sektorunun daralmağa başladığı dövrdə tədricən ÜDM-də neft sektorundan boşalan yerləri tutmalı və ümumilikdə, iqtisadiyyatda daralmanın qarşısını almalıdır. Bu mərhələ neft iqtisadiyyatından neftsiz iqtisadiyyata keçidin birinci – aralıq mərhələsi olmalıdır. Orta müddətli strategiyanın əsas məqsədi neftsiz iqtisadiyyata keçidi minimal itkilərlə həyata keçirmək olmalıdır. Bu məqsədlə ilk növbətə iqtisadiyyatda bu funksiyanı yerinə yetirə biləcək uyğun sektor və ya sektorlar seçilməli və konkret hədəfə yönəlmiş inkişaf proqramı hazırlanmalı, və bunların maliyyələşdirilməsində Neft Fondunun vəsaitlərindən istifadə edilməsi məqsədə uyğun olardı. Uzunmüddətli inkişaf strategiyası isə 25-30 illik bir dövrü əhatə etməli və Azərbaycan iqtisadiyyatının 30 il sonrakı struktur xüsusiyyətlərini və beynəlxalq iqtisadiyyatda mövqeyini konkret hədəflərlə müəyyənləşdirməyə yönəlməlidir.

2. Büdcə xərclərinin artım tempi və Neft Fondundan büdcəyə vəsaitlərin köçürülməsi üçün konkret bir çərçivənin müəyyənləşdirilməsi. Bu çərçivə hüquqi sənəd olmaqla müəyyən olunmuş zaman ərzində Neft Fondundan büdcəyə köçürmələri məhdudlaşdırmalıdır. Çərçivədə eyni zamanda, yuxarıda qeyd edildiyi kimi büdcə xərclərinin artım tempi üzərində konkret bir məhdudiyyətin müəyyənləşdirilməsi vacibdir (böhran dövrləri istisna hal kimi qeyd olunmaqla). Məsələn, bunun üçün büdcə xərclərinin artım tempi ümumi büdcə gəlirlərinin artım tempi əsasında yox, büdcəyə qeyri-neft sektorundan daxilolmaların artım tempi əsasında müəyyənləşdirilə və ya ona uyğunlaşdırıla bilər.

**Ədəbiyyat**

1.Hacıyev Ş.H. "H.Əliyev iqtisadi inkişaf strategiyasının təntənəsi", Bakı, 2008, s.10
2. Azərbaycanın enerji balansı. Statistik məcmuə. AR DSK, Bakı 2011, s.160
3. Azərbaycanın energetikası. Statistik məcmuə. AR DSK, Bakı 2012, s.56
4. http://www.oilfund.az/az_AZ/about_found/meqsed-ve-felsefe.asp. Azərbaycan Respublikasının Dövlət Neft Fondunun veb-saytı
5. http://www.oilfund.az/uploads/esas.pdf. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 434 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında əsasnamə". Azərbaycan Respublikasının Dövlət Neft Fondunun veb-saytı
6. http://www.oilfund.az/uploads/annual_2011az.pdf. Azərbaycan Respublikasının Dövlət Neft Fondunun veb-saytı
7.http://www.oilfund.az/uploads/5-UZUN.pdf. Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2004-cü il tarixli 128 nömrəli Fərmanı ilə təsdiq edilmişdir "Neft və qaz gəlirlərinin idarə olunmasi üzrə uzunmüddətli strategiya." Azərbaycan Respublikasının Dövlət Neft Fondunun veb-saytı

# DÖVLƏT KREDİTİNİN İDARƏ OLUNMA MEXANİZMLƏRİNİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI İSTİQAMƏTLƏRİ

***Doktorant Elnurə QOCAYEVA***
*Azərbaycan Dövlət İqtisad Universiteti, elnura_q@mail.ru*

Həyata keçirilən istənilən fəaliyyət müəyyən məqsədlərə xidmət edir, bu baxımdan dövlət kreditinin idarə edilməsinin də özünəməxsus məqsədləri, icra etdiyi vəzifələri vardır. Məhz elə bu məqsəd dövlət borclarının idarə edilməsi mexanizmlərini zəruri edir. Belə ki, dövlətin müəyyən müddət ərzində qarşılaşdığı pul vəsaitləri qıtlığını səmərəli şəkildə aradan qaldırması tədbirləri sözü gedən fəaliyyətdə formalaşan əsas məqsədi özündə əks etdirir.

Dövlət kreditinin idarə edilməsində dövlətin həyata keçirəcəyi başlıca məqsədi onun səmərəliliyini artırmaqdan ibarət olmaqla yanaşı eyni zamanda dövlətin borclu kimi, həm də yeni yaranan borcları, ötən illərdə alınmış və geri qaytarılmayan borcları da əhatə edir.

Dövlət kreditinin idarə edilməsi mexanizmləri ilk öncə meydana çıxan sərbəst vəsait qıtlığının aradan qaldırılması üçün uyğun maliyyə mənbəyinin tapılmasından başlanır. Daha sonra isə cəlb edilməsi və bu vəsaitlərin səmərəli şəkildə istifadəsi, onların qaytarılması məqsədilə pul fondlarının səfərbər edilməsi , eləcə də bu istiqamətdə görüləcək tədbirlərin təşkili və son nəticədə alınmış borc vəsaitlərinin qaytarılmasından ibarət tədbirlər kompleksi həyata keçirilir.

Dövlət krediti, borc vəsaitlərini əsas etibarilə qiymətli kağızların yerləşdirilməsi və ya müxtəlif xarici maliyyə - kredit insitutlarından kredit alması yolu ilə əldə edə bilər. Dövlət borcunun tərkibinə aiddir: dövlət tərəfindən buraxılan qiymətli kağızlar üzrə borc; müxtəlif xarici və daxili maliyyə-kredit insitutları ilə dövlətin bağladığı müqavilələr üzrə yaranan borc; dövlət təminatlı kredit müqavilələri üzrə yarana biləcək borclar; müxtəlif hüquqi şəxslərin borcunun dövlət borcu kimi formalaşmasından yaranan borclar və dövlətin borc öhdəliklərinin vaxtının uzadılmasından yaranan borclar.

Dövlət kreditinin səmərəlilik göstəricisi baxımından daxili dövlət borcları xarici borclara nisbətən daha əlverişli hesab olunur.

Daxili dövlət borcu ölkənin ümumi dövlət borclarının coğrafi komponenti olaraq dövlətin rezident subyektlər qarşısında olan bütün maliyyə öhdəliklərinin məcmusunu təşkil edir. Bunu nəzərə alsaq, daxili dövlət borcları dövlətin məqsədli borc siyasətinin və ya digər iqtisadi münasibətlərin nəticəsi olaraq qeyri –kredit borcları kimi də yarana bilər.[65] Beləliklə, daxili dövlət borcunu zəruri edən amillər əsas etibarilə dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsi; xəzinənin kassa icrasının təmin edilməsi; əvvəlki dövlət borclarının maliyyələşdirilməsi və s.-lərdir. Daxili dövlət borcları aktiv iqtisadi tənzimləmə alətlərinə aid edilir,buna görə də , həm fiskal, həm də monetar tənzimləmədə daxili dövlət borcu alətlərindən geniş şəkildə bəhrələnmək imkanına malik olur.

Daxili dövlət borclarının xarici borclardan fərqlənməsinin əsas əlamətlərindən biri kimi faiz dərəcələri çıxış edir. Adətən daxili borclar qısa müddəti əhatə etdiyi üçün ödənilən faiz

---

[65] "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının qanunu 2007

dərəcələri nisbətən aşağı səviyyədə olur. Bunun digər bir səbəbi isə maliyyə alətlərinin, yəni dövlət qiymətli kağızlarının yüksək etibara malik olmasından irəli gəlir.

Xarici borc öhdəlikləri, beynəlxalq təşkilatlar, xarici dövlətlər, habelə onların hüquqi və fiziki şəxslərinin verdikləri kreditlər əsasında formalaşdığı üçün, bu kreditlər ölkənin ümumi iqtisadi durumuna fəal təsir göstərir. Buna baxmayaraq, xarici borc öhdəlikləri bir tərəfdən ölkə iqtisadiyyatında əsaslı inkişafa səbəb olduğu kimi, digər tərəfdən isə vaxtında qaytarılmayan xarici borclar dövlətin iqtisadi durumunu ağır vəziyyətə sala bilər. Eləcə də alınan xarici borcların həcminin nəzarətdə saxlanılması mühüm faktordur. Çünki, əks halda alınan borcların həcmi artdıqca ölkənin xarici dövlətlərdən, onların iqtisadiyyatında baş verən qiymət dəyişikliklərindən asılılığı güclənir.

İnkişaf etmiş ölkələrdə dövlət borclarının idarə olunması ilə bir neçə orqan məşğul olur. ABŞ-da bu vəzifəni Maliyyə Nazirliyinin tərkibinə daxil olan dövlət borcunun idarə olunması üzrə xüsusi şöbə həyata keçirir. Almaniyada isə borclara nəzarəti Federal Dövlət Borcu İdarəsi icra edir.

Azərbaycanda isə bu proseslə müvafiq icra hakimiyyəti orqanları öz səlahiyyətləri çərçivəsində qanunla müəyyən edilmiş qaydalarla bilavasitə məşğul olurlar. Bu prosesdə aşağıdakı funksiyalar ardıcıl surətdə yerinə yetirilir: İlk öncə dövlət borcalmalarının strategiyası hazırlanır; borc öhdəliyinin şərtləri, maliyyə bazarlarından vəsaitlərin cəlb edilməsi imkanları qiymətləndirilir. Eyni zamanda bu borcların strukturunun təkmilləşdirilməsi sahəsində zəruri tədbirlərin görülməsi də qanunla müəyyən olunmuş qaydalar əsasında həyata keçirilir; dövlət borcunun təkrar maliyyələşdirilməsi əməliyyatları aparılır; bütün bu dövlət borcu və dövlət zəmanəti ilə bağlı aparılan proseslərin qanunvericiliklə müəyyən edilmiş qaydada icrasının şəffaflığı təmin edilir.[66]

Dövlət kreditinin idarə edilməsi bir qrup tədbirlər məcmusundan, müxtəlif mexanizmlərdən ibarətdir. Bu tədbirlər və həyata keçirilən mexanizmlər dövlət borcu münasibətlərinin mərhələləri ilə bilavasitə bağlıdır.

Dövlət kreditinin idarə edilməsi prosesində həyata keçirilən növbəti vəzifə cəlb edilmiş vəsaitlərin səmərəli qaydada istifadəsini təmin etməkdən ibarətdir. Belə ki, ümumilikdə nəzərdə tutulan dövlət borcu münasibətlərinin nəticəsi məhz bu amillərin formalaşması ilə bağlıdır. Dövlət borcu vəsaitlərinin səmərəli şəkildə istifadə olunmasının təşkili bu münasibətlərdə iştirak edən subyektlərin müxtəlifliyindən asılıdır.

Kredit vəsaitlərinin ödənilməsi üçün pul fondlarının səfərbər edilməsi dövlət borcunun idarə edilməsi prosesində növbəti və özünəməxsus yeri olan vəzifələrdən biridir. Qeyd etdiyimiz mərhələ borc vəsaitlərinin istifadə edilməsi səviyyəsi ilə sıx şəkildə bağlıdır. Pul fondlarının səfərbər edilməsi idarəetmənin sonrakı mərhələsinə, yəni dövlət kreditinin ödənilməsinə xidmət edir. Bu proses dövlətin borc münasibətlərinin müxtəlifliyindən asılı olaraq dəyişir.

Dövlət kreditinin idarə edilməsi prosesinin sonuncu mərhələsini borc vəsaitlərinin qaytarılması metodu təşkil edir. Borc vəsaitlərinin ödənilməsi (qaytarılması) mərhələsinin nəticəsi ümumilikdə borc münasibətinin yekunlaşması deməkdir. Borc vəsaitinin vaxtında

---

[66] H.X.Əsədov, S.T.Talıbov "Dövlət xərclərinin idarə edilməsi və xəzinədarlığın təşkili problemləri" Bakı-2005

qaytarılması kredit münasibətlərinin əsas şərtlərindən biri olmaqla yanaşı eyni zamanda iqtisadi baxımdan böyük səmərə daşıyır.

Dövlət kreditinin ödənişinin idarə edilməsi bilavasitə digər mərhələlərin nəticəsi ilə sıx əlaqədardır. Vəsaitlərin istifadəsi mərhələsini buna misal olaraq göstərə bilərik. Belə ki, borcların vaxtlı vaxtında və tam həcmdə ödənilməsi onların səmərəli şəkildə istifadə olunması konsepsiyasından birbaşa asılıdır.

Bütövlükdə dövlət borcu münasibətlərinin səmərəliliyi ayrı-ayrılıqda qeyd edilən bütün bu mərhələlərin hər biri ilə sıx bağlıdır. Nəticə etibarilə belə qərara gəlmək olar ki, dövlət borclarının idarə edilməsi eyni zamanda bu fazaların ayrı-ayrılıqda idarə edilməsi deməkdir.

Borcların idarə edilməsi dövlətin borc siyasətinin tərkib hissəsi olduğuna görə mövcud formalaşmış prinsiplərə tabe olmalıdır. Ümumiyyətlə, bu prinsiplərin mövcudluğu onun səmərəliliyi baxımından böyük əhəmiyyətə malikdir.

Fikrimizcə, dövlət borclarının idarə olunma mexanizmlərinin səmərəliliyinin artırılması sahəsində həyata keçirilməsinə ehtiyac duyulan əsas məqsədlər dövlətin borc strukturunun yaxşılaşdırılması, alınan kreditlərin həcminin azaldılmasına səy göstərilməsi, eyni zamanda bu borcların xidmət xərclərinin azaldılmasından ibarət olmalıdır.

Dövlət kreditinin həddən çox artdığı və büdcədə kəsirin yüksəldiyi bir şəraitdə hökümət borc öhdəliyinin ləğv edilməsi sövdələşməsinə əsaslanaraq onların başqa borc öhdəliyi ilə əvəz edilməsini təmin edə bilər. Bu halda borc öhdəliyinə xidmətin və onun ödənilməsinin yeni şərtləri nəzərdə tutulur. Bu proses əsasən dövlətin xarici borcları üzrə ödənişlər həyata keçirildiyi zaman tətbiq edilir.[67]

---

[67] Ağayev A. "Dövlət borcu və onun idarə edilməsi" Bakı-2002

# AVRASİYA SOSİAL ELMLƏR FORUMU
# (18-21 Oktyabr 2012, Bakı)
# Yekun Bəyannamə

Türk Dünyasının dörd böyük universitetinin (Azərbaycan Dövlət İqtisad Universiteti, Hacettepe Universiteti, Qırğızıstan-Türkiyə MANAS Universiteti, Qazaxıstan Ahmet Yesevi Universiteti) təşkilatçılığı və Azərbaycan Dövlət İqtisad Universitetinin yardımı və ev sahibliyi ilə keçirilən Avrasiya Sosial Elmlər Forumunun ilk toplantısında aşağıdakı məsələlərin əhəmiyyəti vurğulanmışdır.

Forumda ölkələrin milli/kolektiv varlıqlarının/zənginliklərinin qeydsiz şərtsiz bazar qüvvələrinə təslim edilməməsi məsələsində fikir birliyinə varılmışdır. Dövlətlərin və hökumətlərin bazar fəaliyyəti üzərində qoruyucu iqtidarlarının əhəmiyyəti vurğulanmışdır. Qloballaşmanın təklif etdiyi imkanlarla yanaşı, yaratdığı problemlərin də olduğu həqiqəti iştirakçılar tərəfindən müxtəlif elmi məruzələrdə göstərilmişdir. Bu istiqamətdə təşəbbüs azadlığı prinsipini sosial məsuliyyətlilik düşüncəsi ilə birləşdirən, həmrəylikçi, yenilikçi, ədalətli bir sosial bazarın əhəmiyyəti ilə bağlı fikir birliyinə varılmışdır.

Qadınların sosial həyatda iştirakının əhəmiyyəti ilə bağlı fikir birliyinə varıldığı Forumda böhranların qadın məşğulluğu üzərindəki təsirlərindən beynəlxalq gender rejimlərinə qədər geniş bir sahədə qadın problemləri müzakirəyə çıxarılmışdır. Peşə həyatında qadınların önündəki maneələrin ortadan qaldırılması, bərabər işə bərabər əmək haqqının təmin edilməsi, pozitiv ayrı-seçkilik, güclü qadın liderlərin profilləri məsələləri müzakirə edilmişdir. Türk Dünyasında ənənəvi olaraq yüksək mövqedə olan qadınların ictimai statuslarının kapitalist istehsal münasibətlərinin geniş yayıldığı proseslərdə də qorunması və yüksəldilməsi zəruriliyi məsələsində fikir birliyinə varılmışdır.

Forumda rəqabət siyasətləri də müzakirəyə çıxarılmışdır. Rəqabət siyasətlərinin yalnız firmalar arasındakı münasibətlərlə məhdud olmadığı, rəqabəti tənzimləyən qurumların səlahiyyətlərinin rəqabət şərtlərini əhatə edəcək şəkildə artırılması vurğulanmışdır. Digər tərəfdən rəqabət siyasətlərinin, yalnız məhsuldarlığı yüksəltməyi deyil, eyni zamanda rəqib şirkət siyasətlərinin bu şirkətlərin fəaliyyət göstəridkləri cəmiyyətin bütövlüyünə və diriliyinə uyğunlaşmalarını təmin edəcək formada strukturlaşdırılmasını hədəfləməsi kimi qəbul edilmişdir.

Forum boyunca Türk Dünyasını təşkil edən toplumlar arasında – hökumət siyasətlərindən müstəqil şəkildə - bir mədəniyyət siyasətinin həyati əhəmiyyəti üzərində parallel fikirlər ifadə edilmişdir. Bütün Türklərin ortaq bir əlifba və kəlimə bazası əsasında reallaşdıracaqları qeyri-məhdud ünsiyyət ortaq bir hədəf kimi irəli sürülmüşdür. Türk Dünyasını maraqlandıran xəbərlərin Türk qurumları tərəfindən bu dünyaya yayılması sahəsində də fikir birliyinə varılmışdır. Gələcəkdə Türk toplumları arasında inkişaf etməsi gözlənilən əməkdaşlığın indidən düşünülməsi, hər ölkənin bir-birini tamamlayacaq formada istehsal və istehlak siyasətləri formalaşdırması düşüncəsi də Forum boyunca dilə gətirilən fikirlər arasındadır. Forum Türk Dünyasını təşkil edən ölkələrdəki elm adamlarının qarşılıqlı əlaqələrini gücləndirmənin önəmini vurğulamaqla, başa çatmışdır.

# AVRASYA SOSYAL BİLİMLER FORUMU
# (18–21 Ekim 2012, Bakü)
# Sonuç Bildirgesi

Türk Dünyasından dört büyük üniversitenin (Azerbaycan Devlet İktisat Üniversitesi, Hacettepe Üniversitesi, Kırgızistan-Türkiye MANAS Üniversitesi ve Kazakistan Ahmet Yesevi Üniversitesi) katılımı ve Azerbaycan Devlet İktisat Üniversitesi'nin katkılarıyla gerçekleştirilen Avrasya Sosyal Bilimler Forumu'nun ilk toplantısında aşağıdaki hususların önemine değinilmiştir.

Forum esnasında ülkelerin milli/kolektif varlıklarının/zenginliklerinin piyasa güçlerine koşulsuz olarak teslim edilmemesi hususunda mutabakat sağlanmıştır. Devletlerin ve hükümetlerin piyasa faaliyeti üzerinde gözetici iktidarlarının önemi vurgulanmıştır. Küreselleşmenin sunduğu imkânlar kadar yarattığı sıkıntılar olduğu gerçeği katılımcılar tarafından çeşitli tebliğler altında değerlendirilmiştir. Bu kapsamda girişim serbestîsi prensibini sosyal sorumluluk düşüncesiyle birleştiren, dayanışmacı, yenilikçi, adaletçi bir sosyal piyasanın önemi üzerinde geniş bir mutabakat sağlanmıştır.

Kadınların sosyal hayata katılımının önemi hususunda görüş birliğine varılan forumda krizlerin kadın istihdamı üzerindeki etkilerinden uluslararası toplumsal cinsiyet rejimlerine kadar geniş bir alanda kadın sorunları gündeme getirilmiştir. Meslek hayatında kadınların önündeki engellerin kaldırılması, eşit işe eşit ücret sağlanması, pozitif ayrımcılık, güçlü kadın liderlerin profilleri hususları ele alınmıştır. Türk Dünyasında geleneksel olarak yüksek konumda bulunan kadınların toplumsal yerlerinin kapitalist üretim ilişkilerinin yaygınlaşıp yoğunlaştığı süreçlerde de korunması ve yükseltilmesi gerekliliği konusunda görüş birliğine varılmıştır.

Rekabet politikaları oturumun ikinci gününde ele alınmıştır. Rekabet politikalarının yalnızca işletmeler arasındaki münasebetle sınırlı olmadığı, rekabeti düzenlemesi beklenen kuruluşların yetkilerinin rekabet koşullarına uzanacak şekilde artırılması gerekliliği vurgulanmıştır. Diğer yandan rekabet politikalarının, yalnızca verimliliği yükseltmeyi değil aynı zamanda rakip şirket politikalarının, bu şirketlerin içinde yer aldıkları toplumun bütünlük ve dirliğine uymalarını sağlayacak şekilde biçimlendirilmesini hedeflemesi konusunda anlaşılmıştır.

Toplantı boyunca Türk Dünyasını oluşturan toplumlar arasında –hükümet politikalarından bağımsız- bir kültür politikasının hayati önemi üzerine paralel görüşler ifade edilmiştir. Bütün Türklerin ortak bir alfabe ve kelime dağarcığı üzerinden geliştirecekleri sınırsız iletişim ortak bir hedef olarak sunulmuştur. Türk Dünyasını ilgilendiren haberlerin Türk kuruluşları tarafından bu dünyaya yayılması konusunda da görüş birliği bulunmaktadır. Gelecekte Türk toplumları arasında gelişmesi beklenen işbirliğinin şimdiden düşünülmesi, her ülkenin birbirini tamamlayacak şekilde üretim ve tüketim politikaları oluşturması düşüncesi de toplantı boyunca dillendirilen fikirler arasındadır. Toplantı Türk dünyasını oluşturan ülkelerdeki bilim adamlarının karşılıklı bağlarını güçlendirmenin önemini vurgulayarak sonlandırılmıştır.

# EURASIAN FORUM ON SOCIAL SCIENCES

## (18-21 October, 2012, Baku)

## Final Declaration

The importance of below mentioned issues were emphasized at the first meeting of Eurasian forum on social sciences held by help and home ownership of Azerbaijan State Economic University and under organization of four main universities of Turkish world (Azerbaijan State Economic University, Hacattepe University, Kyrgyzstan-Turkey Manas University and AhmetYesevi University).

In forum the consensus was reached on the issues of not to submit national/collective assets/wealth of the states to the market forces without reserve. The importance of protective power over market work of states and governments was highlighted. Besides the opportunities provided by globalization, also the problems posed by it were shown by participants at different scientific lectures. In this regard, the consensus over the importance of solidary, innovative, fair social market which connects the principle of freedom initiative with the idea of social responsibility was reached.

The forum, where the importance of women's participation in social life was consented, also discussed wide range women problems beginning from the impact of crisis over women employment until international gender regimes. The issues like elimination of barriers at professional life of women, equal pay for equal work, ensuring positive discrimination, strong women leaders' profiles were discussed. As the social status of women is traditionally in a high position in Turkish World, the consensus over the necessity of protection and improvement of them in the processes where capitalist relations are widespread was reached.

Competition policy was also discussed in forum. It was mentioned that competition policies were not limited to relationships among companies, but also the authorities of regulatory organizations should be increased in way covering competitive conditions. On the other hand, competition policies should not only increase productivity but they should also target rival companies to structure their policies in such a form which will adapt to the integrity and vivacity of society where they operate.

Parallel ideas were expressed about vital importance of one cultural policy-free from government policies-among communities of Turkish World throughout Forum. An unlimited communication was put forward as a common goal which will be realized on the basis of the common alphabet and phrase of the Turks. The consensus over dissemination the news concerning Turkish world through Turkish organizations was reached. Ideas like considering cooperation which will be developed in the future among Turkish communities, the concept of formation of production and consumption policy of every country in a way that will complement one another were among discussed issues. Forum was completed by emphasizing strengthening the importance of bilateral relations of scientist in Turkic World Countries.

## FORUMDAN ŞƏKİLLƏR / PHOTOS FROM THE FORUM





















EURASIAN
FORUM ON SOCIAL SCIENCES










ŞƏHİDLƏR
XİYABANI





**Çapa imzalanıb: 10. 01.2013. Kağız formatı: 60x84 1/8**
**Həcmi: 42,25 ç.v. Sifariş: 08, Sayı: 300**
**---------------------------------------------------------------------------**
**“İqtisad Universiteti” nəşriyyatı,**
**AZ1001, Bakı, İstiqlaliyyət küçəsi, 6**
**---------------------------------------------------------------------------**